KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI

MƏHƏMMƏD

FÜZULİ



Əsərləri

MƏHƏMMƏD FÜZULİ

ƏSƏRLƏRİ

ALTI CİLDDƏ

III CİLD

“ŞƏRQ-QƏRB”
BAKI–2005

*Bu kitab "**Məhəmməd Füzuli.** Əsərləri. Altı cilddə. III cild"* (*Bakı, Azərbaycan nəşriyyatı, 1996*) *nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Həmid Araslı**

Redaktoru: **Teymur Kərimli**

894.3611 - dc 21
AZE
Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 472 səh.

Azərbaycan şerinin ölməz nümunələrini yaradaraq türk dilinin nəyə qadir olduğunu göstərən, beləcə tarix içində mənəvi mənliyimizə – dilimizin, mənəviyyatımızın əbədi və canlı heykəlinə çevrilən Füzuli eyni zamanda ərəb və fars dillərinə biganə qalmamış, bu dillərdə də ərəb, fars şairlərinin yaratdığı nümunələr səviyyəsində dayanan müxtəlif janrlı əsərlər meydana gətirmişdir. Ana dilində bağladığı "Divan" həcmində həmçinin farsca "Divan" yazan şair özünün qəlb aləmindən xəbər verən bu lirik şeirlərdə də oxucusunu bədii sözün qüdrətilə sehrləyib düşünməyə, öz mənliyini, varlıq aləmini, həyat gözəlliklərini dərk etməyə çağırır. Xalq hikməti və xalq zəkasının qüdrətilə aşılanmış bu son dərəcə bədii, səmimi, misilsiz könül nəğmələrini oxuyan və ya dinləyən hər kəs ürəyində bir saflıq, xeyirxahlıq, həyata məhəbbət, insana ehtiram duyğularının qüvvətləndiyini hiss edir. Burada aşiq Füzuli ilə mütəfəkkir Füzuli yenə bir vəhdət halındadır. Böyük fikirlər burada yenə Füzulinin aşiqanə deyilmiş sözlərindədir...

ISBN 9952-418-59-8

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

FÜZULİNİN FARSCA "DİVAN"I HAQQINDA

Azərbaycan şerinin ölməz nümunələrini yaradan Füzuli ana dilini dərin bir məhəbbətlə sevərək, bu dildə gözəl əsərlər yaratmağı özünə şərəf hesab etməklə bərabər, eyni zamanda ərəb və fars dillərinə də biganə qalmamış, bu dillərdə də ərəb və fars şairlərinin yaratdığı nümunələr səviyyəsində duran müxtəlif janrlarda əsərlər meydana gətirmişdir. Məhz buna görədir ki, o, fars "Divan"ında özünün üç dildə yazmasını iftixarla qeyd edir və göstərir ki:

Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə,
Onda min zövq artıran hər dürlü nemət düzmüşəm.
Süfrəmə hər bir qonaq gəlsə, xəcalət çəkmərəm;
Fərqi yox, ya türk gəlsin, ya ərəb, yaxud əcəm.
Kim gəlir gəlsin, aparsın hər nə istər xatiri,
Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm.

Füzuli ana dilində yazdığı "Divan" həcmində fars dilində də "Divan" yaratmışdır. Şairin məşhur əsərlərində irəli sürülən mütərəqqi fikirlər, onun humanizmi, orta əsr istibdadına, feodal zülmünə, geriliyə qarşı etirazları bu lirik şeirlərdə də çox aydın bir dil ilə ifadə olunmuşdur.

Füzulinin fars dilində yazılmış qəzəlləri içərisində də məhəbbət mövzusu mühüm yer tutur. Belə şeirlərdə qəzəl janrının tələbləri əsasında hərəkət etməli olan şair əsasən insana olan məhəbbəti, real həqiqi insan məhəbbətini tərənnüm edir və yeri gəldikcə beytlərarası öz dövrünün ictimai-siyasi hadisələrinə qarşı münasibətini də bildirir.

Lakin Füzulinin məhəbbətini sadəcə adi məhəbbət adlandırmaq olmaz. Ana dilində yazdığı qəzəllərdə olduğu kimi, burada da şairin məhəbbət anlayışı çox genişdir və onun bütün mənəvi aləmini ifadə edən əsas amildir. Füzuli gözəlliyə, ayrı-ayrı gözəllərə, dosta, yoldaşa, ailəyə, təbiət gözəlliklərinə, ilahiyyata – hər şeyə məhəbbət ibarələrilə müraciət edir, öz səmimi duyğularını aşiq dililə ifadəyə çalışır.

Könlünü "al geyən dilbərlərə" bağlamış olan Füzuli sərv qamətli, lalə yanaqlı, xumar gözlü, qönçə dodaqlı gözəllərin təsvirinə həsr etdiyi farsca qəzəllərində də ayrılıqdan, həsrətdən, vüsalın şirinliyindən danışır, eyni zamanda bütün ictimai hadisələrə qarşı münasibətini ifadə eyməyə də imkan tapır. İnsan gözəlliyini, gözəlliyin müxtəlif cilvələrini dərindən müşahidə

edib, onu böyük bir məhəbbətlə qələmə alan şairin əsərlərində dərin bir kədər və iztirab da duyulur:

İki hörük arasında üzün qiyamət edər,
İki gecə arasında günəş iqamət edər.
Könül qoşa ləbinə canımı demiş qurban,
İki əzizə bu bir can necə kifayət edər?
Nə vəsli oldu müyəssər, nə əhdə etdi vəfa,
O gül yenə "bədbin" – deyə məlamət edər.

Bu misralarla başlanan şeirdə, gördüyümüz kimi, sevgilisinin gözəlliyini orijinal ifadələrlə təsvir edən sənətkar çox zaman göz yaşından, ah-nalədən bəhs edir, bəzən də kədərli misralarla bu iztirablı aləmin dərdlərindən şikayətlənir. Bu kədər, hər şeydən əvvəl, şairin yaşadığı mühitdən aldığı təəssüratdan, keçirdiyi iztirablardan doğur.

Füzuli bu "Divan"ın müqəddiməsində yaşadığı ölkənin vəziyyətini təsvir edərkən yazır ki: "Doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və sakinlərinin şüursuzluğu üzündən xərabə qalmış bir ölkədir. Bura elə bir bostandır ki, xuraman sərvləri səmum küləyinin qasırğalarıdır, açılmamış qönçələri məzlum şəhid qəbirlərinin qübbələridir. Bura bir zövq məclisidir ki, şərabı parçalanmış ciyərlərin qanı, nəğmələri avara qəriblərin nalələridir. Nə möhnət artıran səhrasında rahatlıq nəsimi əsmiş, nə də bəlalarla dolu çölündə tozları (dərd tozlarını) yatıra biləcək ümid buludu görünmüşdür. Belə bir əziyyət bağçasında könül qönçəsi necə açılar və can bülbülü nə oxuya bilər".

Aydındır ki, şair rahatlıq bilməyən bir ölkədə, şadlıq və firavan həyat olmayan bir yerdə əsir kimi yaşadığı zaman kədərlənməyə bilməzdi. Bu kədər böyük vətəndaşlıq kədəridir ki, dahi sənətkarın bütün əsərlərində aydın şəkildə öz ifadəsini tapır. Şair hətta rahatlığı olmayan, şadlığa həsrət qalan belə bir torpaqda əsir kimi yaşayanların hünər haqqında düşünmələrini cəsarət hesab edir. Məhz buna görədir ki, onun əsərlərində kədər özünü hər zaman göstərir.

Füzulinin azərbaycanca "Divan"ında olduğu kimi, farsca "Divan"ında da məhəbbət mövzusu ilə yanaşı həyatın acılıqlarına qarşı etirazları da diqqəti cəlb edir.

Füzuli, açıq şəkildə olmasa da, yeri gəldikcə, dövrünün cahil, xalqı və vətəni düşünməyən, onun qeydinə qalmayan hakimlərinə qarşı çıxır, öz etirazlarını çox zaman beytlərarası ifadə edərək oxucunu ayılmağa, zülmə, əsarətə nifrət bəsləməyə çağırır. Şairin poeziyasındakı məhəbbət insanın mənəvi-cismani azadlıq tələblərilə üzvi surətdə bağlıdır. Füzuli məhəbbət aləmində,

qəlb aləmində azadlıq tələb etdiyi kimi, yeri düşdükcə, cəmiyyətdə də azadlığın böyük nemət olduğunu həsrətlə söyləyir:

Ey Füzuli, nə gözəldir sözü azadəliyin,
Hanı bir sərv bu aləmdə ki, vardır səməri.

Bu misralardakı bəşəri azadlıq həsrəti şairin bütün qəzəllərində azad məhəbbət, azad həyat meylinin qüvvətli olduğundan doğur. Füzuli tez-tez Yaxın Şərq ədəbiyyatında azadlıq rəmzi olan "sərv" dən istifadə edir. Yuxarıdakı şeirdə deyir ki: Ey Füzuli, azadlıq sözü gözəldir. Sərv də azad adlanır. Lakin sərv ağacının meyvəsi olmadığı kimi, azadlıq arzuları da meyvə vermir.

Orta əsrin ağır sıxıcı həyatını dəyişmək, insan azadlığını zəncirləyən buxovları qırmaq iqtidarına malik olmayan Füzuli azadlığı məhəbbət aləmində, könül aləmində tapır. İnsanın yalnız burada, bərabərlik aləmi adlandırdığı eşq fəzasında xoşbəxt olacağını təsəvvür edir.

Füzulidə məhəbbət insanları bir-birinə yaxınlaşdıran müqəddəs bir qüvvədir. Dostluq, mehribanlıq, səmimiyyət məhz məhəbbət əsasında doğur. Bütün gözəllikləri özündə cəm etmiş olan, mənəvi cəhətdən qüdrətli insan hər şeydən yüksəkdir. Məhəbbət elə bir qüvvədir ki, insanı öz şəxsi mənfəətlərindən əl çəkməyə, ümumi mənfəət üçün canından keçməyə vadar edir.

Füzuli məhəbbətin şəxsi əlaqələrdə də mühüm rol oynadığını göstərir. O, qitələrindən birində deyir ki:

Ey ağıl sahibi, unutma bunu,
İki kəsdən sənə çətinlik olar.
Biri oldur ki, sevməyir o səni,
Hər görəndə səni olur bizar.
Həm ikinci odur ki, qəlbin onu
İstəmir, görməyin olur naçar.

Füzulinin dinə, ilahiyyata olan münasibəti də məhəbbət məfhumu altında verilmişdir. O, dini mövzuda yazdığı qəzəllərdə də səmimi bir aşiqdir. Onun qəzəllərində Allah və müqəddəs şəxsiyyətlər həmişə səmimi bir dil ilə xatırlanır...

Füzulinin fars "Divan"ında qitələr hissəsi xüsusi əhəmiyyətə malikdir. Şairin qəzəllərində üstüörtülü, eyhamla irəli sürdüyü fikirlər qitələrdə açıq şəkildə ifadə olunmuşdur. O, burada əxlaqi-tərbiyəvi əhəmiyyəti olan məsələlərdən açıq danışmış, xüsusən hakim təbəqəyə olan münasibətini aydın ifadə edərək, özünün yoxsullar şairi olduğunu göstərmişdir. Qitələrinin birində şair dövrünün ayrı-ayrı təbəqələrini çox məharətlə səciyyələndirir.

O göstərir ki: “Padşah məmləkətlər fəth etmək, özünü qorumaq, düşməni məğlub etmək üçün ordu və xidmətçilərdən minnət çəkir. Ona yaxın olanlar isə yüksək mənsəb əldə etmək üçün padşahdan məşəqqət çəkirlər. Məmləkətin varlıları çoxlu pul qazanmaq üçün padşaha yaxın olanlara xidmət edir, onların nazını çəkirlər. Qənaət sahibi olmayan yoxsullar da bir tikə çörək üçün varlıların qapısında köpəklərlə vuruşmaq məcburiyyətindədirlər. Qənaətkar olub bir guşəyə çəkilənlər isə yoxsulluq ucundan bir tikə çörək üçün əzab və iztirab içərisindədirlər”.

Buradan aydın olur ki, yazıçı öz dövründə iztirablı həyatı nə qədər düzgün başa düşür. Şair başqa bir şerində mənəvi zövqdən uzaq, qəflət və nadanlıq içərisində ömür sürən müasirlərinin həyatını aşağıdakı misralarda verir:

Ömrümün əvvəli ki, zövqü səfa vəqti idi,
Elmsiz keçdi bütün bisərü samanlıq ilə.
Tifl vəqtim ötərək dərdə giriftar oldum,
Keçdi ömrüm bu fəna yerdə pərişanlıq ilə.

Ömrümün axırı ki, zöhdü ibadət çağıdır,
Keçdi, əfsus, o da aləmdə peşimanlıq ilə.
Ah, bu ömrə ki, zövq almadım, ondan keçdi
Mənəvi zövqü vəfa qəflətü nadanlıq ilə.

Füzuli qitələrində elmdən, təhsildən, şeir və sənətdən danışdığı kimi, şairi incidən, onun əsərlərini qiymətləndirməyən bədxah şairlərdən də şikayətlənir. Füzulinin fars dilində yazdığı müqəddimə onun həyatını dərindən öyrənmək və yaradıcılığının mühüm cəhətlərini aydınlaşdırmaq üçün son dərəcə əhəmiyyətlidir. Şair burada öz gəncliyindən, təhsil illərindən, dövrünün elmlərini məhəbbətlə öyrənməsindən, doğulub böyüdüyü Kərbəla şəhərinin vəziyyətindən, zəmanəsinin böyük alim və ruhanilərilə mübahisələr etməsindən danışdığı kimi, şeir və sənət haqqında da mühüm mülahizələr irəli sürür. Hər şeydən əvvəl, şeirdən orijinallıq tələb edən və əsərləri üzərində inadla çalışıb özünə qarşı son dərəcə tələbkar olan şair orta əsr ədəbi janrlarına qiymət verərkən, türkcə “Divan”ında olduğu kimi qəzəldən burada da ətraflı bəhs açır.

Füzuli azərbaycanca “Divan”ının müqəddiməsində qəzəldən danışarkən bu janrın bir neçə xüsusiyyətini qeyd etmişdir.

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-bustani-hünər.
Ğəzali-qəzəl seydi asan degil,
Qəzəl münkiri əhli-irfan degil.

Qəzəl bildirir şairin qüdrətin,
Qəzəl artırır nazimin şöhrətin.
Könül, gərçi əşarə çox rəsm var,
Qəzəl rəsmin et cümlədən ixtiyar.
Ki, hər məhfilin ziynətidir qəzəl,
Xirədməndlər sənətidir qəzəl.
Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola.

Bu misralarda qəzəl janrının bir sıra xüsusiyyətlərini aydınlaşdıran xüsusən onun "məşhuri-dövran" olması, oxumaqda, yazmaqda asan olması haqqında mülahizə yürüdüb, geniş xalq kütlələrinin içərisində öz fikirlərini yaya bilməkdən ötrü qəzəl janrından istifadə etdiyini göstərən sənətkar farsca "Divan"ına yazdığı müqəddimədə qəzəl haqqındakı fikirlərini tamamlayır.

O, burada qəzəl janrının mübhəm ibarələrdən uzaq, məhəbbət mövzusu üçün uyğun olduğunu göstərdiyi kimi, öz qəzəllərinin mənaca dərinliyindən də xüsusi bəhs edir. Şair yazır ki: "Fars qəzəlləri divanını tərtib etdim ki, həm kamil müdəqqiqlər onun üstüörtülü gözəl məzmunlarından həzz alsınlar, həm də sadədil, zəriflər onun ziyafətindən öz paylarını götürsünlər."

Buradan aydındır ki, Füzuli aşiqanə ifadələrlə elə gözəl üstüörtülü fikirlər söyləmişdir ki, bunlar ancaq dəqiq düşünən kamil insanlar tərəfindən dərk edilə bilər. Eyni zamanda şair məhəbbət mövzusunda sadədil zərif adamların zövqünü oxşayacaq əsərlər yaratmışdır.

Doğrudan da, Füzulinin əsərləri bu cəhətdən mənalıdır. Sözlərin məharətlə işlənməsi, bir növ rəmzi xasiyyət daşıması şairin əsərlərinə çoxmənalılıq xüsusiyyəti verir. Belə əsərləri sadə oxucu oxuduğu zaman məhəbbət macərasından həzz alır, şairin məhəbbət izhar etməsini, aşiqlə məşuq arasındakı ünsiyyəti öz qəlb aləminin müəyyən arzu və istəkləri ilə bağlayır Arif oxucu orada daha dərin ictimai-fəlsəfi məzmunlar görür. Söz sənəti maraqları isə əsasən sənətkarın sözdən necə istifadə etmək məharətini izləyir. Beləliklə, şairin əsərləri bütün zümrələrin malı ola bilir. O həm yüksək ziyalı təbəqəsini, həm şeir, sənət maraqlılarını, həm də sadə oxucu kütlələrini əhatə edə bilir.

* * *

Füzulinin farsca "Divan"ı tamam, mükəmməl surətdə nəşr olunmamışdır. Britaniya muzeyində olan əlyazmaları təsvir edən Şarl Rio "Divan"ın vaxtilə Təbrizdə nəşr olunduğunu qeyd edirsə də, bu vaxta qədər belə bir əsərə təsadüf edilməmişdir.

"Divan"ın müqəddiməsi h.1314-cü ildə (1896-97-ci il) İstanbulda "Füzulinin qeyri-mətbu əş'arı" adlı kitabda, bəzi qəzəllər müxtəlif məcmuələr-

də nəşr edilmişsə də, əsli tamam nəşr olunmamışdır. Əsərin bütünlükdə türk dilinə nəsr ilə tərcüməsi 1950-ci ildə İstanbulda prof. Əli Nihad Tərlan tərəfindən ayrıca kitab şəklində çap olunmuşdur.[1]

Şairin farsca "Divan"ı vaxtilə çox məşhur olmuşdur. Hələ şairin müasiri Əhdi Bağdadi h. 1563-cü ildə bitirdiyi "Gülşəni-şüəra" adlı təzkirəsində Füzulinin müxtəlif dillərdə yazdığı əsərlərinin çox şöhrətləndiyini qeyd edərkən "Fars "Divan"ı " haqqında yazır ki: "Zəbani-fürsdə olan "Divan"ı pəsəndideyi-şüərayi hər mərzü bum...".

Bu qeydi sonrakı təzkirəçilər də təsdiq edir, onun fars "Divan"ından hərarətlə danışırlar. Lakin müasir tədqiqatçılar şairin fars "Divan"ı ilə fars dilindəki qəsidələrini qarışdırır, onun qəsidələrini fars "Divan"ının bir hissəsi hesab edirlər. Halbuki şairin bu vaxta qədər çap edilməmiş əlyazmaları Füzulinin fars "Divan"ının başqa, qəsidələrinin isə başqa əsər olduğunu aydınlaşdırır. Füzuli özü qəsidələrini ayrıca bir kitab şəklində tərtib edərək, ona xüsusi bir müqəddimə də yazmışdır.

Füzulinin fars "Divan"ından bizə məlum olan əlyazmaları bunlardır:

1. Manisa – Muradiyyə kitabxanasında olan nüsxə. 20 cəmadiələvvəl, h. 959-cu ildə (1552-ci il) Bağdadda köçürülmüşdür. Şairin sağlığında köçürülən bu çox dəyərli nüsxə müqəddiməsiz olub, şairin 405 qəzəl, qitə və rübaisini əhatə edir.

2. Ankara Ümumi kitabxanasında olan 101 №-li nüsxə. H. 984-cü ildə (1576-cı ildə) Kərbəlada köçürülmüşdür. Burada farsca qəzəllərindən yalnız 79-u vardır.

3. İstanbul Millət kitabxanası, Cərulla Vəliəddin əfəndi qismi, 1670 №-li nüsx. 9 cəmadiəlaxir, h. 988-ci ildə (1580-ci il) Bağdadda köçürülmüşdür. Burada 412 qəzəl, bir məsnəvi, bir tərcibənd, saqinamə, 42 qitə və 95 rübai vardır.

4. Sankt-Peterburq Şərqşünaslıq İnstitutunda olan 1924 №-li külliyyatda fars "Divan"ı (294-377-ci səhifələr). H. 998-ci ildə (1589-cu il) Bağdadda köçürülmüşdür.

5. Ankara Universiteti dil və tarix-coğrafiya fakültəsinin kitabxanasında olan 4123 №-li nüsxə; h. 1032-ci ildə (1622-ci il) köçürülmüşdür.

6. İstanbul Universitetinin kitabxanasında olan 833 №-li nüsxə. Tarixsizdir; XVII əsrdə köçürüldüyü təxmin edilir.

7. London, Britaniya muzeyində 4911 №-li nüsxə. H. 1036-cı ildə (1627-ci il) İstanbulda köçürülmüşdür. Füzulinin "Rindü Zahid" və Hatifinin "Həft mənzər" əsərlərilə birlikdədir.

[1] Türk alimi Həsibə Mazıoğlu 1962-ci ildə fars "Divan"ını 1552-ci ildə tamamlanmış Manisa nüsxəsi əsasında Ankarada nəşr etdirmişdir.

8. London, Britaniya muzeyi. Add. 7785 №-li nüsxə. H. 1217-ci ildə (1803-cü il) köçürülmüşdür. Müqəddiməsizdir. Əvvəldən və ortadan naqisdir.

9. Ankara Universitetinin dil və tarix-coğrafiya fakültəsinin kitabxanasında olan A. 121701 №-li nüsxə. Tarixsizdir.

Bunlardan başqa, müxtəlif kitabxanalarda ayrı-ayrı vaxtlarda tərtib olunmuş cüng və məcmuələrdə də şairin farsca qəzəlləri, rübailəri və qitələrindən nümunələr mövcuddur. Şübhəsiz ki, Şərq kitabxanalarında və xüsusi əllərdə şairin fars "Divan"ının bizə məlum olmayan nüsxələri də vardır.

Biz Füzulinin farsca "Divan"ını onun sətri tərcüməsi ilə birlikdə Sankt-Peterburq nüsxəsi əsasında hələ 1948-ci ildə çapa hazırlamışdıq. Əsərin azərbaycan dilinə şeirlə tərcüməsi nəşrə hazırlanarkən həmin nüsxə (Sankt-Peterburq nüsxəsi) əsas götürülmüş və o, 1950-ci ildə türkcəyə nəsrlə edilmiş tərcümə (İstanbul nüsxəsi) ilə müqayisə olunmuşdur.

Müqayisə zamanı müəyyən edilmişdir ki, İstanbul tərcüməsində olan 21 qəzəl, ayrı-ayrı qəzəllərdən isə 120 beyt, 2 qitə və 10 rübai Sankt-Peterburq nüsxəsində; 6 qəzəl, "Divan"ın sonluğu və bəzi beytlər İstanbul nüsxəsində çatmır.

Bu nüsxələr arasında ifadə fərqləri də vardır. Lakin İstanbul nüsxəsinin əsli əldə olmadığından bunlar təxmini surətdə müəyyənləşdirilmişdir.

Tərcümə zamanı şairlər Füzulinin bədii xüsusiyyətlərini saxlamağa, qəzəllərin vəznini, hətta qafiyələrini belə mühafizə etməyə çalışmışlar. Xüsusən qəzəlin görkəmli ustadı olan Əliağa Vahidin tərcümələri bu cəhətdən fərqlənir. O, Füzulinin işlətdiyi qəzəl ifadələrini saxlamağa çalışdığı kimi, redaktə zamanı başqa tərcümələri də islah etməkdə böyük zəhmət çəkmişdir.

Lakin bu o demək deyildir ki, burada olan tərcümələrin hamısı eyni səviyyədədir. Bəzi tərcümələrdə şairin fars dili xüsusiyyətlərinə uyğun olan şəkli cəhətlər qismən pozulmuş, bəzən mənada müəyyən fərqlər də meydana gəlmişdir; eyni zamanda 30-a qədər qəzəlin tərcüməsi bu nəşrə daxil edilməmişdir.

Füzulinin farsca "Divan"ını əhatə edən bu cild şairin fars dilindəki qəzəllərinin bədii tərcüməsindən ibarətdir.

Həmid Araslı

⚜ FARSCA "DİVAN"IN DİBAÇƏSİ ⚜

Allah, Allah! Mənalar necə bir xəzinədir ki, xilqətin əvvəlindən bəri istər şəriətə tabe olanlar, istərsə həvavü həvəs sahibləri bir-birinə əks olan məzhəb və görüşlərin doğru və ya yanlış hökmlərini ifadə etmək üçün onları sərf edirlər, yenə də qətiyyən pozulub əksilmir; kəlam (söz) necə bir nazik sapdır ki, o xəzinənin dürləri dənə-dənə bu sapa elə bir nizamla düzülmüşdür ki, heç bir məna onsuz surət ala bilmir:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can[1].

Uca Tanrı! Ürək necə bir idrak sahibidir ki, həmişə o xəzinədən maarif cəvahirləri çıxarıb ibarə sapına düzür, dil necə bir məşşatədir ki, o sapa düzülmüş cəvahirləri zəmanə gözəlinin boynuna həmayil edir, həm cəvahirlərə qiymət verir, həm də gözəli zinətləndirir:

Sözə xor baxmaq olmaz; hər bir söz
Ərşdəndir gəlib hədiyyə bizə.
Qəlbimiz meyl edir həmişə ona,
Çünki söz nazil oldu qəlbimizə.

Doğrudan da, natiqə tutisinin zövq və şövq şəkəristanında daha rəğbətlə danışmağa başladığı ən gözəl söz mütəkəllimin zikrini zümzümə eylər ki, o qüdrətli nazim mülk aləminin surətləri ibarəsilə mələkut aləminin mənalarının məzmununu bir araya gətirib yaradılış zəncirini elə bir gözəllik və zərifliklə tənzim etmişdir ki, surət aləminin aşiqləri onun ibarəsinin gözəlliyini mütaliə edərək heyrət dənizinə qərq olmuşlar və məna xəlvətsərasının zövq sahibləri onun məzmununun dəqiqliyini gördükdə sükuta dalmışlar:

Çox gözəl bir nəzmdir kim, vermiş ustadın əli,
Hüsni-məzmunu ibarətlə bu cür zinət ona.

[1] Dibaçədəki şeirlərin tərcüməsi M.Mübarizindir.

Hüsn zəncirinə hər kəs bağlanıb olmuş əsir,
Çoxları şəklinə heyrandır, çoxu məzmununa.

Və ən gözəl nəğmə ki, təb bülbülü onun tərənnümi-nəsimi ilə könül qönçəsinin dodağını təbəssümlə açar, bir söz yaradanın mədhi-sənasi nəğməsidir ki, o, qeybin gizli aləmində həqiqətlər cəvahirindən ətək-ətək şabaş edib qeyri-məhdud xəzinələr yaratmış, məhdud hərflərin dəyişməsilə hər xəzinəyə bir açar ixtira etmişdir. İnsanlar həmişə hər təcrübə açarı ilə bir xəzinənin qapısını açar, nəzm, nəsr səhifələrini müxtəlif cəvahirlərlə bəzəyərlər:

İlahi bir feyzdən xəznədir söz,
Tükənməz, sərf qıldıqca dəmadəm.
Məcazi şahların gənci deyil bu
Ki, bir həbbə götürdükdə ola kəm.

Həqiqətən, Allahın həmdi şah beytinin ən layiqli qafiyəsi möcüzələr göstərən barmağının qələmilə göylər səhifəsində ayın pəncəsini iki misraya bölüb, möcüzələr silsiləsinin mənzuməsinə mətlə (ilk beyt) edən sultanın tərifidir:

Öylə bir şah ki, asitanında
Üz qoyub torpağa günəş qul tək.
Əl atıb parə qıldı sinəsini
Şövqdən ay cəmalını görcək.

Və Allahın sitayiş mənzuməsini bir padşahın mədhi rədifi zinətləndirir ki, onun peyğəmbərliyinə iman, imanın əsli olan kəlmeyi-şəhadət mənzuməsində şeir beytlərinin birinci misrasını tamamlayan ikinci misra yerindədir ki, Allahın birliyi misrasını tamamlayar:

Tovhid mücərrəd olsa kamil,
Verməz səmər heç kəsə nəhayət.
İman ilə fəzlinin sübutu
İqrari-nübüvvət olmuş əlbət.

Allahın səlavatı peyğəmbərlik sahibinə, onun böyük nəslinə və hörmətli səhabəsinə olsun. Onlar din bayrağını daşıyanlar, Allahın aydın şəriətini bizə gətirənlərdir. Allah onlardan razı olsun!

Bundan sonra bu heyran, biçarə və fəqir Füzuli öz əhvalından soruşulmadan bir qədər danışır və belə göstərir ki:

Elə ki, uşaqlıq dövründə dünya karxanasına etibar nəzərilə baxdım, maarif kəsb etmək gözəlini özümə məşuqə etdim. Onunla eşqbazlıq zamanı hərdəm bir fitri şövqümün hərəkət verəni istedad üzündən məni nəzm məhəbbətinin qapılarına çəkirdi. Amma maarif kəsb etmək qeyrəti mən eləyirdi ki, hərçənd bu gözəl ürəyəyatandır, madam ki, elm-kamal təhsilinə manedir, – yaxşı deyildir. Bu dövr keçdikdən sonra bir gün şeir söyləmək bacarığının nəsihət verəni yalqız oturduğum otağa gəlib dedi ki:

İstəsən çatmaq kəmalın övcünə qıl səy kim,
Etməsin məğbun səni naqislik ilə hümmətin.
Olma qane elmdə hər rütbəyə çatsan da, bil,
Səyin artdıqca bu yolda artacaqdır qiymətin.

Bil ki, şeir fəziləti də ayrı bir elmdir və kamal növlərindən mötəbər növdür. Bunu inkar edənlər onun zövqünə vaqif olmayanlar və şeir söyləməyə qadir olmayanlardır:

Bir mahir usta torpağı döndərsə sürməyə,
Eyb axtaran deyər ki: böyük bir hünər deyil.
Səfralının təbiəti qəndi acı sanar,
Ağzındadır qüsur, acı qəndü şəkər deyil.

Elə ki, bu tərğib və təşviqi eşitdim, üzr üçün dedim ki:

– Ey açıqürək, mərhəmətli, qabiliyyətli dost, hükəma demişlər ki, "əvvəl fikir, sonra əməl". Yəni, hər iş ki, başlamaq istəyirsən, başlamadan əvvəl onun nəticəsini düşünmək lazımdır. Məbada bu iş şöhrətli olmaqla bərabər həqiqətdə pis iş olmuş ola və ona tutulan adam ehsandan məhrum qala:

Bəlkə də şeir pis əməl sayılır,
Yaramaz pis işə edəm iqdam.
İşini yaxşı bilməyənlər olur
Xirəd əhli yanında xar müdam.

Cavab verdi ki:

– Ey fəqir və həqir! Həyatını bu işin əslini təhqiq etmək uğrunda sərf edən məharət sahibi fəsihlər və doğru düşünən fazillər şeir fənninin gözəlliklərinə, üstünlüklərinə aid ayələr və hədislər söyləmiş, dəyərli risalələr yazmış və şeri hər cür ləkədən təmizləmişlər. Həzrəti-Peyğəmbər buyurmuşdur ki, "şeir [elə bir] sözdür ki, gözəli gözəl, çirkini də çirkindir". Bir kimsə yaxşı düşünsə, dərhal anlar ki, gözəl sözün gözəl xüsusiyyətləri vardır. Birincisi, onu söyləyənin könlü heç bir qızıl sərf etmədən, bir zərrə görmədən fərəh duyur. İkincisi, şeir yazanın adı şeir vasitəsilə aləm səhifəsində əbədi olaraq qalır. Üçüncüsü budur ki, onun nəzmi özgələrə də şadlıq və zövq verir:

Əbədi şadlığın şərabı üçün
Sözdən özgə cahanda yox, saqi!
Sözün ölməzliyinə söz yoxdur,
Biz gedərsək də söz qalar baqi.

Dedim:

– Ey sevgili dostum! Şerin bir çox alət-məziyyətlərə ehtiyacı var. Alətsiz bir sənətə başlamaq çətindir. Bu işlə məşğul olan və bu çölü keçib-gedən qədim şairlər gözəl xasiyyətli sultanların iltifatına məzhər olmuşlar, zövq sahibi olan böyük adamlar ilə durub-oturmuşlar, cənnət kimi bağçalarda gəzib-dolaşmışlar, gözəl, dadlı şərablar içərək nəşələnmişlər, gözəl nəğmələr dinləmişlər, ay kimi gözəllər görüb onlarla vaxt keçirmişlər. Xoşbəxtlik içində kamal fənninin zirvəsinə çatmışlar:

Vəsait olsa mühəyya bu nəşə ilə,
Könüldə gizli olan mərifət zühura çıxar.
Vəsait ilə gələr nitqə dil, ötər şair,
Olarsa cəmi-məani şeir asan yazılar.

Mən sövdazədədən bunu ummaq qəribədir. Çünki doğulduğum və yaşadığım yer İraqi-Ərəbdir ki, sultanların kölgəsindən uzaq və sakinlərinin şüursuzluğu üzündən xərabə qalmış bir ölkədir. Bura elə bir bostandır ki, xuraman sərvləri səmum küləyinin qasırğalarıdır, açılmamış qönçələri məzlum şəhid qəbirlərinin qübbələridir. Bura bir zövq

məclisidir ki, şərabı parçalanmış ciyərlərin qanı, nəğmələri avara qəriblərin nalələridir. Nə möhnət artıran səhrasında rahatlıq nəsimi əsmiş, nə də bəlalarla dolu çölündə tozları (dərd tozlarını) yatıra biləcək ümid buludu görünmüşdür. Belə bir əziyyət bağçasında könül qönçəsi necə açılır və can bülbülü nə oxuya bilər?

Bu ölkədə rahatlıqdan görünməyir bir əsər,
Bu torpaqda bir kimsəyə şadlıq olmaz müyəssər.
Çətin işdir belə yerdə əsir olub qalanlar
İmkan tapıb hünər həqdə düşünələr bir qədər.

Cavab verdi ki:

– Ey dərdimənd! Sultanların söhbəti başqalarının həsədinə səbəb olur. Şərabın nəşəsi isə əbədi əzaba səbəbdir. Nədimlərlə söhbət etmək insanın xəyalına, yalnız düşünməsinə mane olar. Malın çoxluğu əhli-halın qəflətinə səbəb olar. Həmd olsun Allaha ki, bu bəlalardan uzaq bir diyardasan. Bu kimi bəlalardan, pis şeyləri icra etmək vasitələri burada yoxdur. Bil ki, həqiqi sevgilinin gözəlliyinə aşiq və ilahi məhəbbət şərabı ilə sərxoş olub dünya ləzzətlərindən əl çəkən, nəfsinə tabe olmayan bir çox övliya və şeyxlər, fazil və alim adamlar iztirab qılıncı ilə həlak olub, bu ölkədə torpağa çevrilmişlər. Bu diyarın torpağı məzlumların qanı ilə qarışmışdır. O şəhidlərin qanları bu torpaqlara tökülmüşdür. Allahın qəza və qədəri sənin torpağını bu torpaqla yoğurmuş və sənə nəsib olan hər şeyi bu torpağın üzərində yazmışdır. Sən bu möhnət beşiyində məhəbbət südü ilə bəslənmiş və buranın suyu və havası ilə yetişib böyümüsən. Bilirəm ki, sən dərdli yaranmısan. Dərd isə şairliyin əsas sərmayəsidir. Şair olmaq üçün demə ki, zövqü səfa lazımdır. Dərddən danış ki, şeir yarışında söz topunu apara biləsən:

Ciyərdə dağı, könüldə məlalı olmayanın
Sözündə, sanma, ola zövqü oxşayan qüdrət.
Fərəhlə eyş sözə zövq bəxş edə bilməz.
Sözün canı sayılır qüssə, qəm, kədər, möhnət.

Bu sözlərə qarşı üzr üçün bir cavab tapmadım, danışdıqca şerə qarşı özümdə bir meyl də duydum. Artıq qeyrət qurşağını belimə qurşa-

yaraq oturub düşündüm (və şerə başladım). Bəzən ərəbcə şeir yazdım və ərəb fəsihlərini müxtəlif mənzumələrimlə şadlandırdım. Bu, mənim üçün asan idi. Çünki mənim elmi bəhslər (fənlər, yaxud mübahisə) dilim ərəbcə idi. Bəzən türkcə şeir meydanında at çapdım və türk zəriflərinə türkcə şerin gözəlliklərilə zövq verdim. Bu da məni o qədər təşvişə salmadı, çünki türkcə şeir mənim əslimin səliqəsinə uyğundur. Bəzən fars dili sapına inci düzdüm və o budaqdan könül meyvəsi dərdim.

Lakin çətin anlaşılan ibarələrə və məzmun incəliyinə qarşı yaradılışımda bir məhəbbət vardır. Bunun üçün təbiətim həmişə qəsidə və müəmma yazmağa meyl edərdi. Qəzəl yazmaq xatirimə gəlmirdi və fikrimin səyyahı onu ələ keçirmək vadisində gəzinmirdi. Çünki qəzəl aşiqin könül dərdini mərhəmətli sevgilisinə açması və ya məşuqun öz halını sadiq aşiqinə bildirməsidir. Bu isə yeni yetişən gənclər arasında və ya təmiz ürəkli cavanlarla yoldaşlıq etməyin verdiyi zövq və həyəcanla olur. Qəzəl üslubunda mübhəm məzmunlar, anlaşılmaz ləfzlər heç kəsə bir həyəcan verməz. Qəzəlin özünəməxsus bir dili və müəyyən bir kəlmə aləmi vardır. Təsadüfən, məndən əvvəl gələn şairlərin hamısı yüksək anlayışlı, dərin düşüncəli insanlar imiş. Qəzəl üslubuna yarayan hər gözəl ibarəni, incə məzmunu elə işlətmişlər ki, ortada bir şey qalmamışdır. İnsan onların bütün yazdıqlarını bilməlidir ki, çalışıb vücuda gətirdiyi əsərlərdə özündən əvvəl söylənən mənalar olmasın. Elə vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb, yazdığımı pozmuşam, ona sahib çıxmamışam (şeirlərim sırasına salmamışam). Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə məna gövhərini deşmişəm. (Bunu görənlər:) bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir – deyər-deməz, o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm.

Qəribə bir haldır, söylənmiş bir sözü söylənildiyinə görə, söylənməmiş bir sözü isə əvvəlcə söylənilmədiyinə görə işlətmək olmur.

Dostlar gəlib etdi bizdən əvvəl,
Mənanı, sözü o qədri qarət,
Təng oldu bizə fəzası nəzmin,
Fəryad, nəyə bais oldu sibqət!

Doğrusu budur ki, bu çəkinmə indiki təxəllüsü götürməyimə səbəb oldu. Necə ki, şerə başladığım zamanlar hər gün bir təxəllüs bəyənir, bir müddət sonra eyni təxəllüsü işlədən bir şairə rast gəlir və aldığım təxəllüsü dəyişdirirdim. Sonra anlaşıldı ki, məndən əvvəl gələn dostlar ibarələrdən çox təxəllüsləri götürmüşlər. Düşündüm, əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürərsəm, müvəffəq olmadığım təqdirdə mənə zülm olar, müvəffəq olarsam, ortağıma zülm etmiş olaram. Bu bənzərliyi ortadan qaldırmaq üçün Füzuli təxəllüsünü aldım və ortaqlarımın mənə zülm edib, məni iztirab içində qoymalarından qurtarmaq üçün təxəllüsümün himayəsinə sığındım.

Bildim ki, bu ləqəb heç kimin xoşuna gəlməyəcək. Odur ki, bir başqası ortaq çıxaraq məni rahatsız etməyəcəkdir. Həqiqətən də, bu ləqəbi almaqla ortalıqdan mənə gələ biləcək əzabların qapısını bağladım və şeirlərimin qarışıq düşməsi əndişəsindən qurtardım:

Məni bədnamlığım xəlq ixtilatından uzaq saldı,
Hünər kəsbi üçün tənhalığım verdi mənə imkan.
Mənim pis sandığım şey, şükr kim, yaxşı səmər verdi,
Daşım ləl oldu, torpağım qızıl, gül bitdi xarımdan.

Həqiqətən, bu təxəllüs bir çox cəhətdən tamam mənim istədiyim kimi oldu, mənim arzuma çox uyğun gələn ləqəb oldu. Əvvəla, mən özümü ruzigarın yeganəsi görmək istəyirəm. Bunu təxəllüsüm təmin etdi. Fərdiyyətimin ətəyi ortaqlıq əlindən qurtardı. İkincisi, mən bütün ülum və fununu özündə toplamış bir insan olmaq üçün çalışırdım. Bunu ifadə edən bir təxəllüs tapdım. Çünki füzul lüğətdə ülum və fünun kimi fəzlin cəmidir. Füzulinin xalq arasında başqa mənası ədəbə müxalif deməkdir. Bundan da ədəbə müxalif nə hərəkət ola bilər ki, yüksək qədirli alimlərlə çox az görüşmüşəm, mərhəmətli padşahlara və sultanlara yaxın olmamışam. Səyahət etmədiyim halda, həmişə əqli mübahisələrdə həkimlərin (filosofların) müxtəlif hökmlərinə etiraz, nəqli məsələlərdə fəqihlərlə müxalifət edirəm və söz fənninin hər şöbəsinin ustadı ilə ibarələrin gözəlliyi, ifadənin lətafəti xüsusunda münaqişəyə girirəm. Bu hərəkət nə qədər Füzulinin kamalına əlamətdirsə, o qədər də füzulluğun son dərəcəsinə işarətdir:

Hümmətü iqdamımı, səyü təlaşü cəhdimi,
Elmü ürfanü hünər kəsbində gördü ruzigar.

Əhli-aləm, əksinə, məndə böyük hümmət görüb,
Adımı qoydu Füzuli, fəzlim oldu aşikar.

Allaha şükr ki, ömrümün bu bərəkətli adı daşıyaraq şeir uğrunda çalışmaqla keçən zamanı həmişə mənim üçün xeyirli olmuş və bu övliya torpağının şükümlüyündən və bərəkətindən qələmə aldığım hər əsəri asanlıqla tamamlamışam. Yalnız farsca şerlərimin tamamlanması gecikmiş və bundan əvvəl söylədiyim maneələr səbəbilə bu işə başlamaq asan olmamışdı.

Bir gün bir məktəbə yolum düşdü. Orada fars nəsilli pəri üzlü bir sərv qamətli gördüm ki, əlif onun yürüşünə heyrətindən hərəkətsiz hala gəlmiş və yanağının müshəfinin mütaliəsi sad hərfinin kor gözünü rövşən etmişdi:

Sərvi-çəməni-hüsn qədi-dilkəşidir,
Zülmət gecənin şəmi rüxi-məhvəşidir.
Gözdən su içib o sərv, olmuş siyrab,
Ol şəm yanarsa, qəlbimiz atəşidir.

Mənim yaxınlaşdığımı görüncə şeirlərimdən bir neçə beyt oxumağımı istədi. Mən də ərəbcə və türkcə şeirlərimdən bir neçə beyt oxudum. Qəsidə və müəmmalarımdan da bəzi gözəl beytləri bunlara əlavə etdim. Dedi ki: bunlar mənim dilimdə yazılmayıbdır, mənim karıma gəlməz. Mənə farsca ciyəryandıran aşiqanə qəzəllər oxumalısan:

Mənada rəmz olarsa, müəmma kəlamdə,
Talib o şerə, bil, üləmayi-zəmanədir.
Dilbərlərin təfəkkürə yox tabı, onların
Sevdikləri fəqət qəzəli-aşiqanədir.

Bu söz məni utandırdı. Könlümə bir atəş düşdü ki, indiyə qədər yığmış olduğum xırmanlara od vurub yandırdı və xəyalımın otağını farsca qəzəl söyləmək məhəbbətinin şamı ilə işıqlandırdı. Bir gecə özümü təfəkkür atəşi içində əritdim və fars qəzəlləri "Divan"ını tərtib etdim ki, həm kamil müdəqqiqlər onun üstüörtülü gözəl məzmunlarından həzz alsınlar, həm də sadədil zəriflər onun zövq ziyafətindən paylarını götürsünlər.

İlahi, məsum Əhli-Beytin hörməti xatirinə yaşamağım üçün, rüsvalıq palçığı və peşmançılıq daşı ilə meydana gətirdiyim və onu suvamaq və zinətləndirmək üçün qanlar udduğum bu bir neçə dağınıq beyti mənalar üzərində gündüzlər axşama qədər düşünüb onları bir araya gətirib, bir mənzumə yaza bilmək üçün gecələr sabaha qədər çalışan insanlar görüb oxusunlar. Çünki onlar təb mədənindən seçilmiş bir gövhər çıxarmaq üçün nə qədər məşəqqət çəkmək lazım gəldiyini bilirlər:

Kim sərin çeşmə başında əyləşir, hardan bilər
Çöldə avarə gəzən Məcnunun dərdü möhnətin.
Dərdimiz hardan əyan olsun bizim dərdsizlərə
Dərdlilər yaxşı bilir aləmdə dərdin qiymətin.

(İlahi, bu beytləri) şeirləri oxunduğu məclislərdə məsxərəyə qoyulan, bir neçə zəif beyt yazıb, onu dilənçiliyə alət etməklə iftixar edən və guya şeri anladığını anlatmaq üçün sözün və mənaların incəliklərinə etiraz edən bir neçə insanın ayaqları altında əzdirmə:

Eyb sahibləri səhər-axşam
Özgənin eybinə tikər gözünü.
Özünün eybinə nəzər salmaz,
Hər yerə çatcağın öyər özünü.

Hər məmləkətin kamal sahibi fazillərindən və könlü işıqlı fəsihlərindən təvəqqe edirəm ki, əgər şeirlərimin tərkibində, yaxud məzmununda bəzi xətalar, şeir istilahına yabançı cəhətlər görsələr, onları bağışlasınlar. Nəcəf torpağında və Kərbəla ölkəsində yetişib, övliya bürcü olan Bağdadın abü həvası ilə tərbiyələnən bu dünya görməmiş yeniyetmələr, qürbət çəkməmiş yetimlər səfər əsnasında haraya çatsalar, onları hörmət və etibar ilə qarşılasınlar.

Ey Füzuli, məskənim çün Kərbəladır, şerimin
Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.
Nə qızıldır, nə gümüş, nə ləlü nə mirvarıdır,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

* * *

Saqiya, dur ki, bəxt yar oldu,
Gəldi gül mövsimi, bahar oldu.
Tazə güllərlə süslənib gülzar,
Bir deyil, gül açıb həzarü həzar.
Rəngbərəngdir çəməndəki güllər,
Bir-birindən daha gözəl görünər.
Əhli-zövqə, dayanma, cam gətir,
Məclisə cami-laləfam gətir.
Əldə tut lalə rəngli bir sağər,
Qoyma bəzm əhli intizar çəkələr.
Üzrü at, badə ver, qızır məclis,
Doludur kuzə meylə, olma xəsis.
Etgilən məclis əhlini sərxoş,
Qoyma sərxoşların keçə günü boş.
Başqa bir zövqü də əta eylə,
Mütribi məclisə çağır, söylə
Kökləsin bir saatlığa sazı,
Məclisə zövq versin avazı.
Gözləsin dil açanda hüsni-məqal,
Söyləsin həmdi-xaliqi-mütəal.


Qəzəllər

İsmin ilə başladım, ey arizular məzhəri!
Ey olan zati ğəni, ey gəncü dövlət sərvəri!

Ey səxavət mənbəyi, ey varlığı icad edən!
Ey qədim mülkü fənasız, ey dəyişməz cövhəri!

Ey ümumə lütf edib, şadlıq səfasın bəxş edən!
Ey təbibi-qəlb olan, ey həll edən müşkülləri!

Tövbə qıldı bir günah etmişdisə qəlbim mənim,
Bilmiş öz səhvü xətasın, əfv qıl bu müztəri!

Qibləgahım, olmaram qul səndən özgə kimsəyə,
Tanrısan, ruzi verənsən, yoxdu səndən digəri!

Ən böyük bir rütbəyə yüksəldi səndən qədrimiz,
Səndən oldu qəlbimiz hər gizli sirrin məzhəri!

Qəlbimi nurunla açdın, nolar açsan nitqimi,
Verdiyin nemətlər olsun ta ki, dillər əzbəri!

Nitq verdinsə, gözəl söz söyləmək də lütf qıl,
Şerim ilə zahir olsun gizli hikmət zivəri!

Lütfün əlası sözün bilməkdədir mənasını,
Həmd qıl, vermiş, Füzuli, hər sənə bu gövhəri.



Zikrinlə zinət aldı həmişə zəbanımız,
Zikrin gər olmasa, ola dilsiz dəhanımız.

Ol sikkeyi-səadətinin feyzidir sənin,
Tapmış rəvac bir belə nəqdi-rəvanımız.

Bizdən xətalar olsa da, səndən əta qılan,
Olmaz sənin məqaminə layiq bu şanımız.

Sənsən bizim bu halımıza lütflər qılan,
Əlbəttə, bəllidir sənə razi-nəhanımız.

Uğrunda qorxmuruq nə bəla gəlsə, çün sənin
Olmuş bəla daşın məhəki-imtəhanımız.

Nəfsin bəlasına nə qədər razılıq verək,
Rəhm et ki, oldu tömeyi-səg üstüxanımız.

Bizdən, Füzuli, eşq odu qoymadı bir əsər,
Canan yolunda bircə bu olmuş nişanımız.



Ey əqlü fəhminə qalan aciz sualımız,
Şərh etməsək də biz, sənə vazehdir halımız.

Şamü səhər təsəvvüri-asari-sününün
Nəqşü nigar xanəsi olmuş xəyalımız.

Dərk eyləmək həqiqətini çox mahaldır,
Yetməz bu arizulara fikri-məhalımız.

Biz düşdük öz əməllərimizdən bu günlərə,
Qoyma həmişəlik belə artsın mələlımız.

Səndən o gün ki, hər əmələ bir cəza yetər,
Bəsdir bu üzrümüz, bizə öz infialımız.

Ver bir məcal, zikrin edək biz o dəmdə ki,
Bir söz deməkliyə daha olmaz məcalımız.

İzhari-üzrdür bu, Füzuli, günah üçün
Yazmış saralmış üzdə onu əşki-alımız.

❁ ❁ ❁

Sənin feyzi-vücudunla işıqlanmış bütün aləm,
Kəmali-qüdrətindəndir ki, torpaqdan durub Adəm.

Şəbi-meracdə təzimin ulduzlar bilib vacib,
Ayağın öpməyin zövqünə düşmüş gərdişi-əzəm.

Şəbi-meraci gündüz tək işıqlandırdı rüxsarın,
Sənin iqbalın əzmilə keçibdir əşhəbi-Ədhəm.

Olublar vəhyə sahib çoxları, hərgiz bu hörmətlə,
Sənin tək barigahi-həqqə onlar olmamış məhrəm.

Böyüksən, şöhrətin vəsf etməyə bir ölçümüz yoxdur,
Yetişməz rütbənə dördüncü göydə İsiyi-Məryəm.

Ən alçaq mənzilət tabelərinçün bağı-cənnətdir,
Səni inkar edən kəslər cəhənnəmdə yanar möhkəm.

Füzuli müttəsil sərməstdir, əzmi-təvafinlə,
Bu əzmindən ayırma sən onu, ta ömr var bir dəm.



Kimi nisbət qılım ol sərvi-sənubər qəddə,
Ucalardan ucadır qədrdə, həm qiymətdə.

Ona düşmən eləyən pisliyi o yaxşı sanır,
Pisə yaxşı deməsi yaxşı olur, əlbəttə.

Deməyə dərdimi məhrulərə həddim yoxdur,
Deyim hədsiz qəmimi bəs kimə bu halətdə?

Məsnədi-eşqdə qiymət yox idi məndən əzəl,
Göz yaşım göylərə qaldırdı onu şöhrətdə.

Mişk xətli, gümüş əndamlı, ay üzlü sevəli,
Qəlbimin tüstüsü qoymuş günümü zülmətdə.

Bizə məqsəd bu çəməndə gül üzün görmək idi,
Leyk yüz xari-məlamət görünür niyyətdə.

Ey Füzuli, bu qədər eşqə giriftar olma,
Tez xilas et özünü, qalmayasan zillətdə.

❀ ❀ ❀

Qübari-rahini, ey mehr, tutiya eləmə,
Tutub bərabər onu xak ilə, fəna eləmə!

Yatıb o sünbüli-zülf içrə min bəlalı könül,
Bu binəvalərə sən, ey səba, cəfa eləmə!

Boşaltma qəlbimə zəhrin fələklərin, ey çərx
Ki, yeddi şişəyə bir camı mübtəla eləmə!

Mələklər hüsndə olmaz günəş cəmalın tək,
Gözəl cəmalını gizlətmə, gəl xəta eləmə!

Günəş salar yerə kölgən kimi Məsihanı,
Onu vəcahəti-ruyinlə aşina eləmə!

Həyat şövqü həmişə var isə könlümdə,
Qaşın qılıncını məndən yenə cida eləmə!

Füzuli, qanla dolan gözlərindən ol şuxin,
Xəyali-ləlini sor, başqa şey rica eləmə!



Tənimdə getməyə yox kuyi-yarə tabü təvan,
Xoşam ki, olmamışam zəfi-tənlə sərgərdan.

Məni, heyif, o qara gözlərin təmənnası
Ki, sürmə milçisi tək etdi torpağa pünhan.

Su səpmək istədi göz yaşlarım könül oduna,
Əritdi varlığımı leyk atəşi-hicran.

Yığıldı başimə aləm bütün təmaşayə,
Görün məni nə günə saldı həsrəti-canan.

Tutaydı itləri kuyində, həsrətində idim,
Qaçırdım hər tərəfə sanki vəhşi bir ceyran.

Keçən gecə dedi ol məh qapımda bir itsən,
Bu xalq içində bəs eylər mənə bu şöhrətü şan.

Rəqib ayırdı, Füzuli, məni nigarımdan,
Bu dərdimi kimə bəs eyləyim mən indi bəyan?!



Gizli dərdim necə olmaz bu qədər qəmlə əyan,
Bu sükutun özü hali-dilimi etdi bəyan.

Bir zaman çıxmadı candan kədəri cananın,
Yarı candır mənə dərdi, keçə bilməm ondan.

Xaki-rahində gözüm incisi sərf oldu, xoşam,
Çünki eşqində nisar eyləmişəm gövhəri-can.

Belimi eşq yükü bükdü, nə daşdır ürəyin,
Yanmasa hali-dili-zarimə, ey qaşı kəman!

Dərdi-eşqinlə bütün aləm olub düşmənimiz,
Bu səfayə həsəd etdi fələki-kəcdövran.

İstəyirdim rəhi-eqşində sədaqətli olam,
Neyləyim, vermədi ömrüm bu təmənnadə aman.

Eşq feyzilə yetib məqsədə, xoşbəxt olduq,
Ey Füzuli, daha bəsdir bu qədər ahü fəğan.



Yanarkən könlümün pünhan oduyla şəm tək canım,
Zəbani-halım axır zahir etdi dərdi-pünhanım.

Ətək sürtər üzün hər ləhzə öpməkçün ayağından,
Həsəddən damənə çatmış mənim çaki-giribanım.

Mənə bimar çeşminlə nəzər qılsan, əcəb olmaz
Bəli, dərd əhli anlar ki, nədir tədbiri-dərmanım.

Ciyər qanilə cismim qərq olubdur lalə tək, çünki
Mənə bu dağı-eşqi vermiş ol gül üzlü cananım.

Sənin hər bir telində zülfünün bir can əsir olmuş,
Pərişan qoyma olsun cəm ikən hali-pərişanım.

Könüllər rəğbəti artar görən dəmdə üzün xəttin,
Uşaqlar zirzəbərlə tez oxur Quranı, bil, canım!

Füzuli, xalının əksiylə can lövhün elə dolur
Ki, hicran dağinə yer qalmasın olduqca imkanın.

❀ ❀ ❀

Çəkdim yolunda əksini bu cismi-zarımın,
Bəlkə ayağını öpə bildim nigarımın.

Ol rəhgüzarı seyr edirəm mən bu zövq ilə,
Şayəd, tutam rikabını ol şəhsüvarımın.

Ağlar həyatıma mənim hər kəs ki, sürməsin
Dövran çəkərsə gözlərinə gər ğübarımın.

Fərhadü Məcnun olmadı rüsva mənim kimi,
Xarü xəsin zəmanə yudu rəhgüzarımın.

Sakit olubdu göz yaşım ol xaki-paydən,
Ən yaxşı tutiyası budur əşkbarımın.

Ahımla göz yaşımdan həzər eylə, ey fələk!
Kəskin qılıncıdır bu dili-dağidarımın.

Cövrün, Füzuli, etmə hekayət o gülrüxün,
Kəsmə ümidini dili-ümmidvarımın.



Qəmi-nigardən özgə bir həmdəm istəmirəm,
Vəfasız bu qəmi-eşqə məhrəm istəmirəm.

Mən ölmək istəyirəm tənəsindən əğyarın,
Səni özümlə mən, ey can, bahəm istəmirəm.

Könül, saqınmalı zənciri olmayan dəlidən
Ki, səndən ayrıla ol zülfi-pürxəm istəmirəm.

Üzün xəyalını etmək gözəldi görməkdən,
Yetər dəxi, səni, ey çeşmi-pürnəm, istəmirəm.

Götürmüsən bizi, ey göz yaşı, bu torpaqdan,
Ucaltmısan məni, əhsən, səni kəm istəmirəm.

Yolunda mən eləmə, gər öləm o tərsanın,
Səni Məsih olasan, bir də həmdəm istəmirəm.

Füzuli, əhli-xirəd olmağın qəmin çəkmə,
Səni bu qeydlə rüsvayi-aləm istəmirəm.

❀ ❀ ❀

Eşitmiş gül cəfasından səhər bülbül edər əfğan,
Gülü jalə edib sədparə, almışdır qisas ondan.

Tutub zülfündən istərkən çəkəm ağuşə ol yarı,
Uzaqlaşsın deyə məndən, açar ilmələri canan.

Səba çün söyləmişdir: zülfünə sünbül bərabərdir,
Budur cürmü, onu zəncirə çəkmiş dalğalar hər an.

Bu özgə paltarında yox vəfa, ey sahibi-sərvət,
Deyilsən gül kolundan kəm, çıx ondan, qalgilən üryan.

Nə üzlə gözləyim şəfqət o gül üzlü gözəldən kim,
Kəmali-hüsnünə sanmış təğafül rəsmini bürhan.

Deyilsən aşiq, istərsən əgər qəmdən xilas olmaq,
Əsiri-eşqdə olmaz belə tədbirlərə imkan.

Füzuli, çox çətindir məqsədə varmaq təvəkkülsüz,
Təvəkkül damənində əl çəkib də olma sərgərdan.



Gizliyəm zəfdə mən, lütfdə yarın bədəni,
Mən onu görməmişəm xeyli zamandır, o məni.

Çəkərəm nalələr hicrində, xoşa ol rində,
Nə bədən qorxusu, nə canı üçün var məhəni.

Yanıram sinədə qəm, şəm mənim tək yanmaz,
Canı yox, cismdə yanmaqdan edə vahiməni.

Sirri-eşqindir olan şəm dilində yalnız,
Sönsə məclisdən atarlar, onun olmaz sevəni.

Bisütunda görünən əks o Şirinindir,
Rəşki-ruyin buna məcbur eləyib Kuhkəni.

Qüvveyi-eşq kəmalında olan möcüzü gör,
Dindirir ol daşürəkli büti-şirinsüxəni.

Tazə dağlarla Füzuli alışır şamü-səhər,
Köhnə dağlarla görənlər tanımaz indi səni.



Əqldən eşq cüda saldı, zəbun etdi məni,
Daxili-silsileyi-əhli-cünun etdi məni.

Bu gözəllər qəmi-eşqində mənim halımı gör,
Xəm qılıb qəm bu əlif qəddimi, nun etdi məni.

Olmaz idim bu qədər eşqin ilə taqətsiz,
Lütfünün azlığı aləmdə zəbun etdi məni.

Var ümidim ki, məni tənə vuranlar tanımaz,
Çox şadam, göz yaşım aludeyi-xun etdi məni.

Bu şəkər ləblərin azadə idim qeydindən,
Saldı ləlin yenə zəncirə, füsun etdi məni.

O şirin ləbdən uzaq, dərd ilə bağrım yarılır,
Kuhkəndən daha ol şivə füzun etdi məni.

Eşq dərdi var əzəldən də, Füzuli, məndə,
İndi sanma, fələk eşqinlə nigun etdi məni.



Saqi, mey ver, söyləyim ol ləli-canandan sənə,
Məst olarkən qoy deyim bu sirri-pünhandan sənə.

Öylə bir heyrətdəyəm, halım necə izhar edim,
Heyrətim izhar edər bu hali-heyrandan sənə.

Bəs necə ol şuxə mən huri, pəridir söyləyim,
Haqlıdır əla desə hər kimsə qılmandan sənə.

Çeşmimin sərçeşməsində tutmadın bir an qərar,
Haqlıyam artıq desəm sərvi-xuramandan sənə.

Can deyil dostluqda baqi, ayrılıqdan qorxuram,
Ey canım, gəlmir dilim ta söyləyim mən can sənə.

Gər gözəllikdə adın tək söyləsəm, el tən edər,
Qeyrlə birlikdə zikr etsəm, deyil nöqsan sənə.

Hər gecə nalən, Füzuli, kainatı tutmasa,
Əksiyəm itdən əgər mən söyləsəm insan sənə.

❀ ❀ ❀

Xaki-dərini sürməyi-çeşmü bəsər etdik,
Biz başqa gözəldən dəxi qəti-nəzər etdik.

Qorxan deyilik biz rəhi-eşqində rəqibdən,
Tədbir olara naleyi-ahi-səhər etdik.

Ta xaki-dərin almaya dövran başımızdan,
Xəm qədd ilə dünyanı dolandıq, səfər etdik.

Bir yarə alandan bəri tiği-sitəmindən,
Başdan çıxarıb, qeyri həvadən həzər etdik.

Gərdi-rəhini almaq üçün səcdə edərkən,
Biz çöhrəmizi xuni-ciyər birlə tər etdik.

Şövq ilə yolunda keçərək biz başımızdan,
Bir başqa xəyal eyləmədən, tərki-sər etdik.

Biz eşq yolun keçmədən, əvvəlcə, Füzuli,
Öz qəlbimizin arzularından güzər etdik.



Bahar əyyamıdır, gəlməz, nədəndir, şurə bülbüllər,
Məgər düşmüş lətafətdən könüllər şad edən güllər?

Çiçəklər ətr saçdı, nazəninlər seyri-bağ etməz,
Açılmış gülləri yeksər pərişan etdi qafillər.

Əgər eşq əhli etməzsə gözəl məhrulərə rəğbət,
Nə lazımdır bu ziynət, bu gözəllik, bu qara tellər.

Könüllər bəs neçin gülzarə bağlanmaz bu mövsimdə,
Məgər zənciri-zülfün açmamış gülşəndə sünbüllər?

Könül qönçə kimi yüzlərcə qəmlərlə düyünlənmiş,
Budur müşkül ki, dövran naz edir açdıqca müşküllər.

Suyu qoynunda gülşən bəsləyir, var vəchi, izzətlə
Ki, ondan zahir olmuşdur gözəlliklər, təcəmmüllər.

Füzuli, qorxu çoxdur rəhgüzari-eşqə düşməkdə,
Bu yollar çox ağır yoldur, gərək etmək təhəmmüllər.

❀ ❀ ❀

Ol gün ki, görməyir gözümüz öz həbibini,
Şövq ilə istəyir ki, görə öz rəqibini.

Gül xarlərlə həmdəm olub eyləyəndə naz,
Rəşk ilə iztirabə salır əndəlibini.

Bir çarə olmayıb, bilirik, eşq dərdinə,
Bica salırdı zəhmətə aşiq təbibini.

Gərçi ümid kəsməmişəm vəsli-yardən,
Qəlbim tükətdi dərd ilə səbrü şəkibini.

Könlüm dedim, o alma çənəndən alır şəfa,
Güldü, dedi: sən almadan al öz nəsibini.

Ya Rəb, yetir məni o məhin bəzmi-vəslinə,
Kəsmə bu aşiqin sən o yerdən nəsibini.

Yalnız, Füzuli, məqsədimiz kuyi-yardır,
Xaki-vətən sevindirər ancaq qəribini.



Şərh etsəm eşqini, tutar heyrət zəbanımı,
İzhar edim necə sənə sirri-nəhanımı?

Qəlbim yanırdı, vəslin ilə çarə istədim,
Tezliklə, bilmədim, yaxacaq od bu canımı.

Səd parə etdi könlümü qeyrət gedəndə sən,
Hər parə bir yana aparıbdır gümanımı.

Yandırdı rəşk odu, mənə rəhm et, gözəl günəş,
Salma kənarə sayeyi-sərvi-rəvanımı.

Yarım rəqibi öz iti söylər, əcəb deyil,
Mən rəşk oduyla yaxsam əgər üstüxanımı.

Agah edib bu zövq qəmi-eşqdən məni,
Canımla bağlayıb bu təni-natəvanımı.

Rüsvalıq aləmində, Füzuli nə ömr edim,
Bəlkə kəmali-zəf qutarsın fəğanımı.

❀ ❀ ❀

Od yanaqlı yardan ayrı saldı çün dövran məni,
Bir qığılcım tək, yəqin bil, məhv edər hicran məni.

İslanaydı kaş gözüm yaşiylə bu varlıq tozum,
Bəsdir ahımdan qopan yel qıldı sərgərdan məni.

Cövhəri-şövqi-ləbin var canda, bu vadar edər
Etməyə eldən nəhan bu canı, ey canan, məni.

Bir pəriçöhrə qəminin qəlbim olmuş mənzili,
Qorxuram rüsvay qılsın bu qəmi-pünhan məni.

Ox kimi yarın kaman qaşından atmışdır uzaq,
Sındırar bilməm haçan bu gərdişi-dövran məni.

Qəm deyil, canan yanında gər məni pislər rəqib,
İmtahan etmiş vəfa rahində çün xuban məni.

Ey Füzuli, dərdi-eşqim bir zaman pünhan idi,
Qıldı rüsva xalq içində dideyi-giryan məni.



Gülüm, hər ləhzə dilindən tutar azar məni,
Sancar ol bərgi-gülündən yetişən xar məni.

Bacarar zəfi-tənim gizlədə əğyarımdan,
Naleyi-zarım əgər etməsə izhar məni.

Məni təklik qəmi öldürdüsə, imdadım üçün
Bu qədər nalə ilə görmədi bir yar məni.

Mənim ülfət evimə yox yolu azadələrin,
Tapar ol kəs ki, ola dərdə giriftar məni.

Yanıb, ey şəm, onun məclisinə yol tapdın,
Qulunam, eylədi ustad bu ətvar məni.

Düşərək torpağa hər yerdə döşənnəm xəli tək,
Bircə kölgəmdi bilən dəhrdə qəmxar məni.

Ey Füzuli, fələyin olmadığından mehri,
Eyləyər ləhzədə bir mahə giriftar məni.

❀ ❀ ❀

Gəl alma qəlbimi məndən, nəsibim qəm olar, canan!
Zəifdirsə vücudum, bil, ağırdır möhnətim dağdan.

Gözəllikdə sənə Yusif bərabərlik edə bilməz,
Başı ərşə dəyər, olsa qulamın gər məhi-Kənan.

Ağırdır dərdim, ey canan, eşitsən tab qılmazsan,
Əgər şərhi-qəm etsəm, bil, qopar qəlbində min tufan.

Yetər qeydi-bəladə saxladın, kəs başımı qurtar,
Nolar ki, mən kimi aşiq edərsə can sənə qurban.

Cəlalın olsa da, Cəmşid tək məsti-qürur olma,
Hübabi-mey kimi bir ləhzədə məhv eyləyər dövran.

Gəl aşma həddini ta kim, xuraman olduğun yerdə,
Ayağın torpağı gər olsa da, fəxr eyləsin dövran.

Füzuli, ahü əfğanınla sən xəlqi çox incitdin,
Ədəm mülkündə yer tut, xəlq dincəlsin fəğanından.



Qarət etdi yuxumu, uyquma gəldi gecə yar,
O səbəbdən yuxu gəlməz gözümə leylü nəhar.

Qəm çəkən könlümə, naseh, sözün etməz təsir,
Külək əsdikcə dənizdə ləpə şiddətlə vurar.

Səni gördükdə könül qanı gözümdən axdı,
Camımı vurdu daşa çərx, məni qoydu xumar.

Qəlbimi parələdi zülmlə eşqin tiği,
Açmayanlar bu kitabı nə bilir onda nə var.

İstəməz dil ki, şikayət edə məhrulərdən,
Çünki mən istəmərəm dostlara olsun azar.

Zəfdən bir sapa döndümsə, fələk çəkməz əlin,
Hey eşər bəlkə daha incələ bu cismi-nizar.

Ey Füzuli, bu fəna dəhrdə yox əhli-vəfa,
Sanma bihudədir ondan əgər olsam da kənar.



Nə qalıb məndə dilü din, nə də ki, səbrü qərar,
Məni tənha buraxıb tərkimi qıldı onlar.

Nə qədər harda ələm var mənə həmraz olacaq,
Yetdi hərcayi müsahiblər ilə qəlbə qübar.

Baxmıramsa üzünə, vəchi budur: qısqanıram,
Hüsnünün seyrinə daldıqda gözüm, ey dildar.

Açmaram kimsəyə, ölsəm də, ürək sirrimi mən,
Dərdi-pünhan mənə xoşdur, nə gərəkdir izhar?

Zövqi-eşqin elə avarəsiyəm kim, məndə
Nə yerin fərşi, nə göy çətrinə bir rəğbət var.

Hazıram hökmünə, ey eşqin ulu sultanı,
Əmrlər ver, qulunu qıl özünə minnətdar.

Xalq Fərhad ilə Məcnunu, Füzuli, unudub,
Tək mənim adımı eşq eylədi aləmdə şüar.

Mən qəmə öyrənmişəm, biqəm mənə lazım deyil,
Qəmdə zövq olsa əgər, ol həm mənə lazım deyil.

Mən qaçarsam öz-özümdən, var yeri, üzlətdə çün
Vəhşilərdir həmdəmim, adəm mənə lazım deyil.

Mərdümi-çeşmim də olsa, istəməm görsün gözüm,
Sənsiz, ey göz mərdümü, aləm mənə lazım deyil.

Saqiya, mey paylayanda camımı tök torpağa,
İçmərəm mey, xatiri-xürrəm mənə lazım deyil.

Göz yaşım şadlıq büsatın sel kimi eylər xərab,
Gül üzün yox, dideyi-pürnəm mənə lazım deyil.

Qaneyəm kuyi-muğanda bir qədəh dürdi-meyə,
Təxti-Cəmşid ilə cami-Cəm mənə lazım deyil.

Yar cəfasilə, Füzuli, yox vəfayə hacətim,
Qəlbimə xoşdur yara, mərhəm mənə lazım deyil.

❀ ❀ ❀

Cəmalın bir günəş tək parladı, nəm qoymadı canda,
Daha yaş tökməyə yoxdur təvan bu çeşmi-giryanda.

Silindi səndə özgə hər nə varsa qəlb lövhimdən,
Əridi ah oxumda vurduğun üç pərli peykan da.

Bizə ram oldu, bizdən od kimi qorxub qaçan ol şam,
Yəqin, pak eşqimizdən bir əsər var ahi-suzanda.

O bütdən kam alan bir daş ürəkli aşiq olsaydı,
Yəqin qoymazdı qalsın kamımız o nazlı cananda.

Daha eşqin bəlalı cismimizdə qoymamışdır tab,
Xəzan yarpağına oxşar ki, solmuşdur gülüstanda.

Bu sədparə könül görsün deyə ol mahi-rüxsarın,
Açar ulduz kimi yüz pəncərə sinəmdə hər anda.

Füzuli, daş ürəkli yarə etməz göz yaşın təsir,
Nə səndə göz yaşı qalmış, nə rəhm ol mahi-tabanda.



Gər öləndən sonra kuyin etsələr mədfən mənə,
Qəbr əzabı verməz ol gülşəndəki məskən mənə.

Saqi, mey ver, qəmdən öz nəfsimlə çarpışmaq yetər,
Göstərə rahi-nicati bəlkə mey məndən mənə.

İndi ki, dostum mənə risvalıq istər, çarə yox,
Qoy olum risva, nə eylər təneyi-düşmən mənə.

Yanmasın ruhum necə könlüm odundan, etməmiş
Üstüxan fanus tək guya dəmirdən tən mənə.

Məqsədim mənada Yusifdən mənim surət deyil,
Mən nə Yəqubəm ki, versin zövq pirahən mənə.

Qorxmayır cövri-xəzandan, gör necə güllər gülür,
Ağladır, matəm verir bu qəfləti-gülşən mənə.

Can bədəndən, ey Füzuli, çıxdı, xak oldu bədən,
Eşqi oldu afəti-can, həm bəlayi-tən mənə.

❀ ❀ ❀

O yarın gül üzarında, gönül, bir xarə yetdim mən,
Şükür Allaha, işsiz qalmadım, bir karə yetdim mən.

Bu gülşən içrə gülbün tək cəfayi-cövr gərdundan
Ciyər qanı yeyib, ta bir gül üzlü yarə yetdim mən.

Səgi-kuyin ürəklə, göz qanilə çünki seyd etdi,
Şikari bir itəm, bir ahugöz dildarə yetdim mən.

Saçın dövründə mən düşdüm əcəb girdabi-əşk içrə,
Nə bakim çərx cövründən, mətin divarə yetdim mən.

Mənə pünhani-qəm nəqdin əmanət verdi gülrüxlər,
Gözəllər içrə oldu etibarım, varə yetdim mən.

Yetər tənhalığında çün xəyalın həmdəmi-razım,
Sənə yox ehtiyacım, başqa bir qəmxarə yetdim mən.

Füzuli, dərdimi sayəm bilir, gər kimsə bilmirsə,
Şükürlər kim, özüm tək bir təvazökarə yetdim mən.



Dünyaya gəlmişik, qəm ilə həmdəm olmuşuq,
Qəm aşinası dəhrdə biz hər dəm olmuşuq.

Qəmdən mən ayrı düşməmişəm, məndən isə qəm,
Hər yerdə olmuşuqsa da, biz həmdəm olmuşuq.

Dünyaya gəlmədən qəmi-ləli-ləbinlə biz,
Yoxluqla ömrlər uzunu bahəm olmuşuq.

Ta kim, sənin kaman qaşına bağladıq könül,
Peyvəstə biz nişaneyi-tiri-qəm olmuşuq.

Bizdən qəmin bəlaləri bir dəm az olmamış,
Hər ləhzə biz bəlalərinə məhrəm olmuşuq.

Əzm eylədiksə hər yerə biz bir niyaz üçün,
Üftadəlikdə xaki-qədəm tək kəm olmuşuq.

Bir dəm, Füzuli, yetməmişik arizumuza,
Dərdü ələm yükilə kəman tək xəm olmuşuq.

❀ ❀ ❀

Asiman, sinəni ahım gecələr aldı nişan,
Deyil ulduzlar, o sinəndəkilərdir peykan.

Zülfünün fikrinə sinəmdə könül yer vermiş,
Ölüyə qəbrdə əqrəblər olur munisi-can.

Zülfdür gərdəninə düşdü və ya ağ buxağın,
Ah odumda alışıb tüstülədi, ey canan!

Çün cəfa dərsini məktəbdən o dilbərlər alır,
Yıxdı məktəb evimi, kaş ola məktəb viran!

Çəksə at nalları dağ qəlbimə, bivəch deyil,
Yolunun torpağıdır min ürəyi dağlı cavan.

Əksini meydə görüb, qibtədən öldüm, qorxdum,
Ləbinə ləb toxuna sağərə ləb qoycaq haman.

Bu Füzuli nə üçün yetmədi öz mətləbinə,
O ki, yalqız gecələr sübhə qədər etdi fəğan?



Utanmaqdan deyil, açmaz söz ol şirinzəban bizdən,
Nə söz tapsın desin, axır tapılmaz bir nişan bizdən.

Fələk bir əyri çəngdir, biz yazıqlar ondakı simlər,
Rizası dostların mizrabdır, qalxır fəğan bizdən.

Ünümlə zahirəm, zəfimlə pünhan, bu nə sevdadır
Ki, biz aləmdə rüsvay olmuşuq, rüsva cahan bizdən.

Soruşma halımı, çəkmiş içimdə eşq odu şölə,
Sümüklərdə ilik yanmış, qalıb qarə ilan bizdən.

Ürək dərdi sağaltmaqda, təbibim, mahir olsan da,
Xəta qıldın, çox öldürdün, edərkən imtahan, bizdən.

Çətindir asitanından sənin üz döndərək, canan!
Əgər ulduz kimi bir gün bəzənsə asiman, bizdən.

Sənəmlər nəzri qıldın, ey Füzuli, cism ilə canı,
Sənəmlər qarşısında Tanrı qoymaz xar olan, bizdən.

❀ ❀ ❀

Səbəb var, istərəm daim xəti-rüxsari-xubani
Ki, vermişdir mənə yarımla ülfət etmək imkani.

Cəfasın çəkdiyim ol xətti-mişkinə qulaməm mən
Ki, minlərcə mənə zahir qılıbdır lütf pünhani.

Könül ol gülrüxün gülzari-ruyin seyr edər indi
Ki, örtmüşdür xəti-mişkin ilə rüxsari-canani.

Dil açdı ol xəti-mişkininin hər bir səri-muyi,
Çağırdı süfrəyi-vəslə o hər qəlbi pərişani.

Cəfadən yanmadı könlüm taparkən xətti-mişkinin,
Gecə gəldikdə saldı istilikdən şəmsi-tabani.

Könül, ol müshəfi-ruyin xətindən olma gəl qafil,
Müsəlman eyləmiş bu ayə çün ol namüsəlmani.

Pərilər xətti-ruyindən, Füzuli, başqa tilsim yox
Ki, etsin aşina hər bir pərirüxsarə insani



Afət olsan da, könülsən, cismsən, cansan mənə,
Mən sənə dostam, nədir illət ki, düşmansan mənə.

Ey mənim canım, nə xeyri, eyləsəm meyli-həyat,
Sən ki, canımsan, belə namehriban olsan mənə.

Yusifin hüsnü zaman keçdikcə mindi qiymətə,
Ey qoşan qiymət dalınca, mahi-Kənansan mənə.

Şəmsən, atəşsən, olmaz kim, gəzəm səndən uzaq,
Qəlbimə nur bəxş edən bir mahi-tabansan mənə.

Həsrətində şam kimi yandım, gözəl, bir halda kim,
Sən işıqlı bir səhərsən, afəti-cansan mənə.

Qəm baharında açan bir laləyəm, sən jaləsən,
Göz yaşımsan damənimdə, ləlü mərcansan mənə.

Ey Füzuli, eşqdə tək sən çəkirsən qibtəmi,
Öylə isə sən şəriki-dərdi-hicransan mənə.

❀ ❀ ❀

Gülrüxüm, sərvqədim, canına canimdı fəda,
Ma bəda qəbləkə ma fiykə minəl-hüsni bəda[1]

Səndən özgə gözələ vermərəm aləmdə könül,
Əkrəhüş-şirkə fəla üşrikü Rəbbi əhəda[2].

Çox çətindir bu tərəddüd yolu eşq əhli üçün,
Keyfə la əhmədü mən səhhələ əmri və hüda[3].

Eşqinin zövqü əzəl gündən olubdur mənə yar,
Tabə li yəcələhüllahü rəfiqi əbəda[4].

Kəbəyi-məqsədə yol tapmadım, azdım yolumu,
Mənə yol göstər, ola yavərin aləmdə xuda.

Nəqd canı nə rəva boş yerə sərf eyləyəsən,
Göstər ol gül üzünü ta eləyim canı fəda.

Bu qədər sorma Füzuli necə mənsiz keçinir,
Nə olar hali ki, səndən düşə hər kimsə cüda.

[1] Tərcüməsi: Səndəki gözəlliklər səndən əvvəl heç kəsdə görünməmişdir.
[2] Tərcüməsi: Şirkdən ikrah edirəm, kimsəni Allaha şərik etmirəm.
[3] Tərcüməsi: İşimi asanlaşdırana və mənə yol göstərənə necə tərif deməyim.
[4] Tərcüməsi: Allah məni həmişəlik onun yoldaşı etsin.



Salmasaydı bəndə gər ol türreyi-pürxəm məni,
Saxlaya bilməzdi yüz zəncir ilə aləm məni.

Ol pərinin mən xəyalilə xoşam, naseh, çəkil,
Neyləyim, cəlb etməyir əslən bəniadəm məni.

Nə mənəm qəmsiz, nə qəm mənsiz bir an, Allah məgər
Xəlq edibdir ta sevəm daim qəmi mən, qəm məni.

Olmasa gül üzlü yarın ləbləri, şad eyləməz
Olsa saqisi əgər Cəmşid, cami-Cəm məni.

Olsa da cismim əgər sevdayi-zülfündən zəif,
Övci sevdadə hilaləm, sanma hərgiz kəm məni.

Dağ çəkəydi qəlbimə, bir qan içən dilbər hanı?
İncidir, ey həmnişin, bu xatiri-xürrəm məni.

Naləmiz vardır, Füzuli, artırır çox dərdi-sər,
Qoy bu hicran günləri yad etməsin həmdəm məni.

❀ ❀ ❀

Mənim əhvalıma rəhm eyləməzsən, ey gözəl, bir an,
Sənə aşiq deyil lazım məgər, bunca tökərsən qan?

Küləkdən od çəkər şölə, təəccüblü deyildir bu
Ki, hüsnün günbəgün artar mənim ahü fəğanımdan.

Əgər məndən gəlirsə könlünə azar bir ləhzə,
Sənin qoy xatirinçün mən olum avarə, sərgərdan.

Fələk bilmiş ki, məndə qalmamışdır tab didarə,
Odur kim, gizlədər məndən camalın, eyləyər pünhan.

O gül şaxinə sən bir qönçə tək bağlanmısan, könlüm!
Açılma gül kimi, yoxsa düşərsən ayrı canandan.

Cəfa ilə vəfadə, ey gözəl, bir ixtiyarım yox,
O hüsnün hökmüdür, etmiş səni bir sahibi-fərman.

Füzuli, xaki-payindən o mahın sən şərəf tapdın,
Yetər əflakə başın bu şərəflə çün məhi-taban.



Möhnət odilə şəm misal od tutub tənim,
Sədparə etdi qəlbimi dərdü ələm mənim.

Eşqində yandı halimə qəlbi rəqibimin,
Şadəm ki, qüssədən alışıb yandı düşmənim.

Vacibdir eyləyim bu pərilərdən ictinab,
Çünki olubdu hər birisi canıma qənim.

Öldürdü laləüz məni dağ ilə, ey bulud!
Sən ağla, laləzarə dönə bəlkə mədfənim.

Tənhalığın bəlası mənə eyləməz güzər,
Ol vəqtdən ki, möhnətü qəm bildi məskənim.

Bir ömrdür əlaqə donundan mücərrədəm,
Bir qəm tikanı tutmamış aləmdə damənim.

Qəmdən mənə, Füzuli, tapılmaz nicatə yol,
Tutmuşmu seyli-təfriqə dövrü bərim mənim?

❀ ❀ ❀

Bu qədər məndə həvəs kim, qədi-rənadən olub,
Feyzi-məxsusdur ol, aləmi-baladən olub.

Rüxi-zibayə nəzər eşqi ki, var qəlbimdə,
Pak bir nurdur ol, xaliqi-yektadən olub.

Eşqdən istəmədim mən özümə risvalıq,
Bu bəlalər mənə ol dilbəri-ziybadən olub.

Deyil aşiqliyimin nəşəsi bu aləmdən,
Özgə dünya dəxi var, nəşə o dünyadən olub.

Yenə bu fikr, Füzuli, belimi etdi kəman,
Əyri qəddimlə bu düzlük nə müəmmadən olub?

❁ ❁ ❁

Qəddi-balana baxanda bir bəla gördüm səni,
Valeh oldum, harda mən, ey dilrüba, gördüm səni.

Sevgilim, səndən cəfalər tifl ikən az görmüşəm,
Novcəvan oldun, bütün cövrü cəfa gördüm səni.

İndidən öyrənmədin sən biməfalıq rəsmini,
Gördüyüm gündən elə mən biməfa gördüm səni.

Keçməyəydim kaş, ey gül, xaki-kuyindən sənin,
Dün neçə biganə ilə aşina gördüm səni.

Oldun, ey zalim könül, pabəndi dami-zülfünün,
Şükrlər kim, bir bəlayə mübtəla gördüm səni.

Görməyindən olmadı hərgiz könül şad, ey rəqib,
Ancaq ol saət ki, canandan cüda gördüm səni.

Gər deyilsənsə, Füzuli, aşiq, ağlar gözlə mən
Kuyi-cananda nədən sübhü məsa[1] gördüm səni.

[1] Gecə-gündüz

❀ ❀ ❀

Kimsə bizə hicran gecəsində güzər etməz,
Pəjmürdə olan halıma bir kəs nəzər etməz.

Qəm qoymadı məndən bir əsər yar yolunda,
Heç bir kəsə könlümdəki qəmlər əsər etməz.

Öldüm qəmi-hicrində, xəbər tutmadı bir kəs,
Halın necədir, kimsə mənə heç xəbər etməz.

Çoxdur hamudan dərdü qəmim, çünki sənin tək
Heç bir gözəl öz aşiqini dərbədər etməz.

Eşqinlə ciyərlər oda yandı, külə döndü,
Mehrin dəxi heç kimsəni xuninciyər etməz.

Ey şuxi-cəfakar, vəfa eylə ki, heç kəs
İncitməyi, öldürməyi zənni-hünər etməz.

Tərk eylə bu aləmdə nə var, qorxma Füzuli!
Təklik yolunun saliki xofi-xətər etməz.



O qara zülfünü gəl açma sən, ey nazlı nigar!
Cismimi canım ilə bağlayan ol tel qırılar.

Saxlaram gizli sənin sirrini qəlbimdə, fəqət
Qorxuram xəlqə onu göz yaşım etsin izhar.

Göstərib gül üzünü, aləmi gəl etmə xərab
Ki, belə afət olan yerdə böyük fitnə qopar.

Aşiqik, yoxdu bu sevdadə sənəmlərdə günah,
Dili-şeyda bizi risva qılıban eylədi xar.

Eşqdən qanə dönüb gözdən axeydi, ey kaş
Ki, çəkir qönçə dəhənlər sitəmin bu dili-zar.

Yetir, ey bəxt, məni yarın ayaq torpağına,
Qoyma torpağa gedə məndə bu həsrət, zinhar.

Yad edib sünbüli-geysuləri, göz yaşları tök,
Ey Füzuli, susuz, əlbəttə, solar ol gülzar.

❀ ❀ ❀

Tərki-dünyalıq nədir, təqva nədir? – biz bilmərik,
Eşqdən başqa nə var əfsanədir, – biz bilmərik.

Aləmin heç əmrinə bizlərdə yoxdur ehtiyac,
Xalq deyir: var ehtiyac, amma nədir – biz bilmərik.

Eşqdən başqa geniş dünyada işlər yox deyil,
Başqa işlər aşiqə biganədir, – biz bilmərik.

Sorma bizdən şiveyi-təqlidü rəsmi-etibar,
Əhli-dünya səyinə məna nədir? – biz bilmərik.

Yarın eşqilə onun didarı şövqündən səvay,
Sorma zahid, ləzzəti-dünya nədir? – biz bilmərik.

Sirri-həqqin məzhəri, aləmnüma ayinəmiz
Saf meydir, sadə üz, başqa nədir? – biz bilmərik.

Söylədim: öldü Füzuli asitanında sənin,
Söylədi: kimdir ölən, harda, nədir? – biz bilmərik.



Könüldə, canda eylər ol pərinin dərdini pünhan,
O kəs kim, gizlədə bilsin odu xaşak ilə asan.

Necə tərkəşdən ox, mən sinədən ah üstə ah çəkdim,
Bu həsrətlə ki, vursun sinəmə ox üstə ox canan.

Üzüm qanla bəzəndi, ey gözəl, bir laləzar oldu
Ki, sən seyrə çıxanda lalə tək öpsün ayağından.

Könül, zöhdü riyadan zərrəcə bir kimsə xoşlanmaz,
Uzaqlaş bu əməllərdən, behəqqi, xaliqi-sübhan!

Gecə röyadə gördüm könlümü zülfündə sərgəştə,
Pərişandır yuxum, qaldım özüm təbirinə heyran.

Bu varlıq dərdini, bəsdir, Füzuli, bunca çəkdin sən,
Əri qəmdən ki, hər altı cəhətdən rahət olsun can.

❀ ❀ ❀

Eşqdə məzmun olub xətti-rüxi-canan mənə,
Böylə yazmış taleyimdə saneyi-dövran mənə.

Kuyinin torpağın öpmək gündə yüz yol, sevgilim,
Şahlığından yaxşıdır dünyalərin hər an mənə.

Kuyini tərk etmərəm ölsəm də, məhv olsam da gər,
Gülşəni-kuyin olub çün rovzeyi-rizvan mənə.

Vəslinə yetmək ümidilə yəqin olmuş bu kim,
Ölməyim eylər müqərrər möhnəti-hicran mənə.

Can bu ümmid ilə verrəm kim, uzaqlaşsın məgər
Möhnəti-hicrin ki, vermiş dərdi-bipayan mənə.

Qəlb dağından, Füzuli, olmuşam sultani-eşq
Kim, cünun mülkün edib ol tabei-fərman mənə.

❁ ❁ ❁

Xali vardır, söyləyir, kim gördü ruyi-alini,
Çəkmədim mən qaşlarından göz, görüm ta xalini.

Ta göz açdım, öz yerində görmədim könlüm quşun,
Odlanıb görcək sənin şahbazi-mişkin balini.

Kirpiyin hər bir oxunda bir könül var, yat, gülüm!
Cəm qıl aşiqlərin qəlbi-pərişanhalini.

Görməyi bir həftədir kim, olmamış qismət mənə,
Neyləsin aşiq, keçirsə böylə mahü salini.

Söylədim: xalından ayrıldım əyilmiş qəddlə,
Söylədi: "dal" nüqtəsizdir,[1] pozma gəl əhvalini.

Sənlə xoşhaləm cünun dəştində, ey ahim, mənim
Eyləmə əskik başımdan sayeyi-iqbalini.

Əşk mövcündən, Füzuli, sanma seyrər gözlərim,
Ol məhin görməkdəyəm rüxsari-fərrux falini.

[1] Ərəb əlifbasında "dal" hərfi nöqtəsiz yazılır.



Görüşün nur verir dideyi-xunbarımıza,
Vəslətin mərhəm olur sineyi-qəmxarımıza.

Dərd-sərsiz çatırıq vəslinə, bundan başqa
Şükri-nemət nə gərəkdir, gözəlim, karımıza?

Qəm idi həmdəmimiz, bizdən uzaqlaşdı o da,
Çünki tab eyləmədi dideyi-xunbarımıza.

Olmadı istəyimizcə fələyin dövrani,
Rəhmi gəlmişdir onun ahi-dili-zarımıza.

Asiman qarşımıza açdı səlamət qapısın,
Getdi qəm, verdi şəfaət dili-bimarımıza.

Qalmadı dövri-fələkdən daha bir vahiməmiz,
Bir də yetməz əli çərxin bizim azarımıza.

Ey Füzuli, daha şükr eylə ki, zülmət gecəsi
Görsənir nuri-səhər dövləti-bidarımıza.



Kirpiyimdən qan sızar şamü səhər, bilməm neçin?
Canımı üzməkdədir sonsuz kədər, bilməm neçin?

Halimə heyran ikən aləm, özüm heyrətdəyəm
Kim, mənim halimə heyrandır bəşər, bilməm neçin?

Ol qədər hali pərişanəm, pərişan xatirim
Anmayır hardan pərişanlıq yetər, bilməm neçin?

Yar könül dərdinə yüz dərman bilir, məndən vəli
Bildiyin inkar edir ol simbər, bilməm neçin?

Qalmışam avarə, sərgərdan, yarımdan mən cüda,
Çərx edibdir mən fəqiri dərbədər, bilməm neçin?

Nalədən, fəryaddən könlüm təsəlli tapmayır,
Vəsli də, hicranı da qılmaz əsər, bilməm neçin?

Ey Füzuli, öldürər dərdim məni, axtarmaram
Nə təbibdən, nə dəvadan bir xəbər, bilməm neçin?

❀ ❀ ❀

Yoxdu bu rüsvalığın dərdinə dərman, ey təbib!
Eyləmə rüsva özün, həm qəlbimi qan, ey təbib!

Olmaq istərsən əgər asudə, qoy rahət məni,
Dərdimin yox çarəsinə çünki imkan, ey təbib!

Sən qan almaqla, yəqin, bir fayda verməzsən cana,
Şövqi-ləlini çıxar mümkünsə candan, ey təbib!

Olsa hər şərbət, bu sevda dərdinə etməz əlac,
Şərbətimdir vəsli-yarü zikri-canan, ey təbib!

Qəmlə öldürsən məni izhar qılma kimsəyə,
Qoy rəqibim bilməsin var məndə əfğan, ey təbib!

Məqsədim açmaq deyildi dərdimi əsla sənə,
İstədim pünhan edim, səndən nə pünhan, ey təbib!

Öldürüb yüz sən kimi bidərdi bu dərdim mənim,
Gəl Füzuli dərdini sanma çox asan, ey təbib!



Qəmi sinəmdə yer tutmuş, ürək pürxun ola, ya Rəb!
Bu qəm qalsa əgər, dərdi-dilim əfzun ola, ya Rəb!

Nədən qoymur onun kuyində məskən tutmağa bir gün,
Mənim tək böylə sərgərdan görüm gərdun ola, ya Rəb!

Peşəm qan udmaq olmuşdur o meygun ləldən ayrı,
Mənim bu qan udan könlüm görür pürxun ola, ya Rəb!

Dedin səbr et, səni şad eylərəm, səbrim tükənmişdir,
Vüsali-yarə çatdır, xatirim məmnun ola, ya Rəb!

Fələk qoymur murada yetməyə, canım çıxır təndən,
Görüm qismət mənə ləli-ləbi-meygun ola, ya Rəb!

Könül razı deyil əsla rəqibim inciyə məndən,
Desə bu qəlbə məhzun ol, görüm məhzun ola, ya Rəb!

Füzuli, dərdlinin qədrin nə bilsin hər yetən bidərd,
Könül qəmdən alır zövqü, qəmim əfzun ola, ya Rəb!

❀ ❀ ❀

Yarın hicrində yenə gözlərim ağlar bu gecə,
Sən sön, ey şəm, mənim ağlamağım var bu gecə.

Yad edib şəmi-rüxün, istərəm atəşdə yanam,
Səpmə su bu oda, ey dideyi-xunbar, bu gecə.

Qətlimin vədəsini sübhə qoyub, sübhə kimi
İntizar öldürəcəkdir məni, ey yar, bu gecə.

Kuyi-yarə, dayan, ey nalə ki, gizlin gedirəm,
Məni rüsvayi-cahan eyləmə, zinhar, bu gecə.

Ağladım, göz yaşımın nəqdi tamam oldu bu gün,
Nə nisar eyləyərəm gəlsə o dildar bu gecə?

Gözlərimdən yuxunu qarət ediblər, yoxsa
Qara bəxtimdir edibdir məni bidar bu gecə.

Səri-kuyində Füzuli gecələrdi, sən onu
Niyə qovdun, hara bəs getsin o naçar bu gecə?



Gər gözümdən almasa könlüm odu hər ləhzə ab,
Bu könül yanğısına etmək necə mümkündü tab?

Ayrıl, ey sayə, cəfayə çünki olmur tabın heç,
Tez qaçarsan, gər qılınc çəksə mənə ol afitab.

Görməsin ol afitabi-hüsnünü sayəm deyə,
Onların mən ortasında rəşkdən ollam hicab.

Yar günəş üzlü, mənim ahimsə atəş xərməni,
Bu iki atəşdə, bilməm ki, nədən yanmaz niqab?

Qətlimə qəsd eylədi yarım, fəqət öldürmədi,
Mən qan içrə çırpınırkən məndən eylər ictinab.

Mən bəla bəzmində şəməm, ol pəriçöhrə bir od,
Getsə sönnəm, gər yaxın gəlsə, verər yüz iztirab.

Yaxdı ahım çərxi, o, qan daim uddurdu mənə,
Qisməti qandır odun, hər yanda gər yansa kəbab.

Ey Füzuli, tiği-çərx öldürdü gözdə uyğunu,
Mərdümi-çeşmim çəkir matəm libasında əzab.

❀ ❀ ❀

Sübhədək yatmayıram, yoxdu qərarım gecələr,
Qəmü qüssəndir işim, nazlı nigarım, gecələr.

Gündüzüm oldu gecə, göz yaşım ulduzdu ona,
Kaş bu dövrü yaxa ahi-şərarım gecələr.

Lütf qıl, bir gecə gəl külbeyi-əhzanıma sən,
Gör mənim halımı, bil, yoxdu mədarım gecələr.

Bilməsinlər deyə eşqində yanan bircə mənəm,
Xəlqi fəryadə salır naleyi-zarım gecələr.

Hər səhər halımı ta kim, sənə ərz eyləyələr,
Xəlqi bidar edirəm, laləüzarım, gecələr.

Keçir əflaki mənim naleyi-zarım, bəlkə
Eşidə ol üzü ay, çeşmi-xumarım gecələr.

Ey Füzuli, mənə zülmət deyil hicran gecəsi,
Şəmi-bəzm oldu xəyali-rüxi-yarım gecələr.



Tünd olur hərdəm məzaci bisəbəb,
Eyləyər aşiqlərə yarım qəzəb.

Arizuya yox müəyyən bir məqam,
Axıra yetməz, odur rahi-tələb.

Eşq zövqündən xəbərsizdir o kəs
Kim, ona təsiri-meydəndir tərəb.

Ləblərindən kami-dil mümkün deyil,
Qoymamış bizdə könül ol qönçələb.

Sən həyatın çeşməsi, mən zülmətəm,
Çatmasa vəslə əlim, olmaz əcəb.

Sən qaçırsan, biz sənin şövqündəyik,
Böylə keçdi mahü salü ruzü şəb.

Çox çətin işdir yəqin ülfət bizə,
Sən hicab altında, biz əhli-tələb.

Ey Füzuli, vəsli-yar mümkün deyil,
Çəkmə nahəq sən belə rəncü təəb.

❀ ❀ ❀

Gülzari-kuyin içrə rəqibin səfası var,
Ruyin görən bir aşiqə yüz min cəfası var.

Səndən muradə çatmağım olmuş mahal, çün
Həsrətdə qalmağımda rəqibin rizası var.

Cövrü cəfaləri o məhin məndən ötrüdür,
Amma rəqibə gör necə mehrü vəfası var.

Hər gün rəqib seyr eləyir xaki-kuyini,
Üz sürtərəm ayağına, çün tutiyası var.

Hər dərdi xəstə canıma asan görünsə də,
Lakin rəqibimin daha müşkül bəlası var.

Aşiqlərin həyatı vüsalindədir, fəqət
Gər bu müyəssər olsa, rəqibin fənası var.

Söylə, Füzuli, səbrü qərarın nə oldu bəs,
Nə səndə bir dözüm, nə rəqibin vəfası var.



Gəlmək imkanım olardı kuyinə, qoymur rəqib,
İt hürüb fəryad edər hər yerdə görsə bir qərib.

Vəslə mayildir könül, ancaq çətin bir işdi bu,
Süfreyi-vəsli onun dərd əhlinə olmaz nəsib.

Atəş olsaydı gülün şövqilə qəlbində əgər,
Min qəfəs ahı odiylə yandırardı əndəlib.

Nəbzimi tutmuş müalic dərdimi təşxis edə,
Dərdimin dərmanını tapmaz mənim əsla təbib.

Səltənət əhlilə, əlbəttə, o kəs kim, fəxr edər,
Mümkün olmaz görməsin hər cür əziyyət ənqərib.

Gizlədir canım könüldən, gəh könül candan onu,
Qalmaz ol gülçöhrə dilbər dəhr içində biməqib.

Vəsldən qeyri bu dərdli könlümün yox məqsədi,
Müstəcab eylə duamı, ey olan zati nəcib!

Ey Füzuli, çox soruşma olmusan heyran kimə,
Öylə heyran olmuşam, heç bilmirəm kimdir həbib.



Qurandı vəsfi-cahü cəlali Məhəmmədin,
Əhkami-şər şərhi-kəmali Məhəmmədin.

Hər bir xəbər ki, cümlə nəbilərdən almışıq,
Olmuş bəyani-hüsnü xisali Məhəmmədin.

Ol kafü nun ki, xilqətin əsli olub, odur
Kafi-kəmali, nuni-nəvali Məhəmmədin.

Adəm başında məddi-əlif tacdır, olub
Məzmuni-mimü məniyi-dali Məhəmmədin.

Ziynət olur əzəllə əbəd lovhinə tamam,
Nəqşi-xəyali-nöqteyi-xali Məhəmmədin.

Əqlin qanadları uça bilməz o yerdə kim,
Olmuş o cilvəgahi-xəyali Məhəmmədin.

Dövran Füzuli işlərinə verməyib nizam,
Vermiş onu Məhəmmədü ali-Məhəmmədin.

❀ ❀ ❀

Var canda arizusu vüsali-Məhəmmədin,
Gözlərdə intizari cəmali-Məhəmmədin.

Cismim hilalə dönsə də, dövran deyil səbəb,
Yadilə incəlibdi hilali Məhəmmədin.

Çəkmiş bu tazə dağləri qəmli sinəmə,
Şövqi-vüsali-daneyi-xali Məhəmmədin.

Qəlbimdə özgə mehri üçün qalmayıbdı yer,
Olmuş bu mülk vəqfi-xəyali Məhəmmədin.

Ayinə tək bu tutiyi-nitqim zaman-zaman,
Vəsfindədir sifati-kəmali Məhəmmədin.

Etmiş Füzuli qeyrilərin tərk mehrini,
Eşqindədir Məhəmmədin, ali-Məhəmmədin.

❀ ❀ ❀

Ey ay üzlüm, qamətin sərvi-xuramandır mənə,
Sərv boylum, ay üzün şəmi-şəbistandır mənə.

Halımı hicrin xərab etməkdədir, vəslinsə xoş,
Hicrin olmuş dərd, vəslin zövqü dərmandır mənə.

Dil əsiri-qamətin, canım meyi-ləlinlə məst,
Qamətin kami-dilim, ləli-ləbin candır mənə.

Bədnəzərdən qaməti cananımın olsun iraq,
Sərvi-gülzari-məlahət qəddi-canandır mənə.

Söylədim, ey büt, könül dami-bəla küncündədir,
Söylədi ol dami-qəm çahi-zənəxdandır mənə.

Könlümün sirrin açıb aləmlərə faş eyləyən
Düşmən ol göz yaşıdır, çaki-giribandır sənə.

Ey Füzuli, aldı ol sərvi-rəvan aramımı,
Gərçi arami-dili-zarü pərişandır mənə.



Atlanıb ol türki-bədxu eylədi əzmi-şikar,
Qalmadı yüz aşiqi-biçarədə səbrü qərar.

Dəhr nəqqaşi üzün gördükdə, cana, rəşkdən
Gülşən içrə hər nə nəqş etmişdi qıldı tarümar.

Var yeri ləli-ləbin yadilə qan içsə könül,
Qırmızı su versələr məstə içər, badə sanar.

Pərdəni açdın üzündən, ayda taqət qalmadı,
Zülfünü açdın, xəta mişkinə təng oldu bazar.

Bisütunu yarmağa Fərhad neylər tişəni,
Şirin eşqindən onun qəlbində gər bir şölə var.

Əhli-mənanın yanında yox səbatı aləmin,
Ömr bir çaydır axar, yoxdur ona bir etibar.

Ol sənəm eşqində yalnız vermədim mən nəqdi-can
Hansı din əhli, Füzuli oldu ol bütdən kənar?

❀ ❀ ❀

Yaşlı göz bir güzgüdür, onda könüllər əks edər,
Gözdə yaş artdıqca, qəlbin nuru artar ol qədər.

Qətreyi-əşkindən istə naümid olduqda kam,
Kim ki, ulduzla gedə görməz o zülmətdə xətər.

Qəlb varsa, əql varsa səndə, gözdən yaş axıt,
Ağlayıb ah çəkməyənlər bir ağacdır bisəmər.

İntihasız göy dənizdə bir hübabı andırar,
Eşqi-cananla dolu bu könlümə salsan nəzər.

Eşqə düşdün, qoy saralsın surətin, bu yaxşı rəng,
Eşq bazarı rəvacın artırar əlbəttə zər.

Şam od ilə tutdu ülfət, aqibət yandı özü,
Kim tutarsa üns düşmənlə peşimanlıq çəkər.

Ey Füzuli, kim düşüb bir qəddi-sərvin eşqinə,
Bir köpük tək göz yaşı bəhrində sərgərdan gəzər.



Ömrün uzun olubsa pərişan keçib gedib,
Daim əsiri-türreyi-canan keçib gedib.

Zövqü vüsal bilməsəm eyb etməyin mənə,
Ömrüm həmişə hicrdə nalan keçib gedib.

Qəlbimdə vardır öylə bir od, səndən özgələr
Yanmış bu odla, cümləsi suzan keçib gedib.

Keçdi ölüm xəyali könüldən o yerdə ki,
Tərifi-tiri-qəmzeyi-xuban keçib gedib.

Gəl, ey təbib, dərdimə axtarma sən əlac,
Bimari-eşqə eyləmə dərman, keçib gedib.

Zahid, biz aşiqik, bizə səhman yazılmayıb,
Olmuşsa bir zaman gər o səhman, keçib gedib.

Bir fayda yox bu çərxi də ötsə fəğanımız,
Çox da, Füzuli, eyləmə əfğan, keçib gedib.



Ey könül, hicran qəmindən bir əlamət qalmamış,
Şad ol, artıq köhnə qəm-qüssə, məlamət qalmamış.

Hicr əlindən canımı tapşırmışam cananə mən,
Məndə hicranın əlindən bir şikayət qalmamış.

Göz yaşından su səpilmiş şölələnmiş qəlbimə,
Odlu sinəmdə daha keçmiş hərarət qalmamış.

Hər nə canandan umardı, nail olmuşdur könül,
Naümidlikdən əsər yoxdur, fəlakət qalmamış.

Çox şükür, dərdi-sərimdən xəlq tapmışdır nicat,
Çünki məndə zəfdən fəryadə taqət qalmamış.

Can verəm müjdə, budur arzum, yetərkən vəslinə,
Neyləyim, hicran əlindən can səlamət qalmamış.

Ey Füzuli, qurtarıb dünya qəmindən canımız,
Bir də möhnət çəkməyə bizdə o halət qalmamış.

❀ ❀ ❀

Məcnunla mənim dərdimin əfsanəsi birdir,
Söz ayrısa da, aşiqi-divanəsi birdir.

Sinəmdəki oxları dedim çək, yeni bir ox
Vurdun, dedin: al, oxlarımın xanəsi birdir.

Cütdür qaşının tağı, verər çöhrənə ziynət,
Hüsni-xətinin zivəri, xal danəsi birdir.

Kimdir əlifə oxşadan ol qəddi, əliflə
Sərvin məgər ol qaməti-şahanəsi birdir.

Qəlbim səni tək tutdu, əzizdir yerin onda,
Qiymətli sədəfdir ki, o, dürdanəsi birdir.

Bülbül kimi könlüm quşu güldən gülə qonmaz,
Aşiq odur aləmdə ki, cananəsi birdir.

Ahım başım üstündə çadır qurdu, Füzuli,
Ta söyləyələr çərx ilə kaşanəsi birdir.

❀ ❀ ❀

Həmişə feyzi-bəqadır bu zövqi-cam mənə,
Qalan bu ömrüm olur nəşeyi-müdam mənə.

Bu rütbə ilə bərabər deyil mənimlə mələk,
Olubdu dərgəhi-piri-müğan məqam mənə.

Şərab üçün bizə hörmət edir o piri-müğan,
Müdam əyilməsidir şəksiz ehtiram mənə.

Mənim kimi hanı dünyada eşq risvası,
Bu səltənət verib aləmdə ehtişam mənə.

Bənövşə tək başımı əymərəm, gözəl, mişkə
Ki, zülfün ətri kifayətdi sübhü şam mənə.

Çıxart, gözüm yaşı, gözdən o xari-müjganı,
Bu yerdə görsənir ol sərvi-xoş xüram mənə.

Füzuli, yetdi bu gün zülfünə nigarın əlim,
Şükr ki, çərxi-fələkdən yetişdi kam mənə.



Sərvdə qəddin qədər yoxdur gözəllik, ey pəri,
Leyk o sabit dayanmış, sən gəzərsən hər yeri.

Qamətindən sərv, üzündən gül utandı, oldu xar,
Bir daha bağban əli varmaz suvarsın gülləri.

Yox qəmindən başqa tənhalıq dəmində həmdəmim,
Hər kəsin varsa qəmi, təklikdə vardır yavəri.

Zövq verməz eşq gər risva deyilsə əhli-eşq,
Qorxmamışdır tənədən aşiq əzəl gündən bəri.

Ey düşən ömründə daim mənfəət sevdasına,
Bil, gözəl sərmayədir dünyada elmin gövhəri.

Eşqdə səbr eyləmək xoşdur, çox etdim imtəhan,
Anladım, mümkün deyildir, ey gözəllər sərvəri!

Gəl Füzulinin gözündən qanlı yaş tək getmə kim,
Gül camalından uzaq əfzun olur dərdü səri.

❀ ❀ ❀

Məhi-dəllakim olub ayineyi-əhli-nəzər,
Seyd edir ayinə tək hər kəs ona baxsa əgər.

Vəslinə yetmək üçün ülgücünün aşiqlər
Axıdıb göz yaşı, əndamı olub tük kimi tər.

Qəmzəsindən hamının qəlbi qan olmuş necə gör,
Qəmzəsi hər damara vurmuş onun bir nəştər.

Daşı bir əldə tutur, ülgücü bir əldə müdam,
Uddurur aşiqinin cövri ilə xuni-ciyər.

Payimal oldu onun ülgücünün zülmündən,
Bədəni aşiqinin, qalmadı ondan bir əsər.

Qüssəsindən fələyin çərxinə ahim yetişib,
Bu da bir qəm ki, qəmimdən yenə tutmur o xəbər.

Bir daraq tək qəm əlindən sinəm olmuş şan-şan,
Rəxnə salmış bu könül mülkünə ol qarətgər.

Bağlayıb qəlbim ona rişteyi-mehrin elə kim,
Onu cövr ilə cəfa qayçısı zənn etmə kəsər.

Ey Füzuli, o məhin şövqü düşübdür başına,
Həzər et, çünki başında görünür xeyli xətər.



Günəş çox torpağa düşdü ki, nur alsın yanağından,
Nəsibi olmadı öpsün sənin tozlu ayağından.

Canım çıxdı dodağımdan mənim həsrətlə, ey canım,
Fəğan kim çıxmadı bir söz o tər-qönçə dodağından.

Bütün aşiqləri qırdın, bizə bietina oldun,
Səvab etdinmi sən, qurbanı qaytardın qabağından.

Ay üzlüm, hər gecə səndən xəbərsiz kuyini gəzdim,
Qabar oldu ayağım, baxmadın lütfən duvağından.

Açıbsan yüz yara qəmzə oxunla çak sinəmdə,
Çəkilmiş qəlbimə min dağ, dərdi-iştiyağından.

Könüldə, gözdə nəqşin var, sənindir can daha, dilbər,
Qaçırmaz baş sənə aşiq olan qanlı yarağından.

Deyil yalnız Füzuli ol qara zülfün giriftarı,
Hələ qurtulmamış bir kəs o səyyadın duzağından.

❀ ❀ ❀

Bağban, yarın boyu xoşdur mənə şümşaddan,
Tərbiyət almaq fəqət mümkündür istedaddan.

Gül dodağın xəttini alsam dilə, sən incimə,
Nəqşi-Şirindir xəbərsiz tişeyi-Fərhaddan.

Naləyə yol qoymayıbdır, bağlayıb qanlı könül,
Məsti-bəzmi-heyrətəm, keçmiş işim fəryaddan.

Fariğ olmaz axirət cövrü əzabından o kəs
Kim, sənəmlər zülfünü öyrənməmiş ustaddan.

Eşqi rədd etməkdə zahid çəkməyir möhnət, fəqət
Dəhrdə kim qurtarıbdır möhnətü bidaddan.

Zahidin olmaz yəqin meyxanəyə heç rəğbəti,
Bayquşun gəlməz xoşu bir mənzili-abaddan.

Ey Füzuli, badə tərkin qılmağa əzm eylədin,
Bir düşün, gör, boş deyil əqlin sənin bünyaddan?



Oxlarından həlqə-həlqə oldu zəncir tək tənim,
Aşiqi-divanəyəm, eşqindi zəncirim mənim.

Can çıxıb təndən oxun şövqilə hərgiz dönməmiş,
Oxların can tək basar bağrıma bu can gülşənim.

Gözlərimdən razıyam, qan-yaş tökərlər hicrdə,
Gülşənə çevrilmiş imdi qanla yurdum, məskənim.

Mehri-rüxsarindən ayrı halimi şərh etmərəm,
Hicrdən olmuş qaranlıq, bax, bu ruzi-rövşənim.

Şəmə yanmaqdan qurtarmaq, təkcə sönməkdir əlac,
Aşiqəm, eşqində ölsəm kuyin olsun mədfənim.

Ol səri-kuyə güzar etmək üçün, ey qaşı yay!
Biqərar olmaq gərək ox tək, dəmirdən cövşənim.

Bu cahan mülkündə kim varsa yaxın dostdur sənə,
Rəhm qıl, canan, Füzuliyə, cahandır düşmənim.

❀ ❀ ❀

Hicran günündə hali-dili-zar olar çətin,
Gər bilməsə bu halımı dildar olar çətin.

Asan olardı vəslinə çatmaq nigarımın,
Görmək vüsali-yardə əğyar olar çətin.

Düşmənlər eyləyir bu qədər tənələr mənə,
Dostlar gər olmaz isə mədədkar olar çətin.

Kəm iltifat olanda nigarım qəm artırar,
Artdıqca dərdü qəm, onu izhar olar çətin.

Xaki-rəhindən olmasa yarın mədəd mənə,
Təskini-əşki-dideyi-xunbar olar çətin.

Zahid çəkindirir bizi gül rəngli badədən,
Bilməz yazıq ki, adəti-inkar olar çətin.

Köçmək zamanı çatdı, Füzuli, o kuydən
Ayrılsa, bülbülə qəmi-gülzar olar çətin.



Qəmli axşamlarının yoxmu, ayüzlüm, səhəri?
Qəmdən öldüm, hanı bəs mehrü məhəbbət əsəri?

Bu təəccüblü deyil, tək səni sevmiş ürəyim,
Neyləyim, yoxdu sənin tək bütün aləmdə pəri.

Cismimə od vurub eşqin, könül avarə gəzir,
Ev yanıb, qalmayıb ancaq odun əsla şərəri.

Çox könüllər aparıbdır, gözəlim, seyli-qəmin,
Mən itən könlümü kimdən soruram, yox xəbəri.

Sanma xar göz yaşımı, mən bu vücud bəhrində
Axtarıb tapmamışam böylə misilsiz göhəri.

Düşüb eşqin yoluna azdım, o rəna gözəlim
Sorub axtarmadı, əfsus ki, bu xuninciyəri.

Eşq üçün çəkdi Füzuli nə qədər rüsvalıq,
Kim deyir yoxdu bu yolda onun əsla hünəri?

❀ ❀ ❀

Könlümün şadlığıdır, qəlbimə sultandı qəmin,
Gözümün pərdəsidir pərdeyi-xaki-qədəmin.

Vədə vermiş bu gecə ay kimi yarım, ey sübh,
Tez açılma, səni tanrı, bizə göstər kərəmin.

Qəlbimin dərdlərinə başqa əlac eyləmə gəl,
Mənə çox faydalıdır şərbəti-zövqü ələmin.

Məncə layiqdi bütün yer üzünə şahlıq edə
Olsa hər kimsə əgər məhrəmi-xaki-hərəmin.

Bir dəm olmaz ki, düyün vurmaya can riştəsinə,
Qəlbimi eyləmiş aşüftə o geysuyi-xəmin.

Qalmadı göz yaşımız gözdə sənin zülmündən,
Bizi əfv eyləyə bəlkə bu kəramət qələmin.

Qoymur əğyar Füzulini vurub öldürəsən,
Nə yaman zülm çəkir gör bu şəhidi-sitəmin.

Halım hər an sənin eşqində digərgun olmuş,
Şərh edim halımı, bir gör necə məhzun olmuş.

Könlümün dərdi məni yaxdı, dilim söz deməmiş,
Həddən artıq yanıram, atəşin əfzun olmuş.

Ahımın oxları deşdi fələyin sinəsini,
Bax, o qandır ki, şəfəqlər belə gülgun olmuş.

Necə gül söyləyim ol şəkkərə bənzər ləbinə,
O vərəqdə nə zaman bir belə məzmun olmuş.

Bircə an yoxdu könül ləlini xatırlamasın,
O səbəbdəndi bu göz yaşları pürxun olmuş.

Nə qəm hicrində kəmalə yetə eşqim, ey yar,
Leylinin gül üzünün aşiqi Məcnun olmuş.

Gözlərimdən kədəri çəkdi, Füzuli, yuxunu,
Qan tökər didələrim, göz yaşı Ceyhun olmuş.

❀ ❀ ❀

Bağlayıb qəlbimi geysuyi-xəmi-pürşikənin,
Qalacaqdır, məni öldürsən, adın qanlı sənin.

Çox lətifdir bədənin, oldu gözümdən pünhan,
Çəkdirir gör nə cəfalər mənə lütfiylə tənin.

Torpaq oldum ki, düşə üstümə kölgən bəlkə,
Kəsdi ümmidimi bundan, elə safdır bədənin.

Nitqə gəl, özgələrin sözlərinə uymaq ilə,
Olmayıb kimsəyə aydın hələ sirri-dəhənin.

Sözlərindən belə hiss eyləyirəm, nazlı nigar,
Qanımı tökməyə mayildir, o ləli-Yəmənin.

Səndə fanus kimi vardı, Füzuli, atəş,
Qan deyildir görünən, köynəyin atəşdi sənin.



Gəldi gül gülzarə, ömründə ona kam olmadı,
Yüz tikan gördü yanında, canı aram olmadı.

Açdı bülbül dərdini yüz min fəğan ilə gülə,
Keçdi gül dövrü, yenə gül bülbülə ram olmadı.

Bu necə bir mülkdür, gül dövrü keçdi, kimsəyə
Burda bir mey məclisi, bir nəşə, bir cam olmadı.

Tikdi dövran bir lətafət xələti, əfsus ola
Geyməyə bu xələti qabil güləndam olmadı.

Gec gəlib gül bağçaya, bilməm neçin tez köçdü o,
Görmədi hörmət mənim tək, yoxsa ikram olmadı.

Gərdişindən mən necə çərxin şikayət etməyim,
Halimə dövründə bir gün də sərəncam olmadı.

Söz bilənlər, ey Füzuli, qədrü qiymətdən düşüb,
Ol səbəbdən kimsədə bir şöhrətü nam olmadı.

❀ ❀ ❀

Bizim məclis qurulmaz heç zaman, ey simbər, sənsiz,
Sənin aşiqlərindən orda olmaz bir nəfər sənsiz.

Gedərkən sən, bu cismimdə olan tabü təvan getdi,
Deyil zor, bizdə yox hicranə dözməkçün hünər sənsiz.

Gecəm qəmlə keçər, sənsiz gözümdən yaş axar daim,
Səhər şəmi kimi nurdan gözümdə yox əsər sənsiz.

Sənin hicrində müşküldür qəmə dözmək, ömür sürmək,
Bu müşkül əmrə mən tək bir yazıq, aya, dözər sənsiz.

Yürü, qəddin bir ox olsun, uçub ol qəlbə batsın kim,
Sevinməz sən bizə mehman gələndə, ya gülər sənsiz?

Ayağından qopan hər toz gözümdə tutiya olmuş,
Görər tirə cahanı gözlərim kordan betər sənsiz.

Füzuli məskən etmişdir səri-kuyində çoxdandır,
Odur ki, eyləməz hurü behiştə bir nəzər sənsiz.



Könlümün ayinəsin sındırdı ol ziyba mənim,
Arizusu qəlbimin baş tutmadı əsla mənim.

Gər müyəssər olmasa vəsli o mahin, yox əcəb,
Məqsədim tək olmamışdır hümmətim vala mənim.

Hər yaramdan şölə çəkmiş bunca qəlbim atəşi,
Od tutar olsa yanımda yari-bipərva mənim.

Vəsli-cananın bəhası cövhəri-candır mənə,
Canımı alsa, nə qəm var, böylə bir sevda mənim.

Qəlbdə yer eylə gər aşiqsən öz məşuquna,
Gəbrəm, atəşdən vücudum eyləməz pərva mənim.

Əxtəri-bəxtim yanıbdır bərqi-ahimdən, vəli
Dərdə bax, ulduzdan ahım seyr edər əla mənim.

Vardı könlümdə ümidi-vəsl, hicran qorxusu,
Ey Füzuli, yandı könlüm, oldu biqovğa mənim.

❀ ❀ ❀

Məh cəmalində niqabi olmasa gər, qəm deyil,
Şöləyi-rüxsari çünki örtüyündən kəm deyil.

Möhnətü dərdü qəmim məlum deyildir bir kəsə,
Çünki bir kəs mən kimi sərgəşteyi-aləm deyil.

Kuyinin torpağına etmiş mələklər səcdələr,
Kim ki, xaki-kuyin olmazsa, yəqin adəm deyil.

Qəlb evindən əqlimi eşqin çıxardıb, ey mələk,
Böylə divanə mənimlə bir daha məhrəm deyil.

Çini-zülfündə edib məskəni divanə könül,
Bir könül yox kim, əsiri-türreyi-pürxəm deyil.

Dərdi-eşqin zövqünü bir kimsə bilməz, sevgilim,
Ol səbəbdən bir könül bu dəhrdə xürrəm deyil.

Badəsiz, məşuqəsiz etmə gözəl ömrün tələf,
Ey Füzuli, tez keçər, ömrə bina möhkəm deyil.



Xətin ki, gül üzünü mişk ilə niqabə salar,
Bütün gözəlləri bir dəmdə inqilabə salar.

O xətt ki, baş çıxarıb arizin kənarından,
Həzar tənə ilə lərzə afitabə salar.

O sübhə bənzər üzündə çıxınca xətt gecə tək
Mənim də taleyimi çərx yüz hicabə salar.

Könül qəmindən ölümlə qutardım, ol ləbi-ləl
Mənə həyat verib, tazədən əzabə salar.

Bu qanlı könlümə yüz dağ rəşkdən vururam,
O dəm ki, xali-ləbin əksini şərabə salar.

Füzuli xəstəyə mümkün olarmı sakitlik,
Onu bu cür ki, sənin şövqün iztirabə salar?!

❀ ❀ ❀

Cismim içrə təkcə bu yüz zəxmi-bidərman deyil,
Mən kimi yüz dağı var, kölgəm də biəfğan deyil.

Qeyrdən göz örtərəm rüxsarin olmazsa, vəli
İynədir gözlərdəki kirpiklərim, müjgan deyil.

Bir ilan tək kömləyimdən bəs necə mən çıxmayım,
Bir ilandır hər teli bu kömləyin, sapdan deyil.

Sünbüli-zülfün ayırsa ruzigar üzdən, nə qəm,
O, gözəllik bağının möhtacıdır, bağban deyil.

Qönçə bağrında Məsiha bəsləyən Məryəmdi kim,
Ruh saçan ətri onun əskik Məsihadan deyil.

Parələnmiş bəs nədən gül daməni Yusif kimi,
Min cəfalər gər Züleyxadən ona hər an deyil.

Yandı sərtasər Füzuli qəm odunda, qorxmadı,
Qorxar atəşdən o kəs kim, şəm tək suzan deyil.



Xalın qəmi gedərmi könüldən füsun ilə,
Gözdən bu qarə getmədi seylabi-xun ilə.

Göz yaşın axdı qəlbimə bu çak sinədən,
Qaldı hərarəti yenə dərdi-füzun ilə.

Dağ ilə ülfət eylədi Fərhad bir zaman,
Köçdüsə, qaldı xatirəsi Bisütun ilə.

Cismi-zəif tab elədi ahə, bilmənəm,
Torpaq necə kül olmadı suzi-dərun ilə.

Saqi, əlac qıl mənə kim, dərdü qəm tozu,
Getməz könüldən indi meyi-laləgun ilə.

Yüz dəfə dövr qıldı fələk, bəxtimin sapı
Bir yol açılmadı bu düyüm bəxti-dun ilə.

Etmiş Füzuli eşqdə könlündən əlvida,
Aqil odur ki, getmədi əhli-cünun ilə.

❀ ❀ ❀

Güldən almış ziynəti ol türfə dəstarın sənin,
Hər yana saçmış qığılcım odlu rüxsarın sənin.

Hüsnü rüxsarın əgər güldən gözəlsə, yox əcəb,
Bir qızıl gülsən, bütün güllər olub xarın sənin.

Sevgilim, rəngi-rüxündən güllər oldu sinəçak,
Qönçə bağrın qan edib ləli-göhərbarın sənin.

Güldəki naz eyləməz heç qəlbə təsir, ay gözəl,
Gül nə bilsin qəmzəni, işvə olub karın sənin.

Gəldi keçdi gül, fəqət biz etina da etmədik,
Çünki vardır qəlbimizdə zövqi-didarın sənin.

Bağdakı sərvü sənubərlər məlahətsiz deyil,
Leyk onlardan gözəldir incə rəftarın sənin.

Eşq zövqündən, Füzuli, sözlərin xali deyil,
Xəlqi məftun eyləmişdir hüsni-göftarın sənin.

❁ ❁ ❁

Sevmək sənəmləri, sınadım, bir bəla imiş,
Aşiq olan həmişə qəmə mübtəla imiş.

Bir bütpərəst kimi sevəli qəm əsiriyəm,
Hər qarə zülfə meyl eləmək bir xəta imiş.

Fərhad çəkdi əksini Şirinlə üz-üzə,
Guya o bütpərəst idi, Şirin xuda imiş.

Kibrü qürurə müştəri olmuş zəmanəmiz,
Ürfan isə cahanda gərəksiz məta imiş.

Zahidlərin könülləri mehrabə bağlanıb,
Məscid əcəb ürək sıxıcı bir bina imiş.

Qəlbə, sanardım, eşq fərəh bəxş edər, fəqət,
Duydum ki, möhnəti, qəmi biintəha imiş.

Verdin, Füzuli, könlünü bir nazlı dilbərə,
Göstərdi imtahan ki, o da bivəfa imiş.

❀ ❀ ❀

Könül xaki-rəhinlə birləşib, kuyin məkan etmiş,
İki üftadəni bu hal necə gör mehriban etmiş.

Deyil kirpiklərimdə görsənərlər qanlı göz yaşı,
Bu sinəmdən çıxan oddur, gözümdə aşiyan etmiş.

Mənim tək çoxları mey içdilər bəzmi-məhəbbətdə,
Kədərdəndir məni mey böylə rüsvayi-cahan etmiş.

Başımdan şam kimi tüstü çıxıb, qəlbim alovlandı,
Sənin dərdin könüldə hər nə sirrim var əyan etmiş.

Səbanın damənin tutdu o gül, bizdən uzaqlaşdı,
Səri-kuyin həvasilə o tərki-gülüstan etmiş.

Mənim dövrümdə Fərhada görünmüş eşq çox müşkül,
Atıb eşqi, gücün bir başqa işdə imtahan etmiş.

Füzuli bir saman tək torpağa düşmüşdü yollarda,
Onu lütfün nəsimi qaldırıb, təbin rəvan etmiş.

Qoy bu gülşəndə mənə gül üzlülər yar olmasın,
Çünki bir gül yoxdur ətrafında yüz xar olmasın.

Çox gəzib gülşənləri biz öylə bir gül görmədik
Kim, mənim tək aşiqi bir bülbüli-zar olmasın.

Görmədik biz bu cahanda bir gözəllik xəznəsi
Kim, rəqiblər səf çəkib dövründə divar olmasın.

Tapmayır yol xar əlindən bülbüli-şeyda gülə,
Hüsnü yoxdur gülşənin, kaş öylə gülzar olmasın.

Hicri-yar etdi məni əğyar tənindən xilas,
Yar vəslin istəməm, qoy təni-əğyar olmasın.

Min qəmim vardır cahanda, bir nəfər qəmxar yox,
Qəm budur ki, bunca qəmlə bircə qəmxar olmasın.

Ey Füzuli, görməmişdir kimsə yarından vəfa,
Şad o kəsdir kim, əsiri-mahi-rüxsar olmasın.

❀ ❀ ❀

Vüsalın zövqünə kölgən sənin hər ləhzə mayildir,
Nə fayda, bu səadətdən özü biçarə qafildir.

Yanında müşkülü həll eyləmək müşkül deyil, amma
Ona bu müşkülü açmaq özü bir əmri-müşkildir.

Yuxu qaçmış gözümdən, yoxsa görmüş mərdümi-çeşmim
Tökərlər qan, həramilər üçün sanmış ki, mənzildir.

Əgər bir kimsəyə sirrim nihan qalmaz, əcəb sanma,
Könül səndə əmanətdir, bu sirrə qeyri cahildir.

Gözəllik dəftərində çün görən yoxdur vəfa ləfzi,
Gözəllərdən vəfa ummaq özü bir fikri-batildir.

Bəla torpağına hər kəs ayağı bağlıdır gül tək,
Başı əflakə yüksəlmək onun şəninə şamildir.

Cünun mülkündə insanlar olur hər qeyddən azad,
Füzuli tərk qılmaz bu diyari, çünki aqildir.

❀ ❀ ❀

Sanma kim, könlüm pərilər kaminə yetmək dilər,
Kamə çatmaq arzusu aşiqləri risva edər.

Sevgilimdən bir vəfa umdumsa, gördüm min cəfa,
Neyləsin biçarə, onda umduğumdan yox əsər.

Mərd o kəsdir etməsin rəncidə yarın könlünü,
Yusifi istər Züleyxa piri-Kənan tək məgər?

Qəlbim oldu parə-parə, mən şikayət qılmadım,
Olmamış Əyyubdə dərdə təhəmmül mən qədər.

Leyliyə vermiş könül Məcnun, yüz illərlə yaşar,
Tez çıxar yaddan o kəs ki, sevməmiş bir simbər.

Zahid əyri yol tutub, pislər sənəmlər eşqini,
Bu qələt yolda ona yoldaş tapılmaz bir nəfər.

Seyr edər daim Füzuli nazəninlər hüsnünü.
Sevdiyim dilbər önümdən nə qaçar, nə örtünər.



Bizə hədsiz cəfalər gördü məhrulər rəva hər dəm,
Ömür yoldaşı olduq onlara, gördük cəfa hər dəm.

Sataşdı hüsnünə şəmin gözü, rəşk oduna yandı,
O kəs ki, qibtə bilməz, rəf olar ondan bəla hər dəm.

Mənə heç bir gözəl yer vermədi öz asitanında,
Hədəf oldum gözəllər zülmünə mən binəva hər dəm.

Gözüm qanla dolar, həsrətdən ahım göylərə qalxar,
Xəyalımda dolandıqca mənim ol məhliqa hər dəm.

Sənin eşqinlə mən bağlanmışam, canan, əzəl gündən,
Bu eşqi tərk qılmam, baş ola təndən cida hər dəm.

Ömür ol sərv boylu dilbərin eşqində sərf oldu,
Təəssüf etmərəm, bir ömr ona qılsam fəda hər dəm.

Füzuli naümid olsaz vüsali-yar zövqündən,
Əgər can vermək ilə göstərə yarə vəfa hər dəm.



Lalə qəlbin yaxıb eşqin, onu sevdaya salıb,
Əridib şəmi məhəbbət odu, qovğayə salıb.

Zülfünün ətrini dərk eylədi ahuyi-xütən,
Şərmdən nafeyi-mişkinini səhrayə salıb.

Uyğu məhrum eləyirdi məni gül çöhrəndən,
Öldürüb göz yaşım axır onu, dəryayə salıb.

Gül yanağın həsədi bağladı bütxanələri,
Ahimin atəşi min lərzə Məsihayə salıb.

Ağzın açdıqda, sədəf tək düzülər incilərin,
Yüz düyün zöhdüm ilə rişteyi-təqvayə salıb.

Ah oxundan, görünür, çərx xilas olmaq üçün
Cəm edib eşqü qəmin bu dili-risvayə salıb.

Ey Füzuli, dəxi gülzardə baxmaz sərvə,
Nəzərin kimsə ki, ol qaməti-rənayə salıb.

❀ ❀ ❀

Cəfadır aşiqə, kəmmərhəmət olarsa nigar,
Düşün məni nə qədər incidirsən, ey dildar!

Könül əsiri olubdur bənəfşə tellərinin,
Onu nə mişk edir cəlb, nə gülü gülzar.

Sənin yolunda mənim qəm elə büküb belimi,
Başım ayağə yetib, ey nigari-xoşrəftar!

Səba o sünbül zülfündə aşiyan edəli,
Könül quşu bu kəmənddən necə qaçıb qutarar?

Bəlayi-eşqdə zövq olduğun bilincə təbib,
Demiş: əlacını axtarma dərdinin, zinhar!

Sənin qəminlə həmişə mən od tutub yanıram,
Əcəl də canıma qəsd eyləsə, nə qorxum var?

Füzuli, eşq qəmindən xilas olum demə, sus!
Bu zövq həyatda qənimətdi, bilsən, ey hüşyar!

❁ ❁ ❁

Qırmızı donda o qamətlə sən, ey huri üzar!
Bir əlifsən kim, qızıl xətlə yazıb pərvərdigar.

Al geyimli dilbərim bir şux fidandır ki, onu
Əkdiyi gündən ciyər qanilə bəslər ruzigar.

Qırmızı paltardır ol, yoxsa Xəlilin atəşi
Kim, içində bir səfalı, güllü cənnət bağı var.

Gül fidanı güllə zinət tapdı, sən paltar ilə,
Bu libas içrə gözəllə çirkin oldu aşikar.

Al donu əndamına hazırlamaqçün canımın
İpliyin qan ilə rəngin qıldı çərxi-kəcmədar.

Hər yerə, ey gül, toxundurdun o gülgün daməni,
Ol yeri mən qanlı göz yaşimlə etdim laləzar.

Könlünü vermiş Füzuli al geyən dilbərlərə,
Mayəsin qanla yoğurmuşdur onun çün ruzigar.

❀ ❀ ❀

Mənim bu halimə ol ay nədən nəzər qılmaz,
Gəlirsə bircə gün, amma bir ay güzər qılmaz.

Cəfadı səndən həmişə muradımız, o da kim,
Gəhi bizə əsər eylər, gəhi əsər qılmaz.

Diyari-eşqdən hərgiz səlahə yol yoxdur,
Dil əhli meykədədən məscidə səfər qılmaz.

Cahanda rütbeyi-cahü cəlaldən keçdim,
Təvazö əhli təmənnayi-taci-zər qılmaz.

Desəm təbiətin aləmdə ən gözəl rəqəmi
Gözəl cəmaldır, ol fikrimiz zərər qılmaz.

Neçün deyim ki, boyun tubadır, üzarın gül
Ki, ahü nalədən özgə o bir səmər qılmaz.

Füzuli kimlərə bəs söyləsin şikayətini
Ki, səndən özgəni qəlbində taci-sər qılmaz.

Kim deyir bağda qədin tək sərv yox, ey can alan!
Var, lakin sən kimi yox fitnəkar sərvi-rəvan.

Hansı yer var qamətindən olmamış orda fəsad,
Hansı yer var çöhrə açdın, qopmadı ahü fəğan?

Ölmüşəm hicrində yarın, yaxmaz ahım qəlbimi,
Qəlbə ah təsir edərmi cismdə olmazsa can?

Oxlarından qan damar bir-bir çəkərkən sinədən,
Rəsmdir, qan ağlayır istəkli dostdan ayrılan.

Göz yumub rüxsarinə, dərdə təhəmmül eylərəm,
Göz yaşımda qərq olar dünya səni görsəm, inan!

Göz yaşımda zülmə bax kim, isladıb səhraları,
Qoymadı tufan ola bu odlu ahımdan əyan.

Tərk qılmazsa Füzuli kuyini, sanma əcəb,
Qalxa bilməz, eşq dərdi qəddini qılmış kəman.



Hanı ol nalə ki, hər qəlbdə vardır əsəri,
Hanı ol ah ki, bir qəlbə toxunsun kədəri?

Hanı ol dərdli ki, qəlbində məhəbbət dağı var,
Hanı ol kəs ki, onun eşqdə yansın ciyəri?

Çoxdu dünyadə gözəllər, hanı bir əhli-vəfa,
Əhli-dərddir ki, onun lütf ilə olsun nəzəri?

Hanı ol kəs ki, vəfa rahinə canın qoysun,
Hanı ol kəs ki, vəfa yoluna düşsün güzəri?

Meylimiz pərdeyi-rüxsari dilarayə düşüb,
Hanı hümmət ki, açıb parə edək pərdələri?

Mahi-rüxsari onun cilvələnir hər yerdə,
Hanı arif ki, belə cilvədən olsun xəbəri?

Ey Füzuli, nə gözəldir sözü azadəliyin,
Hanı bir sərv bu aləmdə ki, vardır səməri?

Sanma tək bircə mənim qəddimi eşq eylədi xəm,
İki qat eylədi dövranı da bu dərd ilə qəm.

Bixəbərlər nə bilir qəlbimizin şadlığını,
Gizli can nəşəmizin örtüyü olmuş bu ələm.

Yarə yetmək diləsən, qorxma bəla rahindən,
Kəbəyə azim olanlar görər, əlbəttə, sitəm.

Ömr hər ləhzə keçir, zövqdən olma məhrum,
Bil qənimət bu bəla ləzzətini sən hər dəm.

Seyri-səhrayi-cünun eylə ki, qəm görməyəsən,
Belə səhrada çox azdır, onu bil, dərd ilə qəm.

Könlümün qönçəsi xari-sitəm ilə açılır,
Bu məhəbbət bağının zinətidir cövrü sitəm.

Dərdü qəmlə doludur daireyi-mülki-vücud,
Ey Füzuli, sənə rahət yer olar yalnız ədəm.

❀ ❀ ❀

İşim qəmində yenə çeşmi-əşkbarə düşüb,
Gözün də indi işi qəlbi-dağidarə düşüb.

Dübarə parələnib lalənin giribanı,
O sərvimin yolu, guya ki, laləzarə düşüb.

Məgər görüb yerişin sərv, rəşk odunda yanır
Və ya ki, surətinin əksi cuyibarə düşüb.

Görən o nərgisi-məstinlə surətin, söylər:
Çəməndə türkdür ol, məst olub, kənarə düşüb.

Nə nəqş çəkdisə qüdrət, gözəldir ol, əmma
Ən incə nəqşi onun arizi-nigarə düşüb.

Mənim bu göz yaşıma rəhmdən deyil baxışın,
Gözəllik aşiqidir ki, axar sularə düşüb.

Füzulinin nədən olmuş günahı, təqsiri,
Gözündən öz gülünün binəva dübarə düşüb.



Ləbi-lələndən uzaq istəmərəm abi-həyat,
Oldu ağ günlərimiz şami-qəmindən zülmat.

Verdiyin qəm aparıb səbrimi, dilbər mələyim,
Qalmayıb qəmdən, inan, qəlbdə bir səbrü səbat.

Səndə axtarmaq əbəsdir, gözəlim, mehrü vəfa,
Bilirəm çünki sənin zatına yaddır bu süfat.

Bağlayıbdır məni zənciri-bəla həlqələri,
Qəlbimə gəlməz, inan, zərrəcə bir fikrü nicat.

Eşq mülkündə fəqirəm, sən onun sultanı,
Mənə rəhm eylə, əzizim, sənə vacibdi zəkat.

Olmuşam öylə zəif, bəhsə girişsəm də əgər,
Eyləyə bilmərəm öz varlığımı mən isbat.

Vaxt çatıbdır ki, Füzuli ola qəmdən azad,
Nə qədər dərd ilə, qəmlə keçəcəkdir bu həyat?



İki hörük arasında üzün qiyamət edər,
İki gecə arasında günəş iqamət edər.

Könül qoşa ləbinə canımı demiş qurban,
İki əzizə bu bir can necə kifayət edər?

Nə vəsli oldu müyəssər, nə əhdə etdi vəfa,
O gül yenə mənə "bədbin" deyə məlamət edər.

Vüsal zövqü onun olmadı bizə qismət,
Bu zövqü, ya Rəb, o dilbər kimə kəramət edər?

Əgər desəm sevirəm, qorxuram dönüb deyəsən:
Bu söz nə sözdür, ədəbsiz buna cəsarət edər.

Məni ləbin həvəsi dərdü qəm əsiri qılıb,
Görəndə halımı düşmən gülər, şəmatət edər.

Dedim: Füzuli düşüb eşqinə, gözəl; o dedi:
Ədəbsiz olduğuna öz adı dəlalət edər.



Sel kimi göz yaşım etdi qəlbimi viran, aman!
Söndü cismimdə bu seldən atəşi-suzan, aman!

Çəkdi şölə eşq odu sinəmdə, yaxdı hər nə var,
Bir mənə göz yaşı qaldı, bir kədər, əfğan, aman!

Sildi zalım göz yaşım gözdən xəyalin əksini,
Son təsəllimi əlimdən aldı bu dövran, aman!

Odlu ahımdan ciyərdə su dönüb oldu buxar,
Axdı ağlar gözlərimdən su yerinə qan, aman!

Hardan alsın gözlərim qan? Bir ox ilə qəlbimin
Yerə tökdün qanını, peykanına qurban, aman!

Tapmıram məskən cahanda, eyləmişdir göz yaşım
Bir cəfa mülkündən özgə hər yeri viran, aman!

Dərd əlindən tərk edərdim aləmi, canan dedi:
Döz mənim eşqimlə, aləm olsa da zindan, aman!

Ey Füzuli, şükrlər olsun ki, Allah eşqinə,
Lütfi-həqq yar oldu, qəlbim bilmədi hicran, aman!



Sanırdım öldürəcək nazlı bir nigar məni,
Vəfalı olmadı, öldürdü intizar məni.

Vəfa da eyləməsə verdiyi şirin vədə,
O öldürüb, yenə min şükr, ümidvar məni.

Dodaqları mənə min yol həyat verdi, əgər
Naz ilə min dəfə öldürmüş işvəkar məni.

Məni həlak edə bilməz cəfası əğyarın,
Kəmiltifat olub, öldürdü gülüzar məni.

O qarə gözləri verdi mənə aman, ancaq
Bəlayi-hicr ilə öldürdü gör nə zar məni.

Bu bəzm saqisinin dərdidir mənim dərdim
Ki, badə vermədi, öldürdü bu xumar məni.

Füzuli, canı qaçırdım o xəttü xalından,
Ətirli saçları öldürdü aşikar məni.



Fəna səhrasının çıx seyrinə, yaxşı səyahətdir,
Nə qovğa var, nə fitnə, ol biyaban sanki cənnətdir.

Bu dünya mülkü viran oldu, artıq qalmadı insan,
Fəna mülkü özü abad, əhli kani-qeyrətdir.

Bu dünyadan o dünyaya gedən kəslər qayıtmazlar,
Yəqin ki, orda insanın nəsibi istirahətdir.

O dünyanı tapanlar meyl qılmazlar bu dünyayə,
Fəna insanlara bir qurtuluşdur, bir fəraqətdir.

O aləm zövqünü bir kəs bu aləmdən ala bilməz,
Bu dünya qəm evi, lakin o dünya mülki-işrətdir.

O aləm şövqünü bir an unutma sən bu aləmdə,
Çalış yaxşı əməllər et, mükafatı səadətdir.

Bu aləm qeydinə qalma, Füzuli, daima şad ol,
İki dünyaya laqeyd ol, bu Allaha ibadətdir.

❀ ❀ ❀

Bir can ki, ondan almaya azar hardadır?
Ondan deyil o kəs ki, tələbkar hardadır?

Asudə bir könül ki, ona gündə naz elər,
Bir zülm qılmasın o sitəmkar, hardadır?

Göstər cahanda sən elə qəlb sahibi,
Şövqi-ləbilə olmaya xunbar, hardadır?

Rəftarı, sanma, tək məni salmış ayaqlara,
Bir qəlbi yıxmamışsa o rəftar, hardadır?

Zənn etmə təkcə hüsnünə heyran olan mənəm,
Kim ki, deyilsə valehi-rüxsar, hardadır?

Hər yerdə cilvə etmədədir, cilvəsiz, vəli
Bir göz ki, oldu qabili-didar, hardadır?

Yandı cəfayi-dərdinə mənzil olan könül,
Heyrətdəyəm ki, möhnəti-dildar hardadır?

Qəmdən Füzulinin ürəyi bərqərar olub,
Ya Rəb, verən qərari-dili-zar hardadır?

❁ ❁ ❁

Mənim könlüm sənin eşqinlə aşinadır, bil!
Ayırmaq dostu dostundan dözülməz bir cəfadır, bil!

Boyun tək fitnəkar bir sərv yoxdur hüsn bağında,
Deyərsəm qəddinə hər fitnəyə bais, rəvadır, bil!

Fərağın cismim ilə qəlbimi odlara yandırdı,
Nəsibi böylədir hər kəs ki, yarından cidadır, bil!

Sənindir can, həyatım, sevgilim, istəkli cananım,
Sən olmasan bu can da başımızçün bir bəladır, bil!

Gözəllər eşqinin dərdinə düşdük, tapmadıq çarə,
Bizə bu çarəsiz dərdi verən labüd xudadır, bil!

Şərabi-eşq ilə sərxoş olanlar gəlmədi huşə,
Bu sirri kimsə bilməz, nəşəsi eşqin bəqadır, bil!

Cəfayə adət etmişsən, Füzuli, keçmə adətdən,
Desəm gəl tərki-adət qıl, bu zülmi-narəvadır, bil!

❀ ❀ ❀

Hər kimin ki, qəlbi var, bir simbər cananı var,
Simbər cananı varsa, dideyi-giryanı var.

Hər kimin ağlar gözü varsa, başı sevdalıdır,
Bir gözəl eşqilə dildə min qəmi-pünhanı var.

Kim könül vermiş cahanda nazlı bir məhparəyə,
Qan dolu bir cüt gözü, bir sineyi-büryanı var.

Bicəhət axmaz ciyər qanı gözündən kimsənin,
Gözdəki hər qətrə qanın sinədə tufanı var.

Kim ki, göz dikmiş gözəl bir dilbərin rüxsarinə,
Üz verən hər bir bəlanı çəkməyə imkanı var.

Hər bəla yetsə məhəbbətdən bizə, verməz zərər,
Hər bəlanın aşiqə bir zövqi-bipayanı var.

Odlu qəlbindən Füzuli ah çəkirsə dəmbədəm,
Qafil olma, sevgilim, təsirli min peykanı var.



Canım yolunda min qəmü dərdə nişanədir,
Bir dəfə sormadın ki, bu qəm nə, bəla nədir?

Oldum yolunda xəstə, soruşmazsan halimi,
Mane olan bu sorğuya, ey bivəfa, nədir?

Ağlar könüldə fikrü xəyalım sənindədir,
Fikrin, xəyalın hardadı, meylin daha nədir?

Eşqin şərabı qıldı məni məst, bilmədin,
Ey bixəbər, fəraq nə, vəslə bəha nədir?

Göz yaşım ilə ahımı gördün də bilmədin
Ziynət o gül cəmalına, ey məhliqa, nədir?

Görcək səni əgər ürəyim od tutub yanar,
Vəchi budur ki, eşqinə qəlb aşiyanədir.

Əl çək, Füzuli, candan əgər səndə var vəfa,
Canan yolunda olmasa bir can fəda, nədir?



Şöhrətim artdıqca eşqimdə, adın şöhrət tapar,
Etibarım getsə əldən, sən taparsan etibar.

Ey gülüzlü sevgilim, ar etmə andıqda məni,
Mən zəliləmsə səbəb sənsən, bunu bil iftixar!

Hüsnünü aləmdə məşhur eyləmiş eşqim mənim,
Canımın lövhü olubdur hüsnünə ayinədar.

Sən gülərsən, kirpiyimdən yaşlar axdıqca mənim,
Bir qızıl gülsənmi sən, kirpiklərim əbri-bahar?

Könlümü gizlətmişəm sinəmdə, var bir illəti,
Ondakı hər dərd olub səndən mənə bir yadigar.

Bir ömürdür qəmli könlüm tərk qılmışdır məni,
Yoxsa mişkin zülfünün zəncirinə olmuş düçar?

Sal nəzər, cana, tərəhhüm qıl Füzuli halına,
Binəva aşiqlərindəndir, onu gəl etmə xar.

❀ ❀ ❀

Əgər rüsvayəm aləmdə, ona olmuş fəğan bais,
Fəğanə suzişi dil, suzişi-qəlbə fəğan bais.

Xəmi-əbrulərindəndir ki, qəmzən könlümü dəldi,
Bu adətdir, olar ox zəxminə daim kaman bais.

Könül həqsiz deyil, hərdəm tökərsə çeşmimin qanın
Ki, dərdi-eşqimə olmuş bu çeşmi-xunfəşan bais.

Açılmaz qönçə, gər gül yarpağı olmazsa qəlbində,
Olubdur sinəmi çak etməyə dərdi-nihan bais.

Xəti-ruyin tapar rövnəq həmişə göz yaşından, çün
Olar nəşvü nümayi-səbzəyə abi-rəvan bais.

Axıb seyli-sirişkim, başımı yoldan götürsün kaş
Ki, olmuş kuyinin qovğasına bu üstüxan bais.

Füzuli, hər kəsin dünyadə vardır eşqdən zövqü,
Vücudi-aləmə eşqü məhəbbətdir olan bais.

❀ ❀ ❀

Dil açıb şəm elədi arizi-dildar ilə bəhs,
Tez tutuldu dili, qəhrindən edər yar ilə bəhs.

Dedilər qönçə dəhanınla sənin bəhs qılır,
Hünəri zahir olar, etsə bu rəftar ilə bəhs.

Zərrə dəm vurdu dəhən ilə, dedi: olmaya kaş,
Gözləməzdik o edə bir belə göftar ilə bəhs.

Batdı gül çöhrəsi gülşəndə xəcalət tərinə,
Səbəb oldur ki, edib arizi-gülnar ilə bəhs.

Hüsnünün rəşki ayın qəlbinə ox vurdu, hilal
Görüb əbrulərini etdi kəmandar ilə bəhs.

Bir sənin eşqin üçündür bu qədər fitnəvü şər,
Daima könlüm edir dideyi-xunbar ilə bəhs.

Ey Füzuli, nə fərağət yeri var mədrəsədə,
Müddəilik törədir ordakı təkrar ilə bəhs.

❀ ❀ ❀

Günah mərəzlərinin cümləsinə sənsən əlac,
Şəfisən, hamı aləm şəhaətə möhtac.

Sənin kəramətin ilə əziz olub islam,
Şərafətinlə sənin sərbüləND olub merac.

Gecə qaranlığına şəmi-qüdrətindir ay,
Fələklərin başına xaki-payın olmuş tac.

Şəriətinlə hər iş xətm olubdur aləmdə,
Veribdi sikkeyi-dinin təriqi-dinə rəvac.

Ayağının şərəfi ərşi qıldı aliqədr,
Cəmalın ilə ağ oldu münəvvərü minhac.

Edibdir hökmün ilə əql hər işi icra,
Tapıbdır əmrin ilə ruh can evində məzac.

Ümidini necə kəssin Füzuli lütfündən,
Dənizsə lütfün, odur bircə qətrəyə möhtac.



Dərdinə əğyarın etmiş yar əlac,
Qibtədən məndə dəyişmişdir məzac.

Gəl mənə etmə nəsihət, naseha!
Yoxdu mənasız sözə bir ehtiyac.

Göz yaşı sevdayi-eşqindən yenə
Sevginin bazarinə vermiş rəvac.

Könlümü mən verdim hər məhparəyə,
Eşqi rahində budur üşşaqə bac.

Eşqin içdi könlümün qanın, nə qəm,
Ölkədən şahlar alar əlbət xərac.

Başıma torpaq səpən divanəyəm,
Gah olur təxtim bu torpaq, gah tac.

Ey Füzuli, halını canan bilir,
Bir daha ərz etməyə yox ehtiyac.

❀ ❀ ❀

Əksi-ləbinlə könlümü al qan edir qədəh,
Dərddən yanıqlı qəlbimi büryan edir qədəh.

Ya Rəb, hübab tək onu sən sərnigun elə,
Badə verib, həyatımı tufan edir qədəh.

Əks eyləyir içində sənin gül cəmalını,
Çıxmış hər ölçüdən, yenə tüğyan edir qədəh.

Dövr eyləyir ovucda, dodaqlardadır müdam,
Məcnun kimi öz əqlini pünhan edir qədəh.

Saf qəlbini görün ki, edib tərk badəni,
Meykun dodaqla qəlbini əlvan edir qədəh.

Bir ovçu tək vurub, eyləyib seyd qəlbimi,
Ləli-ləbin kimi necə gör qan edir qədəh.

Tutma qədəhdən özgə müsahib, Füzuli sən,
Razı duyur, çətin işi asan edir qədəh.

❀ ❀ ❀

Nəsihət eyləyib göz yaşı da töksə əgər naseh,
Mənə qan uddurur, sanki verir hər an zəhər naseh.

Nəsihət eylədikcə atəşim artır, olur kəskin,
Nəsihət etmə gəl, qəlbimdəki atəş yetər, naseh.

Deyir: az dərdi-sər ver naleyi-zarınla sən xəlqə,
Nədəndir bəs verir daim özü min dərdi-sər naseh.

Ciyər qanı yedim mən, bəs deyilmi boş nəsihətlər,
Dəyər məndən sənə, bişübhə, yüz dağı-ciyər, naseh.

Nəsihət eyləyir ki, razımı pünhan tutum xəlqdən,
Yəqin bu gizli dərdimdən deyildir baxəbər naseh.

Nəsihətdən axıbdır göz yaşım sel kimi müjgandan,
Dil açdı, vurdu canə sanki qanlı niştər naseh.

Füzuli, rahət olmaqçun çək ətrafına qandan sədd,
Sənin ətrafına ta etməsin bir də güzər naseh.

Ahım edəndə cilvə olur dar fəzayi-çərx,
Axır keçər gedər səni ahım, səmayi-çərx.

Min daş yağırsa üstümə göydən, əbəs deyil,
Uçmuş bu qanlı göz yaşım ilə binayi-çərx.

Ahım dumanlananda qaralmazmı bu fələk,
Yandırdı qəlbimi necə gör bu cəfayi-çərx.

Qəlb atəşilə doldu bütün çərx, şübhəsiz,
Mənzil olar mələklər üçün mavərayi-çərx.

Kuyində gördü məskən edən çoxdu yarımın,
Matəmsərayə döndü həssədən sərayi-çərx.

Sanma ki, təkcə mən çəkirəm çərxdən bəla,
Kimdir ki, dəyməsin ona əsla bəlayi-çərx.

Çərxin vəfası yoxdu desəm, heyrət etməyin,
Yoxdur, Füzuli, heç kəsə çünki vəfayi-çərx.

❀ ❀ ❀

Könlümə xoşdu mənim sevgili canan, ey şeyx!
Deyiləm körpə ki, mən aldanam asan, ey şeyx!

Saxlama gəl məni ayüzlülərin eşqindən,
Vurma yüz tənə mənə hər zaman, hər an, ey şeyx!

İçirəmsə bu gözəl badəni mən gənclikdə,
Məsləhət görmüş onun gərdişi-dövran, ey şeyx!

Oldu əhli-nəzərin qibləsi cananın üzü,
Bunu inkar eləməz məncə müsəlman, ey şeyx!

Mey içib gəncləşərik, yoxsa qocalmaqla keçər
Günləri ömrümüzün zarü pərişan, ey şeyx!

Umma, gəl, sən bu Füzulidən edə sevgini tərk,
Deyil asan keçəsən qəlblə candan, ey şeyx!



Kimin ki, mən kimi var sinəsində dağı-ciyər,
Tutar bu gizli qəmi-eşqdən yəqin o xəbər.

Öpüb ətəkləri tək xaki-rahini üzümüz,
Sən ey gözüm yaşı, axma, qalıbdır ondan əsər.

Səp, ey külək, gözümə torpağı yolundan onun,
Bu yolda qəlb evimə yoxsa çox xələl yetişər.

Sənin kimi əgər olmazsa rəhbər, ey saqi,
Olar xumar baxışından yolumda xovfü xətər.

Oxun kimi qan axıtmaq olur bir adət ona,
Bu qanlı kipriyə göz mərdümü edəndə nəzər.

Yolunda kölgəyəm, ey bəxt, rəhm qıl barı,
Günəş kimi sala bu torpağa o bəlkə güzər.

Xəyali-ləli ilə bütlərin, Füzuli, dolub
Gözün piyaləsi mey rəngli qanla şamü səhər.



Açar düyünlərimi açsa bəlkə naleyi-zar,
Açılsa nalə yolu, işdən hər düyün açılar.

Gözümdü yolda ki, müjgan tökə ürək qanın,
Ümid güllərini qoymur açmağa ol xar.

Açıb gözüm könülə razi-eşqi, rüsvayəm,
Açılmasın gərək eşq, razı duymasın əğyar.

Düşüb vüsalı o ayüzlünün bu qəlbimə, ah,
Nolurdu falımı açsa o müshəfi-rüxsar.

Eşitmişəm öyünür gül, deyir lətifəm mən,
Sən aç dodaqlarını, güldə olmasın göftar.

Açа bilərmi fələk hiyləsiylə bir qapını
Ki, bağlamış onu qəmzən sənin, sevimli nigar.

Füzuli tək hanı bir eşq əsiri, pünhan dərd
Onu həlak qılır, etməz heç kəsə izhar.



Vəslin mənə novruz, gecəsi oldu müyəssər,
Sanki o gecəm gündüz ilə oldu bərabər.

Güldün gecəni sübhə kimi şəm ilə, ey yar,
Yanmaq mənə, pərvanələrə oldu müqərrər.

Ud yandı həssədən ki, neçin bəzmimi ətrin
Etmiş sənin, ey qönçədəhən, böylə müəttər.

Açdım saçını, vardı səbəb, nazlı nigarım,
Müşk ətrin ilə doldu həva, oldu müənbər.

Saçmışdı çıraq mənzilimə nurunu, lakin
Sən gəldin, ay üzlüm, otağım oldu münəvvər.

Şadlıq mənə üz verdi vüsalın qələmilə,
Qəlbimdə hər arzum var idi, oldu müsəvvər.

Dün bəzmgəhim bir çəmən olmuşdu, Füzuli,
Dildarım idi çün mənim ol sərvi-səmənbər.

❀ ❀ ❀

Zənn qılma gözlərimdən ləxtə-ləxtə qan damar,
Vurduğun oxlar yerindən qanım, ey canan, damar.

Qətrə-qətrə tər düzülmüş atəşin rüxsarinə,
Valehəm, oddan necə olmuş düri-qəltan damar.

Həsrətində ah çəkib ağlarsa Məcnun Leylinin,
Lalənin qəlbinə dağ, yarpağına al qan damar.

Yoxsa sinəmdə ürək qanə sanki dönübdür bu gecə,
Ağlaram, rüxsarıma qan sanki bir ümman damar.

Sanma şəbnəm, göydə ulduzlar sənin hüsnün görüb,
Qibtədən dönmüş suya, gül üstünə hər an damar.

Ey Füzuli, yada saldıqda o meygun ləbləri,
Qan sızan gözdən üzünə ləl ilə mərcan damar.



Könül bir dəm gözün rüxsarinə, ey nazlı yar, açmaz
Ki, seyli-əşki rəşkindən üzə biixtiyar açmaz.

Rəhi-eşqində bir dəm açmadım qəm yüklərin, çünki
Xətər gördükdə bir yerdə müsafir, orda bar açmaz.

Nəcat axtarmayır könlüm ölümlə qeydi-zülfündən,
Bu müşkül qeydi asanlıqla hər bir namdar açmaz.

Mənə hər yerdə yarımdan şikayət etmək adətdir,
Gün olmaz təni əğyarın könüldə bir qübar açmaz.

Salıbdır qəlbə min heyrət, nədəndir bilmərəm, ya Rəb,
Düyünlər var bu könlümdə, o zülfi-mişkbar açmaz.

Yusam gər xaki-rahın göz yaşımla, var ümidim ki,
Gəlib dərdü ələmdən bir qapı qəlbə nigar açmaz.

Füzuli taqətü təqvanı tərk etməz bu aləmdə,
Əgər öz çöhrəsindən pərdəni ol gülüzar açmaz.

❀ ❀ ❀

Nə yaxşıdır nəzərimdə o gülüzarın ola,
Verən ziya gözümə arizi-nigarın ola.

Sən, ey gözəl, mənə bir qiblәsən, mən istəyirəm
Misali-qiblənüma meylisiz diyarın ola.

Sənə əgər mələyin bir cəhətdən oxşarı var,
Və leyk xasiyyətində çətin ki, yarın ola.

Vüsal istəmərəm, vəhmi-hicrdən könlüm
Dilər ki, nisgil odu onda yadigarın ola.

Olaydı kaş pərişan bu qarə bəxtim kim,
Əsiri-silsileyi-zülfi-mişkbarın ola.

Şikayət etdiyimə min şükürlər eyləyirəm,
Dilimdə kaş həmişə sənin qərarın ola.

Qapında qoydu Füzuli bu şövq ilə ömrün,
Öləndə qəbrinə hər gün sənin güzarın ola.

❀ ❀ ❀

Qətlimə xəncərlə qəsd etdi o türki-tündxu,
Odlanırdım mən ətəşdən, mərhəmətlə verdi su.

Zövq alıb canlar ətirləndi nəsimi-vəsldən,
Çün gəlib çatdı səfərdən ol qəzali-mişkbu.

Jalələr tək başıma yağdı məlamət daşları,
Keçdi afət günlərim, oldu müyəssər arizu.

Can ola qurban ki, cövlani-səməndi-nazini
Qaldırar şaxə məni gördükdə, manəndi-ədu.

Boş qalıb əfsanəsindən Qeysü Fərhadın cahan,
Əhli-dünyaya yetişdi ta ki, məndən göftgu.

Başqa bir divanə mən tək gər fəna sərhəddinə
Yetsə, axtarmış məni, əlbəttə, etmiş cüstcu.

Söylədim: tutmuş Füzulinin yolun göz yaşları
Söylədi: çox yaxşı oldu, kuyimə düşməz yolu.



Zülfün qəmilə oldu könül mübtəla sənə,
Kuyində, sevgilim, ola başım fəda sənə.

Təlim edəndə eşqini bilmişdi kim, qəza,
Olsam hər işlə, göstərərəm mən vəfa sənə.

Bunca töküldü başimə eşqin yolunda xak,
Yetmək çətin bu bar ilə ruzi-cəza sənə.

Sorma bu xəstə qəlbimin əhvalın, ey təbib,
Bu gizli sirrdən demərəm macəra sənə.

Səndən başım kəsilsə də ayrılmaram, inan,
Sərməsti-eşqinəm, gözəlim, mərhəba sənə!

Bir dəm şikayət etmə, Füzuli, o şuxdən,
Mum tək əritsə qəm odu, versə cəfa sənə.

O məhrudən mənə nə lütf vardır, nə kərəm vardır,
Odur ki, xəstə könlümdə mənim min dərdü qəm vardır.

Baxır bir dəm mənə mehr ilə, bir dəm qeyz ilə ol məh,
Səhər tək tiği-lütfündə onun qəhrü sitəm vardır.

Gülü susənlə bir xoş bağçadır dünya, vəli əfsus,
Gülün rəngi solur, susəndəsə buyi-ədəm vardır.

Kənar olmaz xəyali-xaki-rahi bir zaman gözdən,
Mahal işdir o yerdə qalxa toz kim, orda nəm vardır.

Deyildir lütf üzündən bunca cövrü, bəlkə tənimdən
O daim xovf edir, lütfü varisə, cövrü həm vardır.

Əyilmiş qəddimi atdı kənarə çərx kuyindən,
Nişanə dəyməz aləmdə o ox kim, onda xəm vardır.

Cəfakeşdən büsati-eşq hərgiz olmamış xali,
Füzuli, eşqi asan bilmə, onda yüz ələm vardır.

❀ ❀ ❀

Daha üftadə bizi sevgili canan diləyir,
Varmı bundan da ağır gün kim, o sultan diləyir.

Eşqinə kim həvəs etsə o büti-bibakın,
Özünə, mən kimi, bir bidilü iman diləyir.

Çərxdən də keçir ahim, əcəb oxdur, hədəfin
Bu fələkdən də uzaq olmağın hər an diləyir.

Yeni ayın yəhərin qoydu fələk öz atına,
Minməyə sən kimi bir afəti-dövran diləyir.

Xaki-kuyindən onun tozmu çıxıb kim, yerdən
Gözünə sürmə üçün çərx onu dərman diləyir.

Bir xətadır sənə rəşki-büti-Çin söylərisəm,
Çini-əbrunu qəzəb vaxtı bu nalan diləyir.

Başqa bir kam Füzuli diləməz dövrandan,
Vəslə müştaqdır ol, bir məhi-taban diləyir.

O sərvin qamətin göstərdi güzgü, min xəta etdi,
Özün könlüm kimi dərdə, bəlayə mübtəla etdi.

Bükülmüş qəddimə göz yaşlarım ayinə tutmuşdur,
Heyif kim, qəddimi əydi qəmi-eşqin, düta etdi.

Onun qəlbində mən yer tapmadım, fəryad bəxtimdən,
Əgərçi qəlbimizdə ol pəri min ev bina etdi.

Qəmin hicran günü dar könlümüzdə etdiyi qovğa
Haman qovğadır ol kim, qönçəyə badi-səba etdi.

Yudun sən damənin tozdan, mən isçə qüssəvü qəmdən
Yanır könlüm, niyə bəxtim məni səndən cida etdi.

Yoruldu cism, qan axdı, ciyər yandı, könül sındı,
Əgər bilsən, mənə eşqin nələr, ey dilrüba, etdi.

Könül baş qaldırıb əbruyi-xuban səcdəgahından,
Ona heyrətdəyəm, bunca niyə səhvü xəta etdi.

Yerindən qopmadı ta olmayınca qanlı bir qətrə
Ki, hər qəlbə özün ol qanlı peykan aşina etdi.

Füzuli damənindən ta əl üzdü, ey pəriçöhrə!
Tutub öz damənin möhnət, giriftari-bəla etdi.



Nə bilirdim ki, edər bunca o məhparə sitəm,
Edər üftadələrindən bu qədər lütfünü kəm.

Nə qədər möhnəti-zülfünlə əyilsin qəddim
Nə qədər könlümü tənhalıq edə munisi-qəm.

İstiqanlı həna rəngində deyildir nəfəsim,
Rəhm edib ol sənəmin tutsun əlindən möhkəm.

Ağlayır göydə mələklər mənə, yerlərdə bəşər,
Zilü bəm naleyi-zarımla dolarkən aləm.

Dağı-tədbirin ilə qəlbimi incitmə, təbib,
Aşiqin qəlbinə təsir eləməz zövqi-ələm.

Dövləti-vəsl, Füzuli, əgər olmur mümkün,
Qəm ola guşeyi-xəlvətdə sənə qoy həmdəm.



Könlümün cövr təmənnası var ol bədxudən,
Yenə könlüm bu təmənnadadır ol ahudən.

Başını həlqeyi-zənciri-cünundan çəkməz,
Kami-dil istəsə hər kəs o xəmi-geysudən.

Dün səba nafənin əhvalını ta verdi xəbər,
Qəlbi odluydu o dəm sünbüli-ənbər budən.

Bisəbəb guşeyi-mehraba əyilməz zahid,
Bir təmənnayi-nəzər eylər o, kəc əbrudən.

Hər gözəl yarı mələklərlə bərabər tutma,
Özü göyçəksə də, yox faidə ol bədxudən.

Sihhətindən necə bəs eyləməsin qəti-nəzər,
Xəstələnmiş könül gər o gözü cadudən.

Eşqi mən etmə Füzuliyə sən, ey şeyx, hamı
Zövq alar dəhrdə bir naz eləyən məhrudən.

❀ ❀ ❀

Qoy cəfanı mən çəkim, olsun vəfa dildar ilə,
Yaxşıdır dünyada hər kəs zövq edə bir kar ilə.

Rəhm elə gəl halıma, zülm eyləməkdən əl götür,
Od tutarsan yoxsa kim, bu ahi-atəşbar ilə.

Bərqi-ahimdən çıxan odlar əritmiş daşları,
İncidir öz canın ol bimehr bu azar ilə.

Mən kiməm ki, başıma düşsün o sərvin sayəsi,
Kaş kuyində olaydım sayeyi-divar ilə.

Xəstə könlümdən dəmadəm yüksəlir minlərcə ah,
Zülmət olmuş ruzigarım bunca ahü zar ilə.

Dəmbədəm gər istəmirsən ahü zarın könlümün,
Örtmə gül rüxsarını ol türreyi-tərrar ilə.

Şövq ilə can verməyə kuyində iqrar etmişəm,
Ey Füzuli, mən varam ölsəm də bu iqrar ilə.

❁ ❁ ❁

Tiği-cövrünlə könül, var yeri, bərbad olsa,
Şüşə əlbəttə sınar, düşməni fulad olsa.

Ahü fəryadımı hicrində yetirdim fələyə,
Qəm deyil, çərxi-fələkdən mənə imdad olsa.

Nifrət etmə görüb ahım ki, sənin şəmi-rüxün
Sönməz, əlbəttə, küləkdən necə bidad olsa.

Bağdadı şəmi-rüxünlə elə pürnur elədin,
Kimsə yadi-vətən etməz yeri Bağdad olsa.

Qəlbdən atdı Füzuli qəmini əğyarın,
Olacaq dərdü qəmində o əgər şad olsa.

❀ ❀ ❀

Bu möhnətxanədə aqil olanlar xaniman tutmaz,
Ədəm mülkündən özgə mülkdə qalmaz, məkan tutmaz.

Cahan sultanlığı qəm çəkməyə dəyməz, xoş ol rində
Ki, cami-Cəm tutur Cəmşid kimi, mülki-cahan tutmaz.

Başımda odlu ahım şölə çəkdikdə, mələklər də
Yanar bu odda, ahım şöləsini asiman tutmaz.

Mənə məhbəsdir aləm, çəkmə gəl, zəncirə zülfünlə,
Əsirə bundan artıq rəhmli sultan divan tutmaz.

Cəfa daşını bunca, bivəfa, gəl başıma vurma,
Kəsər daş yolları yoxsa, ədəm məndən nişan tutmaz.

Dodağın nəqş saldı qanla islanmış gözüm üstə,
Kağız yeni nəm olmazsa, möhür nəqşi əyan tutmaz.

Füzuli bəxt yar olsa, çatarsan kamına sən də,
Gözünə bir də qıvrım saçların fikri duman tutmaz.

❁ ❁ ❁

Mələk ol sərvi-rəvanın qədinə salsa nəzər,
Yaralı quş kimi göydən düşər, açmaz şəhpər.

Ey günəş, örtmə üzün, görmə rəva şəm kimi,
İliyim hər gecə atəşdə yana sübhə qədər.

Məclisin şəminə söz açma könül dərdindən,
Sirrimiz qoyma ola xalq dilində əzbər.

Saf ürəkdirsə, bəla qabili, heyrət qılma
Alışıb şəm rüxündən, yana ayinə əgər.

Üzünə zülfünü tökdün, ürəyim çırpındı,
Sanki bir quşdu, yuvasına düşübdür əxgər.

Məqsədə səcdə ilə yol arama, ey zahid,
Əyri ox düz hədəf almaz, xəbərin yoxdu məgər?

Sübhədək mehri-rüxündən ki, vurursan dəm onun,
Qorx o dəmdən ki, Füzuli sala afaqa şərər.

❀ ❀ ❀

Möhtaci-vüsalın, gözəlim, söylə kim olmaz?
Müştaqi-camalın, gözəlim, söylə kim olmaz?

Divanə olub kuyinə kim gəlməyə bilməz?
Aşüfteyi-xalın, gözəlim, söylə kim olmaz?

Ey şəm bu mən bağrı yanıq tək gecələrdə
Giryani-xəyalın, gözəlim, söylə kim olmaz?

Çin əhli edir səcdə bütə, eyb deyildir,
Heyrani-misalın, gözəlim, söylə kim olmaz?

Bax, gülşəni-hüsn içrə qədin tazə nəhaldır,
Məftuni-nəhalın, gözəlim, söylə kim olmaz?

Rüxsarını xunabeyi-dildən eləyib al,
Bəndi-rüxi-alın, gözəlim, söylə kim olmaz?

Tək bircə Füzulimi olan qəmzədeyi-eşq,
Divaneyi-halın, gözəlim, söylə kim olmaz?

❀ ❀ ❀

Şəbi –hicran xəyalın etdi xəlvətxanəmi rövşən,
Xəyalın şəmi dildə yüz çırağa oldu pərtövzən.

Tən ilə can arasında savaşma saldı peykanın
Ki, tən rəncidə candan oldu, can rəncidə həm təndən.

Bəlayi-Vamiqü Fərhadü Məcnun məndə cəm oldu,
Pərişan danələr vardı fələkdə, oldu bir xirmən.

Niqabın saldı üzdən, gəldi gül gülşənə doğru,
Onun tələt baharından haman dəm soldu gül-gülşən.

Qədəm qoyduqda sənsiz gülşənə, gül eylə od vurdu,
Yanıb döndüm külə, küldən dəxi gülzar olub külxən.

Sənin peykanın ilə tərh qıldım dildə aşiqlik,
Əsasca bu binayi-mötəbər möhkəmdi ahəndən.

Füzulinin bu şəb sən şəmdən qəlbində var atəş,
Rahatlıq xatiriçün razıdır gər çıxsa can təndən.

❀ ❀ ❀

Deyil hübab o kim, göz yaşımda oldu əyan,
Ayağı əşkimin olmuş qabar dolanmaqdan.

Həyat qeydi olub əhli-eşq üçün zəncir,
Odur ki, eylədi Məcnuni-zarı sərgərdan.

Nişansız oldu könül səndə axtaranda vəfa,
O kəs ki, axtara ənqanı ondan umma nişan.

Gözüm yaşilə vurulmuş ayağıma zəncir,
Mən aşiqə bu necə zülmdür edər dövran?

Muradə çatmadı könlüm mənim bu sövdadə,
O qarə zülfə gərək başımı edəm qurban.

Nəsimi-sübhdə nərgis görüb də xaki-rəhin,
Kəmetinalıq edib gözləri kor oldu, inan.

Füzuli, dəhrdə rüsvay o gündən oldun kim,
Əsiri-qaməti qıldı səni o sərvi-rəvan.



Bəzək vaxtı baxarsa güzgüyə gül üzlü ol canan,
Görər kirpiklərindən güzgünün köksündə yüz peykan.

Könül şad oldu görcək sinədə var eşqinin dərdi,
Xəzinə tapsa bir viranədə dərviş, olar xəndan.

Qəmin bir tazə dağ ilə məni yad eyləyir hər dəm,
Odur çıxmaz yadımdan verdiyin söz, etdiyin peyman.

Qəmindən şad olur könlüm ki, onda tapmamışdır yer,
Qəmindən başqa bir xəznə o gündən kim, olub viran.

Görüncə gözlərim kim, cəm olub məsciddə zahidlər,
Yuxu görməz, görər lakin pərişan bir yuxu hər an.

Rəqibə bəsləmə kin, ey Füzuli, olma qafil kim,
Ürəkdə kin olarsa, mehrdən məhrum olar insan.



Salmasın Tanrı məni ol sərv boylumdan cida,
Ayrılıq göstərməsin eşq əhlinə hərgiz xuda.

Ahü zarım gizlədi seyli-sirişkim naləsin,
Duymasın qoy dəhrdə bir kimsə sirrimdən səda.

Bir sümük qalsa nişanə gər cəsəddən, şübhəsiz,
Navəki-müjganına eylər onu canım fəda.

Təbimin ayinəsin tutmuş qübari qəlbimin,
Cami-meydən almasın könlüm necə dərdə dəva.

Piri-eşqə verməsə hər kəs iradətlə əlin,
Etməsin heç mürşidə bu dəhr içində iqtida.

Ney səsi başdan ayağa dərdü qəmdir, nalədir,
Varmı bir kəs kim, onu vəcdə gətirməz ol nəva.

Olsa qafil yar səndən, ey Füzuli, incimə,
Padşahlar heç bilərmi harda qalmışdır gəda?!



Şövqi-ləlin könlümü hər ləhzə pürxun eyləyər,
Surəti-halım ürək qanı digərgün eyləyər.

Ta ki, xətti tutdu cəmalin, artdı qəmli günlərim,
Bir fəsil ki, gün güdəltsə, şami əfzun eyləyər.

Dudi-ahimdən əgər xof eyləyirsən, nitqə gəl,
Əfini dəf eyləməkçün çarə əfsun eyləyər.

Cilveyi-hüsn oldu meraci-kəmali aşiqin,
Hər kəsə bir dəfə Leyla baxsa Məcnun eyləyər.

Könlümə eşqin düşəndən yaxdı hər bir sevgini,
Özgənin sevdası, sanma, qəlbi məmnun eyləyər.

Eşqdən əvvəldə çəkmiş bunca mönətlər könül,
Bəllidir, əhvalımı axır digərgun eyləyər.

Möhnətim, dərdim onu şad etsə, məndən gizləmir,
Şadlığım, zövqüm onu hər ləhzə məhzun eyləyər.

Sərv boylu bütlərin zahid nə bilsin zövqünü,
Təbi-namövzunu, sanma, səy mövzun eyləyər.

Ey Füzuli, məqsədin səbr ilə hasil olsa da,
Səbr qıldıqca bu dövran zülmü əfzun eyləyər.

❀ ❀ ❀

Hər pəriçöhrə ki, dünyayə bu dövran gətirir,
Bizi incitmək üçün bir yeni canan gətirir.

Fələyin şöbədəsi bir gözəli etsə nihan,
Gözlə, bax gör necə ondan da gözəl can gətirir.

Qəlbi kövrəklərə naləm necə təsir eləməz,
Ölüyə nalələrim sanki mənim can gətirir.

Dəm vurur al dodağından sənin, ey gül, bu qədəh,
Onda bir cürətə bax, gör araya qan gətirir.

Canlanır göz qabağında, gözəlim, sərv boyun,
Dilinə harda biri sərvi-xuraman gətirir.

Kim gözəl üzdən əgər söhbət edib çəksə məsəl,
Bax, o timsali sənin hüsnünə şayan gətirir.

Ey Füzuli, o pərisiz bu qədər fəryadə
Xəlqi sən eylədiyin naləvü əfğan gətirir



Qəsd eləyib canımıza, aşiqə etməyin cəfa.
Eyləməyin cəfa əgər etməsəniz də siz vəfa.

Yoxdu yaman cəfa, bilin, dəhrdə intizardən,
Ya bizə vədə verməyin, versəniz eyləyin əda.

Dosta yamanlıq etməyin, dostluğu möhkəm iş bilin,
Dostluq edəndə gündə siz, dostluğu pozmayın daha.

Gözləməyin rəqibdən mehrü vəfanı, ummayın,
İncitməsin rəqib üçün ta ki, vəfalı aşina.

Qəmzənizin oxu gərək xəstələrə nəsib ola,
Fürsəti fövtə verməyin, eyləməyin siz heç xəta.

Saçdan açanda hər düyün qəlbə düyün vurursunuz,
Allah üçün, ürəklərə siz bunu görməyin rəva.

Xətlə zülfü xal ilə eyləməyin Füzulini,
Eşq bəlasinə əsir, möhnətə, dərdə mübtəla.

❀ ❀ ❀

“Bağrı qan olma” deyən, könlüm necə qan olmasın?
Bir könül varmı, gözəl, zülfünlə al qan olmasın?

Hər qədər varmı hüsnün rövnəqi artsın, mənim
Eşqim üstündür yenə, olmaz ki, taban olmasın.

Hüsnünü Leyla gəlib görsə, yəqin Məcnun olar,
Aşiq adlanmaz o kim, yurdu biyaban olmasın.

Əqlim istər zülfünün daminə könlüm düşməsin,
Eşq söylər könlümə: tut zülfdən, can olmasın.

Qanlı göz yaşımla yazdım dərdimi rüxsarimə,
Qorxuram yar görməsin, dərdimə dərman olmasın.

Bu cahanda heç nəyin yoxdur səbatı mütləqa,
Aqil ol kəsdir ağır günlərdə nalan olmasın.

Ey Füzuli, mehriban olmuş, deyirlər, yar sənə,
İstərəm həqdən ki, yar lütfünə payan olmasın.



Yar kuyində çəkir bəxtim məni biixtiyar,
İxtiyarım qalmayır, halım olur çox biqərar.

Eşqə düşdüm, ixtiyarı qılmasam tərk, ey sənəm,
Aşiqi-sadiq olan etməz mənə bir etibar.

Bu diyar əhli mənə bir ləhzə etmir etina,
Ol səbəbdən istərəm olsun yerim başqa diyar.

Kamə çatmaq zənn edərdim, neyləyim, bu ölkəyə
Gəldim izzətlə, fəqət axırda oldum böylə xar.

Bax, bu kəcrəftar çərxin halına, gör bir necə
Şən gətirmişdi məni, qaytardı dünyadan o zar.

Kamə yetməkçün dedim kuyində mən məskən salım,
Torpaq etmişdi məni dövran, edir indi qübar.

Ey Füzuli, öz xoşumla olmadım avarə mən,
Eyləyib sərgəştə aləmdə məni bu ruzigar.

❀ ❀ ❀

Qalmadı qəlbimdə bir insanla söhbətçün həvəs,
Məncə, bu dövranda bir həmsöhbət axtarmaq əbəs.

Zülmə bax bir, şəkkəristandan çəkilmişdir tamam
Qəlb açan tutilər, ancaq qalmış orda bir məkəs.

Getdi badə, bu çəməndə qalmadı bir yasəmən,
Axtarıb nərgis yerində sən görərsən xarü xəs.

Ney kimi sinəmdə vardır möhnətü qəmdən düyün,
Söyləməkçün dərdimi yoxdur cahanda həmnəfəs.

Bəzmdən kəsmiş ayağın şahidi-məqsudimiz,
Gözlərimlə qəlbimin məqsədinə yox dəstrəs.

Ruhu təndə qoymadı dəhrin bu sonsuz qəmləri,
Qoymadı könlüm quşunda bir təhəmmül bu qəfəs.

Ey Füzuli, kəsmişəm zövqü səfadən meylimi,
Təkcə yarın vəslinə qəlbimdə qalmışdır həvəs.

Zülmündən, ey sənəm, dolub ahimlə asiman,
Bilməm nə zülmdür göyə qalxır zaman-zaman.

Sinəmdə vardı şövqi nihan tiri-qəmzənin,
Faş eylədim bıçaq sümüyə işləyən zaman.

Yüz yol məlamət oxları dəymişsə sinəmə,
Göz dikmişəm sənə yenə, ey qaşları kaman.

Bir ox toxundu bağrıma səndən, nə söyləyim,
Qaldım əlində axırı mən zarü biaman.

Uymuş könül vüsalına, lakin nə faidə,
Sən olduğun məqamə yetərmi bu natəvan?

Bülbüldür odlu ahi ilə solduran gülü,
Ey bixəbər, demə ki, gülü soldurub xəzan.

Artıq bu qəmli yolda yetər gəzdiyin sənin,
Getdi, Füzuli, qalmadı qəmdən tənimdə can.

❀ ❀ ❀

Çoxdu dərdim, kədərim, möhnətimi yar bilir,
Neyləyim, dərdlərimi az edir izhar, bilir.

Sorma dildar ilə qəlbin nədədir rabitəsi,
Bu da bir sirri-nihandır, onu dildar bilir.

Şükr Allaha, vəfa gördüm onun eşqindən,
Qədrimi çünki mənim yari-vəfadar bilir.

Sevgisi hər nə qədər olsa, görər lütf o qədər,
Təbimin mən quluyam, çünki o miqdar bilir.

Qibtəsindən məni əğyar verir pis qələmə,
Uymaz əğyarə, bütün xislətimi yar bilir.

Saçının möhnəti-sevdasını səndən sordu,
Gecənin möhnətini, dərdini bimar bilir.

Ey Füzuli, nə üçün dərdimi izhar eləyim,
Dili-zarimdə nə varsa, o dilazar bilir.



Ol qələm kim, nəqş edib surətləri, ey dilrüba,
Ayrılıq tərhin töküb, çəkmiş məni səndən cida.

Ağlamaqdan saxlamış xəttin xəyalı didəmi,
Çünki ol xət qoymayıbdır gözdə qalsın nəm daha.

Cövrünü çəkmək olub daim peşəm şamü səhər,
Gər işim çatdı hara, səndən necə çəkdim cəfa.

Bunca kim, çəkdi sitəm könlüm qəmindən hər zaman,
Aşiqin, ey daş ürəkli, görmədi səndən vəfa.

Yol tapandan kuyinə göz yaşları seylab tək,
Kəsmədi ordan ayaq, qaldı qapında daima.

Gün şüasından əlində milçə tutmuşdur səhər,
Çeşminə çəkmək dilər xaki-dərindən tutiya.

Sən hələ aşiq deyilsən, sevgilim, bir kimsəyə,
Agah olmazsan, çəkər dərdli Füzuli yüz bəla.

❀ ❀ ❀

Girdbadın tozu, ey məh, demə örtüb bədənim,
Oynadır torpağı da naləmin ahəngi mənim.

Ehtiyac yox gətirim üzr bu risvalığıma,
Töhmət etməz məni hüsnün görən, ey simtənim.

Olma mail bu sınıq könlümü incitməyə gəl,
Səni incitməyə ta naleyi-beytül-həzənim.

Sən bir od parçası, mən xarü xəsəm, incimərəm
Olmasa razı rəqibim ola kuyin vətənim.

Nə qədər sağdı könül inciməz, ey nazlı nigar,
Dodağından can alıb, gözlərə can versə tənim.

Necə taledi bu ki, varlığımın tarlasına
Hər nə əkdimsə, kədər-qüssə bitirdi çəmənim.

Gəzir əfğanla Füzuli səri-kuyin gecələr,
Qapısında onu bir qul sana şirinsüxənim.

❀ ❀ ❀

Var bu sinəmdə oxundan yüz yara hər dəm mənim,
Sineyi-çakim olub sanki dəmirdən cövşənim.

Səcdeyi-şükr eyləyərdim torpaq üstündə müdam,
Mən öləndən sonra olsa kuyi-canan mədfənim.

Şəm ölüncə ağlayar, yoxdur mənimlə nisbəti,
Sənsiz ölsəm də, kəsilməz bir dəqiqə göz nəmim.

Olmasa atəş əgər, şəmin olarmı şöləsi,
Olmasa sevdiyi-eşqin, canı neylərdi tənim?

Məcnun öz eşqilə şöhrət tapdı, ancaq, sevgilim,
Kim səni sevsə, bilər onda nədir halım mənim.

Bağiban, etmə mənə təklif gülşən seyrini,
Yoxdur aləmdə onun kuyindən özgə gülşənim.

Dostumun eşqi, Füzuli, qoymasın məndən nişan,
Bəsdir ox vurdu mənə tən ilə hər dəm düşmənim.

❀ ❀ ❀

Qanlı göz yaşım sübut eylər, ciyər pürxun olub,
Bir deyən yoxdur nədən könlüm belə məhzun olub.

Tüklərim julidə oldu zülfünü görcək sənin,
Çıxdı hər sevda başımdan, qəlb ona məftun olub.

Aşiqəm mən, bilmirəm lakin nədir sevdayi-eşq,
Yox kamalı məncə, Məcnun bilsə gər məcnun olub.

Göz yaşımdan etmə nifrət, çəkmə gəl, damanını,
Qan deyil bu, gül üzündən göz yaşım gülgun olub.

Mən neçin sərgəştəyəm atəşli ahimlə, məgər
Bağlıyam əflakə, guya rəhbərim gərdun olub.

Gözlərim nuri məgər sərf oldu gül rüxsarinə
Kim, onun nuri azalmış, hüsni-yar əfzun olub.

Gər əlin çatmış, Füzuli, vəsfinə ol qamətin,
Ol səbəbdəndir ki, təbin daima mövzun olub.

❀ ❀ ❀

Gecə xatırlamayır dərdimi bəzmində nədən,
Necə xəlvətdi o yer, gəlməyirəm xatirə mən.

Gül üzünçün hər iki aləmi tərk etsə könül,
Keçə bilməz o iki silsileyi-zülfündən.

Məni bir məclisə çəkməz qəmə aludə könül,
Orda dildən-dilə sən düşməsən, ey qönçədəhən.

Kim könül versə güləndamlı bu gülçöhrələrə,
Eyləməz sərv ilə gül görmək üçün seyri-çəmən.

Yetməyib kamə bu aləmdə bütün aşiqlər,
Kamə yetmək belə məclisdə deyil müstəhsən.

Gərək aşiq olan, əlbəttə, çəkə cövrü cəfa
Ki, tapa ləzzəti-ruhanini aləmdə bədən.

Bircə an varmı, Füzuli, bu cahan mülkündə
Möhnəti-dərdi-qəmin çəkməyə, ey simintən!

❀ ❀ ❀

Yel atıb pərdəni görcək üzün, ey simbərim,
Kəsilib səbrü qərarım, yox özümdən xəbərim.

Necə oddur bu ki, sənsiz yanıb odlandı könül,
O qara gözlərinin atəşi yaxdı ciyərim.

Xalının könlüm əsiriydi əzəldən, nə edim,
Oldu xəttində bəla, artdı dəmadəm kədərim.

Sənə baxdıqca gözüm nuru dönüb olmasa qan,
Göz yaşım tək onu gözdən salacaqdır nəzərim.

Sanma göz mərdümüdür, dağı-ciyərdir ki, onu
Qəlbimin qanlı selindən qoparıb çeşmi-tərim.

Gözümün seyli axıb, hər tərəfə saldı səda,
Bürünüb şöhrəti-hüsnünlə bütün dövrü bərim.

Qapını eyləmədi gərçi Füzuli məskən,
Dərbədər saldı bu dövran onu, ey nazlı pərim!



Çıxsa can qaytarar ətrin, gözəlim, can bədənə,
Ölünü zövqi-kəlamın gətirər nitqə yenə.

Dodağın zikrinə hər qönçə uyub həsrət ilə,
Ağzının axdı suyu, şeh kimi düşdü çəmənə.

Aç o çin-çin saçını, ta ki, xəta etdiyini
Anlasın mişk üçün hər kəs gedəcəkdir Xötənə.

Kuhikən sel kimi göz yaşı töküb şamü səhər,
Bisütundan yetişir süd kimi Şirin dəhənə.

Var səbəb getsə çəməndən uzağa ətri gülün,
Yol azan bülbülü ta kim, çəkə bilsin çəmənə.

Sərvi, gəl tutma bərabər gözəlin qamətinə,
Sərv sahib ola bilməz belə sibü zəğənə.

Kim ölərsə ucaboy, gülyanağın eşqilə,
Ey Füzuli, dönəcək torpağı sərvü səmənə.

❀ ❀ ❀

Həmmam ilə ənis dünən nazlı yar olub,
Hər tük tənimdə bir müjeyi-əşkbar olub.

Dirilik suyum axıb yoluna damcı-damcı, ah,
Bais bu halıma yenə ol gülüzar olub.

Peykanları bu dərdli könüldə nihan idi,
Hər yandan indi, bax, necə gör aşikar olub.

Görmüş gözüm o şöləyi-şəmi-cəmalını,
Sübhə kimi işim gecələr ahü zar olub.

Şadlıq cəmalını bəzəyib rişteyi-tənim,
Hər tarini görüncə düri-şahivar olub.

Hər tük tənimdə min qəmə-dərdə dönüb bu gün,
İrmiş vüsali-yarə könül qəmnisar olub.

Təkcə Füzuli göz yaşı tökmür yolunda, yar,
Hər kəs o sərv qəddi görüb, biqərar olub.



Öldürür şadlıq məni təndən əgər peykan çıxa,
Bəlkə bu peykan ilə birgə bədəndən can çıxa,

Qalmaram sağ, çünki hicrandan könül olmuş xilas,
Məhv olar hər bir qığılcım ki, yanar oddan çıxa.

Dərgəhində toz da görmək istəməz könlüm mənim,
İstər ol Adəm olub, gər bağı-rizvandan çıxa.

Tüstüdən hər göz yaşarsa bənzər ol bədbəxtə kim,
Yaxmağa daim onu atəş bir hicrandan çıxa.

Həsrətilə ölsəm hərgah qönçəyi-xəndanımın,
Yox təəccüb torpağımdan qönçəyi-xəndan çıxa.

Üstümü alsa əcəl, sinəmdə yalnız qəm tapar,
Axtarış vaxtı gərəkdir zahirə pünhan çıxa.

Var bu könlümdə, Füzuli, yarımın peykanları,
Qorxuram gözdən bu qanlı seyl ilə peykan çıxa.



Sərv boylum sayə salsa başıma gər bir kərə,
Saxlaram daim başımda, qoymaram düşsün yerə.

Çöhreyi-cananda görməkdənsə bir anlıq qəzəb,
Razıyam qəlbim toxunsun gündə yüz min xəncərə.

Yüz bəla dami qurub, könlüm quşun seyd eylədin,
Hər düyün vurduqca sən, canan, o zülfi-ənbərə.

Bir qaşı düşmüş üzük tək sinəm oldu çak-çak,
Sındı qəlbim, qədd büküldü, düşdü canım qəmlərə.

Var yeri, əlbəttə ki, olsa dəmirbənd ayinə,
Əksini tutmuş müqabil sən kimi bir dilbərə.

Mərdümi-çeşmim çətin ləli-ləbindən ayrıla,
Qurtuluş tapmaz düşəndə arı şəhdü şəkkərə.

Ey Füzuli, ol bütün şövqün salıbsan qəlbinə,
Qorxmayırsanmı səni dinin yolundan döndərə?

❀ ❀ ❀

Ayinədə əksim özümə bir nəzər etdi,
Əhvalımı göz yaşı töküb didə tər etdi.

Ayinədə yox məndə olan eşqə dəyanət,
Yar ondan uzaqlaşdı, o tərki-nəzər etdi.

Torpaqlara qərq eyləyəcəkdir məni qibtə,
Yarın nə üçün kuyinə könlüm güzər etdi?

Axşam mənim əhvalıma göz yaşları tökdü,
Sanki bu könül atəşi şəmə əsər etdi.

Ayinəni də görməyə qoymur məni heyrət,
Müjganına könlüm gözünü bir süpər etdi.

Öz dərdinə bir başqa əlac eylə, Füzuli,
Çox işləri dünyada səbir bisəmər etdi.

❀ ❀ ❀

Könlümün gözləri yar nərgisinə saldı nəzər,
Yox təəccüb, qarə bəxtim mənə vermirsə səmər.

Bir təmiz gözlə baxır ay üzə hər kəs, yeri var
Göz yumub aləmə, hiss etməyə dünyada əsər.

Ölməsəm eşqinin uğrunda, vəfalı deyiləm,
Bu yolumdur mənim, eşqin yolunu sanma hədər.

Necə hicr atəşinə yanmaya sevdalı könül,
Vəslə göz dikmiş, onun vardı günahı nə qədər.

Sanma dirlik suyun, İsa nəfəsin çox da hünər,
Kim tökür göz yaşı dünyada odur canlı bəşər.

Bu könül mülkü gərək qalmaya viranə, xərab,
Şahı var sən kimi, təmir olunur şamü səhər.

Varmı bir an ki, Füzuli unuda dərdi, qəmi,
Eşq sultanı olub, ordusudur qüssə, kədər.



Ayüzlüm hər kəsə ləli-ləbindən kam vermişdir,
Mənə kam istəyəndə hər zaman düşnam vermişdir.

Çəkil, saqi, aparsın huşumu cananımın təni,
Məni sərxoş qılıb, meygun ləbindən cam vermişdir.

Çəkirdim dərd, görən yarım bilirmi qədrimi, lakin
Onun düşnami dərdli könlümə aram vermişdir.

Mənə tən etdi ol büt, nəşədən can qalmadı təndə,
Bu tənilə mənə yarım meyi-gülfam vermişdir.

Nədir, bilməm, günahım, qismətimdir ayrılıq dağı,
Vüsalilə o canan hər kəsə ilham vermişdir.

Aparmış huşumu nitqi, könül bilmir onun əmri
Ölümdür, yoxsa canan müjdeyi-ənam vermişdir.

Olub bixud uzaqlaşdım qəmi-əyyamdən artıq,
Bu bixudluq Füzuli dərdinə əncam vermişdir.

❀ ❀ ❀

Yar üçün yar gərək tənеyi-əğyar çəkə,
Cövri-əğyari gərək, şübhəsiz, hər yar çəkə.

Gül sevən, qaydadı, dünyada görər cövrü cəfa,
Bir gül üçün o gərək tənəyi-yüz xar çəkə.

Min əzab çəkməsə insan, məgər arzuya çatar?
Məqsədə yetmək üçün can gərək azar çəkə.

Səfərindən azacıq görmək üçün fayda, gərək
Səfər əhli səfərin hər nə qəmi var, çəkə.

Eşqi tərk etməliyik, çünki qəm içrə aşiq
Olub avarə, gərək zəhməti hər yar çəkə.

Aşiqə olsa müyəssər də əgər yarla görüş,
İntizar ilə gərək həsrəti-diyar çəkə.

Yarı əğyar ilə görmək – o da bir başqa bəla,
Çarə yox, cövrü gərək aşiqi-dildar çəkə.

Bu cahan mülkünü tərk eylə, Füzuli, bəsdir,
Qoyma qəlbin bu qədər möhnətü azar çəkə.

❀ ❀ ❀

Aşiqi-sadiqdə aşiqçün gərək pərva ola,
Ta ki, nə dərdin açа aşiq, nə o rüsva ola.

Qönçə tay olmaz, demişdim, ağzına cananımın,
Qönçə də təsdiq elər bu fikri gər guya ola.

Ay gözəl, sən tək mələkxislət pəriüzlü hələ
Yer üzündə olmayıb, bəlkə bu gün peyda ola.

Lütfdür, pünhan da olsa, sevgilim, meylin mənə,
Ah, o lütfündən ki, onda zahir istiğna ola.

Sən qılınc çəkdin, axıtdın gözlərim seylin, odur.
Bizdəki birlik xərab eylər əgər dünya ola.

Fayda verməz heç nəsihət dərdlə dolmuş könlümə,
Pənd əsər eylərmi, naseh, dildə gər sevda ola?

Qoyma cananın ayağına, Füzuli, başını,
Ehtiyat eylə, məbada fitnələr bərpa ola.

❀ ❀ ❀

Lütf edir bəzən mənə, bəzən edir cövrü cəfa,
Şuxluğu ol mahin hər dəm eyləyir bir iqtiza.

Gah o növrəs göstərir kakil mənə, gah zülfünü,
Çəkdirir hər an necə gör bir yeni dərdü bəla.

Var yüz-yüz mübtəlası, lakin ol sərkəş pəri
Halını sormaz, düşünməz hardadır bir mübtəla.

Aşiqəm, yoxdur sənin kuyində özgə bir yerim,
Hər kəsə bu dəhrdə bir yer verər zövqü səfa.

Ol vəfasız heç mənə mehrü vəfa vəd etməyir,
Vəqt çatıb, öz vədinə etsin gərək artıq vəfa.

Qana dönsün bü könül, ya Rəb, aparmış səbrimi,
Arizu eylər o hər dəm başqa dürlü dilrüba.

Hakim-təqdirin hər an başqa cür bir hökmü var,
Kim ona zidd olsa, şəksiz, eyləyər cürmü xəta.

Bir qulam ləli-ləbi-yarə, Füzuli, ol təbib
Hər könüldə dərd görsə, eyləyər, əlbət, dəva.

❁ ❁ ❁

Səba yeli o gülümdən neçün xəbər verməz?
Olub təsəlli, yanan könlümə əsər verməz.

O göstərib üzünü, baxmadı mənə, lakin
Çiçəklənən bir ağaç bəs nədən bəhər verməz?

Dedim ki, göz yaşı tökməklə şərh edim halım,
Fəqət, nədənsə, icazə bu çeşmi-tər verməz.

Gözüm necə yuxuya getmək istəyir, ancaq
Ona gözüm yaşının seyli rəhgüzər verməz.

Xoş halına o kəsin, sən baxanda canı verir,
İnildəməklə sənə bir də dərdi-sər verməz.

Ümid edirdi könül vəslinin görə bəhərin,
Ümidimin ağıcı, neyləyim, səmər verməz.

Qərar gözləmə məndən, Füzuli, gəc bəxtim
O yara çatmaq üçün nalənə əsər verməz.

❀ ❀ ❀

Dərdini sinəmdə könlüm eylə bil can bəsləyir,
Ol səbəbdəndir onu zövq ilə hər an bəsləyir.

İndi məlum oldu ki, ancaq şikayət qılmağa
Bu sümükləri həmişə cismi-üryan bəsləyir.

Lalə rəngli göz yaşım öz çeşmimin məhsuludur,
Böylə bir rövnəqli ləli hansı bir kan bəsləyir.

Gözlərim xəttin xəyalilə necə yaş tökməsin,
Çün axar su göy çəmənlik, bağı-bustan bəsləyir.

Qamətin tək sərv olmaz, dəhrə gər etsə rəvan
Hər ağac kim, gülşəni-cənnətdə rizvan bəsləyir.

Olsa cahildə, təəccüb etmə, dünya neməti,
Xoş dil, adətdir, həmişə tifli-nadan bəsləyir.

Çeşmü qəlbinə Füzuli öz ciyər qanın verir,
Gör necə düşmənlərin daim firavan bəsləyir.



Xoş ol ki, ney kimi hər bəndimi cida edələr,
Nəinki mane olub naləyə cəfa edələr.

Bu mahparələr eşq əhlinə vəfa eləməz,
Gərəkdir aşiqi min dərdə mübtəla edələr.

Məhəbbət əhli görür arizi-nigari əgər
Ayağının tozunu gözdə tutiya edələr.

Əmanətindir o can, saxlamışlar aşiqlər,
Yetişdi vəqt, onu bir-bir sənə əta edələr.

Görüb bu gün ki, səni şəhr içində zahidlər,
Səhər namazını onlar gərək qəza edələr.

Ağıl yolilə gedənlər, təəccübəm, nə üçün
Ki, özlərin qəfəsi-dəhrə mübtəla edələr.

Deyil, Füzuli, pəriçöhrələr vəfa əhli
Ki, hərgiz etmə təmə bizlərə vəfa edələr.

❀ ❀ ❀

Ağlaram, var gözümün yaşına, əlbəttə, səbəb,
Ağlasam qəlbimin əhvalına, gəl sanma əcəb.

Məni dindirməyir ol qaşı kaman cananım,
Qaş-qabaqla baxıb eylər mənə peyvəstə qəzəb.

Candan heç kəs, nə qədər ömr edə, minnət çəkməz,
Zövq versə gər onun qəlbinə bir şirin ləb.

Kuyi-canana bizik, talibi-cənnət zahid,
Taleyindən edər öz qədricə hər kimsə tələb.

Yoxdur, ey şəm, soruşma, ürəyimdən xəbərim,
Ondan ayrı mənə gündüz görünür zülməti-şəb.

Kuyinə gəlsə də yüz şövq ilə dürri-əşkim,
Yaşının azlığına baxma, bilir rəsmi-ədəb.

Bu Füzuliyə gəh aşiq, gəhi arif deyilir,
Şöhrəti dəhri tutub, var ona hər yerdə ləqəb.

Könlümün dərdinə dildar dəva etməyəcək,
Mənə bir mərhəmət ol mahliqa etməyəcək.

Məni gər salsa da ol qaşi kəmanım gözdən,
Könlümün mülkünü biganə fəna etməyəcək.

Bütlərin mehrü vəfası o qədər azdır ki,
Bir kəsə cümləsi toplansa vəfa etməyəcək.

Yaxamı etsə də sədparə sitəmlər, bu könül
Eşqinin damənini, bil ki, rəha etməyəcək.

Gəl həlak etmə bizi, çün rəhi-eşqində sənin
Biz edən işləri bir əhli-vəfa etməyəcək.

Bağı-vəsl içrə, Füzuli, necə gül dərsin o kim,
Səbr edib, canını amaci-bəla etməyəcək.

❀ ❀ ❀

Qəmi-cananı bilənlər məni-nalanə yanar,
Aşina cövr eləyir, bax mənə biganə yanar.

Atəşi-qəlbimi pərvanə gətirsə dilinə,
Yandırar qəlbimi şəmin necə pərvanə yanar.

Atəşin çoxdusa fanusun içində, ey şəm,
Mən tək olmaz ki, şərarimlə mənim xanə yanar.

Qafil olma bu qədər ahim odundan, ey can,
Uzaq ol sən bu gecə, çünki bu viranə yanar.

Göz yaşım qətrələrin məhv eləyir qəlb odu, heyf,
Danə-danə bu ömür xərməni bax gör nə yanar.

Bir gecə söylədilər şəmi-rüxün ovsafın,
Hər gecə indi könül atəşi-cananə yanar.

Dili-divanəyə qəmxar, Füzuli, yoxdur,
Gecələr dağı-qəmim bu dili-büryanə yanar.

❀ ❀ ❀

Könül, istərdim ol məhru bizə eldən nihan gəlsin,
Ona, qorxum budur kim, bədnəzərlərdən ziyan gəlsin.

Yan, ey könlüm, sümüklər də sinəmdə od tutub yansın,
Məbada üstüxan tiri-xəm əbruyə nişan gəlsin.

Yetəydi asimanə kaş kim, yüz ahi-dil hər dəm
Ki, olsun hər biri canə bəlayi-asiman, gəlsin.

Mən istərdim elə məhrum olam kim, qoymaya heyrət
Nə vəslindən danışsın dil, nə qəlbə bir zaman gəlsin.

Rəqibi dəf qılmaqçün çıxar min ah sinəmdən,
Bu min oxdan biri düzgün nişanə var güman gəlsin.

Mən ölməklə könül qurtardı candan, qaldı kuyində,
Qəmindən keçdi candan, söylə, canə bəs haçan gəlsin.

Nisar etdin, Füzuli, nəqdi-canın müjdeyi-vəslə,
Nə eylərsən özü birdən gər ol sərvi-rəvan gəlsin.



Hər kəsin dildə qəmi-simbəri olmuş ola,
Xoşdur eşqində onun çeşmi-təri olmuş ola.

Odur aləmdə nəzər sahibi, açdıqda gözün
Bir gözəl mahliqayə nəzəri olmuş ola.

Eşqdən dönməyən aləmdə o aşiqdir kim,
Yatmayıb, kuyi-nigarə səfəri olmuş ola.

Hər xəbərsiz nəyə lazım, mən onun bəndəsiyəm
Ki, mənim hali-dilimdən xəbəri olmuş ola.

Neylərəm hər yetəni, mən sevirəm ol kəsi ki,
Eşq rahində onun bir hünəri olmuş ola.

Səhldir gərçi fəraqət, quluyam mən o kəsin,
Qəlbi qəmlə dolu, yanmış ciyəri olmuş ola.

Qəmi-eşqində Füzuli eləyib can nəzri,
Eylə zənn etmə ki, başqa göhəri olmuş ola.



Dedim: eşqində könül zarü həzin olmalıdır,
Dedi ki: söz odur, əlbəttə, həmin olmalıdır.

Dedim: etmiş niyə çeşmin xəmi-əbrudə məkan?
Dedi: pakizə nəzər guşənişin olmalıdır.

Dedim: etdin dil ilə dinimi qarət nə üçün?
Dedi: büt sevgilisi bidilü din olmalıdır.

Dedim: öz aşiqini bəs necə istərsən ola?
Dedi: rüsvalığa aləmdə əmin olmalıdır.

Dedim: həq nuri cəmalində təcəlli eləyir,
Dedi: ol nuri görən çeşmi-yəqin olmalıdır.

Dedim: ey gül, mənə bir tel ver o çin zülfündən,
Dedi: bu xəstə üçün nafeyi-çin olmalıdır.

Dedim: aləmdə Füzuli qapının bir quludur,
Dedi: alnında onun dağı yəqin olmalıdır.

❀ ❀ ❀

Dəyəndə dərdimi, saqi mənə şərab verir,
Dayanmadan ona hər söz desəm, cavab verir.

Ağac ki, silkələnə meyvəsin tökər daim,
Gözüm yaşın tökərəm, çərx iztirab verir.

Özümdən olmadı avarəlik, bu çərxi-fələk
Zəif edib məni, bir sap misalı tab verir.

Oxun kimi, fələyin yox oxunda bir peykan,
Yüz ox vurur mənə bir qətrə ta ki, ab verir.

Düşünmürəm niyə gəh zahidəm, gəhi rindəm,
Fələk mənə nə qədər gündə inqilab verir.

Mey içməsəm mən əgər dərdü qüssədən ölərəm,
İçəndə tənəyi-zahid mənə əzab verir.

Füzuli, şükr elə, çərxin əcəb qonaqlığı var:
Şərabı göz qanıdır, qəlbdən kəbab verir.



Kim ki, heyran olur ol dilbəri-siminbədənə,
Həsədimdən, gözüm olsa, yenə düşməndi mənə.

Gah naləmlə, gəhi dağı-qəmindən yanıram,
Xoşdur eşqin məni həsrətdə qoya canü tənə.

Çıxmaz, ölsəm də, başımdan xətinin sevdası,
Bağlıyam eşqinə, cana, necə ki, can bədənə.

Şirinin surəti-divar ilə bəs fərqi nədir?
Baxsa surət kimi qəflətdə qəmi-Kuhkənə.

Sevmərəm kölgə də səhrada dolansın sən ilə,
Çünki səhra da tapar can, yetirər eşq sənə.

Bülbülün müşkülünü açmasa gər gülşəndə,
Nəyə lazım daha şəbnəm diş o qönçə dəhənə.

Dərdsiz qəlbə bir əfsanənin olmaz əsəri,
Dərdi-dildir yetirən zövqü, Füzuli, süxənə.



Razıyam könlümü bir zülfi-sitəmkar apara,
Sına, hər parəsini zülfdə bir tar apara.

Bivəfalıq eləyən təkcə bizim yar deyil,
Aşiqin bari-qəmin yox elə bir yar apara.

Qəlbimin qanını tökdüm səri-kuyində bütün,
Nə qədər qəm yükünü bəs bu dili-zar apara?

Şəmin ətrafını, ey gül, gecə çox seyr eləmə,
Qoyma kölgənlə yanan qəlbimi divar apara.

İşvəvü qəmzənə hər ləhzə icazət vermə
Ki, olardan biri möhnət, biri azar apara.

Könlüm istər yaşayam, leyk çətindir canı
Elə xunxarın əlindən belə xunxar apara.

Şaddır indi Füzuli ki, tapıb kuyinə yol,
Xoş o bülbül ki, onu gülşənə gülzar apara.



Parə-parə ürəyim çeşmi-tərimdən düşsün,
Şölələr canıma odlu şərərimdən düşsün.

Etina etməyirəm mən şərəfimdən günəşə,
Yarı görcək o gərəkdir nəzərimdən düşsün.

Ətəyimdən tutacaq rütbəmi gördükdə günəş,
Sayə gər başıma ol taci-sərimdən düşsün.

Guşeyi-qəm mənə xoşdur, nəçiyəm mən ki, yolum
Hər zaman bəzmi-büti-simbərimdən düşsün.

Bərqi-ahım fələyə kaş yetə, bu qəm gecəsi
Kövkəbi-bəxtimə od nalələrimdən düşsün.

Yoxdur aram, Füzuli, mənə heç yerdə, məgər
Yolu bir dəm o məhin rəhgüzərimdən düşsün.

❀ ❀ ❀

Fəryad mənim müşkül olan karımı açmaz,
Ah eyləməyim dərdi-dili-zarımı açmaz.

Qəlbimdə düyünlər necə talelə açılsın,
Gər şanə onun türreyi-tərrarını açmaz.

Dövlət qapısın qarşıma iqbal açа bilməz,
Ta bad niqabı-rüxi-dildarımı açmaz.

Asudəlik olmaz da bu mənzildə, əgər bəxt
Kuyində mənim möhnətü qəm barımı açmaz.

Var məndə üzün həsrəti, şövqi-səri-kuyin,
Yüz seyri-çəmən bu dili-qəmxarımı açmaz.

Dəfn eyləməyin siz məni qəlbimlə bərabər,
Qan mövcü demə qəbri-şərərbarımı açmaz.

Həsrət tikanı verməyəcək bar, Füzuli,
Göz yaşım əgər qönçəvü gülzarımı açmaz.



Çərx kin tiği çəkib, sinəmizi çakə salar,
Yarəsindən könül öz atəşin əflakə salar.

Götürər xaki-rəhin başə, şərafət deyə xalq,
Sevgilim, sərv qədin sayəsin hər xakə salar.

Qəlbini pak elə hər hiylədən, adətdir bu,
Eşq öz nurunu ancaq ürəyi pakə salar.

Şövqi-ləli-ləbini qəlbdə pünhan elədim,
Atəşi gizlədən aşiq onu xaşakə salar.

Zəfimə etmə əcəb, varlığım aləmdə mənim
İxtilaf əhli-dilü sahibi-idrakə salar.

Ağlamaqdan mənə naseh verə bilməz təskin,
Məgər o xaki-rəhin dideyi-nəmnakə salar.

Şişeyi-qəlbi Füzuli necə bəs hifz eləsin,
Bunca daşlar ki, o bədgu dili-bibakə salar.

❀ ❀ ❀

Təkcə canım deyil, eşqində onun yarəsi var,
Qəlbimin də ciyərim tək o qədər parəsi var.

Üzü parlaqdı günəşdən o gözəl, heyranəm
Ki, günün yar üzünə taqəti-nəzzarəsi var.

Bağiban, fərqini az bilmə gül ilə sərvin,
Hansı bağın belə bir nərgisi-xunxarəsi var?

Kim deyir ki, səni Leylilə bərabər tuturam,
Səndə yüzdürsə, onun təkcə bir avarəsi var.

Bax sinəm dağına, göz yaşıma, gər bilmirsən
Ki, bu zalım fələyin sabitü səyyarəsi var?

Hileyi-dəhrdən irfandır edən mərdi xilas,
Qorxmaz arif qadının hər necə məkkarəsi var.

Dərdi-cananə, Füzuli, bir ölümdür çarə,
Demə ölməkdən əlavə bu qəmin çarəsi var.

❀ ❀ ❀

Səni görcək ürəyim yanmadı, xəndan oldu,
Necə İbrahimə od bağü gülüstan oldu.

Sinəmin həbsinə düşdü qana dönmüş ürəyim,
Zəhmi-peykanın onu tapmağa ünvan oldu.

Dil zənəxdanın içində tapıb asudəliyi,
Quyu da Yusifi-Kənanə nigahban oldu.

Yıxdı şadlıq evimi seyli-sirişk ilə mənim,
Ta ki, qəm zövqünə agah dili-suzan oldu.

Məni peyvəstə tapır hər yol itirmiş möhnət,
Ta qaranlıq gecəm ahımla çırağban oldu.

Gözümün nuru gəlib çatmadı rəna qədinə,
Çünki qəddin ucalıb sərvi-xuraman oldu.

Millətin, məmləkətin piri-müğan Kəbəsidir,
Dəfn olub orda Füzuli, belə zişan oldu.

❀ ❀ ❀

Dil giriftar olub ol geysuyə,
Gözüm heyran olub ol məhruyə.

Bağlanıb tük kimi olmuş bədənim,
Səri-zülfündə olan hər muyə.

O səbəbdən sevirəm mehrabı,
Artırır meylimi ol əbruyə.

Kəbəyə var o cəhətdən şövqüm
Ki, onun nisbəti var ol kuyə.

Kirpiyimdən yaş axır hər tərəfə,
Yol tapa ta o qədi-dilguyə.

Xızr ölməzdi, deyir xalq, məgər
Can verib qəmzeyi ol caduyə.

Şikvə eylərdi Füzuli, niyə bəs
İndi şükr eyləyir ol ahuyə.



Nədəndir halimə rəhmin sənin, ey məhliqa, gəlmir?
Nə bütsən ki, sənin daş qəlbinə rəhmi-xuda gəlmir?

Necə daş qəlbli bütsən ki, qorxmursan fəğanimdən,
Gəlir səs səngi-xaradən, nədən səndən səda gəlmir?

Gözəl məhbublərdən mehribanlıq ən gözəl şeydir,
Gözəl məhbubsan, səndən neçin bu xoş əda gəlmir?

Mənə əsla yaxınlıq etməyib, bir rəhm qılmazsan,
Bu işlər, bilmişəm, cana, əlindən mütləqa gəlmir.

Fəqət bir namə yazmaq istərik hər ləhzə biz səndən,
Nə hasil kim, ələ məqsudumuz, ey dilrüba, gəlmir.

Füzuli, badə iç, rind ol, xilas ol zöhd qeydindən,
Əlindən çünki aləmdə sənin zöhdü riya gəlmir.



Kuyinin sakiniyik biz, diri olsaq nə qədər,
Xaki-kuyəm, başımız göylərə yüksəlsə əgər.

Tifldir sevgilim, artır günü-gündən hüsnü,
Ah, əgər hüsnü kimi artsa da qəlbimdə kədər.

Kimsə məhbublərin qədrini bilməz biz tək,
Onlar, əfsus, bizim qədrimizi etdi hədər.

Yenə də çərx onun xəttü səri-zülfü ilə
Bizə verdi saralan çöhrə ilə dideyi-tər.

Mən' idi bütlərə səcdə, görərək gül üzünü,
Vacib etdi büt üçün səcdəni el şamü səhər.

Zülfünün şövqü könül daminə bağlandısa da,
Vermədi tüstü bu xaşak ona düşdükcə şərər.

Məni rahi-ədəmə çəkdi xəyali-dəhənin,
Mən tək aşiq hanı aləmdə, Füzuli, göstər.

❀ ❀ ❀

Üz çevirmə, sevgilim, məndən, çəkərsən dərdi-sər,
Hərdən ahımdan mənim qoy çəkməsin qəlbin kədər.

Yatmıram, bir çarə qıl, yoxsa fəğanımdan mənim
Yatmamaq dərdi sənə məndən də çox eylər əsər.

Qamətindən çəkmərəm, ey şəm, mən bir ləhzə göz,
Odlu millər dideyi-giryanıma çəksən əgər.

İntizarın çəkmişəm bir ömr, ta kim, bilmişəm,
Əhli-eşqə mehri-ruyin bir zaman xəncər çəkər.

Mən yaxamdan da qabaq yüz parə qıllam sinəmi,
Sən əgər çəksən əlimdən damənin, ey simbər.

Mən bu yoldan xoşdiləm, çün sən gəlirsən lütf ilə,
Ah, o gündən kim, bu yoldan eyləsən qəti-nəzər.

Möhnəti gülrulərin dünyada sanma tək budur,
Ey Füzuli, var hələ məhşərdə bundan da betər.

❀ ❀ ❀

Sənsiz etsək, gözəlim, söhbəti-can, ləzzəti yox,
Etsə şirin bizə hər kami-cahan, ləzzəti yox.

Dəbədəm zikri-ləbin virdi-zəban oldu mənə,
Başqa bir şərbətin ağzımda, inan, ləzzəti yox.

Badeyi-təlxin əgər saqisi gülçöhrə deyil,
İmtahan olmuş o yüz dəfə, inan, ləzzəti yox.

Vədeyi-vəsl verib, qoyma gözüm yollarda,
Keçsə bir ömr, əzizim, nigaran, ləzzəti yox.

Öldürür yar məni cövr ilə, bilmir ki, mənə
Qaməti olmasa, bu ruhi-rəvan, ləzzəti yox.

Sağəri-dəhrdə yox zəhri-cəfadan başqa,
Əhli-eşqə necə dövr etsə zaman, ləzzəti yox.

Şərbəti-dərdi-məhəbbət bizə şirindir, əgər
Başqa hər kami bizə versə cahan, ləzzəti yox

Ey Füzuli, qocalıbsan, daha kam axtarma,
Mülki-dünyadə dəxi etmə məkan, ləzzəti yox.



Çəkir eşqin məni hərdəm yeni bazarə yenə,
Dikmisən göz niyə bəs başqa xiridarə yenə.

Vardır əğyarə sənin gizlicə yüz mərhəmətin,
Düşürəm dəmbədəm eşqində bir azarə yenə.

Bir sitəmkar vurub sinəmə peykan oxunu,
Qoyma əl vurmağa bir başqa sitəmkarə yenə.

Bari-qəm bükdü belim, bircə bax Allaha, təbib,
Məlhəm et yarəmə, vurma yeni bir yarə yenə.

Eşqi tərk etməyi məndən tələb etmə, naseh,
Eşqdən başqa çağırma məni bir karə yenə.

Mənə tənha gecələr yar xəyalı bəsdir,
Atmışam canı, məni eyləmə avarə yenə.

Çaklər düşdü, Füzuli, yaxama bir gül tək,
O qədər kim, ürəyim oldu hədəf xarə yenə.



Ey könül, yarı istə, candan keç!
Uyma bu varlığa, cahandan keç!

Diləsən gər cahanda rahətlik,
Ondakı yaxşıdan, yamandan keç!

Əyri qamətli çərxə aldanma,
Sən də bir ox tək ol, kamandan keç!

Gözümün yaşlarilə ahım tək,
Sən də gəl yerdən, asimandan keç!

Talib ol yarə, hər nə aləmdə
Səni saxlarsa bundan, ondan keç!

Xəlqə birüzlü, birsifətli görün,
Qəlbə nişтər vuran zəbandan keç!

Bir öyüddür sənə Füzulidən,
Tut yəqin damənin, gumandan keç!



Oynamaqçün hər uşaq qəlbimi bir yanə çəkər,
Könlüm ətfalə qocaykən məni baziçə edər.

Daş atan dəmdə uşaqlar mənə göz yaşım axır,
Dəysə hər bir ağaca daş, tökər, əlbəttə, səmər.

Mən bu novrəsləri sanmışdım oğul, heyf ola kim,
Yox oğuldan ataya mehrü vəfadən bir əsər.

Əşki tiflin gözümün mərdümü bir yoxsul tək
Müttəsil bəsləyir, əmma verərək xuni-ciyər.

Gəh tutar gözdə, gəhi qəlbdə ol tifl məkan,
Nə sudan zərrəcə eylər, nə də oddan o həzər.

Seyli-əşkim dağıdıb aləmi, əmma nə edim,
Tifldir, bilməyir aləmdən o məhparə xəbər.

Artmayır rövnəqi-hüsnü bu pəriçöhrələrin,
Səbəb oldur ki, Füzuli, sevirəm qönçeyi-tər.

❀ ❀ ❀

Arxanca kölgə olmaq fəxrimdir, ey səmənbər,
Ta səcdəgahım olsun sən gəzdiyin o yerlər.

Nə var mənim tək aşiq, nə yar dilbərim tək,
Mən bir bəlakeş aşiq, o dilbəri-sitəmkər.

Gördükdə gül camalın hər cövrə tabe oldum,
Aydındır ol şükufə axır nə cür verər bər.

Sən qönçə tək gülərsən, mən ağlaram bulut tək,
Sən gülməyinlə dilşad, mən ağlamaqla müztər.

Vardır əlində xəncər, ləlində şəhdi-rahət,
Ya canım al, xilas et, ya arizumu göstər.

Canım səhifəsində qəlbimdən ad yox idi,
Ol gün ki, ruzim oldu xuni-dilim müqərrər.

Keçdi ömür, Füzuli, dünya evində hərgiz,
Səhman tapar nə bir iş, nə kam olar müyəssər.

❁ ❁ ❁

Bizimlə zahidin felində bunca kim, təfavüt var,
Nədir illət bizə ondan yetər hər ləhzə min azar?

Bəla damində yoxdur məndən özgə qəm giriftarı,
Tapılmaz kimsə ta dərdi-dilim mən eyləyim izhar.

Tayın yoxdursa da, fitnən bütün dünyanı doldurmuş,
Nolar, bilməm, tapılsa bir nəfər də sən kimi xunxar?

Əcəldir, söylədin, dərman mənim qəlbimdəki dərdə,
Bu viran könlümə göstərdin, ey gül, başqa bir memar.

Qaşın mehrabı səcdə nəmazımdır ki, mən hər dəm
Əyib baş torpağa peyvəstə səcdə eylərəm təkrar.

Yuxum gəlməz gecə, bir kimsə yoxdur söyləyim dərdim,
Deyəm ol kimsəyə kim, hər gecə yatmaz, qalar bidar.

Rəvadır başımı versəm yolunda yarımın qurban,
Füzuli kimi, mən hər gün tapa bilməm yeni bir yar.

❀ ❀ ❀

Ey üzün gülşəni gülzari-cahandan rəna.
Nə qədər var güli-rəna üzün ondan rəna.

Hüsn bağında gözəl sərvlər olmuş, amma
Olmamış sən kimi bir sərvi-rəvandan rəna.

Açmayıb bağı-lətafətdə elə gül ki, ola
Sən kimi sərvqədü qönçədəhandan rəna.

Bir sənin eşqini seçdim bu cahanda, nə edim,
Sənsən eşq əhlinə xubani-zamandan rəna.

Sərv qamətlər ola qəddinə, ey şux, fəda,
Çünki qəddin görünür sərvi-cinandan rəna.

Qapının torpağı tək pak deyil bağı-cinan,
Huri-cənnət də deyil sən kimi candan rəna.

Kirpiyin gözdə, Füzuli, o səbəbdən yeri var
Ki, olubdur dili-zarimdəki qandan rəna.



Yandı qəlbim, gözdə qanlı qətrələr vardır hələ,
Od sönübsə, şöləmizdə yüz şərar vardır hələ.

Bədnəzərdən öz ciyər qanilə olmuş çillə dağ,
Olmayır rahət könül, məndə nəzər vardır hələ.

Tazə dağlar cismi-zarimdən mənim əksilməyir,
Allah-allah, bu quru şaximdə bər vardır hələ.

Ah çəkdim, qəlbimin dərdisə təskin tapmadı,
Ox çıxıb peykan ilə bahəm, ciyər vardır hələ.

Lövhi-aləmdən deyildir xali Məcnun surəti,
Mən tək olmaz dəhrdə, ondan xəbər vardır hələ.

Söylədim: eşqində yox, ey yar, özümdən bir xəbər,
Söylədi: aşiq deyil, ondan xəbər vardır hələ.

Qəddini əymiş, Füzuli, möhnəti-çərxi-fələk,
Xatirində bir kamanqaş, simbər vardır hələ.

❀ ❀ ❀

Cism xak oldu, qəmin munisi-candır hələ də,
Yandı qəlbim, üzünə can nigarandır hələ də.

Zinəti-xətt ilə hüsnün yeni bir rəng aldı,
Qəlbimizdə qəmi-eşqinsə hamandır hələ də.

Bir əsər qalmadı qandan bu yanar qəlbimdə,
Həsrətinlə tökülən göz yaşı qandır hələ də.

Qüssə yandırdı məni, qoyma ayağın külümə,
Onda yüz dərd odu, ey şux, nihandır hələ də.

Nəqşi-şirin silinib Kuhkənin lövhündən,
Ləblərin zikri mənə virdi-zəbandır hələ də.

Zəfdən olsa nişansız da bu torpaq bədənim,
Hədəfi-navəki ol sərvi-rəvandır hələ də.

Din yolu umma Füzulidən, əbəsdir, naseh,
Bütlər eşqində o məşhuri-cahandır hələ də.



Könlüm eşqin ilə rüsvayi-cahan oldu bu gün,
Qəlbimin gizli olan dərdi əyan oldu bu gün.

Ruzigarım qara gər keçsə, təəccüb eləmə,
Nazərimdən gün üzün çünki nihan oldu bu gün.

Gözdə bir vaxt ürək qanı məkan etmiş idi,
Getdi sərvim, onun ardınca rəvan oldu bu gün.

Bu gecə uyquda gördüm xəmi-geysulərini,
Bu pərişanlığımın vəchi haman oldu bu gün.

Qəlbimdə guşeyi-çeşm ilə nəzər qıldı dünən,
Könlüm ol guşeyi-çeşmə nigaran oldu bu gün.

Badədən, müğbeçədən tapdı, xudaya, nə səfa
Ki, könül mötəkifi-deyri-müğan oldu bu gün.

Mən edib dün bu Füzulini qapıdan itlər,
Səbəb oldur ki, işi ahü fəğan oldu bu gün.



Könül ağlar göz ilə bax o günəş rüxsarə,
İslanan pərdəsinə gözlərimin et çarə.

Ey səba, kim dedi əfğanım ona söyləyəsən,
Min cəfalar verəsən sən o güli-bixarə.

Bir niqab oldu bu torpaq bədənim, canım üçün,
Düşər ol pərdə, gözüm düşsə camali-yarə.

Aramızda mənim öz varlığım olmuşdur hicab,
Göstər atəşli üzün, sal bu hicabi narə.

İltifat eylə, rəqibə bu qədər vermə könül,
O bir itdir, onu bir daşla elə avarə.

Rəhmsizliklə məni eyləmə gəl bunca xərab,
Nola hərdəm nəzər etsən bu dili-bimarə.

Zöhdü təqva ilə aləmdə, Füzuli, nə işin,
Bu əzaba özünü kim dedi sal, biçarə?



Dil əsiri-ol ləbi-gülbərgi-xəndandır yenə,
Adətim bülbül kimi fəryadü əfğandır yenə.

Köynəyin yırtıb o gül, əfğan edir bülbül məgər,
Ol güli-tər maili-seyri-gülüstandır yenə.

Zülfünə vurmuş nigarım yüz düyün, dərd əhlinə
Yüz düyün ol yüz düyündən həmdəmi-candır sənə.

Qafil etmiş heyrəti-halım hicabindən səni,
Hüsnünə dünya gözü baxdıqca heyrandır sənə.

Damə salmaq qəsdin etməzsən əgər könlüm quşun,
De nə oldu, bəs niyə zülfün pərişandır yenə?

Höqqeyi-ləli-şəkərbarın gözümdən gizlidir,
Bu əməllər hoqqabaz dünyayə şayandır yenə.

Səhvdə ömrün keçirmə, ey Füzuli, vaqif ol,
Haqq üçün hər bir günahdan keçmək asandır yenə.

❀ ❀ ❀

Sevgilim, şadlıq gecəmdə şəmi-rüxsarın yetər,
Şəmsi-iqbalım doğarsa, kuyi-dildarın yetər.

Nafə tək yalnız başımda mişki-çin sevdası yox,
Ətrlər saçmaqda ol geysuyi-tərrarın yetər.

Taqət etdikdə tutar hər kəs üzün bir qibləyə,
Qibləmiz, mehrabımız əbruləri yarın yetər.

Ehtiyacı zərrəcə əğyarə yox dərgahının,
Vəslə həsrət qoymağa çün tələx göftarın yetər.

Mən həyatımdan daha başqa təmənna etmərəm,
Hasili-ömrə həvayi-qəddi rəftarın yetər.

Gər dəhanın varlığı məhv etməyə meyl eyləsə,
Aləmi yıxmaqlığa çeşmi-füsunkarın yetər.

Hər acı təhqirin eşq əhlində min zövq artırır,
Əhli-hal eylər dua kuyində qəmxarın yetər.

Göz yumubdursa Füzuli dəhrdən, yoxdur əcəb,
Gözlərində çün xəyali-ruyi-gülnarın yetər.



Mənə təklikdə qalan gün qəmi-yarım bəsdir,
Gecələr həmnəfəsim naleyi-zarım bəsdir.

Qəm günündə məni min şövqlə şad etmək üçün,
Xəstə qəlbimlə mənim cismi-nəzarım bəsdir.

Başqa zəncirə nə hacət, nəyə lazım o mənə,
Bağlamış könlümü ol zülfi-nigarım, bəsdir.

Yoxdur aləmdə mənim guşeyi-rahətdə yerim,
Keçsə meyxanədə gər leylü naharım bəsdir.

Yox bu dünyanın işilə mənim aləmdə işim,
Tərki-dünya eləmək gər ola karım, bəsdir.

Məni şəmkir ilə öldürməyə bir hacət yox,
Baxsa bir an mənə ol çeşmi-xumarım bəsdir.

Ey Füzuli, mənə dünyada bütün ləzzətdən
Zövqi-didar ilə ol laləüzarım bəsdir.

❀ ❀ ❀

Xəlqlə həmsöhbət olmaqdan, könül, kəsdin həvəs,
Qeyri kəsdən qorxmuruq, bizdən də qorxmur qeyri kəs.

Zövqünü gülrüxlərin aşiq bilir, zöhd əhli yox,
Bülbülə gül od vurar yalnız, nə kim hər xarü xəs.

Yaş tökür kirpiklərimdən mərdümi-çeşmim, vəli
Xortumilə bəhrdən bir şey azaldırmı məgəs?

Öylə bir bikəsliyim vardır bu tənha guşədə,
İstəməm olsun Məsiha da mənimlə həmnəfəs.

Ey könül, ömrüm qutardı, gəl keç ahü nalədən,
Yol başa çatdıqda fəryad eyləməz hərgiz cərəs.

Bülbüləmmi ləhzədə cəh-cəh vuram hər bir gülə,
Əhli-tovhidəm, mənə bir gül edər gülşəndə bəs.

Ey Füzuli, hər gecə nalən ucalmış göylərə,
Yarımın olmuş iti ancaq mənə fəryadrəs.



Demə fəqət mənim ol yari-gül üzarımdır,
Hamı sevir, nə mənim təkcə nazlı yarımdır.

Gül üzlülər nola çoxdur bu çərxin altında,
Olardan ancaq o məhvəş mənim nigarımdır.

Deyil bu ağlamağım xalü xəttü qamətdən,
Məni xərab edən ol nərgisi-xumarımdır.

Gör, ey nigar, gözüm qarəsin, xəyal etmə
Ki, tək bu dərdi çəkən qəlbi-dağidarımdır.

Günüz işıqlanır hər gün günəş camalından,
Heyif, qəmində mənim tirə ruzigarımdır.

Üzündən ayrı onun mən tək olmasan, ey şəm,
Səninki göz yaşı, nalə mənim şüarımdır.

Füzuli, həqdi-cahandan ümidimi kəsdim,
Şəhi-vilayətə ancaq ümid varımdır.

❀ ❀ ❀

Qəmində naleyi-zarı mənim tək heç kəsin yoxdur,
Cahanda çeşmi-xunbarı mənim tək heç kəsin yoxdur.

Nola gər olmasa hərgiz mənim tək dağ bir kəsdə,
Nigari-lalə rüxsarı mənim tək heç kəsin yoxdur.

Tərəhhüm eyləyir gördükdə hali-zarımı hər kəs,
Belə birəhm dildarı mənim tək heç kəsin yoxdur.

Özüm tək görmədim hərgiz pərişanlıqda bir kimsə,
Təəccübdür, məgər yarı mənim tək heç kəsin yoxdur?

O güldən şad olur kuyində daim qəlbi əğyarın,
Ürəkdə ol gülün xarı mənim tək heç kəsin yoxdur.

Bəla çəkmişlərin çox-çox sual etdim rəhü rəsmin,
Ürəkdə bunca qəm barı mənim tək heç kəsin yoxdur.

Füzuli hüsnünün vəsfi olub məzmuni-göftarım,
Odur ki, hüsni-göftarı mənim tək heç kəsin yoxdur.



Ya Rəb, bəhəqqi-xatiri-rindani-dürdnuş,
Bir an unutmasın bizi ol piri-meyfruş.

Badə deyil üzüm suyu, o, cövri-çərxdən
Bir qəlb qanıdır ki, edir hər dəqiqə cuş.

Yoxluq diyarı əhlinin əxbarıdır o səs
Kim, cuş edəndə mey, eşidir ləhzə-ləhzə guş.

Düşdü şərab cuşə xüruş, eylədikcə çəng,
Çəng isə cuşi-badə ilə eylədi xüruş.

Saqi, dilim açılmaq üçün cami-mey gətir,
Ta söyləyim sənə nə üçün qalmışam xəmuş.

Bazari-dəhri bir-birə vurduq tapılmadı
Meydən savay bir göhər, olsun bəhası huş.

Olma, Füzuli, dəhrə müqəyyəd ki, eybdir,
Təcrid yoluyla get, ol sən də pərdəpuş.

❀ ❀ ❀

Gördükdə səni çəkdi xəcalət güli-xəndan,
Guya ki, öz gəlməyinə oldu peşiman.

Ayrılsa tikandan gül, edər sinədə məskən,
Əğyarə yaxın düşmə, gülüm, qıl həzər ondan.

Gülşəndə gülün köynəyi qanə niyə batsın,
Ey xar, məgər bülbülə nəştərmi vurursan?

Qönçə açılar badi-səbanın nəfəsindən,
Naseh, nəfəsin etdi yanan qəlbimi suzan.

Sədparə könül zahir olar sinəmi yarsam,
Hali-dilim olsun niyə çün qönçə nümayan.

Göstərdin o gül çöhrəni, ver kam ləbindən,
Gül dövrü gərək işrətə məşğul ola insan.

Qarət edib ol qəmdə Füzuli dilü dini,
Əfğan, yenə ol kafəri birəhmdən, əfğan!



Ömürlük ayrılıq camindən içmək zəhri-hicrani,
Bərabər görməyimdən yaxşıdır qeyr ilə canani.

Fəraq istər könül, çün rəsmdir sevdada əvvəldən,
Canından əl çəkər aşiq, dilərsə vəsli-canani.

Onun ayineyi-rüxsarına baxmam, budur qorxum
Ki, düşsün çeşmimin ol gül cəmalə əksi-müjgani.

Rəqib öldükdə mən zövq etmərəm, qorxum budur, çünki
Ölüm xaki-rəh olduqda tuta bir də o damani.

Nəzər qılmaz mənə ta çırpınır son dəfə bu könlüm,
İnanmışdır, olub qəlbim əsiri-çeşmi-fəttani.

Nə təkcə bir mənəm can vermişəm, ey gül, ayağında,
Belə olmuş bütün aşiqlərin möhnətli payani.

Müqərrərdir ki, can versin Füzuli dərdi-eşqinlə,
Necə bir dərddir bilməm ki, yox tədbiri, dərmani.

❀ ❀ ❀

Uçub könlüm quşu meyl etdi bir sərvi-xuramanə
Ki, şölə meyl elər yüksəklərə, bax nari-suzanə.

Necə peykani-həsrət olmasın sinəmdə, mən məhrum,
Yanında yer veribdir ol pərivəş zərfi-peykanə.

Qəzəblə camıma, ey darğa, baxma, qorxuram ondan
Ki, ol çirkin qiyafətdən bulansın rəngi-peymanə.

Əvəz dünyasıdır, saqi yəqinimdir alar məndən
Bu qanlı qəlbimi, versə əgər bir cami-məstanə.

Bəladır, dərdü möhnətdir, kədərdir, qüssədir, qəmdir
Ki, olmuş hər sədaqət əhlinə hər yerdə həmxanə.

Demə kim, nuşi-rahətdən şirin şəhdü şəkər yoxdur,
Dadarsan zəhri-möhnət zövqünü düşdükdə hicranə.

Məşəqqətsiz bir iş əsla, Füzuli, yoxdur aləmdə,
Gərək hər bir şeyə dözmək cahanda, xoşdur ol, ya nə.



Nə bəhsə girmisən, ey qönçə, görcək ləblərin yarın,
Nə söylərsən, sual etdikdə səndən lütfi-göftarın?

Müsəvvir, çəkmə rəna qəddini, rüsva olarsan sən
Sorulsa, bəs necə sən göstərərsən hüsni-rəftarın?

Onun rəşkindən, ey güzgü, kədərlər var o təbində,
Əgər saf eyləsən qəlbin, görərsən zövqi-didarın.

Cəmalın gör o mahın kim, qədəm hər bir yerə qoymuş,
Günəş göydən enib sürtmüş o xaki-pakə rüxsarın.

Nigarın incə təbi gər səni incitmək istərsə,
Könül, sən çək bəla, qoy yetməsin cananə azarın.

Sənin xəttin könüllər qəmdən azad etdiyindəndir
Ki, azadlıq xəti söylər ona hər bir giriftarın.

Rəqibin tənəsindən dərdimi gizlətmişəm səndən,
Könüldə min qəmim vardır, çətindir etmək izharın.

Füzuli, var yeri, gər göz yumarsam öz əlacımdan,
Əlindən mən necə can qurtarım ol çeşmi bimarın?

❀ ❀ ❀

Kuyinə getdim, baxam bir dəm o gül rüxsarə mən,
Eylə risva qıldı, oldum xar mən, biçarə mən.

Yay kimi çatdı qaşın, çəp baxdı, tabım qalmadı,
Göz açıb bir an baxam ol şivəli dildarə mən.

Tünd baxışlardan rəqiblər qorxaraq qaçmış uzaq,
Tək rəqibim ol baxışlardır ki, yetməm yarə mən.

Yer tutub qəlbimdə bir gül, qorxuram ətrin duya,
Ol səbəbdən verməræm yanımda yer əğyarə mən.

Zəfi-cismimdən könül tab etmədi sevdasına,
Bağlanıb qaldım əsir ol türreyi-tərrarə mən.

Sən də, ey can, tərk qıl qəmdən bükülmüş cismimi,
Etmişəm təslim onu bir arizi-gülnarə mən.

İncəlib sevdayi-zülfünlə xəyalə dönmüşəm,
Var yeri girsəm, Füzuli, hər dili-xunbarə mən.

Yarpağın tutdu bərabər gül o məh tələt ilə,
Başına çırpdı o yarpağı səba hiddət ilə.

Gül cəmalın aparır rövnəqi güldən, gər onu
Dürri-şəbnəmlə həva bəsləsə min zinət ilə.

Oldu pərvanəsi gül atəşi-şəmi-rüxünün,
Eylə yarpaq hanı odlanmaya ol dəhşət ilə.

Gülü bülbüllə çəmən naz eləyir, aç üzünü,
Onu atəşlərə yandır, yelə ver cürət ilə.

Qönçə övladına rahətmi olar gül beşiyi,
Bu tikanlıqda necə bəslənər o, rahət ilə.

Beşcə gün ömrlə gül hüsnün ilə bəhs açdı,
Dağıdar yel bu günah ilə onu sürət ilə.

Açılır gül, dəyişir rəngi, Füzuli, onu mən
Necə təşbih edim ol ləli-şəkərnisbət ilə?

❀ ❀ ❀

Həmdəmin heyrətdir ancaq, ayrı düşsəm yardən,
Neyləyim, əfsus kim, heyrətdəyəm hər kardən.

Dudi-ah etmiş qaranlıq külbeyi-əhzanımı,
Ah! Əgər pərtöv yetişməzsə o məhrüxsardən.

Eşq dərdindən solan aşiqləri hərdən soruş,
Lütf qıl bir şərbət, ey gül, ləli-şəkkərbardən.

Ey olan hər dərdə dərman qönçeyi-ləlin sənin,
Lütfünü kəm qılma bunca aşiqi-bimardən.

Qəlbimi dildar aparmışdır özilə, neyləyim,
Ömr heçdir, ayrı düşsəm qəlbdən, dildardən.

Neyləyim, bilməm, yamandır halı vurğun könlümün
Çarəsin kimdən soraq bəs, hansı bir huşyardən?

❁ ❁ ❁

Qəhr edər yarım, ona gər mahi-taban söyləyəm,
Məndən ikrah eyləyər, sərvi-xuraman söyləyəm.

Gər ona canım desəm, mütləq tökər qanım mənim,
Tez olar gözdən nihan, hərgah ona can söyləyəm.

Bunca hüsn ilə ki, rəşk eylər mələklər lütfünə,
Varsa insan söyləyən, sanma mən insan söyləyəm.

Ey xoş ol dəm üzbəüz halım deyəm, qorxum budur
Kim, pərişanlıqdan hər halı pərişan söyləyəm.

Səcdə etmək küfrdür, zahid deyir, məhrulərə,
Namüsəlmanəm, ona gər mən müsəlman söyləyəm.

Yoxdur yersiz xal üzündə, böylə, bir rüxsar ilə,
Doğru olmaz, gər ona şəmi-şəbistan söyləyəm.

Xəncəri-zülmü, Füzuli, lütfü ehsandır, vəli
Qorxuram qəti bəlasından ki, ehsan söyləyəm.



Nişani-rəhməti-həq surətində oldu əyan,
Vəfanı səfheyi-ixlasə nəqş qıldı zaman.

Kədərli bəzminin hər ləhzə məst mütribiyəm,
Sürudi-naləm ilə rəqs edir fələk hər an.

Xərabi-məsti-meyi-eşq, əqldən uzağam,
Əsiri-həlqeyi-zülfün xilasi-qeydi-cahan.

Budur cəzası ki, pərvanəni yaxan şəmin,
Səhər nəsimi alır hər səhər qisas ondan.

Sənin bəlaların artırdı qədrü qiymətimi
Ki, xasiyyətlə olur şeylərin bəhası əyan.

Sənin qəmin o zamandan müşəxxəs idi mənə
Ki, surət ilə müəyyən deyildi bir insan.

Füzuli, eşq hədisin demə, gərək qəvvas
Dənizdə öz nəfəsin daim eyləsin pünhan.



Aləmi gəzməyimizdən bizə yar idi qərəz,
Çəməni seyr eləməkdənsə, şikar idi qərəz.

Bəsləməkdən gözü hər dürlü ciyər qanı ilə,
Təkcə seyri-güli-rüxsari-nigar idi qərəz.

Bu gülüstanda nə sərv axtarıram, nə lalə,
Sərvqamət, üzü gül, laləüzar idi qərəz.

Ey gözüm, kuyinə gəl seyli-sirişk etmə rəvan,
Gər yolunda sənə peyvəstə qübar idi qərəz.

Sanma bihudə, əgər toplamışam göz yaşımı,
Sən gələn yollara şövq ilə nisar idi qərəz

Dərddən sanma, əgər sinəmi çak etdim mən,
Fövçi-möhnətlərə bir rahgüzar idi qərəz.

Nalədir ney kimi hər ləhzə Füzulinin işi,
Məgər ömründən ona naleyi-zar idi qərəz?

❀ ❀ ❀

Ənbərdən ay camalını salmış həsarə xət,
Bənzər o gül üzarın üçün pərdədarə xət.

Yeksər həsəd tozu bürüdü güzgüsün ayın,
Hər dəm o məh salanda kənari-üzarə xət.

Şəm tək mənim qaraldı günüm dudi-ahdən,
Ta düşdü gül üzündən o mahın kənarə xət.

Məzmunca xətti-yarə yaxın xətt tapmadıq,
Dövran oxutdu gər bizə minlərcə qarə xət.

Yanmış könül üzümdə nişan qoydu göz yaşın,
Çün yadigar öləndən olar ruzigarə xət.

Ölmüşləriksə, sinəmi çak etməyim, necə
Bir rəsmdir, yazar hamı lövhi-məzarə xət.

Yar olmasa, Füzuli, həyatın nə hasili,
Əlbəttə, varlığın sözünə çək dübarə xət.

❁ ❁ ❁

Cəhənnəmdən verir aşiqlərə hər gün xəbər vaiz,
Cahanda görməmişdir başqa yer mütləq məgər vaiz?

Bu qəmdən çak edir məsciddə mehrab öz giribanın
Ki, hörmətdən salıbdır minbəri ol hiyləgər vaiz.

Qələt təfsir edib, daim verir təğyir Quranə,
Bunu sanmış hünər, yüksəlmək istər bihünər vaiz.

Deyir zirü zəbər keyfiyyətindən bunca Quranın,
Dəmadəm din binasın eyləyir zirü zəbər vaiz.

Məni səkkiz qapı bağı-behiştə kuyi-dilbərdən,
Nə dəvət eyləyir, ya Rəb ki, düşsün dərbədər vaiz.

Cəlali-rütbəsindən xəlq içində bunca düşməzdi,
Əgər olsaydı tərgi-mey sözündə mötəbər vaiz.

Füzuli, bir də meyl etməm olam vaizlə həmsöhbət
Ki, mən' etmiş gözəllərdən dil əhlin bixəbər vaiz.

❀ ❀ ❀

Canan yolunda başını eylər nisar şəm,
Olmuş bu yolda ömr uzunu payidar şəm.

Yoxsa başında bir sənəmin şövqi-kakili,
Olmuş mənim kimi nə üçün əşkbar şəm?

Gər yox başında atəşi eşqin, səbəb nədir,
Qəlbi qaraldı, görmədi xoş ruzigar şəm?

Şəmi-rüxündən od tutaraq yandı sinəsi,
Çox da əbəs deyil ki, olub biqərar şəm.

Dərdinlə yatmayır gecələr, ta ki, sübhədək
Hicrindən ağlayır belə biixtiyar şəm.

Xurşidi-ruyi olmasa gər, xoş deyil günüm,
Yaxsam fələk misalı əgər mən həzar şəm.

Çıxmaz, Füzuli, zahirə qəm, bərqi-ahsız,
Bəsdir sənə qarə gecələr bu yanar şəm.



Gördü məhrəm məni ol sevgili cananə çıraq,
Rəşkdən saldı məni atəşi-suzanə çıraq.

Od içində görünən riştə işarətdir edir,
Mahi-rüxsar ilə ol zülfi-pərişanə çıraq.

Sinəmi dağladın, ey lalə rüxüm, vəsl günü
Ki, ola aşiq üçün ta şəbi-hicranə çıraq.

Rəhi-eşqindəki hicran gecəsindən nə qəmim,
Bərqi-ahim edər öz nurunu hər yanə çıraq.

Umma varlıq, gözəlim, vəslinə yetcək məndən,
Sübhsən sən, alışan bu dili-divanə çıraq.

Şölədən qeyrinə meyl etmədiyindən, sənsiz,
Salır öz əksini bu dideyi-giryanə çıraq.

Yandı pərvanə mənim halıma, vaqif edəcək
Onu qəlbimdəki bu atəşi-pünhanə çıraq.

Mehri-ruyindən uzaq nəm çəkərək çeşmimdən,
Gecələr var səbəbi gər düşə nöqsanə çıraq.

Daməni-şəmi tutub xəlvətə çək, ey fanus,
Bu gecə olmuş o məhru bu şəbistanə çıraq.

Ey Füzuli, edəməz xanəmi rövşən qəmdə,
Gecələr dönsə də gər mehri-dirəxşanə çıraq.

❀ ❀ ❀

Demə rəyimlə damanın çıxıb, ey şəhsüvar, əldən,
Sənin cövlanın almışdır inani-ixtiyar əldən.

Sıxılma qönçə tək daim ki, nərgisdən deyilsən kəm,
Şərabın camını qoyma yerə fəsli-bahar əldən.

Edə bilməz bunu Leyli ki, getsin səmti-Məcnunə,
Dəvə əfsarını gər almasa biixtiyar əldən.

Nigarın damənində tutmuşam, saqi, şərab az ver,
Budur qorxum ki, məst olsam, gedər damani-yar əldən.

Damarlar gər qırılmazsa əlimdən torpaq altında,
Deyil mümkün çıxa zənciri-zülfi-mişkbar əldən.

Bu yoxluq aləmində vurma dəm sən çox da varlıqdan,
Qapar yoxsa xoş ömrün nəqdini bu ruzigar əldən.

Füzuli, yar zülfündən uzaq səbrü qərarım yox,
Xəyali-zülfi-yar ilə gedib səbrü qərar əldən.

❀ ❀ ❀

Qəm yolunda diləsən kim, ola bir yar sənə,
Ey könül, cam götür kim, ola qəmxar sənə

Bu biyabanda gəzirsən yol azıb, sərgərdan,
Yol taparsan, ola gər bəxt həvadar sənə.

Göz yaşı boğdu bizi, ey dayanan sahildə,
Bizi qurtar ki, desin xəlq xilaskar sənə.

İstəyirsən yetəsən məqsədə, keç başdan sən,
Yoxsa sevdalı başından yetər azar sənə.

Eşqdən hasilimiz göz yaşı olmuş, aşiq,
Bəhri-qəmdən çatıb ol lölöyi-şəhvar sənə.

Minbər üstə özünü vəsf eləmə, ey vaiz,
Kimsə təqlid eləməz, eyləmə israr, sənə.

Yar fərağında, Füzuli, ürəyin qan oldu,
Bir əqiq qaş kimi istər edə isar sənə.

❀ ❀ ❀

Hüsn bağı gül camalından alıbdır ziyvəri,
Fəth olunmuş kirpiyin tiğilə eşqin kişvəri.

Saliki-rahin üçün xuni-ciyər azuqədir,
Əql pirin tifli-məktəb etdi hüsnün dəftəri.

Çərxi-dövran çox çevirmişdir gözəllik dəftərin,
Tapmadı vəsfi-camalın bir varaqda, ey pəri.

Mənzili-vəslə tapar yol dəhrdə ol kimsə kim,
Yaxşı-pis qeydindən azad olmuş əvvəldən bəri.

Güzgüsü eşqin tutubdur rəng o nəm torpaqdən
Kim, o gül rüxsarının axmış ona inci təri.

Qana döndü, ey gözəl, sənsiz bu viran könlümüz,
Batmaq istərkən günəş al rəng çulğar göyləri.

Kəc nəzərlərdən, Füzuli, qəm yemə, eşqin yolu
Doğru yoldur, aşiqin bu yolda həqdir rəhbəri.



Rəhi-eşqə düşəli yarım olubdur tovfiq,
Yoxdur tovfiqdən özgə mənə bu yolda rəfiq.

Əhli-eşqə səbat əhli deyil aləmdə,
Bunu təstiq üçün öz gölgəni qıl sən təhqiq!

Göz yaşım qətrəsinə xor nə baxırsan, zahid,
Ey qarışqa, saqın, ol qətrədi bir bəhri-əmiq.

Göz yaşım ahım ilə məhkəməsində eşqin,
İki şahiddir, edər mən nə deyərsəm təsdiq.

Gərək aşiq unuda hər şeyi bu aləmdə,
Aləmə bağlılıq eşq əhlini etməz təşviq.

Qəlbimin dağı verib göz yaşıma gül rəngi
Ki, Süheylin işığından boyanar qanə əqiq.

Eşq rahində, Füzuli, nəyə lazım təqva,
Yolunu azmış o kəslər ki, olub əhli-təriq.

❀ ❀ ❀

Tərk etdi yar, etdi məni biqərar eşq,
Şamü səhər olubdur işim ahü zari-eşq.

Gənc aşiqəm, rəvadır əgər çak qəlbimi
Açsın birinci gül kimi indi bahari-eşq.

Gəl, ey könül ki, Vamiqü Məcnun ölüb gedib,
Xar ilə xəsdən oldu təmiz rəhgüzari-eşq.

Əfsus, tifldir hələ ol gül, düşünməyir
Aşiq nədir, nə olmalıdır etibari-eşq.

Torpaqda hər qədəmdə bitər gül-çiçək, mənim
Virənə könlümə batar, əfsus, xari-eşq.

Xoş ruzigarı, xoş günü yoxdur bu aləmin,
Xoşdur bu aşiqin günü, həm ruzigari-eşq.

Yar eşqi indi etmədi rüsva Füzulini,
Rüsvalıq hər zaman olub aləmdə yari-eşq.

Könül dərdi sənin eşqindən olmuş aşiqə hasil,
Nə hasil kim, bu dərdi-dildən oldun sən özün qafil.

Qaçırsan aşiqin meylindən, ey gül, hər zaman, əmma
Dilər aşiq könüldən kim, olaydın sən ona mail.

Nə yerdə olsam aləmdə, sənin fikrindəyəm daim
Səri-kuyin gərək olsun, nigarım, aşiqə mənzil.

Dəmadəm cisminin torpağına qan-yaş tökər aşiq,
Bu torpaqla sudan oldu nihali-dudü qəm hasil.

Mədəd qılmazsa tale, bil, cünundur hasili eşqin,
Cünun tədbiri hərgiz açmamış eşq əhlinə müşkil.

Ziya saçdı günəş tək hər yerə məşuqumun hüsnü,
Təəssüf ki, bu feyzə qəlbi-aşiq olmadı şamil.

Füzuli, aşiqin məqsudu canandan bəla olmuş,
Özü həm bir bəladır, bu bəlayə olmasa nail.



İstər ki, yardan bizi etsin cida fələk,
Düşmənliyin bizə yenə gördü rəva fələk.

Çərxin cəfavü cövrü yetər daima bizə,
Bunlar nə işdir eyləyir ol bivəfa fələk?

Həsrət qoyur məni o gözəllər camalinə,
Bu iş rəva deyil, niyə eylər xəta fələk?

Sandı bərabərim özünə bənzəmək üçün,
Eylər həmişə qəddimi qəmdən düta fələk.

Qəddin gözəllərin belə naz ilə bəslədi,
Qıldı bizi nişaneyi-tiri bəla fələk.

Məhbubumuz deyil ki, o biçarə aşiqi
Bunca bəlalərə eləyir mübtəla fələk.

Məqsudumuz, Füzuli, vəfadır, nə faidə,
Düz gəlməyir bizimlə, edir hey cəfa fələk.



Əzilsəm, torpağımdan çıxmasın toz istəmiş dövran,
Odur kim, isladar əndamımı gözdən axan qandan.

Edib təsiri-badə meynəyə bağ içrə ondandır
Ki, hey qalxar, yatar sərxoş kimi alcaq təkan hər an.

Bəla daşı yağar başıma, yoxsa çərxin eyvanı
Ciyərdən çəkdiyim atəşlə ahımdan olub viran?

Bitirsə qəbrim üstə vəhşi otlar, yad edin, dostlar
Ki, bir gül üzlü canan həsrətilə olmuşam qurban.

Məsiha daməni pak olmalı hər ləkədən bildin,
Odur vəchi şərabı ləblərindən sildin, ey canan.

Olubdur həsrət ilə parə-parə sinəm, əl çəkməz,
Vurar qəlbimə xəncər xəncər üstdən ol məhi-taban.

Füzuli, gözlərimə nur verdi hüsnü cananın,
Başından kəsməsin haq sayəni, ey sahibi-ehsan!

❀ ❀ ❀

Min dərdlinin əlacı olmuş əlinlə hasil,
Biz də mərizi-eşqik, bizdən sən olma qafil.

Məğrur ayaq tozun da əylənmədi bizimlə,
Söylə, o bu yerişlə axır taparmı mənzil?

Odlu sinəmdə qanlı dağlarmıdır gül açmış,
Ya qəlbimə düşən od şölə saçıb, açar dil?

Torpaq sovurdum isə başa, deyil səbirdən,
Dəryayi-möhnətimçün dəşti-fənadı sahil.

Çox şükr, ölmədim mən, bildim bu iki sirri:
Bal şəhdidir vüsalın, hicrinsə zəhri-qatil.

Göz yaşlarım dayanmaz, könlüm qaçar dalınca,
Sanki onu çəkərlər, boynunda var səlasil.

Etmə, Füzuli, heyrət bu qəlbim atəşindən,
Çün könlüm aynasilə bir şam durar müqabil.



Qəmi-hicrində mənə vermədi üz bir elə hal
Ki, görünsün, eşidilsin, eləsin dərk xəyal.

Hər saat, hər gün, hər ay, hər il olub eşqindən
Həmdəmim qüssəvü qəm, ahü fəğan, dərdü məlal.

Kamımın əksinə dövran dolanır, vəchi odur,
İstərəm vəsldən hicranı, fəraqından vüsal.

Səndən heç vəqt mənə olmadı kamımca cəvab,
Nə cəvabın olacaqdır bunu etdikdə sual?

Qəminin zəhri həyatı mənə təlx etdi, nolar
Ləblərindən süzəsən zəhrə dönən kamıma bal?

Həsrətəm vəslinə, eşqin, de görüm, dini nədir
Ki, həram etdi mənə vəslini, əğyarə həlal?

Zəfdən bir tükə döndümsə, Füzuli, ancaq
Qəlbimi bağlamaq ol zülfə mənə oldu məhal.



Sənin qəminlə, gülüm, biqərar olubdur dil,
Bu qəmli könlümün halından olma gəl qafil.

O kəs ki, eşqə inanmaz, demə o insandır,
Məzaqi-nəşeyi-eşq ilə şəxs olur qabil.

Nədən desən kəsərəm meylimi, deyil mümkün
Ki, olmayam, gözəlim, bir ayüzlüyə mayil.

Varımdır eşqdə bir müşkülüm, ümid edərəm
Sən ilə müşkülüm asan olur, vəli müşkil!

Hanı o eşqdə səbrü səbatdən dəm uran,
Niqabsız üzünü görcək olmasın o xəcil.

Təvafı bizlərə vacib olan o Kəbə evi
Dilər ki, xaki-dərin öpməyə ola nail.

Kənara çıxma, Füzuli, nigar kuyindən,
Onun kimi ola bilməz şərəfli bir mənzil.



Göz könüldən, qəlb gözdən çox, inan, istər səni,
Qəlb gözdən, göz könüldən hər zaman istər səni.

Gözlərim içrə bəbəklər sadədil bir körpə tək
Bilməyirlər fitnəsən, çox mehriban istər səni.

Ağlamaq bihudədir, gözdən silinməz nəqşlər,
Nəqş olub qəlbimdə zülm, ancaq bu can istər səni.

Sinədə mehrin yaşar, nəqşin gözümdə yer tutub,
Sinəmə gözdən axar su, binişan istər səni.

Bağlanıbdır zülfünün zəncirinə qəndil kimi,
Xəstə könlüm odlanar, eylər fəğan, istər səni.

Tərk qıldı kuyini dostlar Füzulidən səvay,
Tək o salmış asitanında məkan, istər səni.

❀ ❀ ❀

Qaşların sevdasına könlüm düşübdür müttəsil,
Böylə bir sevdayə heç kəs dözməyə qadir deyil.

İxtiyarsız hər baxışla bu üzü qarə gözüm,
Eyləyir qarşında mən biçarəni xarü zəlil.

Bütpərəstlik rəsmi olmazdı bu aləmdə, əgər
Surətini görməsəydi mərdümi-Çinü Çəkil.

Sən ki, möhkəmsən rəqibdən əhdinə, peymanına,
Əhdsiz adlandıra hər kim səni, yoxdur dəlil.

Ahım ilə göz yaşımdan sərv qəddin atdı boy,
Sərv atar boy orda kim, abü həvadır mötədil.

Cismini candan, könüldən xəlq ediblər ol zaman
Kim, sudan, gildən qəza nəqqaşı çəkmişdir şəkil…

Əhd edib, versin Füzuli canını qurban sənə,
Etməyəydi qarə bəxti kaş onu səndən xəcil.

❀ ❀ ❀

Tel üstündən başa taxmış çələng ol məhliqa güldən,
Qəribə sərvdir, zinət veribdir yarpağa güldən.

Qəmindən can telində qönçənin yüz min düyün tutmuş,
Əbəsdir umduğum gülşəndə dərdimə dəva güldən.

Ayağın torpağı, canan, gözümdə tutiya oldu,
Əcəb bir güzgüdür kim tozlanıb aldı ziya güldən.

Təəccüb etmə, tutmazsa gülün gülşəndə aramı,
Aparmış səbri də ətrilə birlikdə səba güldən.

Çəkibdir sinəmə eşqin yeni bir dağ dağ üstdən,
Sanarsan yaz tikan əndamıma biçmiş qəba güldən.

O gül rüxsarının vəsfi gülün çatsa qulağına,
Yəqin bülbüldən artıq yüksələr ərşə nəva güldən.

Açılmaz könlümüz gülşəndə, gül rüxsarın olmazsa,
Füzuli qəlbinə sənsiz batar xari-cəfa güldən.

❀ ❀ ❀

Sabah bayramdır, ey ömrüm, aman ver, eyləmə təcil,
Səhər olsun, məni xəncərlə qurban etsin ol qatil.

Yetiş dadə, gözüm yaşı, keçərkən yar kuyindən
Yeri islat, yolu kəssin keçilməz su, çıxımaz gil.

Hər addımda basar canə dəvə hicran ilə bir dağ,
Çoxaltma dağımı, ahəstə sür, ey sariban, məhmil.

Mənə qürbət yolunda, ey bükülmüş qəddim, imdad et,
Tikan tək kirpiyim qılsın mənə yol getməyi müşkil.

Apardı göz yaşım çöp tək məni yar asitanından,
Fələk, daş sal yola, bu sel qabağında yarat hayil.

Tutubdur çak sinəm damənindən ayrılan dəmdə,
Bu hal ilə mənə hicranə yol verməz, mənəm qafil.

Füzuli, əldə möhkəm tut səadət damənin yarın,
Günəş tək yüz qılınc vursa, ona ol kölgə tək mayil.



Gülüm, yolunda qəmi bihesabdır könlün,
İşi müsibət ilə iztirabdır könlün.

Xumar gözlərinin daima o xəstəsidir,
Nə şərh edim sənə, halı xərabdır könlün.

O fəxr edər bütün aşiqlərə ki, sevgilisi
Sənin kimi gözəl, alicənabdır könlün.

Sənəmlərin saçına satdı dini, imanı,
Bu yolda qəsdi böyük bir səvabdır könlün.

Bir anlığa bu ağır qəmləri dağıtmaq üçün
Nəcat umduğu dərman şərabdır könlün.

Kənarə düşdüyüm andan behişti-vəslindən,
Mənə cəfadır işi, min əzabdır könlün.

Füzuli, sönməyəcək sinəmizdə atəşi-qəm,
Əlacı yanğıya çeşmi-pürabdır könlün.

❀ ❀ ❀

Məgər ki, quş dilin anlar qızıl gül
Ki, dinlər ahü zar etdikcə bülbül.

Gülün qəlbi məgər yoxdur ki, bunca
Edər bülbüllər ahinə təhəmmül.

Tapar məşuq şöhrət aşiq ilə
Kömək etməz ona cahü təcəmmül.

Nigarım, kəsmə məndən iltifatın,
Bu aşiqdən yetər, etmə təğafül.

Gər istərsən açılsın könlümüz, sən
Dağıt zülfün üzarə, qıl səlasil.

Dözən dərdə çatar səbr ilə kamə,
Təvəkkül bağçasından ol dərər gül.

Füzuli, işdə tədbirə əl atma,
İşə iqdam edərkən qıl təvəkkül.

❀ ❀ ❀

Tökülüb zülfi-pərişan üzünə halə misal,
Arizin bədrə dönüb, var iki yanında hilal.

O qədər ülfəti biganəyə artıqdır onun,
Görə bilməm onu biganəsiz, etsəm də xəyal.

Vəslini mən nə ümid ilə təmənna eləyim,
Nə cəsarətlə mən ondan diləyim bəzmi-vüsal.

Göstər ol gül üzünü, canımı qurban eləyim,
Hüsnünün şöhrəti artsın, mən edim kəsbi-kəmal.

Etina eyləməsən hali-pərişanımıza,
Səndən, əlbəttə, deyil gizli bu keyfiyyəti-hal.

Qəlbi yandırmaz üzün tək günəşin istiliyi,
Çünki yox onda sənin tək, gözəlim, xətt ilə xal.

Dövləti vəslini axtarma Füzuli kimi gəl,
Çünki alimdə əməl tapmaq olur əmri-məhal.

❀ ❀ ❀

Kirpiyindən qanlı bir köynək geyinmişdir tənim,
Göz yaşımla çak-çak olmuşdur ol pirahənim.

Kuyinə başla qədəm qoydum ki, torpaq öpmədə
Qoy giribanım şərəf tapsın, nəinki damənim.

Qibtədən öz qanımı töksəm, təəccüb eyləmə,
Çün sevənlər ol gülü əvvəldən olmuş düşmənim.

İstərəm qəmlə giribanım olaydı çak-çak
Kim, təəllüq riştəsindən qurtaraydı gərdənim.

Göz yaşım girdaba qərq eylər məni hicran günü,
Olmayır dövrəmdə çör-çöpdən səva bir kəs mənim.

Sənsən ol kəs, etməsən divanələr halına rəhm,
Mən haman divanəyəm kim, çöllər olmuş məskənim.

Keçdi çox illər, Füzuli, görmədim öz yarımı,
İntizarında işıqdan düşdü çeşmi-rövşənim.



Muradə yetmədən kuyindən, ey siminbədən, getdim,
Ürəkdə dağ, qıldım lalə tək tərki-çəmən, getdim.

Tikanla gül kimi bir yerdə ömr etdik, fələk birdən
Xilafi-rəsm dövr etdi, o dilbər qaldı, mən getdim.

Nigarım həmnişinimdi, fələk bir nəqş işlətdi,
O Şirin nəqşi tək qaldı, mən oldum Kuhkən, getdim.

Gecə sübhə qədər yandım qəmində şəmi-məclis tək,
Günəş tək nur saçınca çöhrəsi, söndüm həmən, getdim.

Bir ox vurdu, yaralandım, uzaqlaşdırdı kuyindən,
Vücudumda yara, qəlbimdə min dərdü məhən getdim.

O işrətxanəni tərk etmədim öz ixtiyarımla,
Məhəbbət badəsilə məst olunca, bilmədən getdim.

Füzuli, dərdimə dərman düşünmə yar kuyində
Ki, mən ölməkçün orda boynuma saldım kəfən, getdim.

❀ ❀ ❀

Lalə üzlü o gözəlsiz yerim olmuş külxən,
Eşq odunda yanıb axırda külə döndüm mən.

Kuyinin gülşəninin, gül üzünün həsrətiyəm,
Könlümü açmaz, odur vəchi, nə gül, nə gülşən.

İstərəm ölmək ilə qəmdən olam bəlkə xilas,
Öldürərsə məni qəmdən, gəzib əğyar ilə sən.

Bənzərəm vadiyi-eyməndə yanar bir ağaca,
Hər gecə kuyin olar qəlbim odundan rövşən.

Bir məni zülf kəməndinə əsir eyləmədin,
Bilirəm, çoxlarının boynuna düşmüş bu rəsən.

Yetməmiş kamə, Füzuli, qəminə qalmaz yar,
Ah, o qəmdən ki, yetər kamə onunla düşmən.



Sənin qəmində əsiri-qəmü bəla oldum,
Bəlayə, dərdə fərağında mübtəla oldum.

Yolunda cismi-zəifim elə məqamə yetib
Ki, axtaranda səni həmrəhi-səba oldum.

Sual qılma: nədən dərdü möhnətin çoxdur?
Yetər bu dərd ki, səndən, gülüm, cida oldum.

Baş ağrısı, nəyə lazım, verim təbiblərə
Ki, dərdin ilə sənin naili-dəva oldum.

Təbiətimdə var ol qarə gözlərin həvəsi
Ki, sürmə milçəsi tək qərqi-tutiya oldum.

O qədr məst eləyib heyrətin şərabı məni
Ki, bilmirəm niyə bu halə mübtəla oldum.

Füzuli, istəmə gəl bunca məndən əql ilə din
Ki, mən sənəmlərin eşqilə mübtəla oldum.

❀ ❀ ❀

Gözəllər eşqinə düşdüm, nə çox cövrü cəfa gördüm,
O zülmü görməsin kafər ki, mən bəxti qarə gördüm.

Baxıb başdan-başa Leyliylə Məcnun macərasında,
Sənin hüsnünlə öz dərdimə aid macəra gördüm.

Baxarkən surəti-nəqşinə Şirin ilə Fərhadın,
Özümdən bir nişanə, səndən əksi-dilrüba gördüm.

Dedim, bəlkə görəm gül cismini çaki-giribandan,
İpək köynək qədər əndamını həm basəfa gördüm.

Dünən zülfün açırdın, mənsə durmuşdum tamaşayə,
Onun hər həlqəsində yüz könüldür mübtəla, gördüm.

Üzün gördükdə min zahid həsəddən bütpərəst oldu,
Neçə min də birəhmən büt qırar, ey məhliqa, gördüm.

Füzuli, ağlarikən mən gülərsə şam, deyil bica,
Ki, mən də gülməyi şam ağlayan dəmdə rəva gördüm.



Bircə an çıxmadı başdan qəmin, ey taci-sərim,
Sən unutdun məni, cana, demə yoxdur xəbərim.

Hicrdən yox gileyim heç, uzaq olsan da bu gün,
Tək səni görmədəyəm, hər yana düşsə nəzərim.

Atəşindən üzünün çərx məni saldı uzaq,
Necə yaqmaz məni hicrin ki, olubdur şərərim.

Nə qədər candan əsər varsa, qəmin xəstəsiyəm,
Dözmərəm dərdinə, kaş qalmaya candan əsərim.

Məqsədim eşq yolundaydı fəna, şükr edirəm,
Ki, məni məqsədə çatdırdı məhəbbət səfərim.

Qəm yedim, ah ilə sinəmdən alov püskürtdüm,
Nə edim, qorxdum o atəşdə yaxılsın ciyərim.

Təkcə arzum bu olubdur ki, vəfadar ölüm,
Başqa arzum var isə, canımı al, nazlı pərim!

Hicr odunda ciyərim, bil ki, yanardı çoxdan,
Ey Füzuli, ona tökməzdisə su çeşmi-tərim.

❀ ❀ ❀

O qıvrım saçlarından min cəfa çəkdim, kədər gördüm
Ki, ta vəsli nəsib oldu, öz ömrümdən səmər gördüm.

Gəzər əfsanə tək dillərdə eşqin, hər yerə getdim,
Danışsa hər kəs hər kəslə, sənin adın çəkər gördüm.

Cəfa gördükcə səndən, tapmadı məndə vəfa nöqsan,
Vəfa qıldım, cəfa etdin, nə istərdim, nələr gördüm.

Olubdur sərv qəddin vurğunu bağda məgər bağban
Ki, sərvi bəsləyər, şümşadə heç salmaz nəzər gördüm.

Ürəkdə hər yeni yarən açıbdır yüz yara, baxdım,
Yeni yarə dalında köhnə dağlar görsənər gördüm.

Mənə sən al yanağında o mişkin xalı göstərdin,
Səmən yarpağına nüqtə salıbdır mişki-tər gördüm.

Füzuli, düşmüsən dilbərlərin sevdasına, yoxsa
Xəbərsizsən ki, mən ol bivəfalərdən nələr gördüm?

❁ ❁ ❁

Deyil kirpik bu kim, qan ilə qəltan, ey nigar, etdim,
Ürəkdə gül üzündən bir tikan vardı, kənar etdim.

Gözəllər zülfünün vəsfində tərk etdim deyim bir söz,
Cünun zəncirini qırdım, həvayi-nəfsi xar etdim.

Ürək oddan xilas olsun deyə, mən çak sinəmdən,
Yol açdım qəlbimə, göz yaşımı qəlbə nisar etdim.

Gözəllər zülfünə həsrət gözüm al qanla dolmuşdu,
Axıtdım torpağa ol qanı, dəşti laləzar etdim.

Bu parə-parə könlümdə qopan tufanı gördükdə,
Axıtdım ol qədərqa kim, onu xarü nəzar gördüm.

Ürək dərdini sildim göz yaşıyla lövhi-canımdan,
Qəmü möhnət binasın qanlı sellə tarümar etdim.

Könüldə eşq tərkin qılmağa vardı bir az meylim,
Rəqibin təni artdıqca, o bir meyli həzar etdim.

Gözəllər zülfünün zəncirinə könlü əsir etmək
Xəta imiş, bu mənanı mən indi aşikar etdim.

Füzuli, ol qədər məstəm o mahın şövq camından,
Özümdən eşq dərdini necə bilməm kənar etdim.

❀ ❀ ❀

Oxladın gər sinəmi, ondan deyil bunca fəğan,
Sinəmə basdın kamanı, qibtədən odlandı can.

Oxla vur, öldür məni, rüsvalığımdan can qutar,
Hər qədər cismimdə can var, eşqi tərk etməm, inan.

İstərəm ki, mən öləndən sonra, sadiq dostlarım,
Türbəmi etsin hədəf yar, oxlara qılsın nişan.

Qanlı çeşmim dövrəsində səf çəkən kirpiklərim
Atdığı oxlardı, yığmış gözlərim yerdən həman.

Ox çəkər cərrah qəlbimdən, fəqət bilməz mənim,
Hər sümüyümdə ilik tək yüz ox olmuşdur nihan.

Ox kimi atmış məni, salmış özündən yar uzaq,
Bir nişan tapmaq çətindir məndən, olsa axtaran.

Saxlayardım lələinin dərdin ürəkdə, oldu faş,
Ey Füzuli, qəm qalarmı gizli, təndən çıxsa can?

❀ ❀ ❀

Qurumaz gözlərimin yaşı mən ölsəm də əgər,
Yararaq qəbrimi çeşmə kimi hər yanə gedər.

Yar yanında yerim olsun deyə, bir ov kimi mən,
Razıyam öldürə, çiynindən asa ol dilbər.

Badə zövqüylə yerim meykədə olmuş, axır
Meynə tək torpağa basdıra məni meykədələr.

Zəfdən qalmadı taqət ki, edim halımı şərh,
Çak sinəmdən ürək dərdlərim aydın görünər.

Bircə sənsən ürəyimdə, gəl əmin olmaq üçün,
Qəlbimin safü təmiz güzgüsünə eylə nəzər.

Zəfdən düşdüm ayaqdan, yox əlimdən tutanım,
Göz yaşım çöp kimi hər dəm məni yerdən götürər.

Ey Füzuli, ləbinin vurğunuyam, eyb etməz,
Eşq zövqilə gərək aşiq edə canın hədər.

❀ ❀ ❀

Məni fikirlə elə məhv edib o qönçədəhan
Ki, sözdən özgə tapılmaz bu aləm içrə nişan.

Elə əritdi məni incə bellilər dərdi
Ki, cismimə bir ağır yük olub bu ruhi-rəvan.

Budur mənim diləyim: tərki-cismü can qılam
Ki, dərd əlindən olub xəstə cismim ilə bu can.

Dedin ki: varlığım olmuş vüsalına mane,
Demək, rəqib özüməm mən özümə, ey canan!

Vücudum içrə qəribəm, "vətən-vətən" deyərəm,
Cəfayi-qürbətə artıq yoxumdu tabü təvan.

Üzümdə gəl oxu eşqin acı hekayəsini,
Desəm dil ilə, salar od cahana ahü fəğan.

Nigar zülfü kimi incəlib, Füzuli, bu gün
O can ki, eşq yolunda ona gəlirdi güman.

❀ ❀ ❀

Varlıq qapısın mən üzümə bağladığımdan,
Bilməz ki, varam, ya ki, yoxam bir nəfər insan.

Peyman elə, zahid dedi, peymanəni sındır,
Peymanə əlimdə, qıraram yüz elə peyman.

Keçdin, ətəyin tutmağa yol vermədi heyrət,
Ömr ötdü, bəhər görmədi qəflətdə olan can.

Zənciri-cünundan məni əql eylədi məhrum,
Divanə olub əql ilə tutdum ona divan.

Gördüm səni, yumdum gözümü cümlə cəhanə,
Gər bir şeyi atdım, səni tək tutdum, a canan!

Ahimlə müsahiblərimi şam kimi yaxdım,
Dövrəmdə gəzinməz daha nə dost, nə düşman.

Salmaz başıma sayəsin ol sərv, Füzuli,
Qalmışmı gəda qeydinə bu dövrdə sultan?

❀ ❀ ❀

Gələrkən kuyinə, gözdən ayaq mən binəva etdim,
Yüyürdüm ol qədər kim, torpağından tutiya etdim.

Gecə getdim, qopardım dərd əlindən nalə kuyində,
Səri-kuyindəki it incidi məndən, xəta etdim.

Vəfa gəlməz əlindən, sevgilim, bu səndə adətdir,
Təmənna eylədim səndən vəfa, bil kim, cəfa etdim.

Gözəllər başıma ol qədr daş atmış ki, onlardan
Yığıb, rüsvalığın mülkündə qəmxanə bina etdim.

Dünən bütxanəyə düşdü güzarım, hər yana baxdım,
Səni gördüm, yıxıldım səcdəyə, şükri-xuda etdim.

Daha mehrü məhəbbət vəd edib, qoyma mənə minnət,
Sənin eşqində mən öz munisim mehrü vəfa etdim.

Füzuli, yar ləbin zikr eylədim, əqlim zəbun oldu,
Əcəb əfsun imiş, saldım yada, dəfi-bəla etdim.

İnlərəm, rəhm eləməz halıma yarım, nə edim?
Ona təsir eləməz naləvü zarım, nə edim?

Qəmlərim gizli deyil, söyləməsəm də səndən,
Məndə yox söhbətinə tab, nigarım, nə edim?

Tənəsindən ürəyim təngə gəlib əğyarın,
Bilməyir tənəsin əğyarın o yarım, nə edim?

Dərd əlindən gözüm ömrüm uzunu qan ağlar,
Baxmayır göz yaşıma çeşmi-xumarım, nə edim?

Səbrdən başqa qəmi-eşqə əlacım yox ikən,
Dili-şeyda tükədib səbrü qərarım, nə edim?

Vəsli-yar istəyən əğyar cəfasinə dözər,
Bir tikənsiz gülə həsrətdi diyarım, nə edim?

Dərdimi yarə, Füzuli, nə qədər şərh qılım?
Fikrimi anlamır ol laləüzarım, nə edim?

❀ ❀ ❀

Canımı tapşırmışam çün ləli-şəkkərbarə mən,
Zövq alınca canım, öldüm qibtədən biçarə mən.

Cismimi eşqin yaratdı, çəkdi qəm bazarına,
Öz xoşumla gəlməz idim yoxsa bu bazarə mən.

Dərgəhindir mənzili aləmdə varlıq mülkünün,
Vadiyi-heyrətdə yol axtarram ol dərbarə mən.

Saymışam ulduzları göydə, gözümdən torpağa
Səpmişəm onlardan artıq sabitü səyyarə mən.

Lövhəsindən könlümün hər xətti sildim, qəlbimi
Vəqf qıldım büsbütün bir sən kimi dildarə mən.

Saqiya, mey ver, yetər qəmdən pərişan olduğum,
Bəsdir oldum seyd bunca çərxi kəcrəftarə mən.

Ey Füzuli, gözlərimdə qalmamış yaşdan əsər,
Bəs ki, səpdim göz yaşım sinəmdəki odlarə mən.



O qəddi sərvin eşqində elə könlüm olub heyran
Ki, razı olmaram sevsin onu aləmdə bir insan.

Göz oynatsa könül ovlar, qaş oynatsa alar canlar,
Nə gözdür bu, nə qaşdır bu? – olum o göz-qaşa qurban.

Budur arzum, bir ox vursun, zəif cismim ağırlaşsın
Ki, ölsəm, asitanından cənazəm qalxmasın asan.

Olursa hər tüküm iynə, vücudum sap deyil hökmən,
Bu parə bağrımı tikmək ki, hicrindən olub şan-şan.

Ayağından öpər kirpiklərimin mərdümi-çeşmim
Ki, onlar eşq mülkündə əzəl gündən olub dərban.

Nə taledir bu kim, bir dəm olarsam şəmə həmsayə,
Uzaqlaşmaz kənarımdan rəqibim sayə tək bir an.

Füzuli, yüz bəla görsəm o dilbərdən, mənə xoşdur
Ki, mən rindü bəlacuyəm, o bir başə bəla canan.

❀ ❀ ❀

Sənə verdim könül, göz çəkdim həm canandan, həm candan,
Yaxıb bir şəm, qovdum dostları mən ol şəbistandan.

Bəla qəlbə yetər gözdən, – dedin, mən bu yolu tutdum,
Ayağın torpağını isladıb gözdən axan qandan.

Önündə parələnmiş sinəmi tikdim., budur vəchi
Ki, qəlbim seyr edirdi hüsnünü çaki-giribandan.

Ciyər qanımla tikdim bir bina, ey göz yaşım, axdın,
Daş üstə qoymadın daş, dad əlindən, sən o eyvandan.

Gözümdən bəlkə xoşlansın, deyə ol mahrüxsarım,
Bəzək vurdum ona gözdən axan ləl ilə mərcandan.

Məlamət dağını çapmaq mənə artıq nəsib olmuş,
Dayan nəqşin kimi sakit, çıx, ey Fərhad, meydandan.

Füzuli, aləmin qeydinə bağlıydım, bihəmdüllah,
Könül dilbərlərə verdim, xilas oldum o zindandan.

❀ ❀ ❀

Bir dolu cam ilə, saqi məni qıl məstü xumar,
Həd vuran qazı edə məstliyimə ta iqrar.

Sərxoşam, çatdı namaz vaxtı, fəqət xoşhaləm
Ki, namaz tərki üçün badə kimi üzrüm var.

Al şərab içməyi tərk etmədim ömrüm boyu mən,
Qılmadım tövbə, nə də tövbəmi qırdım təkrar.

Malikəm mülkünə rüsvalığın aləmdə bu gün,
Sağərin xətti ilə badə buna verdi qərar.

Fanidir ömr bu aləmdə, oruc tutmayıram
Ki, şəriətcə müsafir gərək etsin iftar.

Pərdə çəkdim gözünə qanlı ciyər parəmdən,
Yetməsin ta oradan mərdümi-çeşmimə azar.

Aldı bimar gözün canı, Füzuli, odu kim,
Dərdsizi tərk qılıb, dərdliyə oldum qəmxar.

❀ ❀ ❀

Yenə at çapdı meydanda, qopardı toz o cananım,
Əl atdı, silkədi damanını, düşdü yerə canım.

Əlimdən daməni-rüsvalığı ol vəqtədək verməm
Ki, örtülsün ləhəd daşilə bu çaki-giribanım.

Kəfənsiz yaxşıdır, versəm əgər can künci-üzlətdə,
Nəyə lazım kəfən olsun öləndən sonra zindanım.

Kəfənlə qoymayın, dostlar, ölərkən boynuma bir yük,
Yetər, saysız yaramla örtülübdür cismi-üryanım.

Məzarım üstünə gəlsən, açar dil baş daşım, söylər,
Ki, keçmişdir necə sənsiz mənim əyyami-hicranım.

Məzarım, ey Füzuli, ayrılıq zindanına döndü,
Ölüm də olmadı, əfsus, bu dərdli cana dərmanım.

Göz içrə ol gözələ bir əziz məkan verdim,
Bəzək deyə, evinə ləxtə-ləxtə qan verdim.

Bu canı töhfə gətirdim ədəm diyarından,
Rəva görüb sənə ol canı ərməğan verdim.

Tutanda zülfünü başım tutuldu sevdayə,
Özüm bu möhnətə, dərdə riza, inan, verdim.

Günəş camalını görcək gözüm yaşı qurudu,
Gözümdən axmadı yaş, hər qədər təkan verdim.

Gözümdə yüz gözəlin nəqşi əksini tapdı,
Onun xəyalına qəlbimdə yer haçan verdim?

Kədər bağında təzə tingəyəm, bu dağlar ilə
Bahari-hicrdə yarpaqlanıb, fidan verdim.

Füzuli, yadə salıb ağlaram o dilbəri kim,
O güldü, mənsə cavabında min fəğan verdim.

❀ ❀ ❀

Axıtdım qanlı göz yaşın, hübabindən məkan etdim,
Səni yadlar gözündən ol məkan içrə nihan etdim.

Çıxarmaq müşkül idi eşqinin sevdasını candan,
Dedin: gəl, eşqi tərk eylə, mən isə tərki-can etdim.

Bu qan olmuş könül, bildim, o xaki-payə mayildir,
Odur ki, sinə çakindən nisari-asitan etdim.

Fələk ulduz yükündən ah oxumla xeyli qurtardı,
Nişansız oldu hər ulduz ki, ahımdan nişan etdim.

Fələk seyrindən əsla olmadı kami-dilim hasil,
Xəta qıldım, ona bihudə sərfi-nəqdi-can etdim.

Gözümdən yaş axıb, sel tək bütün dünyayə səs saldı,
Qəribə bir dil ilə eşqimin dərdin bəyan etdim.

Füzuli, səbr əlimdən gəlməyir cananın eşqində,
Bu qorxunc işdə yüz dəfə özümü imtahan etdim.

❀ ❀ ❀

Gül camalından uzaq hər yerdə yatdım, ey nigar,
Göz yaşım axdı, çəkildi dövrəmə gildən divar.

Dün gecə bir şəm ilə həmdərd idim, gördüm onun,
Hər nə var qəlbində, olmuşdur dilində aşikar.

Bir günəş həmsayəm oldu, ondan aldım nuru mən,
Ay kimi yüksəldim, ol nur ilə qıldım iftixar.

Canlı bir Şirin ilə bir dəm oturdum üz-üzə,
Gördü bu əhvalı yüz Fərhad, öldü xarü zar.

Əql qorxuzmazdı öz hökmüylə mən divanəni,
Çünki zəncirim zireh olmuş mənə, eşqim həsar.

Afərin, ey badə, çatdın bir qayıq tək dadıma,
Qərq olardım yoxsa qəm bəhrində mən biixtiyar.

Dinü dünyadan əlim çıxmış, Füzuli, neyləyim?
Aşiqəm mən, qoymamışdır eşq məndə etibar.

❀ ❀ ❀

Ey pəri, bir ömrdür ol gülüzarı görmədik,
Sən bizi gördün, biz ol bietibarı görmədik.

Mərhəmətsiz çox gözəllər görmüşük aləmdə biz,
Sən kimi bir mərhəmətsiz zülmkarı görmədik.

Çox cəfa görsək də yardan, kuyini tərk etmədik,
Dəhrdə bir başqa əmniyyət diyarı görmədik.

Bir axar su tək dolaşıq bağların ətrafını,
Qamətin tək bir gözəl sərvi, çinarı görmədik.

Hər yerə getdik, bizi öldürməyə lazım olan
Dərdü möhnətdən o yerlər olsun ari, görmədik.

Həmdəm olduq hər kəsə, bir dəm dili-şeydamıza,
Vurmasın yüz min yara birəhm yarı, görmədik.

Həddini aşmış Füzuli, səndəki divanəlik,
Sən tək olsun bir nəfər eşqin düçarı, görmədik.



Alışdım şam kimi ol atəşin rüxsarını görcək,
Ölürdüm, canə gəldim nərgisi-bimarını görcək.

Yanıb qəlbim külə dönmüş, mənə qıyma daha, naseh,
Külümdən şölələr qalxar əbəs göftarını görcək.

Tikan odla tutuşsa kül olar, kül bəstərim ancaq
Dönüb oldu tikan, sinəmdə od ambarını görcək.

Bəbəklər gözlərimdə gül yanağın nuruna yandı,
Bəlalar çəkdi başım, arizi-gülnarını görcək.

Gülərsə şəm halıma, rəvadır dərdi-hicrandan,
Yanar canım, görünməz şöləsi, dildarını görcək.

Bu parə-parə köksümdən çıxan yaşıl alovlarmı
Və ya pərvanəyəm, odlanmışam didarını görcək?

Füzuli, eşqi küfr adlandıran əhli-riyanın mən,
Bütə min səcdə qıldım surəti-idbarını görcək.

❀ ❀ ❀

Xaki-payindən gözümə sürmə, ey yar, istərəm,
Gizli qalsın, bilməsin bu sirri əğyar istərəm.

Cövrünü məndən kəm etməz, yarda bu nə lütfdür,
Hardan o bilmiş ki, mən yarı cəfakər istərəm.

Kimsə şərh etməz ona mən çəkdiyim möhnətləri,
Ahü naləmdən məni duysun o dildar istərəm.

İstəməzdim yar girsin bir kəsin röyasına,
Ağlaram sübhə qədər, çün xəlqi bidar istərəm.

Qorxaraq, gəlməz xəcalətdən mənə sarı əcəl,
Çün bilir ondan əlaci-qəlbi-bimar istərəm.

Xam xəyalındır, deyə gülsün mənə qoy nazlı yar,
Ağlaram, ləli-ləbi olsun şəkərbar istərəm.

Ey Füzuli, zülfü salmış rişteyi-canə düyün,
Türreyi-tərrar ilə açsın onu yar istərəm.



Səndən səvay baxmamışıq bir nigarə biz,
Təqsirimiz nədir çəkilək, söylə, darə biz.

Qəlb atəşi zəbanə çəkib zahir olmadan,
Yaydıqmı eşq dərdini ahla kənara biz?

Məhvəşlərə nə gəldi, xudaya, bu şəhrdə,
Bir ildə etmədik aya bir yol nəzarə biz.

Şövqilə eşqinin yaşadıq bu zəmanədə,
Meyl etmədik nə sərvətə, nə iftixara biz.

Dünyanı fəth edən dilimizdir qılınc kimi,
Yol açmadıq qoşun gücünə bir diyarə biz.

Ya Rəb, nədən belə qaradır ruzigarımız,
Zülm etmədik fəqirə, olaq bəxti qarə biz.

Hasil nədir, Füzuli, bizimçün zəmanədən,
Meyl etmədik bu bağda olan bərgü barə biz.

❀ ❀ ❀

Zülfünün hər bir tükü can riştəmə bağlandı yar,
Hər yerə zülfün çəkər, canım gedər biixtiyar.

Ay üzün ətrafına zülfün düzüldükcə sənin,
Qibtədən bir tük kimi incəldim, ey çeşmi xumar.

Şövqü artar qaşının könlümdə hər gün, rəsmdir
Kim, hilalın nuru artar göydə hər gün, ey nigar.

Sərv tək sayə salarkən başıma ol qamətin,
Qibtədən atdı günəş bir ox, məni etdi şikar.

Cənnəti yaddan çıxardım mən səri-kuyin görüb,
Həsrətim qalmaz qapında, qul kimi tutsan qərar.

Mən tikan tək sən gülü daim qanımla bəslədim,
Çün açıldın, binəsib oldum üzündən, xarü zar.

Hər saat bədxasiyyət yarə Füzuli meyl edər,
İncidim xasiyyətindən, ey nigarım, aşikar.

❀ ❀ ❀

Bu şikayətlər ki, yarımdan məni-zar eylərəm,
Məqsədim yar adıdır kim, dildə təkrar eylərəm.

Nifrətim var ol kəsə kim, talibi-dünya ola,
Çünki sultanəm, gədalərdən belə ar eylərəm.

Söyləmə, naseh, gözəllər eşqi olmaz payidar,
Bir ömürdür mən belə bir hökmü inkar eylərəm.

Ağlamaqdan çün ciyərdə qan azalmışdır, demək,
Pis əməldir, gözlərimi bunca xunbar eylərəm.

Dərdimə çarə tapa bilsin deyə, bu dəhrdə
Hər kəsə çatdıqda öz dərdimi izhar eylərəm.

Naləmi tərk etmək haqqında düşünmə bir daha,
Təni-əğyarı bilib, fəryadı təkrar eylərəm.

Ey Füzuli, kimsə tapmaz eşq dərdindən nəcat,
Mən, əbəsdir ki, əlaci-qəlbi-bimar eylərəm.

❀ ❀ ❀

Cövründən hər dəqiqə yetər yüz bəla mənə,
Xoşdur bəla, görürsən əgər sən rəva mənə.

Bildim cahanda rəsmü vəfa qalmamış, yenə
Bihudə gözlərəm ki, edərsən vəfa mənə.

Mən cövrə dözmürəm ki, yetim öz muradıma,
Kamıncadır cəfa deyə, gəldi səfa mənə.

Ləli-ləbini yad qılıb, nuş edim deyə,
Min kasə qan ciyərdən edibdir əta mənə.

Fərhad çapdı dağ, bu hünərdirmi aşiqə,
Aşiq mənəm ki, dağca çatılmış cəfa mənə.

Hicrindən hər gecə çəkirəm ah sübhədək,
Yetdi nələr yolunda, gör, ey məhliqa, mənə.

Aşiq deyə, Füzuli, düşünmə, yeganədir,
Yüz başqa aşiqin var, olub rəhnüma mənə.



Şux sənəmlər eşqinə düşmüş könül, divanəyəm,
Eşqdə Məcnuna tay tutma məni, mərdanəyəm.

Xizr ol sərçeşməni tapmış ki, bir peymanədən
Qətrə düşmüşdür yerə, mən sahibi-peymanəyəm.

Hər dəqiqə əql mənasız mənə təklif edər,
Mən əcəb divanə ilə dəhrdə həmxanəyəm.

Sayəmə dərdim dedikdə, almaram ondan cavab,
Yuxlamış əfsanədən o, ya ki, mən əfsanəyəm.

Eşq dərdindən, rəqibin tənəsindən qəmliyəm,
Dost yanında xar, nişani-təneyi-biganəyəm.

Çəkdi gül rüxsarına çün sünbüli-zülfün niqab,
Dişlərindən şanənin mən qəlbi şanə-şanəyəm.

Yaxşıdır dünyadan əl çəksin Füzuli, çünki mən
Nə xəzinə istərəm, nə talibi-viranəyəm.

❀ ❀ ❀

Yanmasa eşq oduna, cismdə can istəmərəm,
Yanaram şam kimi, atəşdən aman istəmərəm.

Qeyrdən çək gözünü, yar, ki Yusif kimi mən
Gülümü qoxlaya əğyar bir an istəmərəm.

Əksini güzgüdə gördükdə, könül qanə dönər,
Saf güzgü ola aləmdə, inan, istəmərəm.

Ovladın könlümü, lütf et mənə, gəl öldür onu,
Vəslinə çatsın o, ey qönçədəhan, istəmərəm.

Yandırıb atəşi-hicrinlə gecə mənzilimi,
Sakini-külxən olub, özgə məkan istəmərəm.

Suvasın qəbrimi dostlar deyə, dürd ilə mənim,
Ölərəm meykədədə, bağı-cinan istəmərəm.

Hər tərəfdən başıma çünki bəla daşı yağar,
Getmərəm kuyinə, cananə ziyan istəmərəm.

Kimsə, razı deyiləm, dostluq edə yarım ilə,
Çün, Füzuli, özümə düşməni-can istəmərəm.



Bir ömürdür yaxşı üz öz yarımızdan görmədik,
Mərhəmət umduqsa da, dildarımızdan görmədik.

Çox gözəl sevdik, vəfasız çıxdı, bir əhli-vəfa
Kim, xəbər tutsun dili-bimarımızdan, görmədik.

Dəhrdə bir çox gözəldən biz cəfa gördük, vəli
Bir cəfakar öz büti-xünxarımızdan görmədik.

Hansı məclisdə ki, meydən, camdən yoxdur əsər,
Tərk qıldıq, çünki öz asarımızdan görmədik.

Saldı səs aləmlərə vəsfin düri-şəhvar tək,
Vəsfini çox axtarıb əşarımızdan, görmədik.

Ey Füzuli, təbinə əhsən ki, şerin meylini
Hər qədər gəzdik, qədim asarımızdan görmədik.

❀ ❀ ❀

Biz, gözəldən başqa, dünyaya nəzər az etmişik,
Nazəninlərdən dəxi sərfi-nəzər az etmişik.

Zahida, bizdən soruşma çox da ayini-namaz,
Aşiqik biz, eşqdən başqa hünər az etmişik.

Hər əməl haqqında biz çoxlu düşündük, mütləqa,
Bir əməl ki, eşqdən üstün gələr, az etmişik.

Şux gözəllərdən vəfa umduq, bəlayi-eşqdən
Dərdimiz artmış da olsa, biz həzər az etmişik.

Biz gümüş tək göz yaşı, zər tək üzü etdik nisar,
Çün fəqirik, fikri-cəmi-simü zər az etmişik.

Səltənət mülkünə bizdə zərrəcə yox etibar,
Şahbazıq biz, şikari-müxtəsər az etmişik.

Dostlar, əlimə keçdi axtardığım o gövhər,
Könlüm nəyi dilərdi, oldu ona müyəssər.

Pak eşq sayəsində axır nəsibim oldu
Altında zərli tağın siminbədən o dilbər.

Sövdasına o yarın düşdü könül vətəndə,
Rənci-səfərsiz oldu qismət mənə gəlirlər.

Könlümdə tək xəyalı vardı o nazlı sərvin,
Bəxt oldu yar, qucdum əndamını sərasər.

Bir vaxt o aycamalım düşmüşdü məndən ayrı,
Vəslinə çatdım indi, xoş bəxtim oldu yavər.

Oldu, Füzuli, könlüm sən tək kədərdən azad,
Dildarına çatanlar olmaz daha mükəddər.

❀ ❀ ❀

Mən odam, rəsmi budur mənzilim olsun külxən,
Deyiləm gül ki, tapam gülşən içində məskən.

Səni gördükdə unutdum özümü, çaşdı dilim,
Əfv qıl, yoxsa sənə dərdimi açmazdım mən.

Var qılıncında məgər abi-həyatın əsəri,
Öldürürsən məni, can çıxmayır asan təndən.

Sənə qurban dedi bu canı könül, xoşhaləm,
Çünki can cismim arasında əmanətdi həmən.

İstərəm son qoyasan qəmlərimə tiğinlə,
Atasan qanlı dənizdə məni bir sahilə sən.

Müşkülə düşdü işim, rəhm elə, çək xəncərini,
Vur ki, sənsən, mənə bu müşkülü asan eləyən.

Anlamaz dilbərə meyl etmə, Füzuli, zinhar,
Meylini bir bütə sal ki, ola əhvalı bilən.

❁ ❁ ❁

Yandı göydə ulduz, ay, bir ah çəkdim dün səhər,
Qorxuram bu gecə düşsün ərşə ahımdan şərər.

Dün gecə cismim yanırdı, qalxdı sinəmdən bir od,
Bilmirəm döndüm külə, ya şöləmi söndürdü tər.

Qərq olmazdım zənəxdanındakı girdabda,
Qalxsa idi ağ buxağından sənin tufan əgər.

Ağzının vəsfini, canan, almadımsa ağzıma,
Olmadım razı dodağım tutsun eşqindən xəbər.

Könlüm istər söyləyim "ya Rəb!", necə "ya Rəb!" deyim,
Zəfdən "ya Rəb!" deməkçün taqətim qalmış məgər?

İstəməz qonsun tozum nəli-səməndinə mənim,
İstəməz çatsın əlim damanına ol simibər.

Ey Füzuli, meylə, məhbub ilə daim gün keçir,
Səndə şirin dil, rəvan təb ilə var yüksək hünər.

❀ ❀ ❀

Könül ayinəsində əks olan, ey məhliqa, sənsən,
Unutsan da məni, bil, xatirimdə daima sənsən.

Təmaşayi-cəmalından necə mən göz çəkim, canan,
Üzündür qiblə, məbudum mənim, ey dilrüba, sənsən.

Sənə oxşatdığımdandır gözüm qalmış sənəmlərdə,
Məni biganəyə mayil qılan, ey bivəfa, sənsən.

Əgər məftunu oldum qönçələb dilbərlərin bunca,
Qılan eşqi mənə, onlara bu hüsnü əta sənsən.

Çəkərlər kuyinə boynumda zəncir nazlı dilbərlər,
Bu zənciri salan boynuma, ey zülfü qara, sənsən.

Kəsildi iltifatın, müşkülə düşdü işim, rəhm et,
Mənə şəfqətlə bax, dərdimə varsa bir dəva, sənsən.

Füzuli, doğru bir yol tut, vəfadar ol o dildarə,
Səbat ilə dayan, bu yolda Xızri-rəhnüma sənsən.



Aşiqəm, bir sənəmi-laləüzarım vardır,
Bir də sevdalı başım, qəlbi-figarım vardır.

Ciyərim, qəlbimi islatma qızıl qanın ilə,
Ki, o saf lövhədə bir nəqşi-nigarım vardır.

Arzum oldur ki, qəmində başım əldən getsin,
Çün bəla aşiqiyəm, eşq ilə karım vardır.

Aparıb səbrü qərarım o qədi sərv gözəl,
Bir ömürdür ki, nə səbrim, nə qərarım vardır.

Mən ona aşiq ikən etmiş onu məst qürur,
Yenə şadəm ki, elə sevgili yarım vardır.

Bir gülün aşiqiyəm bülbüli-şeyda kimi mən,
Yox əcəb, şamü səhər naleyi-zarım vardır.

Yar kuyindən uzaq düşdü Füzuli, nə olar,
Bax könül güzgüsünə, gör nə qubarım vardır.

❀ ❀ ❀

Qapından toz kimi bir an ayırsa cismimi yellər,
Başım əflakə də çatsa, könül kuyinə meyl eylər.

Ayağın öpməyin şövqilə, ey sərvi-rəvan, öldüm,
Nolaydı, sən gedən yolda olaydım torpaq, ey dilbər.

Təbibim, ol pəri divanəni xoşlar, mənə rəhmət et,
Əlac etmə, burax olsun cünun dərdim daha bədtər.

Yanardım ah odunda şam kimi bəzmi-fəraqında,
Əgər islatmasaydı göz yaşım cismimi sərtasər.

O güldən kim, batar bu sinəmə yüz min tikan hərdəm,
Rəvadır qönçə tək bağrım qanında qərq ola peykər.

Füzuli, can usanmışdır bədəndə həbs çəkməkdən,
Çıxıb təndən, o sərvin başına dönmək, odur, istər.



Aləm bizə zindanə dönə, qəm yemərik biz,
Viranəyə də dönsə cahan, uf demərik biz.

Birdir gözümüzdə azı ilə çoxu dəhrin,
Qane olarıq azına, çox istəmirik biz.

Bir ruzi üçün minnəti-sultan nəyə lazım,
Minnətlə Cəmin camını nuş eyləmərik biz.

Bizdən nə qaçırsan, gözəlim, torpağa döndük,
Gəl qaçma, yəqin eylə ki, adəm yemərik biz.

Ağlar gözümüzdən ləbinin ləlin edib yad,
Cam ilə dolu qan içərik, incimərik biz.

Hər ləhzə verər üz bizə bu dəhrdə yüz qəm,
Bivəch deyil, şamü səhər mey içərik biz.

Qəm çəkmək işində bizə yar oldu Füzuli,
Hər qədər ağır olsa da qəm, inləmərik biz.

❀ ❀ ❀

Mənim cahanda ki, bir yari-gülüzarım yox,
İşim ki, yox, burada qalmağa qərarım yox.

Məni bir it yerinə qoymaz asitanında,
Çıxım gedim gərək ordan ki, etibarım yox.

Rəqib hücumu qəribə böyük müsibətdir,
Nə yaxşı kim, bu diyar içrə hiç yarım yox.

Çəkirsə şövq kəməndi məni əsil vətənə,
Mənim bu nikbət evində daha qərarım yox.

Behişt bağındakı bülbüllərin biri mən ikən,
Bu bağı görməyə könlümdə intizarım yox.

Mənim ki, bir gözəl əldən qərarımı almış,
Bir özgəsinə deyəm yar, ixtiyarım yox.

Bu feyz bəsdi, Füzuli, fəqir olmaqdan,
Zəmanə əhli ilə ixtilati-karım yox.

Qəlbimin dərdini mən istəmirəm yarə yazam,
Bilirəm ki, oxumaz, gər ona səd barə yazam.

Kirpiyim misli-qələm, heyrət üzündən quruyar,
İstəsəm vəsfin edib, ruyinə nəzzarə yazam.

Ayağın torpağı ilə qurula ol xəti kim,
Qəlbimin qanı ilə səfheyi-rüxsarə yazam.

Qürbət eldə çürüdüm, ol xəti-mişkin gözəlim
Demədi namə bir ol bikəsü biyarə yazam.

Həşrədək od çıxacaq daşdan, əgər qəmlərimi
İki sözlə daşa mən bikəsü biçarə yazam.

Unudar qisseyi-Fərhad ilə Məcnunu cahan,
Möhnətü dərdi-dilim gər məni-avarə yazam.

Qəm bıçağilə, Füzuli, sümüyüm oldu qələm,
Cövri-cananımı ta candakı tumarə yazam.

❀ ❀ ❀

Zülm şəmşirilə hicranın məni, yar, öldürər,
Hey desəm: öldürmə, – baxmaz ol sitəmkar, öldürər.

Qan tökən ol nərgisi-bimarə düz baxsam əgər,
Əyri qaşilə məni-biçarəni xar öldürər.

Faydasızdır asitanında yerə üz sürtməyim,
Oxşasam da mən hərəm seydinə, dildar öldürər.

Eşqinin dərdinə düşdüm, ölməyim labüd, fəqət,
Qəm deyil, mən xəstəni, bil şövqi-qəmxar öldürər.

Düşdüm hicran dərdinə, yoxdur ümidim vəslinə,
Vəslinə çatsam, fərəh mən zarı naçar öldürər.

İstəsəm vəslini, zülmüylə rəqibin tənəsi,
Hicrinə dözsəm, qəmin bu canı bimar öldürər.

Çarəsizlikdən, Füzuli, dözdüm hicran dərdinə,
İstəsəm çarə, məni ol mahrüxsar öldürər.

❀ ❀ ❀

Fədakarlıqda şəmi-bəzmi-canandan deyildim kəm,
Nədir, aya, günahım kim, sayılmam bəzminə məhrəm?

Məzəmmət etmə, qovma, yer tutarsam asitanında,
Məni bir zərrə torpaq bil, təsəvvür etmə sən adəm.

Cəfavü cövrünün yox məndən özgə bir xiridarı,
Xəyal et, ölmüşəm, cana, cəfadən əl götür bir dəm.

Yetişdi başə ömrüm, bilmədim günlər necə keçdi,
Cahandan qafiləm mən, bəs ki, məsti-şövqi-dildarəm.

Deyirlər: əql edər insanları qəm çəkməyə qabil,
Əcəb divanəyəm, ya Rəb ki, əl çəkməz yaxamdan qəm.

Cəfan ilə olar qan gah ciyər, gahi sınıq könlüm,
Cəfayə tab yox məndə, əlili-möhnətü dərdəm.

O qıvrım saçların sevdasına düşdüm, budur illət,
Füzuli, mən qələm tək olmuşam sərgəşteyi-aləm.

❀ ❀ ❀

Sərvi-nazım nəzər etməz məni-zarə, nə edim?
Kimə dərdimi deyim, kim edə çarə, nə edim?

Ağlaram, zülfünə vurduqca düyünlər o nigar,
Uzun ömrümü gödəldən o nigarə nə edim?

Mən xilas olmuş idim qeydi-cünundan, amma
Bağladı zülfilə zəncirə dübarə, nə edim?

Şəmiyəm mən şəbi-hicran gecələr sübhə kimi,
Yanmayım, ağlamayım, yaxdı şərarə, nə edim?

Bu cəfapişələrə bir belə meyl etməz idim,
Naz ilə ovladılar könlümü, çarə nə edim?

O günəş üzlülərin dərdini şərh etmək üçün,
Sirdaşım sayədir, ol həm üzü qarə, nə edim?

Ey Füzuli, demə çox eşqə giriftar olma,
Olmayım aşiq elə sevgili yarə, nə edim?

❀ ❀ ❀

Aləmin az-çoxunu atmışıq, olmaz qəmimiz,
Yemərik qəm, ola gər artığımız, ya kəmimiz.

Könlümüz şad, fərəh həmdəmimizdir daim,
Çünki hər dəm qəmin olmuşdu könül həmdəmimiz.

Könlümə zövq verən dərdi-qəmi-eşqindir,
Bu qəmimlə yaşayar şən bu dili-xürrəmimiz.

Qəm şəbistanına bizdən hanı layiq bir şəm?
Qəlbimizdə odumuz var, gözümüzdə nəmimiz.

Gözümüzdən yolunun torpağını silmək üçün
Ağlarıq, ahü fəğan ilə keçər hər dəmimiz.

Qara zülfün qəmi daim yaşasın, çünki odur
Sənin eşqinlə məni həmdəm edən məhrəmimiz.

Ey Füzuli, bu səbəbdən belə dilşadıq kim,
Qəlbimizdə var onun zülfi-xəmindən qəmimiz.

❀ ❀ ❀

Mənimlə tərk edir kuyini yarın bir qəmər dərdi,
Saman tək bir vücudumla aparram dağ qədər dərdi.

Könül söylərdi: əqlin mülkünü tərk eyləməz aqil,
Cünun səhrasına saldı məni bir simibər dərdi.

Məlamət daşına oldum hədəf hər yerdə Məcnun tək,
Bütün dünyaya bildirdi fəğanım gizli hər dərdi.

Alardı hər baxışda gözlərim yüz feyz hüsnündən,
Gələrmi şərhə səndən ayrılan bir dərbədər dərdi?

Uzaqlaşmış vüsalın şövqü bir viranə könlümdən,
Tutub qəlbimdə yer, çün yüz rəqibin fitnəkar dərdi.

Vüsalın ətri könlümdə, üzün nuru gözümdəydi,
Nəsibim oldu hicrinlə ürək dərdi, ciyər dərdi.

Füzuli, məskənim meyxanələrdir, başqa çarəm yox,
Sığındım sağərə bəlkə şəfa tapsın kədər dərdi.



Sinədə yüz gizli dərdim qaldı, canan, əlvida!
Qəm dağı köçdü qapından, getdim, ey can, əlvida!

Yüz yara almış bu sinəm asitanında sənin,
Böylə güllər bəxş edərmiş ol gülüstan, əlvida!

Tərk edib eşqin diyarını, əliboş getmərəm,
Sinədə qəm yüklərim var, didədə qan, əlvida!

Dostlara etdim tədarük cürbəcür sovqat mən,
Kəhrüba solğun üzümdə, gözdə mərcan, əlvida!

Bircə arzum vardı, kuyində verim can şövq ilə,
Görmədin layiq məni-bədbəxti qurban, əlvida!

Sən zəmanə Xızrısan, yarım ləbi abi-həyat,
Bizdən ol çeşmə, Füzuli, oldu pünhan, əlvida!

❀ ❀ ❀

Budur illət səni mən güzgüyə oxşatmaram, cana!
Səni gördükdə cismimdən əsər mən görmərəm əsla.

Gəlib də bir mənə sarı, sal od bu cismimə barı,
Necə şərh eyləyim dərdim, səni mən görmürəm tənha.

Budur, kirpik kimi, hər dəm tikanları vurub bərhəm,
Bu gülşəndə tapa bilməm üzün tək bir güli-rəna.

Üzün gizlətmə gəl məndən, gözüm dünyanı gəzmişdir,
Elə mey görməmişdir ki, camalın tək ola ziba.

Cahan xəlqindən əl üzdüm, təəccüblü deyildir bu,
Mənə həmdərd olan bir kəs tapılmaz, boş qalıb dünya.

Məhəbbətlə vəfa aşiq umar hər ləhzə canandan,
Nə gördüm, söylə, mən səndən bəlavü dərddən başqa.

Füzuli, hüsndə huri deyirlər yarıma oxşar,
Bu bir əfsanədir, hurini bir kəs görməmiş əmma.



Şümşaddır, deyim necə, ol sərv qamətin,
Ağzın necə yumum, desəm əhli-məlamətin?

Ahım dumanlanıb məni rüsvayi-xəlq edir,
Çəkmək çətindir tənəsini bu cəmaətin.

Eşqin uzun yolu doludur səngi-tə'n ilə,
Qafil düşər həvasinə səbrü səlamətin.

Piri-müğan könüldəki əsrarımı bilir,
Qədrin bilim gərək mən o sahibkəramətin.

Hicran günündə möhnətin olmaz nəhayəti,
Nə nisbəti var ol günə ruzi-qiyamətin?

Dəhrin evində dərdü bəladır mətahımız,
Möhnət evində bəhrəsi varmı iqamətin?

Naseh deyir: Füzuli, unut eşq dərdini!
Mən aqiləm, kəməndinə düşməm nədamətin.

❀ ❀ ❀

Xeyli vaxtdır sənlə, ey gül, dərdisər az etmişik,
Kuyinə, qorxub rəqiblərdən, güzər az etmişik.

Naləmiz təşvişə salmışdır yanında itləri,
Olmuşuq şərməndə, onlardan həzər az etmişik.

Biz qapıdan ayrılınca, qəm olub yoldaşımız,
Ömrümüzdə bunca narahat səfər az etmişik.

Etməmişlər sənsiz aləmdən, gülüm, qəti-nəzər,
Ol səbəbdən mərdümi-çeşmə nəzər az etmişik.

Olmadı göz yaşımız hicrində kəm, əfv et bizi,
Asitanın tozunu yaşla əgər az etmişik.

Asitanında olubdur karımız ahü fəğan,
Ayrılarkən dərgəhindən xeyrü şər az etmişik.

Ey Füzuli, düşdük ol gündən ki, canandan cida,
Naləsiz, fəryadsız şamü səhər az etmişik.



İsladam, kaş, ürək qanı ilə xaki-dərin,
Hali-dildən ola hər rəng ilə olsa xəbərin.

Hərə bir can ola, ey kaş, bu qan qətrələri,
Ola bir-bir sənə qurban bizə düşsə güzərin.

İstərəm sən ova çıxdıqda şikarın mən olam,
Sənə olduqda fəda ta mənə düşsün nəzərin.

Seyrə çıxsan edərəm xəlqi fəğanla məşğul,
Səndən, ey gül, xəbəri olmaya ta bir nəfərin.

Söylərəm dərdimi öz kölgəmə, əfğanımdan
Mən olan mənzilə bir kəs daha salmaz səfərin.

Bu gözəllərdə vəfa yoxdur, ədəm tilsimi var,
Belə batil bir işin görməyəcəksən səmərin.

Eşqdən mən' qılır gərçi, Füzuli, naseh,
Mənə təsir eləməz sözləri hər bihünərin.

❀ ❀ ❀

Əlif qədin həvəsi çəkdi sinəm üzrə nişan
Ki, yoxluğun qələmi xəttin etdi bizdə əyan.

Çəkildi sinəmə min dağ lalə tək sənsiz,
Bahari-eşqin edibdir bu güllərimi xəzan.

Müyəssər olmadı, bir sərvdən vəfa dilədim,
Yenə cəfa yaşasın, hər ümidim oldu xəzan.

Fərəh gülümdür o, zövqi-vüsal ilə açılıb,
Misali-qönçə xoş ətrinlə çak olan daman.

Vücudumun tozu da qalmadı yolunda onun,
Qubarə də belə sürətlə qalmışam heyran.

Əsər də qılmadı məndən tələb yolunda, vəli
O mahdən bizə bir kimsə verməmiş də nişan.

Füzuli, çərx sənin ahü naləni eşidir,
Eşitmədim sənə bənzər edən bir ahü fəğan.

❀ ❀ ❀

Sənin əksin deyil ayinədə, ey nazlı sənəm,
Bəlkə bətnində Məsihasını bəslər Məryəm.

Ayağın öpməyinin dövlətinə yetməz əlim,
Mənim ol həsrət əgərçi eləyib qəddimi xəm.

Onun əbrusu və rüxsarı kimi az görünür,
Yeni ay ilə günəş çeşməsi olsun bahəm.

Var idi qamətinin nəqşi mənim sinəmdə,
Görməmişdi o zaman kim, fələyin lövhü qələm.

Necə bir tazəvü tər olmaya reyhani-xətin
Ki, çəkir çeşmeyi-xurşiddən hər ləhzədə nəm.

Köhnəlibdir daha çoxdan fələyin eyvanı,
Yağdırır başımıza toz kimi min möhnətü qəm.

Xeyli müddətdi Füzuli o pəri rüxsarın
Yadi-ləlilə könül qanı yeyidir hər dəm.

❀ ❀ ❀

Ondan soruşun sirri-dəhanı, nə bilim mən?
Allah bilir ol razi-nihanı, nə bilim mən?

Canla baxıram, gözlə nə hacət ona baxmaq,
Ondandı həyatım, daha canı nə bilim mən?

Dəm vurdu rəqibim o bütün mərhəmətindən,
Yox bütdə o xislət, bu yalanı nə bilim mən?

Tənha gecələr şəm ilə həmraz ola bilməm?
Gərçi dili vardır, o zəbanı nə bilim mən?

Ərbabi-vəfa rəsmini məndən xəbər alma,
Onlar bilir övzai-cahanı, nə bilim mən?

Saqi, qədəhi tərk eləyib sufilik etsəm,
Eyb eyləmə, yaxşını, yamanı nə bilim mən?

Həmkasəmiz olmaq diləyirsənsə, Füuli,
Göstər sən özün, kuyi-müğanı nə bilim mən?

Könlümü dərdə salan ol ləbi-meygun olmuş,
Nə edim, yoxdur əlacım, ürəyim xun olmuş.

Bunca, ey şəm, mənə gülmə ki, sərmayeyi-eşq
Ah ilə göz yaşıdır, məndə o əfzun olmuş.

Getdi Məcnun, məni eşq etdi əsiri-qəmi-dil,
Dərdə dözməkdə mənim tək, demə, Məcnun olmuş.

Vurmadım bir gilə su yandığım eşq atəşinə,
Gərçi əşkin vətəni bu dili-məhzun olmuş.

Sən xərab eylədin əhvalımı peyvəstə, fəqət
Olmamışdır belə ki, indi digərgun olmuş.

Gah səndən edirəm nalə, gəh əğyarimdən,
Qəmi-pünhanü əyan halıma məzmun olmuş.

Ey Füzuli, mənə ol mah cəfa etdisə də,
Yoxdur ondan gileyim, baisi gərdun olmuş.

❀ ❀ ❀

Mən uşaq tək ağlamaqdan başqa aləm bilmirəm,
Dərdimi bir kimsə bilməz, mən özüm həm bilmirəm.

Etmişəm təkliklə adət, var özümdən nifrətim,
San ki, rəsmi-ülfəti-övladi-adəm bilmirəm.

Bəs kimə izhar edim mən könlümün gizlin qəmin,
Qəmdən öldüm, sevgilim, bu dərdə mərhəm bilmirəm.

Qafiləm mən, qəlbimi axtarma, sorma dərdimi,
Çox sorub, axtarma gəl, ey yari-həmdəm, bilmirəm.

Qəlbimə yol tapmamışdır fikri də xoşbəxtliyin,
Hansı insan qəlbi olmuş şadü xürrəm, bilmirəm.

Möhnətim çoxsa, yanında qədri çoxdur özgənin,
Qədri azdır çox qəmin, var sirri-mübhəm, bilmirəm.

Ey Füzuli, gər pərişan halımı sorsan mənim,
Bir cavabım yox deyim mən, çünki billəm bilmirəm.



Eşqin ilə yenə könlümdə mələlım vardır,
Nə dil ilə deyim, ey şux, nə halım vardır?

Bir nicat axtarıram bunca bəlasından onun,
Allah-Allah, nə bəla, fikri-məhalım vardır.

Sağərü saqidə ol nəş'ə kimin qüdrətidir?
Səndən, ey zahidi-bizövq, sualım vardır.

Mənzilim kuyin ola, hasilim ənduhü qəmin,
Başqa dövlət nə gərək, mülk ilə malım vardır.

Xirəd əhlin niyə güldürməyə divanəliyim,
Çör-çöpəm atəşə ümmidi-vüsalım vardır.

Diləyim yalnız oxundan, gözəlim, peykandır,
Meyvə dərməkçün əcəb türfə nihalım vardır.

Yoxdur eşq içrə, Füzuli, mənə bir sabit yol,
Hər zaman başqa fikir, başqa xəyalım vardır.

❀ ❀ ❀

Gəzirkən kölgə kuyində məni rəşk etdi sərgərdan,
Səni görməkliyə onda göz olsaydı, verərdim can.

Deyildir toplanan peykan mənim bu qanlı çeşmimdə,
O bir gəncinəyə yoldur, çıxıbdır odlu ləl ondan.

Əlimdə nəqd canım seyr edərkən itdi kuyində,
Niyə tapşırmadım çeşmi-nigarə, olmuşam peşman.

Könül mülkü xarab oldu, onu abad qılmaqçün
Mənə palçıq gərək, ver dürdi-mey, ey saqi-dövran.

Qəmi-eşqinlə öldüm, şükr ola Allaha kim, hərgiz
O nazik təbinə, cana, əziyyət vermədim bir an.

Açıb hər ləhzə ağzın, ey sədəf, gəl bunca laf etmə,
Varımdır gövhəri-əşkimdə, bax gör, min düri-qəltan.

Füzuli, sübhədək hər şəb işin ahü fəğan olmuş,
Nola bir it hesab etsə səni kuyində ol canan.



Haçan düşür gözüm ol gülüzara ağlayıram,
Fəğan ilə dönüb əbri-baharə, ağlayıram.

Mənim bu naleyi-zarım keçir fələklərdən
Ki, sübhədək gəlirəm ahü zarə, ağlayıram.

Nə xeyri mən' eləməkdən bilirsən, ey həmdəm,
Yox ixtiyar, dili-biqərarə ağlayıram.

Mən ağlaram ki, rəqibin cəfaləri çoxdur,
Demə ki, az görünən lütfi-yarə ağlayıram.

Nə xeyri, yox xəbərin, ey gözəlliyin günəşi
Ki, şəm tək gecələr aşikarə ağlayıram.

Vüsalə yetmək üçün şəm tək mən ağlamıram,
Şəbi-fəraq yaxır qəlbi narə, ağlayıram.

Füzuli, eyləyirəm ruzigardən şikvə,
Təəccüb etmə, bu bəd ruzigarə ağlayıram.

❀ ❀ ❀

Könlümdəki qəm qönçeyi-xəndanın üçündür,
Göz yaşlarım ol ləli-dürəfşanın üçündür.

“Aşüftəliyim sünbüli-mişkinin ucundan,
Sərgəştəliyim sərvi-xuramanın üçündür”.

Təsbeh kimi yüz üqdeyi-qəm rişteyi-canda,
Min həsrət ilə ol düri-dəndanın üçündür.

Ümmidi-xilas etməməyim dami-bəladən
Ancaq sənin ol zülfi-pərişanın üçündür.

Vəslin günü mümkün deyil hərgiz mənə şadlıq,
Könlümdəki qorxu şəbi-hicranın üçündür.

Bir kimsə qutarmaz məni ölməklə bəladən,
Can həsrəti ol nərgisi-fəttanın üçündür.

Müşkül ki, Füzuli, edəsən qeyrdən əfğan,
Hər günkü fəğanım sənin əfğanın üçündür.

❀ ❀ ❀

Qəm qılıncın eləyib cismimi sədparə mənim,
Güli-sədbərgi-bahari-qəmi-eşq oldu tənim.

Qanlı yaşla saralan çöhrəmə əskik baxma,
Sarı, ya qırmızı olsam da, çəməndir vətənim.

Qanlı qəlbimlə dəm urdum ləbinin vəsfindən,
Göstərir hali-dili-zarimi rəngi-süxənim.

Yoxsa ol zülfü qədü çöhrə, çağırma çəmənə,
Bağiban, olsa da gər sünbülü sərvü səmənim.

Daha bundan belə tənha gərək eşqində olam,
Kölgəmi çəkməyə çün tab gətirmir bədənim.

Kuhkəndən var əsər, məndən əlamət yoxdur,
Əcəb, ondan daha rüsvalığım artıqdı mənim.

Gizlədirdimsə Füzuli kimi dərdi-dilimi,
Saldı əfsanəyə eşqin məni, ey simtənim!

❀ ❀ ❀

Hər zülm edib mənə o sitəmkar çəkmişəm,
Etdikcə o, cəfanı, mən azar çəkmişəm.

Heç bir şikayət etməmişəm, dözmüşəm qəmə,
Qəm çəkmirəm ki, mən qəmi-dildar çəkmişəm.

Tə'n eyləyir rəqib mənə, vəchi var ki, mən
Yarın yolunda təneyi-əğyar çəkmişəm.

Sən getdiyin yolun tozunu tutiya kimi,
Kiprik mililə didəmə, ey yar, çəkmişəm.

Yadi-qədinlə mən gecələr sübhədək müdam
Dərdli könüldən ahi-şərərbar çəkmişəm.

Nuş eyləyir, Füzuli, rəqibim meyi-vüsal,
Mən hicr oduyla həsrəti-didar çəkmişəm.

❀ ❀ ❀

Yüz dəfə göz açdım güli-rüxsarına, ey can,
Hər dəm üzə açdım iki yüz seyl ilə tufan.

Hər sel ki, axıtdım yoluna didələrimdən,
Fəryad edərək sirrimi açdı sənə hər an.

Hər sirr ki, gizlində demişdim sənə, ey gül,
Əğyara dedin, saxlamadın sən onu pünhan.

Açdım sənə göz, gördüm əziyyət, sitəm, azar,
Açdım öz əlimlə özümə bir dəri-əhzan.

Gör bəxtimi, rahətlik umurdumsa yolunda,
Dəhşətli bəla seylinin ağzındayam əlan.

Qıldımsa əgər sinəmi çak, axırı tapdım
Dərdindən onun qəlbimə yol açmağa imkan.

Zülfündə işim çün düyün olmuşdu, Füzuli,
Tutdum səri-zülfündən, açıldı düyün asan.

❀ ❀ ❀

Açanda göz üzünə aşiqin, olur heyran,
Axıb gedər üzümə sel kimi ciyərdən qan.

Sən üz açanda, o hüsnə doyunca baxmaq üçün,
İşıqlı bir göz olur gözlərimdə hər müjgan.

Ürəkdə min cürə dərdim düyünlənib, lakin,
Birin də söyləməyə yox o dilbərə imkan.

Görüb də xasiyyətin, yummuşam camalına göz,
Cəfanı tərk elə, ta mən də göz açım, canan.

Evim qaranlıq olub taleyimlə, faydası yox,
Qapı-baca açа bilsəm də əşkü ahımdın.

Vüsali-şəminə yannam misali-pərvanə,
Fəraqı qoysa əgər qol-qanad açam bir an.

Neçün gərək üzümə mən açım bəla qapısı,
Gərək, Füzuli, yumam göz o mahi-tabandan.

❀ ❀ ❀

Qan içən dilbərimin şüğli cəfadır, bilirəm,
İşi daim bu yazıq qəlbə cəzadır, bilirəm.

Nə rəva zülmi-Züleyxanı soram Yusifdən,
Biz vəfasızlarıq, o mərdi-vəfadır, bilirəm.

Qan seli axdı ciyərdən ürəyin atəşinə,
Ahi-sərd ilə necə halı fənadır bilirəm.

Olmaram bircə nəfəs yar qəmindən azad,
Eşq rahində bu qəm dərdə dəvadır, bilirəm.

O kaman qaşə, o ox kirpiyə verdimsə könül,
Bu yazıq canıma bunlar nə bəladır, bilirəm.

Ey Füzuli, nə üçün sirrini gizlin tutdun?
Qanlı yaşlar sarı üzdən, bu riyadır, bilirəm.

❀ ❀ ❀

Var nə təqsirim yenə mən çeşmi-yardan düşmüşəm?
Mötəbərdim, heyf, indi etibardan düşmüşəm.

Yar kuyindən cida heyranam öz əhvalıma,
Bu bəlalı qürbətə doğma diyardan düşmüşəm.

Bircə yol gül üzlülər lütf ilə baxmazlar mənə.
Bilsələr də xar olub mən ixtiyardan düşmüşəm.

Görmürəm bir əhli-dil, öldüm cahanda kimsəsiz,
Xəlq içindən mən kənarəm, iqtidardan düşmüşəm.

Piçü tabdan saldı cananım bu canım riştəsin,
Mən bu halə rişteyi-zülfi-nigardan düşmüşəm.

Neyləyim ki, öldürür minbir əzabla ruzigar,
Oxlanan ov tək tora mən ruzigardan düşmüşəm.

Bülbüli-ərşəm, Füzuli, mənzilim cənnət bağı,
Bu yerə biixtiyar ol laləzardan düşmüşəm.

Səndən ürək qəmin, gözəlim, pünhan etmərəm,
Bu eşqi gizli, ey gözəlim, bir an etmərəm.

Ta görməsin bu sinədə dağı-məhəbbəti,
Düşmən yanında çaki-giriban etmərəm.

Hər an müsibətimdə əgər giryan olmasa,
Mən iltifat gözlərimə bir an etmərəm.

Hər dəm ki, lütf edər mənə yarım, mən onda da
Biixtiyar olub, ürəyi xəndan etmərəm.

Derlər ki, vermədən canını eşqi tərk elə,
Müşkül olan bu işləri mən asan etmərəm.

Qəlbə nəsihət eyləmərəm eşqi tərk edə,
Öz işlərindən heç kəsi mən peşman etmərəm.

Vardır, Füzuli, zövqi-vüsalə ümidimiz,
Hicran oduyla bu ürəyi büryan etmərəm.

❀ ❀ ❀

Mən ona naləylə izhari-qəmi-dil etmişəm,
Ağlaram, çün nalədən mən kam hasil etmişəm.

Qəlbimin, bax, naləyə meyl etməsi bica deyil,
Mən onunla qəlbimə dildarı mayil etmişəm.

Heç bir aşiq yar üçün etməz mənim tək ahü zar,
Nalələrlə mən işi üşşaqə müşkül etmişəm.

Nalələr yüksəlmiş hər an etdiyim bu nalədən,
Ah edib səndən uzaq mən harda mənzil etmişəm?

Almasın yarım əlindən ta dili-avarəmi,
Mən ciyər qanilə xaki-rahini gil etmişəm.

Tək rəqibin dərdini söylər, Füzuli dəmbədəm,
Mən ölümdən ruhu mey zövqilə qafil etmişəm.

Sanmayın məhrulərə aşiq olan tənha mənəm,
Cümlə aşiqdir, fəqət eşqində tək rüsva mənəm.

Zülfünün sevdası olmuş titrədən can riştəsin,
Şux məhrulər əsiri sanma tək, canan, mənəm.

Çox təəccüb eylərəm hər yerdə olsa surətim,
Bilməz heç kimsə çəkilmiş nəqşdir ol, ya mənəm.

Xeyli müddətdir ki, mən dilbəstə oldum zülfünə,
Eyləyən bir tari-zülfü can ilən sevda mənəm.

Zülmdür, çəksən ətək mən binəvadən sən bu gün,
Çün sabah əl damənindən çəkməyən şeyda mənəm.

Gər yer altında qəmindən məskən etsəm, fayda yox,
Çün hücum eylər mənə seylabi-qəm harda mənəm.

Yox bizimçün, ey Füzuli, etibarı aləmin,
Tərki-dünya varsa gər dünyadə, bil, yekta mənəm.

❀ ❀ ❀

Ey şəm, yanıbdır sənin eşqində rəvanım,
Aydın ola, kaş sənlə də bu suzi-nihanım.

Hüsnün belə məşhuri-cahan məndən olubdur,
Rüsva olub eşqində cahan içrə bu canım.

Bağla dilimi, qoyma gələ nitqə ki, salsın
Dildən-dilə sirri-qəmi-eşqin bu zəbanım.

Hər bir səsə gur əks-sədalar verən ev tək,
Əfğanə salıb günbədi-gərduni-fəğanım.

Ahım sənə yetməz, gözəlim, qəddim əyilmiş,
Getməz uzağa ox, dəxi süst oldu kamanım.

Qalmışdır işim Allaha, bəs mən nə edim, ah!
Məşuqələrin eşqi alıb əldən imanım.

Bəs mən necə də ağlamayım indi, Füzuli,
Qaldırdı yolundan məni öz əşki-rəvanım.

Ol ləli-süxənguyinə aşiq dili-zarım,
Qoy bir kam alım indi o ləblərdən, a yarım!

İstərdim o ləbdən eşidim bir söz, heyif ki,
Sözçün dil açınca tükənir səbrü qərarım.

Aç ağzını bir nitqə gəlib virdi-kəlam et!
Şövqünlə gəlib can ləbə, ey çeşmi xumarım!

Bircə sözünə canımı qurban demişəm mən,
Hər vaxt kefindir, de edim mən də nisarım.

Bircə sözünün zövqünə bax, gör necə qasid
Səndən mənə peyğam gətirib aldı mədarım.

Hər bir işimə vurdu düyün zülfün, amandır,
Aç bu düyünü ta açıla rişteyi-karım.

Olmaz işim heç abi-həyat ilə, Füzuli,
Öldürdü məni çünki dodağilə nigarım.

❀ ❀ ❀

Biz heç zamanda tərki-rüxi-yar etmərik,
Heç bir kəs etməyən işi zinhar etmərik.

Bənzətmişiksə qamətini sərvə, şərmdən
Baş dikmişik yerə, bunu təkrar etmərik.

Bu gün rəqib ayırsa bizi bənd-bənd, yenə
Biz aşiqik ona, bunu inkar etmərik.

Dildarımız verəndə bizə vəsl vədəsi,
Vaxtından əvvəl əhdinə vadar etmərik.

Dünyapərəst biz deyilik mülkü mal umaq,
Biz tərki-yarı can nə qədər var etmərik.

Biz ərseyi-fəsaddən olduq kənarə, çün
Dünyayə uyub, könlümüzü xar etmərik.

Rindanəliklə badə olubdur şüarımız,
Sanma, Füzuli, biz bunu iqrar etmərik.



Cəhd ilə bağladım axırda qara zülfünə dil,
Şükrülillah, onun itmək qəmi oldu batil.

İstərəm varlığım, ey gül, qəminə sərf oluna,
Olaraq məqsədə ancaq bu yol ilə nail.

Çəkmərəm minnətini saqiyi-dövranın əbəs
Ki, məni məst eləmiş cami-məhəbbət kamil.

Çəkən olsa, qəmimi, halımı səndən sorsun,
Mən unutdum özümü ta sənə oldum vasil.

Sənə tapşırdığım ol qəlb deyil, ey daşürək,
Şişə idi, daşa çaldım onu, etdim zail.

Ya vurub başıma, ya tutmalıyam damənini,
Əllərim başqa bir iş görməyə olmaz qabil.

Mənəm ol şəm, Füzuli, edərək vəslə ümid,
Bu tələblə yaşaram mətləb olunca hasil.

❀ ❀ ❀

Görəndə ruyini ayə necə baxım heyran
Ki, sən baxanda baxar gözlərim yerə hər an.

Nə vaxtadək gecələr ayrı şəmi-hüsnündən
Çirağı-xəlvətimi bərqi-ah edim, canan.

Ayağını başıma qoymasan da nazdan əgər,
Bu başı qoy mən edim xaki-rahinə qurban.

Mən əşkü ah ilə öz eşqimi sübut edərəm
Ki, şahid olmasa, mən etmərəm bu eşqi əyan.

Xoş ol zaman ki, qurub şadiyanəlik bəzmin,
Üzün xəyalı ola məclisimdə nurəfşan.

Qisas alsan əgər hər günahimə, bil ki,
Həmişə əldə günahı mən eylərəm ünvan.

Füzuli, zülfi xəti-yardən tutulmuş ürək.
Nə vaxtadək buraxım namədə belə nöqsan?



Qalsın nə vaxtadək belə pürğəm bu könlümüz?
Olsun əsiri-türreyi-pürxəm bu könlümüz?

Geysulərin qəmində qoyubdur könül məni,
Olsun o saçların kimi bərhəm bu könlümüz.

Sevdadə səbrdən söz açıb bəhs edir müdam,
Qorxum budur ki, olmaya möhkəm bu könlümüz.

Gəl ki, fəraqın eylədi sədparə qəlbimi,
Gəl, bəlkə bir qədər ola xürrəm bu könlümüz.

Çox kəsdi ülfəti bütün aləmdən, axiri
Oldu bu cür yeganeyi-aləm bu könlümüz.

Torpaq olubdu bir mələyin asitaninə,
Ümmid edir ki, ta ola Adəm bu könlümüz.

Təklikdə söhbət açma, Füzuli, o ləldən,
Olsun bu vəch ilə sənə həmdəm bu könlümüz.



Heç zaman sən özünü tabei-əğyar eləmə,
Yenə bu aşiqi-sövdazədəni xar eləmə.

Daha yox tab çəkəm cövrünü, ey mahliqa!
Bunca zülmü mənə, ey şuxi-cəfakar, eləmə!

Yox mənim indi o keçmişdə olan əhvalım,
Məni keçmişdəki zəncirə giriftar eləmə!

Sən ki, şahsan, nə rəva, acizə zülm eyləyəsən,
Gəl bu dərviş ilə sən bir belə rəftar eləmə!

Həzər et ahi-dilimdən, səni tanrı, bir də
Yaralı qəlbimə, gəl, zəxmini təkrar eləmə!

Yaşamaq bəs nə imiş, bunca deyirlər bica:
İçmə mey, sən həvəsi-işrəti zinhar eləmə!

Bircə yar istə, Füzuli, bu əziz ömründə,
Hər vəfasız gözələ eşqini izhar eləmə!

❀ ❀ ❀

Əsiri-dami-zülf etdin, dolandır başına, canan!
Məni sərgəştə etdin sən, gəl eylə bir də sərgərdan.

Canımdan üzmüşəm əl, sən xədəngin etmə gəl zaye,
Şəfa varsa oxundan, başqa bimarə elə dərman.

Şüai-didəmi peyvənd qıl sən tari-zülfünlə,
Hörülmüş tellərə bir an nəzər qıl, ey məhi-taban!

Görün, ta kirpiyimdən xuni-dil cari olub getsin,
Ümidsizlik nihalın meyvədar et, ey güli-xəndan!

Kəmali-hüsn istərsən, gəl üz döndərmə aşiqdən,
O hüsni-məhvəşi, dilbər, bizə izhar qıl hər an.

Qəmi-hicranının bərqi əritdi mərdümi-çeşmi,
Qara xalı bəbək qıl çeşmimə, olsun yenə rəxşan.

Bu dövrani-müxalifdə nə qədri qəm çəkim, saqi!
Ləbaləb bir qədəhlə qıl Füzuli xəstəni heyran.

❀ ❀ ❀

Sən bir göz açıb, bir də məni-zarə nəzər sal,
Dami-qəmi-eşq içrə giriftarə nəzər sal.

Mən gözlərimi, qəlbimi mən etdim üzündən,
Bir bunca yanan aşiqi-bimarə nəzər sal.

Yüz cövr çəkib, atmadım ol nazlı nigarı,
Bir mən kimi eşqində vəfadarə nəzər sal.

Onlar mənə cövr etdi hər an, mənsə məhəbbət,
Onlarda sitəm, məndəki rəftarə nəzər sal.

Heç kəs məni-nalanə nəzər salmayır əsla,
Bu rahi-məhəbbətdə məni-xarə nəzərə sal.

Öz qəlbini eşqin qəminə verdi Füzüli,
Öz düşməninə, yarü həvadarə nəzər sal.



Sənin hicrində, ey şəmim, düşüb zülmatə, zarəm mən,
Keçir hər bir gecəm qəmlə, həmişə biqərarəm mən.

Qalıb bir guşədə tənha, işimdir naləvü fəryad,
Qəribə halətə düşdüm, əcəb dərdə düçarəm mən.

Səni, ey gözlərim, mən' etmişəm cananə baxmaqdan,
Sənə baxmaq deyil mümkün ki, səndən şərmsarəm mən.

Qəmi-eşqində, ey zalim, olurmu dərdlərim zail?
Qəmi-eşqin hər an artır, halımda bərqərarəm mən.

Məni sən bədnəzər bilsən, niqabı açma heç üzdən,
Məni baxmaqda mən' etmə, buna biixtiyarəm mən.

Gərəkdir hali-zarimdən xəbər əhli-nəzər tutsun,
Nə bilsin dərdsiz insanlar ki, məsti-çeşmi-yarəm mən.

Füzuli, göz yaşıyla heç olarmı dərdə təskinlik?
Gözəllər ləblərindən kam alarsam, bəxtiyarəm mən.

❀ ❀ ❀

Üzbəüz olmuşdu mənlə dün gecə bir nazlı yar,
Zövq alırdı sübhədək ol yardən bu qəlbi-zar.

Yar vəhşitəb, mən ülfətsevən, bəs neyləyim?
Yar məndən möhnət öyrəndi, mən ondan qəm-qübar.

Ey fələk, heç də öyünmə tazə ayınla əbəs,
Ol hilaləbru nigarım gözlə olsun aşikar.

Yolda qalmış gözlərim, mən düşmüşəm ardınca, ah!
Bir baxışçün qoymasın barı nigarım intizar.

Bibəla olmaq mənə heç bir zaman mümkün deyil,
Hər yanımda yüz bəla var zülfi-canandan kənar.

Söylədim: şahım, Füzuli bir qulamındır sənin,
Söylədi: kimdir, haçan tutmuş o, kuyimdə qərar.



Duydu xəyalımı o gözəl, bildi halımı,
Fərq etmədi bu zəf ilə məndən xəyalımı.

Kamil-dilim o ləli-ləbindən umurdum, ah!
Pozdu bir an içində xəyali-məhalımı.

Ərz eylədim ki, mən itinəm, bəlkə bu sözüm
Böylə qaçırtdı məndən o vəhşi ğəzalımı.

Qəlbim odu qolumdun olub şöləvar, budur,
Mən bir quşam ki, od yaradıb pərrü balımı.

Əqlin həvası etdi, Füzuli, məni məlul,
Bir söz de eşqdən ki, ala bu məlalımı.

❀ ❀ ❀

Qorxuram bu cismi-zarımdan o dəm ki, can çıxa,
Ol zaman, ol ləhzədə canan qəmi candan çıxa.

Vermə, saqi, mey mənə, qorxum budur ki, məst olam,
Xalq içində sirri-ləli-dilbər ağzımdan çıxa.

İstədim ta ki, sümükdən mən çəkim peykanını,
Ehtiyat etdim oxuyla həm ilik büryan çıxa.

Gəl əyilmiş qəddimə rəhm eylə, ahımdan saqın,
Sən rəva görmə kamandan böylə bir peykan çıxa.

Atəşi-canə dəvam etmir bu qəlbim, kaş kim,
Qan olub didəm, yolundan qanına qəltan çıxa.

Dün çıxarkən seyrə rüsvayi-cahan etmiş məni,
Bəs bu gün mən neylərəm naz ilə ol canan çıxa?

Göstərib rüxsarını qovma Füzulini, gülüm,
Gül görən bülbül məhal işdir gülüstandan çıxa.

Ey gözəl, getmə, mənim qəlbimi sən qan eləmə!
Eşqimin dağını gəl hicr ilə suzan eləmə!

Geymə, ey sərv, səfər paltarı, qəm barı ilə
Əymə bu qəddimi, gəl xak ilə yeksan eləmə!

Ol günəş ruyinin hicranı ilə surətimi
Öz ciyər qanım ilə lalə tək əlvan eləmə!

Göz yaşım, sel kimi ax, kəs yolunu dilbərimin,
Getsə, düş ardına sən, tərkini bir an eləmə!

Ey Füzuli, yaşamaq istərisən canansız,
Fikrini atma barı, qəlbi pərişan eləmə!

❀ ❀ ❀

Qaşların eşq əhlinin sevdasın artırmış hər an,
Çün hilalın aşiqə sərməşqi-sevdadır, inan!

Gördü qəlbim qəddini, saldı məhəbbət ləlinə,
Qəlbdən çəkdim məlamət, gözlərimdən axdı qan.

Qəlbimin çeşmim yoluyla tökdüyü qan seylini
Sinəmin çakindən eylər gözlərim qəlbə rəvan.

Hər sevən qanlı ürəkdən yox lüzumu dəm vura,
Qanlı göz yaşı onun öz halını eylər bəyan.

Zülfünün hər bir teliylə bağladım can riştəsin,
Mən bu dönmüş taleyimdən qorxuram hər bir zaman.

Qoydusa hər kəs mənim bir pənbə dağı-sinəmə,
Yandı ol pənbə mənim bu dağı-sinəmdən haman.

Ey Füzuli, mal üçün alçalma hər bir alçağa,
Ali himmətlə uzaqlaş sən bu alçaq dünyadan.



Ölməz idim, tiğ ilə yüz yarə vursaydı əgər,
Kölgəsilə vurmasaydı arxadan ol simbər.

Görcəyin imanımı verdim, necə inkar edim,
Çünki şahiddir mənə məhşər günündə çeşmi-tər.

Gül üzündən pərdə açdın, gördüm ol rüxsarını,
Bir bəladır arizin, etmək gərək ondan həzər.

Sən günəşsən, şəm tək hicrində yannam sübhədək,
Ağlasa əhvalıma, olmaz əcəb mürği-səhər.

Ey həkim, artır mənim zövqüm ciyər qaniylə, sən
Eylə dərman ver ki, artsın bir qədər suzi-ciyər.

Aləmi-eşq içrə Məcnundan Füzuli kəm deyil,
Bütlərin sevdası neylər aşiqə bundan betər?

❀ ❀ ❀

Oldu bu bəd zəmanədə həm taleyim zəbun,
Tale belə, zəmanə elə, dərdü qəm füzun.

Xurşid sanma, zülm əlidir kim, səhər-səhər
Cövr etməyə bizə çıxarar tasi-sərnigun.

Biz görmədik saralmış üzə, qanlı yaşlara
Rəhm eyləsin bu tərsə dönən çərxi-nilgun.

Dolmuş qan ilə gözlərimiz bir şəfəq kimi,
Çün mehrsiz fələk eləyib xəstə qəlbi xun.

Biz yüksəyik, ədavət üzündən uzaq deyil,
Meyl etməsə öz əksinə bir dəm sipehri-dun.

Fərhad gördü dərdü bəla çoxdu seyrdə,
Axırda tutdu icz ilə damani-Bisütun.

Cövri-zəmanı zikr eləməkdən nə faidə,
Cəhd et, Füzuli, olmayasan dərdə rəhnümun.

Bilindi mehrin, ey gərdun, sənin də var bu mahimdə,
Rəqibimsən ki, durmuşsan inadla pişgahimdə.

Fələk, əl çək bu adətdən, mənə gəl sən cəfa etmə,
Mənə yox, canına rəhm et, yanarsan bərqi-ahimdə.

Bu nə haldır ki, hər yanda o xurşidə yol axtardım,
İtib bir kölgə tək qaldım mən öz bəxti-siyahimdə.

Təvaf etmək dilərdim yar kuyin zülməti-qəmdə,
Könül, sən bir çıraq yandır mənim bu qəmli rahimdə.

Nə etdim, neylədim, ya Rəb, o gül döndərdi üz məndən,
Nədən bəs inciyib, aya, nədir bilməm günahim də?

Fələkdə hər bəla varsa, mənə nazil edir, aya,
Nə şahəm ki, bütün aləm olur rahat pənahimdə?

Füzuli, qeydi-əql axtarma məndə, bəndeyi-eşqəm,
Mütiəm, ixtiyarım var mənim öz padşahimdə.

❀ ❀ ❀

Sinəm yarıldı, oldu ürək ləxtə-ləxtə xun,
Hər ləxtə parə-parə düşüb, oldu sərnigun.

Qandırmı damla-damla gözümdən axır müdam,
Ya olmuş hər biri şərəri-atəşi dərun?

Zikri-ləbinlə eyləmişəm çarə dərdimə,
İnsanı əfidən qoruyar, adətən, füsun.

Əqlim nə vaxtadək məni avara eyləsin,
Zəncirə, istərəm ki, məni bənd edə cünun.

Cananın əksi olmasa, olmaz qərarımız,
Üstün deyildir aşiqə eşq içrə Bisütun.

Heç bir kəsə mənim kimi zülm etmədin, fələk!
Ya xəlq içində təkcə məni görmüsən zəbun?

Məndən soruşma hali-Füzuli nə yerdədir,
Halım bəyan edər hamıya əşki-laləgun.



Dərdi-dilimə lütf eləyib bircə dəva qıl,
Lütf et, gözəlim, dərdi-dilə çarə əta qıl.

Bir ömrdür həsrət çəkirik görməyə ruyin,
Bəsdir, səni tanrı, bizə gəl ərzi-liqa qıl.

Başdan keçərək, düşmüşəm artıq mən ayaqdan,
Mən bisərü pa aşiqə bax, dərdə şəfa qıl.

Daim könül incitmək, inan, xoş ola bilməz,
Bəsdir bu qədər zülm elədin tərki-cəfa qıl.

Aşiqləri məhrumi-vüsal eyləmək olmaz,
Rəhm eylə, gözəl, eşq nə istərsə, rəva qıl.

Dəm vurma, könül, ol sənəmin silsiləsindən,
Gəl bax sözümə, sən həzəri-dami-bəla qıl.

Aşiq ilə məşuq, Füzuli, demə birdir,
Gər yar cəfa etsə, sən, əlbəttə, vəfa qıl.

❀ ❀ ❀

Səri-kuyin, gözəlim, gər mənə olsaydı diyar,
Göz yaşım silməz idi cismimi manəndi-qübar.

Həsrəti-ləli-ləbin qəbrə apardım, yox əcəb,
Atəşi-qəlbim ilə gülxənə gər dönsə məzar.

Yatdı tufani-bəla, möhnətü qəm girdabı,
Oldular indi mənim bəndimə bu çöldə düçar.

Görmək istər üzünü ayineyi-idrakım,
Məh camalın niyə görsün sənin, ey gül, əğyar?

Naləmə zəfi-bədən, bil ki, deyildir bais,
Qorxuram tuqi-qəmin tutmaya boynumda qərar.

Ey Füzuli, necə mən ölməyim ol qəmdən kim,
Qəmdən öldüm də xəbər tutmadı ol nazlı nigar.



Əgərçi rəhm eləməzsən bu hali-naşadə,
Yenə ümid edirəm mən sənə bu dünyadə.

Məni yolunda rəqib öldürəndə zülm ilə,
Neçin də lütf edərək gəlmədin sən imdadə?

Yolunda torpağa döndümsə, salmadı bir kəs
O xaki-payin önündə bu halımı yadə.

Səni mən axtarıram, bircə an qərarım yox,
Bir an qərar tuta bilməz könül bu sevdadə.

Nə qorxu var mənə məhşər günü cəhənnəmdən,
Xilas edər məni eşqin o dari-üqbadə.

Yolunda düşdüm ayaqdan, bu halə bir nəzər et,
Rəva deyil ki, olum xar bu təmənnadə.

Gətirdi canə Füzulini möhnəti-hicran,
Əcəl hanı ki, yetişsin bu dəmdə imdadə.

❀ ❀ ❀

Göstərirsən üz ki, xurşidi-cahanara budur,
Aləmə sən od vurursan, rəsminiz guya budur.

Mən yolunda düşmüşəm, bir yol mənə baxmırsan heç,
Ey ayüzlüm, etibarın aşiqə, aya, budur.

Qamətü rəftarın aldı canü dildən rahəti,
Sərvlərdən də gözəl bir qaməti rəna budur.

Qamətü zülfün əlindən canü dil olmaz xilas,
Canlara afət odur, dami-dili-şeyda budur.

Bircə gün olmaz ki, qətlim vədəsi gəlsin başa,
Öldürən həsrət məni, ey yari-bipərva, budur.

Kaş məhşərdə gözəllər mən fəqiri göstərib,
Söyləsinlər qorxa-qorxa aşiqi-rüsva budur.

Var başında eşq sevdası Füzuli xəstənin,
Söyləməz amma onun dərdindəki məna budur.



Çıxmayınca ta bədəndən eşq dərdilə bu can,
Tərk qılmaz ruhumu sevdasının dərdi, inan!

Göz yaşım canda ciyər qaniylə tapmış pərvəriş,
Böylə bir ləli çıxarmaz, bir ki, hər mədən və kan.

Qəddinin sərvi təravət aldı cənnətdən, yəqin,
Bir belə sərvi yetirməz hər çəmən, hər bağban.

Əldə xəncər bağə gəlsən, gül xəcalətdən solar,
Susən isə ar edib, öz hüsnünü verməz nişan.

Bir təbəssümlə deyirdin canın allam, sevgilim,
Qəmdən öldüm, indi gəl al canımı, ey cansitan.

Suzi-dil şəhr etməyə bir ləhzə ağzım açmadım,
Heyrətəm, heç tüstü çıxmaz, leyk yandı xaniman.

Gər Füzuli eşqi-yarı tərk qılsa, haqqı var,
Neyləsin, düşmənləri bir dəm ona verməz aman.

❀ ❀ ❀

Qəmi-ləlin könüldə saxladım, sandım ki, candır bu,
Şikəstə könlümə guya həyati-cavidandır bu.

Gəl, ey leylivəşim, əfsaneyi-Məcnuna aldanma,
Hədisi-dərdimi dinlə, gözəl bir dastandır bu.

Pərilər gizlənir hüsnün görən dəmdə xəcalətdən,
Deyil mənasını şərh eyləmək lazım, əyandır bu.

Rəqibim payimal etdi bu qəmli cismimi, sanki
Qudurmuş bir köpəkdir o, quru bir üstüxandır bu.

Düzəldib şaxi-güldən qönçə peykanın həva, guya
Alıbdır qamətindən rəşk oxu, ondan nişandır bu.

Qərarım aldı rəftarın, məni ağlatdı göftarın,
Nə qəddi-dilsitandır o, nə ləli-dürfəşandır bu?

Füzuli, hər gecə ayə çatır fəryadü əfğanım,
O ay üz bir gecə sormaz nə fəryadü fəğandır bu?

❀ ❀ ❀

Səfərçün çıxdı evdən o gülüzlü məhliqa dilbər,
Gözümdən axdı aramsız üzə yüz qətreyi-əhmər.

Məgər xurşid eşqində qəbasın parçalar hər şəb
Ki, hər gün başqa bir dondan çıxardı baş, tülu eylər?

Bu axşam gün camalından xəcalət çəkdi, gizləndi,
Olar biabiru bir də çıxarsa pərdədən peykər.

Yanıb həsrət odunda hər gecə mən ahlər çəkdim,
Çıxa ta qanlı peykanı ciyərdən, vurmaya neştər.

Xəyali-nuki-müjganın düşərsə qəlbi-dəryayə,
O dəryadən çıxa bilməz yəqin nasüftə bir gövhər.

Nədən bilməm ki, kuyində ediblər qətl üşşaqı,
Bu sevdayə düşənlər də xəbərsiz getdilər yeksər.

Füzuli, dəhrdən daim yetər hər cür sənə möhnət,
Çıxıb getmək gərək, lazım deyil onda salaq ləngər.

❀ ❀ ❀

Nə etdim bilmirəm yarə ki, küsdü nazlı yar məndən,
Gözündən düşmüşəm yarın, kəsibdir etibar məndən.

Xəbərdar etdilər yoxsa onu xak olduğumdan ki,
Tutubdur qəlbinin ayinəsi bunca qübar məndən.

Batırmam xari-müjganı nigarın gül ayağına,
Nədən bəs oldu rəncidə yenə ol gülüzar məndən?

Çatılmış qaşları yarın, deyildir hiddəti bica,
Güman ki, baş verib bir bəd əməl biixtiyar məndən.

Su tək qəm-qüssədən daim axıb torpağa baş vurram
Ki, sərvim döndəribdir üz, qalıb böylə kənar məndən.

Ölüb getdim, nigarı şərhi-qəmlə etmədim rüsva,
Diri olsaydı gər Məcnun, olardı şərmsar məndən.

Füzuli, oldum ol məhparəsiz aləmdə sərgərdan,
Nə istər, bilmirəm axır, bu dövri-ruzigar məndən.



Yaxıbsan qəlbi, barı şölə tək gəl çəkmə sər məndən,
Nəzər qıl, şəm tək yannam, sən olma bixəbər məndən.

O eşqindən nişan bircə mənim bu suzi-qəlbimdir,
Elə yannam ki, qalmaz heç nişan səndən, əsər məndən.

Məni yandırdığın dəmdə, saqın, bu qəlbə əl vurma,
Alışmış atəşəm, qorx ki, olarsan şöləvər məndən.

Dedim bu çeşmi-giryanə o hüsnə baxmasın bir də,
Nə etdim bundan özgə, döndərir üz çeşmi-tər məndən?

Mənim xar olmağımdan artdı qəm qəlbimdə, qorxdum ki,
Görüb xar olmağı yarım, kəsə bir az nəzər məndən.

Dəhanın sirrini bildim, mən oldum yoxluğa agah,
Güman etməzdi heç kəs kim, gələr böylə hünər məndən.

Gəlibdirsə rəhi-eşqə, Füzuli, binəva Məcnun,
Deyildir məndən artıq o, deyildir mötəbər məndən.



Ey ürək, eşqdən sən ar eləmə,
Eşqi könlündən heç kənar eləmə.

Eşqi inkar fikrinə düşmə,
Özünü böylə işdə xar eləmə.

Nə qədər eşq var və aşiqsən,
Özgə bir şivə ixtiyar eləmə.

İstəsən gər cahanda rahətlik,
Özünü əhli-etibar eləmə.

Etmə dünyadə heç kəsi təqlid,
Xidməti-şahü şəhriyar eləmə.

İki dünya nicatın istərsən,
Dəlilikdən səva şüar eləmə.

Gəl, Füzuli nəsihətin dinlə:
Tərki-xubani-gülüzar eləmə.



Aşiqəm, sevməkdən özgə kar əlimdən gəlməyir,
Əhli-təqva eyləyən rəftar əlimdən gəlməyir.

Ey könül, əqlin yükün tapşırdım axır mən sənə,
Bu yükü çəkmək olub düşvar, əlimdən gəlməyir.

Söyləməm hərgiz cünun qeydində heç bir zövq yox,
Aqiləm, bihudə, boş göftar əlimdən gəlməyir.

Bütlərin uğrunda mən sərf eylərəm can nəqdini,
Etmişəm iqrar ona, inkar əlimdən gəlməyir.

Eşqdə hər bir tələb gər olsa məndən, hazıram,
Səbr işində qalmışam naçar, əlimdən gəlməyir.

Olmaram mane, könül gər tutsa məhrulər yolun,
Qəlbimi incitmərəm, azar əlimdən gəlməyir.

Ölmüşəm onsuz, Füzuli, zənn qılma səbrdir,
Yarə etmək naləmi izhar əlimdən gəlməyir.

❀ ❀ ❀

Ürək odunda yanıb, şəm tək iztirabım var,
Alovlu qəlbim ilə dideyi-pürabım var.

Şəbi-fəraq gözüm bağlaram ki, özgələrə
Nəzarə etməyim əsla, düşünmə xabım var.

Şəhid qıldı məni min cəfası xubların,
Nə qəm ki, sorğuya bu həşrdə cavabım var.

Fələk bu dövri-müxalifdə qorxudarmı məni,
Müşəvvəş olmuşam, hər zülmə, dərdə tabım var.

Mənə rəqib eləyib arxasında kölgəsini,
Günəşlə indi mənim başqa bir hesabım var.

Nə cür bu sirri açım dərdi bilməyənlərə mən
Ki, pis nəzərdən uzaq, gizli mahtabım var.

Füzuli, kimsəsiz oldum, bu qəm tükənməyəcək
Ki, bunca hər kəsi gördükdə ictinabım var.



Deyil hübab tutubdur bu dideyi-tərimi,
Həvası özgələrin tərk edir bu cür sərimi.

Yaxıbdır atəşi-qeyrət məni, bilinməz heç
Nə etmişəm, nə sözüm incidib o dilbərimi?

Ayağın öpməyə yol tapmıram onun, nə edim?
Məgər çəkib salalar kuyi-yarə peykərimi.

Kimin cəsarəti vardır mənə bərabər ola?
Önümdə çün görürəm tək o nazlı dilbərimi.

Qəmindən öldüm, inan, rəhm edib xilas eylə,
Bu qəmli könlümü, bu cismi-dərdpərvərimi.

Nə üzlə rahət olum, qalmışam uzaq səndən
Ki, hər tüküm tikana döndərib bu bəstərimi.

Rəqib, qoy məni yarım daha çox incitsin,
Demə ki, yar kəsər ruziyi-müqərrərimi.

Hərifi-bəzmi-qəməm, xuni-dil mənə bəsdir,
Meyi-vüsal məgər doldurarmı sağərimi?

❀ ❀ ❀

Ey aləm içrə ən uca məsnəd məkan sənə,
Yüksək məqamü mərtəbədir izzü şan sənə.

Bürhani-qate oldu sözün sərbəsər sənin,
Etmiş müsəxxər aləmi tiği-zəban sənə.

Açdın ümumi aləmə xani-kəraməti,
Mehman olub bu nemətə əhli-canan sənə.

Həyyə ələs-səlat ilə hər sübhü şamdə
Dəvət qılır cəmaəti hər bir əzan sənə.

Min dərd olursa, çarə ona bir sözün yetər,
Ecazdır məgər o ləbi-dürfəşan sənə?

İnsü mələk sücud eləsə, var ləyaqəti,
Ol asitan ki, itlər olur pasiban sənə.

İstər Füzuli göndərə pakizə qəlblə
Ruhi-rəvan səlamını hər bir zaman sənə.



Olmaz fələk bərabəri ol bargahının,
Ay göydə bircə zərrəsidir gərdi-rahının.

Din mülkünün nə qorxusu var inqilabdən,
Qaldıqca sayəsində o möhkəm pənahının.

Gövhər olar dənizdəki hər qətrə su, əgər
Bir qətrəsi o bəhrə düşə əbri-cahının.

Ənbər cahan gözəllərinin oldu ziynəti,
Çünki qulamı olmuş o zülfi-siyahının.

Sən seyr edəndə dövri-qəmərdir demiş zaman,
Çünki qəmərlə nisbəti var ruyi-mahının.

Vəsfi-nəbi yetər sənə ancaq nicat üçün,
Yoxdursa da hesabı, Füzuli, günahının.

❀ ❀ ❀

Başım möhnət balıncında çəkib azar uzaq səndən,
Olub qəm bəstərində cismü can bimar uzaq səndən.

Dedim səndən uzaqlaşsam, bir az yüngülləşər dərdim,
Güman etməzdim, ey gül, möhnətim artar uzaq səndən.

Bəlayi-hicr çoxdur, taqətü səbrim azalmışdır,
Nələr, bilməm, çəkər başım mən, ey yarım, uzaq səndən.

Deyirdin ki, fəraqimdə ölərsən şübhəsiz, əmma
Məhal işdir olam asudə mən, zinhar, uzaq səndən.

Fəğanü nalədən həmdəmlərim bizar olub məndən,
Hanı səbr et – deyən kəslər mənə təkrar, uzaq səndən.

Sən atəşsən, tikan tək durmuşam mən rəhgüzarında,
Yaxıb yandır keçərkən, qalmasın asar, uzaq səndən.

Füzulinin gözündə tirədir aləm o məhrusuz,
Fələk verməz ona rahətlik, ey dildar, uzaq səndən.



Qoymayır naseh tökəm yaş, həsrətəm rüxsarına,
Ağlar ikən gülməyim gəldi onun göftarına.

O deyil sərməst, mən mədhuş, heyran qalmışam,
Valeh ol öz karına, mən də onun kirdarına.

Bağlanıbsa gər dili-bimar ona, bica deyil,
Könlümün var nisbəti çün nərgisi-bimarına.

Nalə eylər ahü naləmdən bu aləm ruzü şəb,
Tək mənə aid deyil, aləm düşüb azarına.

Qanımı içməklə məst olmuş belə kəcrov fələk,
Məstliyin görmək dilərsən, bax onun rəftarına.

Dün gecə qanlı gözə bir ayna tutdum, gördüm, ah,
Qane döndərmiş ciyər, həsrət çəkər didarına.

Bundan artıq, ey sənəm, zülm etmə, Allah eşqinə,
Rəhm qıl sən gəl Füzulinin bu ahü zarına.

❀ ❀ ❀

Qəlb pünhan olsa da, yüz qanlı peykan onda var,
Açmamış bir qönçədir, gülbərgi-pünhan onda var.

Ləli-canbəxşin xəyaliylə yumulmuş gözlərim,
Eylə zülmatə dönüb kim, abi-heyvan onda var.

Oldu sevdayi-səri-zülfünlə canım tük kimi,
Gör düyünlənmiş neçə yüz dərdi-dövran onda var.

Bəhri-qəm girdabı çör-çöplə sərasər örtülüb,
Vadiyi-eşqin budur, üşşaqi-heyran onda var.

Kirpiyin keçdi bədəndən, mən necə rahət olum?
Eylə bir cism ilə ki, bir çırpınan can onda var.

Mən necə qəm çəkməyim dürci-dəhanından uzaq,
Eylə bir hoqqam itib, yüz dərdə dərman onda var.

Yox Füzulidə səadət, olmasa canan qəmi,
Yaxşı ki, getdikcə artan dərdi-canan onda var.



Daha xoşdur ki, halımdan xəbərsiz qalsa daim yar
Ki, qeyrətdən həlak ollam, danışsa yar ilə əğyar.

Mənim qorxum budur: yarım azaldar dərdimi bilsə,
Onunçün etmirəm bir an bu dərdi dilbərə izhar.

Sənin çün zövqi-dağın candan artıqdır mənə ondan,
Çıxarsa can, o, zövqünlə yanar daim bu cismi-zar.

Bir an da istəməz canım düşə ayrı bədəndən kim,
Tənimdə qanlı peykan tək sənin bir yadigarın var.

Tutub can yanğısı qəlbim oduyla eylə bir ülfət
Ki, bir yerdə olarlar pirahdən zahirü aşkar.

Fələkdə bir çıraq yandırmışam mən bərqi-ahimdən,
Onunla nur alır hər şəb sərasər sabitü səyyar.

Çəməndə qurmuşam hər gün çətir mən dudi-ahimdən,
Dalınca düşməsin kölgə çıxarkən seyrə ol dildar.

Vüsali-yarə çatmaqçün olur düşmən mənə mane,
Füzuli bircə bu qəmlə ölər aləmdə, bil, naçar.

❀ ❀ ❀

Əgər ölmüşsə Məcnun, qalmışam mən yadigar ondan,
Gedibsə Kuhkən, qalmış mənə indi bu kar ondan.

Könül razı deyil əğyar onun kuyində can versin,
Gözümdə qorxum ondandır ki, əyləşsin qübar ondan.

Sirişkim əks edib müjgan oxun, ey mərdümi-qafil,
Sənə qoy yetməsin vəhm ilə tiği-abdar ondan.

Ləbindən bircə an kam almadı canım, nə gündür bu,
Bu da bir ömrmü – daim mən oldum şərmsar ondan.

Fələk ahimdən olmuş pürşərər, bir kami-dil verməz
Ki, qorxur rövnəqi itsin bir an olsa kənar ondan.

Cahan cahindən ötrü tərki-dünya eyləyir zahid
Ki, dünya tərkin etməklə azalmır etibar ondan.

Uzaqlaşmış Füzuli indi kuyindən, daha bir də
İtin duymaz qopanda naleyi-biixtiyar ondan.



Sinə içrə qəlbimi divanə etdi eşqi-yar,
Bağlanıbdır payinə can riştəsi zəncirvar.

Baxmasa yarım mənə, – bu iltifatsızlıq deyil,
Yarın istiğnası da bir iltifatdır aşikar.

Neyləyim, peykanına yer vermişəm sinəmdə mən,
Ta ki, qopmuş qəlbimin olsun yerində bərqərar.

Bir baxışla tirə qıldı ruzigarım ol pəri,
Dilbərin şəhla gözündə var belə bir iqtidar.

Can çıxır, ağzın açıb bir sormadı əhvalımı,
Ləblərindən kamını bir vermədi ol gülüzar.

Uyqudan qaldırmaram baş, bil ki, mən ta həşrədək,
Gəlsə röyamə əgər ol qəddi rəna nazlı yar.

Ey Füzuli, mən necə sərgəştəvü zar olmayım,
Könlümü salmış kəməndə türreyi-ənbərnisar.



Yüksəlir göylərə, ey mah, fəğanım sənsiz,
Nəyə lazımdı keçir ömrü zəmanım sənsiz.

Dəyişir halımı hər anda qəmi-hicranın,
Gəl deyim, gör necədir bu güzəranım sənsiz.

Məndən ayrıldı hamı sən mənə etdikdə vida,
Yox günahım ki, qala cismdə canım sənsiz.

Ömrümün bəhrəsi bir şam kimi yanmaq oldu,
Təngə gəldim bu həyatdan, yox amanım sənsiz.

Düşməsin ta ki, şərər qəlbinə bir söhbətlə,
Bağladı şiddəti-qəm indi zəbanım sənsiz.

Bu ümid ilə ki, tapsın, gözəlim, səndən əsər,
Yüyürür hər tərəfə əşki-rəvanım sənsiz.

İndi rüsvalığımı təkcə Füzuli bilmir,
Yayılıb aləmə bu eşqi-nihanım sənsiz.

❀ ❀ ❀

Könül ələmlərini mən verim xəbər, sən eşit!
Xəbərsiz olma qəmimdən, bu pəndi məndən eşit!

Nə etibar rəqibə, ona qulaq asma,
Sözü bu qəlbini eşqində zar edəndən eşit!

Onun dolaqlarının vəsfini soruş məndən,
Könül, hekayəti-Şirini Kuhkəndən eşit!

Olarsa feyzi-Məsiha həvası başında,
Həyatbəxş hədisi o güldəhəndən eşit!

Çəməndə gəl nəzər et, xaki-payin olmaq üçün
Olan mübahisəni sünbülü səməndən eşit!

Bilirmisən sənin ol dərdinin bəhası nədir?
Qulaq verib sinəmə, bəhsi-canla təndən eşit!

Füzuli dərdi-dilindən düzəltdi bir qissə,
Bu köhnə qissəni, gəl tazə söyləyəndən eşit!



Ey məst, bil ki, bir mənəm eşqində xunciyər,
Mən bihuşam sənin lə, barı olma bixəbər.

Hər gün qəmində göz yaşıdır, nalədir işim,
Bir gör nə haldadır bu yanan canla çeşmi-tər.

Qorxum budur ki, bilməyəsən hali-aşiqi,
Ey nazla məst olan, mey içib olma cilvəgər.

Ey sərv, mən sağam sənə baxmaqla, getmə kim,
Ölləm sənin o gül üzünə etməsəm nəzər.

Canan, yetər, bu bidilə bəsdir bəlayi-eşq,
Get, get ki, sən də olma mənə tazə bir xətər.

Qalxmış bu rahi-eşqdə fitnə, Füzuli, dur!
Pabənd qılmasın səni çox da bu rəhgüzər.



İki bölündü sənin möcüzünlə çərxdə mah,
Sözün sübutu üçün olsun əldə iki güvah.

Qəmər yarıldı əgər barmağınla, var vəchi,
Atın o daireyi-mahdən salıbdır rah.

Kəlam göydən enib, sən səmayə yüksəldin,
Əyarü qiymətini qoy düşünsün hər gümrah.

Güli-şəhadətin olmazsa, bir səmər verməz,
Nihali-əşhədu ənla-ilahə-illəllah.

Kəmali-qədr yetər sən edəndə ərzi-kəmal
Ki, kəsri-mahi-təmaminlə artdı rütbəvü cah.

Kəfilisən, niyə qorxsun əzabdan ümmət,
Şəfiisən, niyə qorxsun bu xəlq, etsə günah.

Şəha, Füzuliyi-bidil qapında bir quldur,
Sənin o lütfünə dikmiş gözün o ruyi-siyah.

❀ ❀ ❀

Dün eşitdim gülşənə naz ilə etmişsən güzar,
Rəşki-ruyindən yetişmişdir gülə yüzlərcə xar.

Sən bahar əyyamı göstərdin camalın bağdə,
Bağ nəqşindən xəcalət çəkdi-nəqqaşi-bahar.

Əks edibdir gülüzarın şişeyi-ayinədə,
Ya ki, al lalə bitirmiş hər tərəfdə cuybar?

Əks edən sayə deyildir, bəlkə cami-rəşkdən,
Məst düşmüş cuybarə sərvlər, ey gülüzar!

Qönçələr dilxun olub ləli-ləbin rəşkilə kim,
Od tutub yanmaqdadır şəmi-rüxündən laləzar.

Qamətindən kölgələr düşdükcə yolda sağ-sola,
Sanki dolmuşdur mələklərlə sərasər rəhgüzar.

Ey gözüm, rahi-vəfa içrə Füzuli neyləmiş?
Kim, salıbsan gözdən, etmişsən onu bietibar

❀ ❀ ❀

Lalə tək qəlbim mənim, ey nazənin, yüz parədir,
Dağlayan hər parəni ol atəşin rüxsarədir.

Qəlbi qan etdim ola sevdayi-bütlərdən xilas,
Hər tərəfdən qəsd edən bu qəlbə bir xunxarədir.

Heç təbibə dərdi-sər lazım deyil dərman üçün
Kim, mərizi-eşq üçün ölmək özü bir çarədir.

Qafil olsa, xoşdur ol laqeydliklə halimə,
Məqsədim kami-dil ilə ruyinə nəzzarədir.

Eylə tünd etdi rəqibim yarımın xasiyyətin,
Qəlbimi yandırmağa sanki bir atəşparədir.

Halımın heyranlığı mat eylədi ulduzları,
Çün axan göz yaşlarım bir kövkəbi-səyyarədir.

Tək Füzuliyə deyil məskən səri-kuyin sənin,
Orda mənzil eyləyər hər kimsə ki, avarədir.

❀ ❀ ❀

Şanə, ey gül, o qara zülfünü zinhar eləmə,
Gəl ürək bəstərinin həmdəmini xar eləmə.

Əyilib tökmə yerə kirpiyimi, ey qəddim,
Yoluma tökmə tikan, gəl mənə azar eləmə.

Çəkmə hörmətsiz onun zülfünü, ey məşşatə,
İlanın ağzına barmağı giriftar eləmə.

Qəm çölün seyr eləmək şivəsidir Məcnunun,
Onu təqlid edərək sən belə rəftar eləmə.

İş pis olduqda, gülüm, qəlbə küdurət vermə,
Yüz fikir dağını sən sinəmə gəl bar eləmə.

Ey qəza, sən gözəlin ruyinə xal qoyduqda,
Bəbəyimdən götürüb vur da, məni zar eləmə.

Çatar iş başə, Füzuli, yenə tədric ilə,
Tərki-mey qılma, bu təqvanı canın var eləmə.



Gəlib keçdin, yolunda gör necə bu xaki-sər qalmış,
Deyil gözlər, sənin addımlarından bir əsər qalmış.

Ümidim vardı qəlbə kim, ciyər qanı qidasıydı,
Nədir halım bu dəmdə kim, nə qəlbim, nə ciyər qalmış.

Bizimlə heç danışmırsan, necə sakitsən, heyranəm,
Bu sənsən, ya nəzərdə bir xəyali-simbər qalmış!

Onun dəfində qaldıqda bütün tədbirlərim aciz,
Əcəl tutdu ətəkdən, dur ki, tədbiri-digər qalmış.

Fəraqında o yarın olmadım bir təkcə mən məhzun,
Bu cür beytül-həzəndə çoxlu Yəqub növhəgər qalmış.

Yolun azmış bəla sordu, necə tapsın mənə bir yol
Tutub qəm damənimdən söylədi: bu, dərbədər qalmış.

Onu bir dəfə görməklə, Füzuli, olmuram qane,
Nə çarə eyləyim, ömrümdən ancaq bu qədər qalmış.



Mənləsən, ah, mənə, heyf, deyilsən mail,
Olmusan dildə ikən dəri-dilimdən qafil.

Mənə cövr eyləməyə mail olubsan hər an,
Çox şadam, barı belə məqsədə ollam nail.

Çox məharətlisən aşiqləri öldürmək ilə,
Uşaq olsan da, deyilsən bu işində cahil.

Sənlə ümmid ağacım tapmadı heç nəşvü nüma,
Görünür, nur yaratmış səni, nə ab ilə gil.

Nazəninlər hamıya lütf eləyər, bəs nə üçün
Böylə bir dövlətə sən, söylə, deyilsən qabil?

Ey iqamət eyləyən böylə cahan mülkündə,
Bilməyirsən nə bəlalər törədir bu mənzil.

Ey Füzuli, mənə Məcnun deyə, töhmət vurma,
Nə deyim mən sənə, çün sən də deyilsən aqil.

❁ ❁ ❁

Bizi qəmzənlə, ey zalım, həlak etdin, yaman etdin,
Çəkib xəncər yazıq aşiqlərə, sən qəsdi-can etdin.

Cəfasından rəqibin olmaram rəncidə, ey canan,
Onu zülm etməyə məcbur özün, ey canalan, etdin.

Könüldə şövqi-dağı tazələndi, hüsn bağında
Yeni gül açdı, ol bağə məni sən bağiban etdin.

Yerə dəyməz ayağı könlümün bir an sevincindən,
Kəməndi-zülfünə saldın onu, sən şadiman etdin.

Mənə hicran dəmində yar olan, ey vəslin ümmidi,
Sənə canım fəda, qəlbim evini aşiyan etdin.

Könül, zahidlərə səndə inam yoxdur əzəl gündən,
Nə yaxşı oldu, öz ikrahını indi əyan etdin.

Füzuli, yoxsa bir zindan göründü könlünə Bağdad
Ki, işrətxaneyi-Təbriz şövqilə fəğan etdin?



Boy atıbsan sərv tək, bir afəti-can olmusan,
Parlayıb bir gün kimi, aşubi-dövran olmusan.

Qəmzənə öyrətmisən aşiqləri öldürməyi,
Ey gözəl, sən qatili-övladi-insan olmusan.

Yusif ilə sən iki dövran əzizi oldunuz,
Bir zamanlar o, sən isə indi sultan olmusan.

Hüsn bağinə bəzəkdir qönçəvü sərvü gülün,
Gülyanaq, qönçədəhan, sərvi-xuraman olmusan.

Gəl cəfa daşı məni-divanəyə vurma daha,
Bir uşaq sanma özün, növrəstə canan olmusan.

Ondakı qönçə dəhanın yoxluğu olmuş yəqin,
Ey könül, bica gümanla əhli-nisyan olmusan.

Ah oxun keçdi fələkdən, ey Füzuli, indi sən,
Qamətin xəm olsa da, bir mərdi-meydan olmusan.



Nə xəta çıxmış əlimdən, salmısan gözdən məni,
Mehrini əğyarə saldın, böylə bilməzdim səni.

Rəsmdir, canan, gözəllərdə vəfa möhkəm olar,
Sən neçin pozdun bu rəsmi, ey vəfanın düşməni?!

Gəl qurut sən, ey səba, göz yaşımı, kor istəmə,
Xaki-rahindən ziya almış bu çeşmi-rövşəni.

Ey səba, əhvalımı, aç, söylə kuyi-yarə sən,
Hər səhər kim, seyr edərkən ol səfalı gülşəni.

Vur cəfa şəmşirini, qan ilə ta xamuş ola
Öz əlinlə köksüm içrə yaxdığın od xirməni.

Cümlə aşiqlər yanında yüksələr ərşə başım,
Şövqi-tiğinlə əgər başsız qoyarsan bu təni.

Yüksələr qədrin, Füzuli, ol səbəbdəndir ki, sən
Kuyinə yarın baş əydin, saldın orda məskəni.

❀ ❀ ❀

Səndən özgə bizlərin yoxdur pənahı, ya nəbi!
Dərgəhindir bizlərin ümmidgahı, ya nəbi!

Ol zamandan kim, yolunda rahi-həqqi tapmışıq,
Azmarıq heç bir zaman bu doğru rahı, ya nəbi!

Cümlə məxluqatə lütfün şamil olmaqçün sənə
Vasitə qıldıq fəğanü suzi-ahı, ya nəbi!

Çünki sənsən ruzi-məhşərdə şəfaətçi bizə,
Bak qalmaz ümmətin olsa günahı, ya nəbi!

İstər olsun əmr, istər nəhy, hər hökmün sənin
Həqqdir, heç kimsənin yox iştibahı, ya nəbi!

Lütfünə ümmidvarıq, nə o naqis taətə,
Qılmayıb, ya qılmışıq biz gah-gahi, ya nəbi!

Feyzi-ədlinlə tapıbdır nəzm cümlə kainat,
Aləmin yox səndən özgə padşahı, ya nəbi!

Bəs ki, çoxdur cürmü, susmuşdur Füzuli, neyləsin?
Səndən özgə yox onun bir üzrxahı, ya nəbi!



Sən mənə yar olalı baisi-azarımsan,
Dözməyim mən necə azarına kim, yarımsan.

Baş qaçırmam vurasan gər o qədər səngi-cəfa,
Çün sitəmkar sənəm, yari-cəfakarımsan.

Zövq alır qəlbim odundan, bədənim dağından,
Rahəti-canü dilim, nəşəli dildarımsan.

Bixəbərdir dili-zarım öz-özündən sənsiz,
Sən barı tut xəbər ondan, belə qəmxarımsan.

Yuxusuzluq qəmini sən ki bilirsən, gecələr
Yuxusuz gözdə mənim məhrəmi-əsrarımsan.

Bilmədin ki, mərəzi-eşq nədir, ey naseh,
Bir ömürdür ki, təbibi-dini-bimarımsan.

Ey Füzuli, mənə çox eşqdə irad eləmə,
Deyiləm razı, bu yolda mənim əğyarımsan.

❀ ❀ ❀

Zəifəm eylə kim, hicrində bir xurşidrüxsarın
Ki, tab etməz vücudum kölgəsinə bircə divarın.

Elə incəlmişəm, incə görənlər şübhədə qalmış
Ki, paltarda vücudumdur və ya sapı o paltarın.

Yanar qəlbim, bilər məncə bu gizli dərdimi ol kəs
Ki, mən tək sinəsində dağı var bir lalərüxsarın.

Hanı məndə o tale kim, nəsibim vəsli-yar olsun,
Səadətdir, uzaqdan da müyəssər olsa didarın.

Cahanda şöhrətim vardır fəğan etməkdə, dərd əhli
Mənə nisbət verər fəryadını hər aşiqi-zarın.

Cəfanı görməmişdir məndən özgə kimsə, mən şadəm
Ki, yoxdur aləm içrə məndən özgə bir giriftarın.

Füzuli, sorma kimdir, gəl ona bax kim, vəfasından,
Qalıb sevda pərişanı, olub rüsvayi-bazarın.



Ol qəbadən, pirəhəndən yaxşıdır qəbrü kəfən
Kim, onu yarın yolunda etməyirsən parə sən.

Tab edə bilməz cəfa tiğinə şirin ləblərin,
Xəlq edə dövran məgər daşdan, dəmirdən Kuhkən.

Bicəhət saysız yara örtmüş bu üryan cismimi,
Mən şəhidəm, çü şəhid öldükdə etməzlər kəfən.

Gəl məni öldür cəfa ilə, cahandan kamın al,
Sən kimi zalım məni-məzluma rəhm etsin nədən?

Açma qıvrım zülfünü, vermə yelə, Allaha bax,
Bu pərişan könlümə qıyma ola tərki-vətən.

Qönçə heç vaxt olmamış qönçə dəhanın tək lətif,
Qönçə də təsdiq edir bu fikri, ey qönçədəhən.

İstəməz çıxsın Füzuli qəlbdən zülfün qəmi,
Eylə bir tər sünbülə layiq görülmüş bu çəmən.

❀ ❀ ❀

Ey cahandidə gözüm, bunca ki, çox yaşın var,
Az görübsən eyi gün, vəh nə yaman başın var?

Var rüxsarimə xunabə çəkən müjganım,
Qıl qələm kimi ki, nəqş etməyə nəqqaşın var.

Şövqi-nəlim oda salır necə kim, qarşımda,
Atəşin tələt ilən zülfü gözün, qaşın var.

Ləl kani kimi, gər köksümü çak eyləyələr,
Onda xunabə ilən rəngli çox daşın var.

Rəhi-eşq içrə, Füzuli, demə tənha yürürəm,
Key xəbərsiz, qəmü möhnət kimi yoldaşın var.



Bu diyar içrə mənə nə yar, nə qəmxar var,
Heç nəyəm, bir kəs mənə qılmaz cahanda etibar.

Səbr ilə Yəqub çatmışdırsa Yusif vəslinə,
Qəm yeməz aqil olanlar təlx keçsə ruzigar.

Müddəti-hicran əgər ömrə bərabər olsa da,
Vəsli-yarə müttəsil olmaq gərək ümmidvar.

İntizarın gülşənin hər kim sularsa səbr ilə,
Qönçeyi-bəxti açar gül, ömrü eylər laləzar.

Hər şüasında məhəbbət mehridən var yüz kəmənd,
Düşməz ol mehrə yaxın hər kəsdə olsa ixtiyar.

Etinasızsan, neçin rəhm eyləməzsən bircə yol
Ol kəsə kim, min kərə eylər yolunda can nisar.

Dinlənilməz zövq ahəngi, Füzuli, kimsədən,
Qalmamışdır yoxsa bu aləmdə rindi-badəxar?

❀ ❀ ❀

Gözümdə nur, bu cismimdə bir əziz cansan,
Nə faidə ki, gözümdən həmişə pünhansan.

Rəqiblərim bu qədər çoxsa, var bunun səbəbi,
Gözəllik ölkəsinə sən yeganə sultansan.

Fəğanı ərşə çıxan bir elə rübabəm ki,
Cahanı güldürərəm bircə sən məni ansan.

Fələk qədər mənə cövr etdin, ey ayüzlü sənəm,
Fələkmisən bu təbiətlə, ya ki, insansan?

Dua qılanda mənə canıma bəla yetdi,
Dualarından özün yoxsa sən peşimansan?

Könül səni aradı, can ayağına düşdü,
Biri məkanın olub, digərinə mehmansan.

Füzuli dərdinə heç yerdə tapmadı dərman,
Ümidi tək sənədir, çarə eylə, loğmansan.



Mənə, ey sayə, qəm dəştində daim həmdəm oldun sən,
Nə ah çəkdin bu müddətdə, nə çeşmi-pürnəm oldun sən.

Gecə sübhə qədər, ey şəm, məni pərvanə tək yaxdın,
Məgər qorxmursan ahımdan ki, bunca xürrəm oldun sən?

Saman qadirmi qaldırsın zəif çiyninə bir dağı,
Dağı dağ üstə qoydun, cismimə bari-qəm oldun sən.

Atın hər ay salar bir nal fələkdə, yoxsa, ey canan,
Günəş dərgahına çatdı, o yerdə məhrəm oldun sən.

Hamı məstü xərab olmuş, tapılmaz bir nəfər hüşyar,
Odur ki, ey səfa mülkü, pozuldun, bərhəm oldun sən.

Yetər, bədbəxtlərə bunca məlamət daşını vurdun,
Saqın, əl çək sitəmdən, söyləsinlər adəm oldun sən.

Füzuli, sən hara, canan hara? Vəslinə göz dikmə,
O sultanın yanına bir gədadən də kəm oldun sən.

❀ ❀ ❀

Dedin ki, əhli-vəfayə cəfa sən etməyəsən,
Yaman olar, bu xoş əhdə vəfa sən etməyəsən.

Mənəm nişan oxuna, ey qaşı kaman zalim,
Rəqibə salma nəzər ki, xəta sən etməyəsən.

Gözəllik aləminin şahisən, rəva olmaz
Ki, mən gəda nə dilərsəm, rəva sən etməyəsən.

Bu şərt ilə gözünə çəkdilər ki, sürmeyi-naz,
Bizə tərəf nəzər, ey məhliqa, sən etməyəsən?

Mənim dilim qurumuş, səndə rəhmdən yox əsər,
Necə deyim mənə cövr etmə, ta sən etməyəsən?

Könül, kərəm diləmə nazü qəmzəsindən kim,
Özün nişaneyi-tiri-bəla sən etməyəsən.

Füzuli, eşq yolunda böyük xətərlər var,
Deyilsən aşiq, əgər can fəda sən etməyəsən.



Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!
Mən kiməm, – aləmdə bir kəmtər qulamın, ya Əli!

Şükr ola Allahə kim, sayə salıbdır başıma,
Dövləti-iqbal ilə lütfi-müdamın, ya Əli!

Müshəfi-həqdə olan hər hikmətin mənasıdır
Hikmətin kanı olan hər bir kəlamın, ya Əli!

Kim nicat istər qiyamətdə, gərəkdir saxlaya
Taəti-həq tək həmişə ehtiramın, ya Əli!

Cümlə insanlar, mələklər Kəbə, tək məbəd sanar
Hər yeri kim, orda olmuşdur məqamın, ya Əli!

Hər kəs istərsə cahanda çərxdən alsın murad,
Kamə çatmaz, olmasa lütfi-tamamın, ya Əli!

Lütf süfrəndən sənin hər ləhzədə min feyz alır
Bu Füzuli, vird edər həmdü səlamın, ya Əli!

❀ ❀ ❀

Vurursan, ey gözəlim, qəmzə oxları bu qədər,
Dolar bir anda bu aləm cəsədlə sərtasər.

Vəfalılardan əsirgərsən öz cəfa daşını,
Bu, daşürəkliyinə bir dəlil deyilmi məgər?

Düyün vuranda telə qəsdi-canım eylərsən
Və ya tora quş üçün dən səpirsən, ey dilbər?

Könül, iniltilərin ağlamaq sədası deyil,
Gülərsən halına bir şad qəlb görsən əgər.

Başında varsa əgər zövqi-vəsli cananın,
Gərək bu yolda daşa çırpasan dolu sağər.

Fəraq axşamının şəmiyəm, saqın, ey dust,
Nəfəs çəkib mənə "yanma" desən həyat bitər.

Füzuli, eyləmisən fəqri intixab, aləm
Sənin bu dövlətinə eyləyər həsədlə nəzər.



Ya Rəb, o bidərdin özün sal qəlbinə sevda qəmi,
Olsun bizim aləm kimi qəmli onun da aləmi.

Aydın deyil xurşidimə dərdim əgər, bir vəchi var,
Kölgəm olub qəm şərhinə qəlbin yeganə həmdəmi.

Göstər üzün misli-günəş, ta qoymasın heç bir əsər
Torpaq bu cismimdə əgər abi-həyatın var nəmi.

Saqi, dayanma, mey gətir, naseh vurub sözlə yara,
Mütləq bu yarə öldürər, çatdırmasan mey məlhəmi.

Vermirsə düz insanlara alçaq evində yer fələk,
Ondan büküldü qəddimiz kim, tərk qıldıq bu qəmi.

Toplandı çün ətrafıma dağ tək məlamət daşları,
Rüsvalığım ondan tapıb böylə binayi-möhkəmi.

Bir qətrə qanla göz yaşı, bir oldu ahından səvay,
Yoxdur Füzulinin qəmi-eşqində başqa məhrəmi.

❀ ❀ ❀

Keç özündən, ey könül, sən meyli-yar etsən əgər,
Başqa iş tutma ki, hər iş eşqi-yar ilə keçər.

Çox bulanıqsan gözümdə, ey həyatın saf suyu,
Yoxsa mən külbaşı gördün, könlünə çökdü kədər?

Hər baxışda qəlbimə bir ox vurarsan cövr ilə,
Bir qızıl gülsən, tikanlar çevrənə çəkmiş çəpər.

Ey səlamətlik sevən, yum gözlərin bu aləmə,
Çünki bu yolda görən hər bir gözə afət yetər.

Saqiya, bəsdir gətirdin üzr, dur sağər gətir,
Qoyma qalsın müntəzir bundan ziyadə təşnələr.

Bəzmi-aləmdən gedərsən ixtiyarın olmadan,
Qoyma əldən sağəri, var ixtiyarın hər qədər.

Ey Füzuli, nəngü nam ilə cahanda yox işin,
Ol səbəbdən ali insanlarla oldun həmsəfər.

❀ ❀ ❀

Pərilər içrə qəsdi-can edən, evlər yıxan sənsən,
Edən aşiqlərin qəlbin dəmadəm ləxtə qan sənsən.

Rəvadır sənsiz aləmlər gözümdə zülmətə dönsə,
Cahanın rövnəqi, bəzmi-həyata nurfəşan sənsən.

Camalın şövqi qoymuş Leyiyü Şirini heyrətdə,
Gözəllər cümlə naqisdir, fəqət kamil olan sənsən.

Sənինlə xoş keçər, ey eşq dərdi, ömrüm aləmdə,
Necə sənsiz qalım? Mən bikəsə arami-can sənsən.

Səba, imdadıma çat, dami-zülfi içər bənd oldum,
Xilas eylə məni bu bənddən, müşkül açan sənsən.

Könül, rəncidə olma, hər qədər görsən cəfa ondan,
Nümayiş etsə hər kəs hüsnünü, qiymət qoyan sənsən.

Cünun ilə, Füzuli, möhnəti-dünyanı dəf etdin,
Ağıllı bir nəfər dünyada vardırsa, inan, sənsən.

❀ ❀ ❀

Yad edincə bəzmini bir şam kimi canım yanar,
Hər kəsin bəxt ulduzu bir yerdə mütləq parlayar.

Olmadım Məcnun qədər rüsva, bunun var illəti,
Mən olan dövranda Leyli doğmamışdır ruzigar.

Sən məni rənalığınla məsti-şeyda eylədin,
Hansı rənanın cahanda mən kimi şeydası var?

Söylərəm Məcnun ona kim, söyləyir Leyla sənə,
Çünki məhcub dilbəri rüsvayə Məcnun oxşadar.

Xoş yerişlə istəyir təqlid qılsın gün sənə,
Səndəki boy onda yox, sərv qamət, gülüzar.

Könlümün tək arzusu sənsən, budur arzum mənim,
Səndən özgə olmasın könlümdə arzum, ey nigar!

Ey Füzuli, adət etmişsən bu məhsimalərə,
Hər zaman bir mahsimanı sənincün kim tapar?

❁ ❁ ❁

Mənə rəhm eyləyib gəldin, rəva gördün sitəm, getdin,
Gəlib bihuş qıldın, huşə gəldim, ey sənəm, getdin.

Təbib olsan da dərd əhlinə, dərdin yoxdur aləmdə,
Odur qoydun mənim qəlbimdə min dərdü ələm, getdin.

Məgər mən şəm idim, sən od ki, canlandım vüsalınla,
Təəssüf ki, məni başdan-başa yaxdın, o dəm getdin.

Xilas etdin bizi rüsvay edən sərgəştəlikdən sən,
Əsiri-eşqin olduq, boynumuzda qeydi-qəm, getdin.

Yanında yarımın yox qiymətin, ey qanlı göz yaşım,
Gözündən düşdün, əzbəs guyinə sən dəmbədəm getdin.

Pərişan ruzigar etdin məni axırda, ey könlüm,
O qıvrım zülfə sarı, səhv qıldın, bir qədəm getdin.

Behişt hurilərinə, ey Füzuli, töhfə bir güldün,
Əcəb oldu, sənə dağ çəkdi ol ziba sənəm, getdin.

❀ ❀ ❀

Cismimi bica deyil yandırdı şövqü bir gülün,
Yaxdı hər zərrə gülümdən cismini bir bülbülün.

Ey səba, vallah, pərişan qəlbim etmişdir mənim,
Gəz onu, hər yerdə açsan qıvrımın bir kakilin.

Zülfünü yad eyləyib, əzbəs ki, sürtdüm didəmə,
Qanla islatdım çəməndə zülfünü hər sünbülün.

Qaş deyil məndə, onun xeyli-xəyalı keçməyə
Göz yaşımdan, iki gözlü körpüdür saldım, bilin.

Ey Füzuli, olmadın eşqin qəmində naləsiz,
Gülşəni-şövq içrə bülbülsən, varındır qülülün.



Kuyi-yarə meyl edib, ey göz yaşım, axdınsa gər,
Çatmadın hərgiz muradə, vermədin heç bir səmər.

Ey gözüm, çox meyl qıldın yar ruyin görməyə,
Görmədin bir fayda qəmdən başqa, çəkdin dərdisər.

Ey könül, rüsvayi-eşq oldun, dedim: gəl eşqi at,
Vermədin hərgiz qulaq, axır eşitdin tənələr.

Ceyranım, olmaz rəqiblər qəsdsiz mail sənə,
Sən ki, ahusan, neçin peykandan etməzsən həzər?

Bilmirəm vəchi nədir kim, bunca dostluq riştəsin,
Etinasızlıq qılıncıyla kəsib, vurdun zərər?

Ey gözəl, vardır mənim tək min bəlakeş aşiqin,
Min şükür, aşiqlərindən tək mənə cövrün yetər.

Ey Füzuli, eşqdə sabitqədəmsən, heç zaman
Dönmədin yoldan, səni bunca məlamət etdilər.

❀ ❀ ❀

Nə deyib, neyləmişik, nə eşidib gördün, yar,
Ki, kəsib mehrini, etdin bizi sən qəhrə düçar?

Mənim həqqimdə, dedim, baxma rəqibin sözünə,
Sən inandın nə üçün, hər nə danışdı əğyar?

Ahü fəryad qılıb, canımı verdim sənsiz,
Sormadın halımı, illərlə mən oldum bimar.

Məni zülfün qəmi əhvalı pərişan etdi,
Tutmadım zülfi-pərişanını, ey nazlı nigar!

Yaraşarmı gözələ xoşlana çirkin işdən?
Gözəlim, vermə riza, zülmün edə aşiqi xar!

Nazını çəkmədilər yoxsa sənin aşiqlər,
Onları naz ilə tərk eylədin, ey çeşmi xumar?

O cəfakar sənə lütf qılıb, etdi vəfa,
Ey Füzuli, sənə öz lütfünü həq etdi nisar.

❀ ❀ ❀

Əgər sən həmnişin olsan gözəllərlə, könül, bir dəm
Unutma kim, gələr hicran dəmi, eyşin olar bərhəm.

Məni, ey göz yaşım, rüsvay qıldın xəlq arasında,
Quru, artıq ki, dost-düşmən gözümdə görməsinlər nəm.

Fələk, qəsdin budur, ayrı düşəm ayüzlü canandan
İnadından götür əl, qoyma olsun eyşimiz matəm.

Sizi, ey mərdümi-çeşmim, ürək qanımda gizlətdim
Ki, qan olsun sizə hayil, mənə şəbxun vurarkən qəm.

Uzaqlaş qəmli könlümdən, çəkirsə qəm odu şölə,
Budur qorxum ki, bu odda yana canımla canan həm.

Yerin qəlbimdədir, canan, bu canı oxla gəl doldur,
Dəmirdən bir hasar olsun, səni hifz eyləsin möhkəm.

Füzuli, çarəsiz dərdə düşüb rüsvay olmuşsan,
Qəza təqdiridir, yox səbrdən başqa ona məlhəm.

❀ ❀ ❀

Yoxdur ay üzlüm kimi mavi səmadə bir qəmər,
Yoxdur alnında qara məhparə, ay varsa əgər.

Naümidlik zülmətinə saçmadı nur ahimiz,
Öldük, ancaq vəslinə yol tapmadıq, ey simbər!

Qəlbimi, imanımı aldın, əvəz ver vəslini,
Mən gədayə, padşahım, gəl rəva görmə zərər.

Ey rəqibi lütflə şamü səhər xoşhal edən,
Lütf qıl, hərdəm bizə də şəfqət ilə sal nəzər.

Göz qıyıb aldın nişan, qəsd etdin oxla vurmağa,
Biz fəqiri kim, sənin bəndindəyik şamü səhər.

Ey sənəm, cövr etmə bunca, tiri-ahımdan saqın!
Olmaram razı, yetə bir dilbərə məndən xətər.

Şövq ilə öldü Füzuli, yetmədi məqsudinə,
Eşq bir dəryadır, ondan sahilə yoxdur güzər.



Könüldə gizli olan dərd odum alışmış əgər,
Nə xoş ki, eşq nihalım gül açdı, verdi səmər.

Verib sənə, gözəlim, istərəm xilası olam,
O qəlbi kim, mənə hər gün verər əzabü kədər.

Salınca sayə pərişan o saçların başıma,
Məhəbbətin quşu pərvaz üçün açar şəhpər.

Yaxıldım eşq oduna, görmədim vəfa ondan,
Gül açsa da o ağac, vermədi nə bar, nə bəhər.

Başı bəlalıların ah oxu keçər daşdan,
Sən, ey gözəl, niyə ahimdən etməzsən həzər?

Sevinclə parçaladım sinəmi, dedim: gəl vur,
Qəminlə parə olan dərdli qəlbimə xəncər.

Məni sənin baxışın şövqü etdi xanəxərab,
Xərab halıma sal barı şəfqət ilə nəzər.

Füzuli dərmədi bir gül də eşq bağından,
Fəğanı etmədi daş qəlbli nigarə əsər.

❀ ❀ ❀

Mənəm şeydası ol mahın, o məndən bir xəbər tutmaz,
Saqınmaz tiri-ahimdən ki, qarşımda süpər tutmaz.

Səni kim, etinasızlıq şərabı məst qılmışdır,
O daş qəlbin fəqirin halını duymaz, kədər tutmaz.

Cəfa etməkdə üşşaqə tayın yoxdur bu aləmdə,
Budur vəchi, gözəllikdə yerin bir simbər tutmaz.

Könül yatmaz, nədir çarə, cahanda başqa dildarə,
Yerini mahi-rüxsarın günəş verməz, qəmər tutmaz.

Düşüb zəncirinə eşqin elə halı pərişanəm
Ki, divanə sanıb, ülfət mənimlə bir nəfər tutmaz.

Həqiqət nurudur hüsnü, saçar cilvə, göz aç, aşiq,
Tamaşa qıl ki, ondan üz kənarə bir bəşər tutmaz.

Füzuli, çoxları yanmış sənəmlər eşqinə, amma
Sənin tək heç kəsin cismi öz ahindən şərər tutmaz.

Ey sayə, mən tək gəzmədin səhraları avarə sən,
Yox taqətin tənhalığa, möhtacsan bir yarə sən.

Rüsvay oldum, ey sənəm, qaldır üzündən pərdəni,
Məndən ayır xəlqin gözün, cəzb et o gülrüxsarə sən.

Mən görmədən rüxsarını dərdə deyildim mübtəla,
Hüsnünlə saldın, ey pəri, qəlbi yeni azarə sən.

Eşqin yolunda keçmişəm başdan, ayaqdan düşmüşəm,
Rəhm et, məni-biçarənin dərdinə qıl bir çarə sən.

Var vəchi sərgərdən olub, bir yerdə durmazsa könül,
Ey gül, onu bülbül kimi təslim edibsən xarə sən.

Yoxdur sənin qəddin kimi bir sərv, sərvistan ara,
Rüxsarın ilə vermisən zinət gülə, gülzarə sən.

Bəsdir, Füzuli, uyduğun əhli-riyanın felinə,
Bir aşiqi-şeyda olub, ver könlünü dildarə sən.

❀ ❀ ❀

Zülmət gecədə bizlərə rəhm eyləmədin, yar,
Məhşər gününə etməmisən sən məgər iqrar?

Yox başqa peşən, cövrü cəfadır işin ancaq,
Zülmün mənədir, özgələrə mərhəmətin var.

Eşqin daha zəncirini tərpətmə, könül, sən,
Bitab qılıbdır səni ol türreyn-tərrar.

Görmək yolunu qan ilə gəl bağla, könül, kim,
Yar gəlsə, yoxundur, bilirəm, taqəti-didar.

Öldük də, bir əhvalımızı sormadın əsla,
Yoxsa, gözəlim, ləblərini naz qıfıllar.

Ey yar vüsalini təmənna edən aşiq,
Sən tənəyi-əğyarə deyilsənmi xəbərdar?

Cananın ayaq tozları yoxdurmu gözündə
Kim, böylə, Füzuli, yaşarıb gözlərin, ağlar.



Hər gecə-gündüz könüldə, aylar, illər dildəsən,
Sən mənim qəlbimdəsən, olsan əgər qafil də sən.

Könlümün halı xərab isə, bunu kimdən sorum,
Sevgilim, sən ki, əzəldən bu yıxıq mənzildəsən.

Yox vəfa ümmidi səndən, bu bəlalı könlümün
Sərvisən, bar verməyibsən bir kərə yüz ildə sən.

Hər zaman meylim sənə artar, nə çarə eyləyim?
Vəslinə yetməz əlim, sanki bir özgə əldəsən.

Ey bəladan bixəbər, etmə məlamət bizlərə,
Biz dənizdə qərq olarkən, sən quru sahildəsən.

Ey Füzuli, vermə dil dilbərlərə, mümkün deyil
Kama çatmaq, olasan gər aşiqi-kamil də sən.

❀ ❀ ❀

Göz yaşım ətrafıma dərya kimi çəkmiş hasar,
Nə yerim var qalmağa, nə qaçmağa bir çarə var.

Mehr salmazlar gözəllər binəva aşiqlərə,
Eşq bağında gül açmaz, il boyu olsa bahar.

Etməyir kimsə şikayət eşqdən bu şəhrdə,
Bu diyar içrə məgər yoxdur gülüzlü bir nigar?

Həmdəmi vəhşilər olmuş çöldə mən divanənin,
Şəhr qazisinə əvvəldən yoxumdur etibar.

Təkcə başım düşməmişdir zülfünün sevdasına,
Mən kimi düşmüş bu sevdayə hamı biixtiyar.

Böylə kim, sən öldürürsən binəva aşiqləri,
Asitanın torpağı olmuş yəqin bir laləzar.

Ey Füzuli, hər zaman könlündə var bir arizu,
Könlünü dildarə vermişsən, olubsan biqərar.



Yusif hüsnündən utandı, mənzili çah oldu, çah,
Hüsndə yoxdur tayın aləmdə, ey rüxsarı mah!

Mailəm səndən mənə bir meyl ola, lakin görən,
Mən gədayə meyl edərmi sən kimi bir padşah?

Düşdüm ol ləhzə gözündən hər zaman kim, söylədim:
Guşeyi-çeşminlə də olsa, mənə bax gah-gah!

Bir baxışla qəmli könlüm böylə səndən şad ikən,
İncimə məndən, sənə etsəm əgər bir dəm nigah.

Gər əlinlə qəlbimin qanı tökülsə, qəm deyil,
Mən sənə verdim o qəlbi, görmürəm səndə günah.

Üz çevirmək xaki-kuyindən bizə mümkün deyil,
Yox mənə bu asitandan başqa bir yerdə pənah.

Ey Füzuli, istəyirsən pak ola qəlbin, gözün,
Sel kimi göz yaşı tök kuyində yarın hər sabah!

❀ ❀ ❀

Bəsindir, ey fələk, etdin zəbunü xar məni,
Büküb də qəddimi qıldın qəmə düçar məni.

Gözümdə cilvənüma etmə gəl hər ədnanı,
Həsəd qəmilə daha etmə əşkbar məni.

Bu qəm kəməndini boynumdan aç, yetər bu qədər,
Cünun kəməndinə çox eyləmə düçar məni.

Ümidsizəm, yanıram, gəl bu atəşə su çilə,
Kül olmadan ürəyim, qıl ümidvar məni.

Yetib o dəm ki, mənim bəxt qönçəm açsın gül,
Bu qanlı bağrım ilə qoyma intizar məni.

Yetib o gün ki, verib bəxt rütbəmə qiymət,
Bu qədər etməyəsən zarü dilfikar məni.

Füzuli, dərdin ağırdır, yüz afərin sənə kim,
Dözürsən, etmədən aləmdə şərmsar məni.



Bir baxışla qıymadın xoşhal ola bu binəva,
Vurmadın, ta rahət olsun, cisminə tiri-bəla.

Qəlbi-üşşaqə təbib olsan da, yoxdur faidə,
Biz ki, öldük dərd əlindən, etmədin heç bir dəva.

Sən gözəllik mülkünün sultanısan, əfsus kim,
Yanmadın ömründə hərgiz bir fəqirin halına.

Sən vəfalı olmağı yüz dəfə əhd etdin, vəli
Nə bizi saldın yada, nə əhdinə qıldın vəfa.

Çeşmi-fəttanın əlindən dinü iman qalmadı,
Sən özün öldürdüyün qurbanlara tutdun əza.

Qəlbimə qəmzə ilə vurdun xəta peykanını,
Etmisən eyni xəta, hərçənd etməzsən xəta.

Sən Füzulidə vəfadən qeyri, şahım, görməsən,
Qalmamış razı, ona çoxdandır etməzsən cəfa.



Lələndə həyat suyu rəvandır,
Eşqinlə həyat cavidandır.

“Rəhm et!” – deməyə mənə nə hacət,
Çün hali-dilim sənə əyandır.

Dil açmayaraq bəyan qıldım,
Yüz dəfə ki, halətim yamandır.

Halım sənə zahir oldu, bildim,
Qəlbin mənə xeyli mehribandır.

Amma sənə gəncliyin qüruru,
“Rəhm etmə ona, – dedi, – amandır”.

Bir faydası yox, sənə desəm də,
Bu xəstə vücud natəvandır.

Ölsəm də, Füzuli, yar yanında,
Ol qəmləri açma kim, nihandır!



Ey könül, vəsf eylədin dilbərləri bunca, yetər!
Gah günəş adlandı şerində gözəl, gahi qəmər.

Dəm vurursan qan tökən, canlar alan bir qəmzədən,
Ləblərinə gah deyirsən ləldir, gahi şəkər.

Gəh qanlı qəlbinə bir dağ çəkirsən şövqdən,
Gəh deyirsən: zülfünün sevdasına başım düşər.

Gəh cəfasından şikayət eyləyərsən bütlərin.
Onları hər yerdə rüsvay eyləyərsən, müxtəsər.

İndi təqva damənindən gəl daha möhkəm yapış,
Ömrünü kari-pərişan ilə gəl qılma hədər.

Toxgöz ol, həm könlü tox ol, meyl qılma aləmə,
Bir pəri ardınca da düşsə, sən ondan qıl həzər.

Ey Füzuli, rindlər rəsmində ifrat eylədin,
Bir təzə yol axtar artıq, rindlikdə var xətər.

XATİMƏ

Saqiya, mey büsatını bağla,
Vermə sərxoşlara şərab daha!

Ruh ilə qəlbə mey fərəh gətirər,
Zərəri vardır həddi aşsa əgər.

Qəm deyil, zövq versin istəsən iş,
O işə etidalı gözlə, giriş.

Ey könül, söz xəzinəsin açsan,
Dinləyən şəxsi, gözlə, yormayasan.

Bəs edər verdiyin bu inci-göhər,
İnci də çox olanda qədri itər.

Söz demək şövqü var əgər səndə,
Nə qədər inci var xəzinəndə.

İndi də başqa bir xəzinəni aç,
Daha qiymətli inci, gövhər saç!

Göstərə ta ki, sənətin aşkar:
Hər yeni şeydə başqa ləzzət var.

Çox şükür, bitdi bu cərideyi-qəm,
Halı sərgəştə, dərbədər bu qələm.

Məni qurtardı tünd seyri ilə,
Başa çatsın hər işi xeyr ilə.


Qitələr

* * *

Bir dürri-sədəfdir bu cənabi-mütəvəlli,
Parlaq hünərilə Ətəbat oldu münəvvər.

Etmiş Ətəbat əhlinin illərcə dəmağın,
Öz rayiheyi-lütfü səxasilə müəttər.

O, bir elə pakizə sifətdir ki, həmişə
Çəkmişdir ürəkdən qəmi-evladi-Peyəmbər.

Bir zati təmiz kim, iki aləmdə muradın
Övladi-rəsul xidməti etmişdi müyəssər.

Hər zinətü arayişi bir şanlı məzarın,
Oldu şərəfü şəninə bir rütbeyi-digər.

Ey bad, hüzurunda belə zati-nəcibin,
Bir an şərəfi-söhbətə fürsət tapasan gər.

Bizdən yetirib halımızı bəndəlik ərz et
– Ey hər kəsə hər fənndə, hər ölkədə sərvər.

Hərçənd bərabər sənə yox fəzlü hünərdə,
Söz ustaların, qəflət edib, etmə mükəddər.

Çün kuyi-bəla torpağının sakiniyik biz,
Hər alçağa sən bizləri gəl tutma bərabər.

Dünyada pisin, yaxşının ayinəsiyik biz,
Agah deyilsənsə, göz aç, qəlbinə göstər.

Əymiş qədini çərxi-fələk xidmətimizdə,
Dünyanı bizim şöhrətimiz tutdu sərasər.

Ruzi yeyənik ali-rəsulun qapısında
Bir ömrdür olmuş bizə bu ruzi müqərrər.

Bu ruzi yolu bizlərə bağlanmamış əsla,
Layiq bizik aləmdə belə ruziyə yeksər.

Dünyada qənaətlə bizik kim, bəyənildik,
Ağgün qocalar, həm ürəyi varlı fəqirlər.

* * *

Afərin nemət verən ustada kim, şükr etməyə
Bizlərə söz lütfünün feyzin müyəssər eyləmiş.

Nəzmü nəsrin həddən aşmış bütün əmlakını
Bizlərin tiği-zəbanilə müsəxxər eyləmiş.

Sözlərin təkrarı ilə bizlərə yetməz məlal,
Hər birin bir başqa nemətlə mükərrər eyləmiş.

* * *

Bilirdi gərçi bütün dillərin nə olduğunu,
Səfayi-təblə, həm elmü qüdrətilə nəbi.

Şərafətə nəzər eylə ki, göndərib Tanrı
Ərəb dilində kəlamı ki, nəslidir ərəbi.

Müasir olmuş o elm ilə cəhli Bucəhlin,
Ziyası ilə müqabil şərari-Buləhəbi.

Kəmali-möcüzünə elmü hikməti bəsdir
Ki, elmi növi-bəşərdən deyildi müktəsəbi.

Ədəbdən ötrü zühur eyləmiş vücudu onun,
O qövsdən ki, onun olmamışdı heç ədəbi.

* * *

Həzrəti-Mustafa bütün səyin
İşlədib, şər mülkün etdi bina.

Tam möhkəmliyilə həşrə qədər,
Durar ondan uzaq bəlayi-fəna.

Onun hifzi ümumə lazımdır,
Bunu bilsin gərək qəniyü gəda.

Qoyduğu elmdən əsər varkən,
Bu mübarək binanı, ey Allah!

İki gic firqənin fəsadından
Qoruyub hifzin eylə sübhü məsa.

Qövlü felindən əvvəl ol qövmün
Ki, yox onlarda zərrə qədri həya.

Onların daş sifətli qəlbindən
Keçməmiş elmi-taətü təqva.

Üləma cərgəsində durmuşlar,
Edərək minlər ilə səhvü xəta.

Vurur islamə rəxnələr onlar,
Tanrıdan, eldən etməyib pərva.

Və ikinci o lovğa cahillər
Ki, edir qazilik işin ifa.

Xəlq üçün mərcəi-ümur olaraq,
Həvəsin, hökmün eyləyir icra.

Hökm edərlər xilaf şər' ilə,
Əsl məqsudu cifeyi-dünya.

Çün qiyamətdə həqq olar qazi,
Hər kəs öz həqqini edər dəva.

Bu iki bəd əməl səfehlərdən
Dini-islamə çox yetişdi cəfa.

* * *

Hədsiz həmd o Allaha ki, lütfü kərəmi
Əql sərmayəsinə malik edib insanı.

Vermiş ovsarını əqlin əlinə iqbalın,
Etdi təlim ona hər qaideyi-imanı.

Yaxşını pisdən əməl vəqti ağıl seçmək üçün,
Göndəribdir ona lütf eyləyərək Quranı.

Kami-dil almaq üçün məniyi-Qurandan o,
Bu tələbdə ona göstərdi rəhi-ürfanı.

Xoş elə aqil olan kimsə ki, zaye eləməz
Bu qədər mərhəmət ilə kərəmi-insanı.

Hər bir işdə olaraq tabei-asari-nəbi,
Etdiyi işlərə rəhbər eləməz şeytanı.

Gərçi yox şübhə bu sözdə ki, nəhayət keçəcək
Tanrı bəxşişlə sərasər xələləü üsyanı.

Etməmək meyl gözəldir günaha əvvəldən,
Diləməkdənsə nəhayət kərəmi-sübhanı.

* * *

Nəsəb fəziləti insana özgəsindəndir.
Nəsəblə özgəyə, ey süflə, iftixar eləmə.

Əmir xidməti, şahə yaxınlığın puçdur,
Öyünmə bunlara dünyada, etibar eləmə.

Bir iş ki, dost köməyi olmadan düzəlməyəcək,
İnanmayıb, özünü heç ümidvar eləmə.

* * *

O mülk mal ki, viran olub gəlib gedəcək,
Ümid evin bu əsas ilə payidar eləmə.

Fəzilətin, hünərin baqi qalmaq istərsən,
Bilikdə cəhd elə, kəsbi-hünərdən ar eləmə.

* * *

Bu təbiətdə böylədir adət,
Yaşamaqçün cahanda növi-bəşər

Ananın mehribanlığı uşağa
Gərək olsun zəmani-həddə qədər.

Ta ki, cismən kəmalə çatdırsın,
Versin öz tiflinə o, xuni-ciyər.

Çün zamanı yetişdi cismində,
Üfürər ruhu Cəbraili-hünər.

Anasından qız hərgiz ayrılmaz,
Çünki həmcinsdir iki gövhər.

Oğlanın cinsinin təqazası
Atanın səmtinə həmişə çəkər.

Ey könül, sən o tifli-qafilsən
Ki, özündən yoxundur, heyf, xəbər.

Sənə bu varlıq aləmi anadır
Ki, tərəfdarın oldu şamü səhər.

Atadır feyzi-aləmi-ülvi
Ki, vücudunda vardır ondan əsər.

Bu qədər olma sürətə bağlı,
Mərd olan bundan ali rütbə dilər.

Ana dövründə bəsdir hərlənmək,
Qız deyilsən, igidliyin göstər!

Mərdlik et, mərdliklə ta tapasan
Atadan mərhəmətlə feyzi-nəzər.

* * *

Şərəfi-xilqəti tapdıqda, eşitdim, Adəm
Nazil oldu şərəfində: "vələqəd kərrəmna".

İzzətin görcək, ona qıldı mələklər səcdə,
Etdi rahətlik ilə bağı-behişti məva.

Hər nə istərdi o, zəhmətsiz ona hasil idi,
Tapmayırdı yol onun qəlbinə möhnət əsla.

Kəsdi iblis, nəhayət, ona təqva yolunu,
Məkrlə oldu günah etməyinə rahnüma.

Adəmin hiyləvü məkri yox idi qəlbində,
Bir sədaqət görünürdü ona bu məkrü riya.

İqtizayi-kərəmi verdi muradın xəsmin,
Hiyləgər düşməninə aldanaraq etdi xəta.

Bu günahilə onu qovdu behiştdən Tanrı,
Onu qəhrü qəzəbi etdi giriftari-bəla.

Əldə etmirdi muradın, nə qədər ağlasa da,
Ah-fəryad ilə öz dərdinə tapmırdı dəva.

Tövbə həll etdi, nəhayət, işinin müşkülünü,
Tanrıdan üzri-günah eylədi icz ilə rica.

Əvvəlindən daha da yaxşı kəramət tapdı,
Keçmişindən daha da qədrdə oldu əla.

Belə bir hadisə məxsus deyil Adəm üçün,
Keçər övlada bu sirr məhşər olunca bərpa.

Doğulub həddə yetincə bir uşaq dünyadə,
Büsbütün qüssəvü qəmdən olar o bipərva.

Zəhməti olmadan hər bir diləyi hazır olur,
Olsa hər yerdə yetər ruzisi zəhmətsiz ona.

Cənnətin sakinidir, yaxşımı bundan cənnət
Ki, vəzifə yükü çəkdirməz ona dərdü bəla.

Həddə yetdikdə ona baisi məhrumluq olur,
Zövqi-dünya, şəcəri-nəhy[1] ilə şeytani-həva.

Olmasa söylədiyim sirrdən agah qəlbin,
Yoxdur adəmliyi, heyvandır o, bəlkə ədna.

Kişi oldur ki, özündən ola daim xəbəri,
Adəm oldur ki, öz əhvalına olsun dana.

Həvəsi onda ki, dünyaya onu rağib edər,
Buraxıb eyşi ola qabili-bidadü cəfa.

Ata qəlbindən əgər batil olan rəğbəti o,
Qurtarar meyli-həvəsdən, olar əhli-təqva.

O zaman mənzili-məqsudu olar bağı-behişt,
Xələti sündüs olar, xadimi evdə hura.

[1] Meyvəsi Adəmə qadağan olunmuş ağaca işarədir.

* * *

Hüsni-surətlə kəlami-mənəvi insanlara
Hər zaman hər hal ilə olsa, deyildir biəsər.

Gah olur ki, əhli-halə hüsni-surət göstərib,
Bir nigari-gülrüxə məşuq olur bir simbər.

Çöhreyi-zibası daim artırar göz nurunu,
Könlü aram eyləyər, rəftarinə etsən nəzər.

O fəqihü alimü şeyxü müəllim olsa gər,
Elmü sənət öyrədər, həm artırar fəzlü hünər.

Çatdırar həddi-kəmalə qəlbi nuri-feyz ilə,
Talibi-elmə olar, irşadi daim rahbər.

Əql heyrandır onun keyfiyyəti-ətvarına,
Bir fidandır o, təbiət gülşənində barvər.

Baş da, göz də, həm ürək də daim ondan kam alar,
Gah açar güllər, çiçəklər, gah verər türfə səmər.

* * *

Cəmalü hüsnünə ey daima olan məğrur,
Nədən cünun bu qədər səndə əqlə qalibdir.

Kəmali-mənəviyə şəninin ləyaqəti var,
Sənin o zatına layiq ulu məratibdir.

O puç gözəlliyə bağlanmağın nədir xeyri,
Kəmal kəsb elə, çün o sənə münasibdir.

Tutaq, üzündədir, ey gül, cavanlığın günəşi,
Yox onda nuri-bəqa, çün o sübhi-kazibdir.

* * *

Bir ölü gördüm, dağılmışdı bütün əzaları,
Məskən etmişdi onun boş kəlləsində marü mur.

Qəlbimə dərd artıran fikri verirdi min məlal,
Ol pərişan halət aldı gözlərimdən sanki nur.

Söylə, ey dövran, dedim, bu nütfeyi-pakizəni
Səltənət təxtindən etdin bəs nədən əhli-qübur?

Hansı cürm ilə çəkir bunca bu aləmdə cəza,
Fitrətində bəs nə olmuş, böylə tapmışdır qüsur?

Söylədi: dövranın ey hər hikmətindən bixəbər,
Biədəb məğrur idi, bax, böylədir cürmi-qürur.

Bu vücudun etibarı yoxdu xilqətdən əzəl,
Yol nişan verdim, məkanı oldu səhrayi-zühur.

Zülfü xəttü xal ilə məşşatə oldum hüsnünə,
Mən olub ustadı, öyrətdim ona əqlü şüur.

Çünki möhkəmləndi istiqlalü qədrü rütbəsi,
Eyşü işrət camı etdi çün onu məsti-sürur.

Gördü öz məhkumu əflakı, yeri, ulduzları,
Etdi mənlik, göstərib dəvayi-tərtibi-ümur.

Eylə sərməst oldu ki, hardandır idrak etmədi
Mərifət qəlbində, sevgi tinətində, gözdə nur.

Gərdişi-çərx ilə dünyaya edərdi tənələr,
Xidmətində etina etməzdi kim, dövran durur.

Bir dəqiqə etmədi ömründə məndən razılıq,
Verdiyim nemətləri almaq mənə oldu zərur.

Hər nə borc almışdı məndən mən yenə aldım geri,
Onda hər şey qalmış idi, məndə olmuşdu qüsur.

İndiki halı budur, ta ki, nə görsün aqibət,
Bu işə əsli cəza axır günə məxsusdur.

* * *

Bir mələk tək hər xələldən pakü pakizə təmiz,
İlk günlərdən yaratdı Tanrı bu növrəsləri.

Onları etmiş ağır təklifi-taətdən xilas,
Eşqinin nəqşin edib qəlbə məhəbbət zivəri.

Şübhə yoxdur, onlara vəqf oldu cənnət neməti,
Onlara ruzi yetişdi olmadan zəhmətləri.

Onları tədric ilə çərxilə dövri-ruzigar
Bir qoca salar edər, ya ki, ibadət rəhbəri.

Xeyir görməz onların ismətlərin pamal edən,
Kimsə ki, işlətsə məkrü hiylə, ya zurü zəri.

* * *

O tifli-sadədilin səhfeyi-cəmalı kimi,
Lətifü sadə yaranmışdır ondakı əhval.

Təğafül etmə, onu qoyma hər səmərsiz işə,
Təriqi-elmü ədəb öyrət, eyləmə ehmal.

Yazılsa hər nə könül lövhünə əzəldən onun,
Dəyişdirilməsi artıq olar əqlə mahal.

Elə güman eləmə başqa nəqşə qabil olar,
O lövh kim, dola o nəqşlərlə malamal.

* * *

Pişiklə saldı köpək bir gecə böyük dəva,
Kasa dibi yalayansan, dedi, sən, ey biar!

Ədəblə mərifətin səndə yoxdur asarı,
Odur ki, olmuş oğurluq sənə həmişə şüar.

Götürsə löqmə biri, zəhləsin tökərsən onun,
Tamahla eyləyərsən o dəmdə naləvü zar.

Bu eyblərlə bu izzət sənə nədəndir bəs,
Özündən eyləməz hərgiz səni bu xəlq kənar.

Şəriksən ona yatmaqda, süfrədə daim,
Rəfiq olur sənə məclisdə hər pərirüxsar.

Gecə-gündüz o mənəm ki, yetər xeyir məndən,
Gecə min iş görərəm, gündüz olmaram bikar.

Vəfa şüarım olubdur, ədəb təriqi yolum,
Məkanım oldu nədən asitanə leylü nahar?

Nədən sən evdə qalırsan həmişə, mən çöldə,
Ət ilə sən yaşayırsan, sümüklə mən naçar?

Nədir sənin hünərin, ya nədir mənim cürmüm
Ki, xəlq pak demişdir sənə, mənə murdar?

Ənissən üləma məclisinə, mən uzağam,
Fəzilət əhli üçün sən əzizsən, mən xar.

Pişik cəsarət ilə açdı tənəyə dilini
Ki, ey amansız olan vəhşi, xisləti xunxar.

Əziz qonağı, gədanı görən gözün yoxdur,
Qəribi görcək edərsən həmişə sən azar.

Səadət əhlinə hər xeyr işində manesən,
Bu xislət ilə sənin kamə nə ümidin var?

Elə güman eləmə öz muradına yetəsən,
Həyatının ağacı zənn qılma versin bar.

* * *

Hifz edib nəfsi, bəlanı, düşməni dəf etməyə,
Şah yüz minnət qoşundan dəmbədəm çəksin gərək.

Bircə löqməyçün qənaət bilməyən müflis müdam,
İtlərindən münimin min dürlü qəm çəksin gərək.

Fəqr mülkündə qənaət eyləyən biçarələr,
Bir yemək, geyməkdən ötrü min ələm çəksin gərək.

Kim qənaət meyli etməzsə bu alçaq dəhrdə,
Xatirin cəm etməyə mütləq qələm çəksin gərək.

Ya gərək hər növ möhnət olsa da, səbr etməli,
Dərdü möhnət mənzilindən ya qədəm çəksin gərək.

* * *

Dəhrdə rahətlik ümmidilə çəkmə çox əzab,
Çün olub biganə bu məqsəd əzəldən xilqətə.

Zahir oldu hər nə məna vardısa Peyğəmbərə,
Rahətin mənasın axtarma, o sığmaz surətə.

Bu müqərrərdir ki, rahətlik cahanda olmamış,
Varsa rahətlik əgər, meyl etməməkdir rahətə.

* * *

Yandırıbsan, dedim, ey çərx, mənim sinəmdə
Bunca dağlar ki, nə vardır sayı, nə payanı.

Dedi: sinəndəki dağlar hamı məndəndir əgər,
Bəs mənim sinəmdə dağlar çəkən ol kimsə hanı?

* * *

Dün pəriçöhrə bir uşaq gördüm,
Dedim: ey nazənin, şəkərgöftar!

Nə üçün lovğalıqla zəhmətdən
Çəkinirsən, onu bilirsən ar?

Qatlaşır zəhmətə atan və anan
Tək səni bəsləməklə leylü nahar.

Kamilik, söylədi, biz aləmdə,
Leyk nöqsanlıdır güruhi-kübar.

Uşağıq çünki biz, uşaqlar üçün
Qayda-qanun nə vacib, ey huşyar?

Ki, xilaf eylədikdə, Allahın
Biz olaq qəhri-möhnətinə düçar,

Leyk çox yaşlı bu uşaqlar ki,
Əqldən, həm vüqardan dəm urar.

Olmamışlar o cür ki, lazımdır,
Cümləsi naqis əqldir, kəm əyar.

Kamilə xidmət etsə naqis əgər,
Bəllidir aləmə ki, olmaz ar.

* * *

Bir gün səhər-səhər çəmənə eylədim güzər,
Ta dəf edəm gülü səmən ilə məlalımı.

Qoycaq ayaq, göy ot mənə tənəylə söylədi:
Bəs bilməyirmisən bu qədər qəmli halımı?

Xor baxma, mən əgər ki, sənin payimalınam,
Gör torpaq altda sən kimi yüz payimalımı!

* * *

Ömrümün əvvəli ki, zövqü səfa vəqti idi,
Elmsiz keçdi bütün bisərü samanlıq ilə.

Tifl vəqtim ötərək dərdə giriftar oldum,
Keçdi ömrüm bu fəna yerdə pərişanlıq ilə.

Ömrümün axırı ki, zöhdü ibadət çağıdır,
Keçdi, əfsus, o da aləmdə peşimanlıq ilə.

Ah, bu ömrə ki, zövq almadım ondan, keçdi
Mənəvi zövqü səfa qəflətü nadanlıq ilə.

* * *

Qafil olma yazdığın şerindən, ey söz ustası,
Dəhrdə olmaz belə övladi-xoştinət sənə.

İslaha qabildir o, gər olsa onda bir xəta,
Hökmünə tabe olub daim edər xidmət sənə.

O elə xudkam oğullardan deyildir ki, verə
Rəngbərəng xahişlər ilə gündə min zəhmət sənə.

Paltarı illərcə bəsdir: xırda kağız parçası,
Xəzlə ətləs almağa lazım deyil sərvət sənə.

O dəvatın bostanından daim almışdır qida,
Verməz o, nə süd qəmi, nə qüsseyi-şərbət sənə.

Dərdü möhnətsiz, mətasız seyr edər hər bir yeri,
Get-gedə o artırar aləmdə min şöhrət sənə.

* * *

Mənə pis söylədisə bir pis adam, incimədim,
Məni, Allaha şükür, yaxşı bu dünya tanıyır.

Mənim həqqimdə onun fikri nə təsir edəcək,
Elə bir qövmə ki, ondan məni əla tanıyır.

* * *

Sözüm olduqca çoxdur aləmdə,
Yaxşısın yox, pisin görür düşmən.

Hər gözəllik ki, varsa nəzmimdə,
Dost görür, görməyir o rəşkindən.

Düşmənim, şübhəsiz, mənim kordur,
Yaxşı görmür, gözü deyil rövşən.

* * *

Könül, məlalı bu xəlvətnişinliyin xoşdur,
O zövqdən ki, görüşdə hər aşinadən olur.

Kimin ki, dostu və ya aşinayi-həmdəmi var,
O əhli-fəqr və yainki əğniyadən olur.

Gər olsa neməti, hər bir sözü, kəlamı onun,
Həmişə sərvət ilə, zivərü tiladən olur.

Fəqirlik atəşinə mübtəla olursa, sənə
Həmişə şikvəsi dünyayi-bivəfadən olur.

Ömür fəna olacaqdır bu macəralərdən,
Hanı o yar ki, xali bu macəradən olur?

* * *

Mən gözəl bir süfrə açdım sözdən əhli-aləmə,
Onda bir zövq artıran hər dürlü nemət düzmüşəm.

Süfrəmə hər bir qonaq gəlsə, xəcalət çəkmərəm,
Fərqi yox, ya türk gəlsin, ya ərəb, yaxud əcəm.

Kim gəlir gəlsin, aparsın hər nə istər xatiri,
Qurtaran nemət deyil, süfrəmdən olmaz heç nə kəm.

* * *

Bu hasili qəm olan dərdü qüssə bağında
Təəccüb eyləmə, gər olsa nitq bülbülü lal.

Bu bağdan hələ gül ətri duymayır bir kəs,
Yetirməyir elə bir gül bahari-fəzlü kəmal.

* * *

Fəryad, zülm edən bu fələkdən ki, dəhrdə
Dövrilə qəlbi şad eləməz, qəmdir hasili.

Hər kimdə var fəraqət, alıb gərdişi ilə,
Nə əhli-elmi razı salıbdır, nə cahili.

* * *

Dedim dünyayə, ey zalım, nədəndir etmisən raqib
Elə bir zatı ki, qəlbən ona mən müxlisəm sadiq.

Dedi: etmə təğafül, çünki əvvəldən rəqibik biz,
Mənim də var ona meylim, ona çün olmuşam aşiq.

* * *

Təərrüz eyləyərək söylədim dünən fələyə
Ki, ey təərrüz ilə verməyən bu xəlqə aman!

Nə iş görüm, necə rəftar edim, nə çarə tapım
Ki, axır olmaya səndən mənə o işdə ziyan.

Təsəvvür etmə səbəbsiz mən incidəm birini,
Mənim təərrüzümü bivəsilə etmə güman.

Kənarə düşmüş idi xət kimi o mərkəzdən
Ki, nüqtə tək onu çəkdim ədəm kənarından.

Cəfavü zülmlərimdən əgər çəkinsən sən,
Cahanı sal nəzərindən, təvəkkül ilə dolan.

Nə rütbə qeydinə bağlan, nə əzl möhnəti çək,
Sənə o xeyir gətirməz, gedərsə var nöqsan.

Tayın-tuşun sənin aləmdə pak olanlardır,
Qoru bu tay-tuşunun qədrü qiymətin hər an.

* * *

Mən hər nəyə könül verib oldum əsir ona,
Çün eşqimin hərarətini gördü ruzigar.

Dartıb apardı, hicr oduna yaxdı könlümü,
Cürmü budur, – dedi, – olanın sevgiyə düçar.

* * *

Bu diyar içrə xəlqdən hərgiz
Mənə bir şəfqətü inayət yox.

Ya ki, bu qövm mərifətsizdir,
Ya ki, heç məndə qabiliyyət yox.

* * *

İki sinfə bölünmüş əhli-cahan,
Biri elm əhlidir, biri cahil.

Şeri cahillər anlamaz hərgiz,
Çün hünərdən olub olar qafil.

Alimin qarşısında şer demək
Səhvdir şər'də və həm batil.

Ah, bu qüssədən ki, aləmdə
Əmrim olmuş çətin, işim müşkil.

Elə bir işdə ömrü sərf etdim
Ki, ona kimsə olmayır mail.

* * *

Bir iltifatı mənə olmaz isə şahın əgər,
Şikayətim yox, o da lütfdən əlamətdir.

Zəifliyimlə bilir naqəsi çəkən yükdən,
Fəqirlik yükünü çəkmək eyni rahətdir.

* * *

Soruşdum, ey gözəlim, səndə daim aləmdə
Təərrüz eyləmək aşiqlərə nə adətdir?

Dedi: xətadır o gül bütlərə könül vermək
Ki, aşiqə nə cəfa etsə büt, ibadətdir.

* * *

Qədrsizdir bizim vilayətdə
Ruha şadlıq verən gözəl əşar.

İncədir şerimiz, nə faidəsi
Hərzə söylər ona bü əhli-diyar.

* * *

Xahişlə dün dedi mənə bir zati-möhtərəm:
Zahidlərin sifətlərini söylə hər nə var.

Məndən soruşma mərifətin zahidin, – dedim,
Mən yaxşı görmədim belə bir qövmü aşikar.

* * *

Rəyi-safi ey olan ayineyi-aləmnüma,
Yox elə bir sirr rəyindən sənin örtsün niqab.

Tutduğun bir ənbər örtüklü gəlindir ol qələm,
Çöhrəsindən qaldırır hər ləhzə yüz sirrin niqab.

Elm dünyası sənin hökmünlə tapmış intizam,
Gənci-mənanı qələmlə eylədin sən fəth bab.

Sərvəra, candan usanmışdır bədən bir ömrdür,
Xaki-payin öpmək eşqilə qılır min iztirab.

Zəfi-cismimlə var üzrüm, çəksəm hicran dərdini,
Çarə yox, çəkmək gərək mütləq yolunda min əzab.

Sizdən olsam da uzaq, ərzi-niyaz etməkdəyəm,
Dərgəhindən etdiyim xahişlərə yoxdur hesab.

Eylərəm təsvir hali-zarımı, qılmaz əsər,
Göndərəndə şərhi-qəm səndən ona gəlməz cavab.

Mərhəmət ətri haçan bəs xaki-kuyindən gələr,
Bəs nədən olmaz yanında bir duamız müstəcab.

Nola ol mişkin qələm bir dəfə yazsa namimi
Bircə dəfə namimi çəksən edərsən min səvab.

Rəsmidir, dəryalərin möhtac olan hər bir kəsi
Ya yaxındır, ya uzaq, feyziylə eylər kamyab.

Kim yaxındırsa, sədəfdən dürr edər qismət ona,
Gər uzaqdırsa onu eylər bulutlar feyziyab.

Böylə bir halət günün də çeşmeyi-zatində var
Kim, alır ondan uzaqlar, həm yaxınlar abü tab.

Göy üzündə ay deyil yalnız günəşdən nur alan,
Yerdə də ondan lətafət kəsb edibdir ləli-nab.

Ey olan gündən uca, dəryadən əla, qoy sənə
Qibtə etsin yerdə dəryalar, fələkdə afitab.

Gər uzaqsam, ən yaxın dostun kimi rəhm et mənə,
Gəl uzaqlıq cürmümə baxma, mənə qılma itab.

Gər uzaq olsam da, səndən mən kəramət gözlərəm,
Ay uzaqdan yaxşı eylər nuri gündən iktisab.

Lütf yetsə gər mənə səndən, təəccüb iş deyil,
Nazil olmuşdur yerə, bu rəsmdir, göydən kitab.

Yer üzündə ta həyat imkanı olduqca müdam,
Ta ki, çərxin adətü təbində vardır inqilab.

Bargahından üzün döndərməsin dövlət sənin,
Etməsin əmrindən ən yüksək fikirlər ictinab.

Ruzü şəb virdi Füzulinin dualardır sənə,
Fikri-zikri bir budur, vallahü ələm bissəvab.

* * *

Aşiqəm saf ürəkli, tinəti pak,
Məni heyran edib bu sirri-cəmal.

Hüsn xəttilə mahparələrin,
Eylərəm eşq içində kəsbi-kəmal.

Nəfs ləzzətlərindən azadəm,
Ləzzəti-nəfsi etmərəm də xəyal.

Mənə şəhrin gözəllərindən leyk
Ayrı düşmək olubdur əmri-məhal.

İş-gücüm hər zaman sürünməkdir,
Nazəninlər dalınca sayə misal.

Onda ki, mahparələr məndən
Qaçaraq eyləyir məni bihal.

Onların arxasınca biaram
Qaçaram, bir dəm etmərəm ehmal.

Lütf üzündən baxarkən arxamca,
Ta olam kamyabi-bəzmi-vüsal.

İxtilatından onların qaçaram,
Etmərəm öz vücudumu pamal.

Olmamış başqa adət ömrümdə,
Buna şahiddir iyzədi-mütəal.

* * *

Dedi Əhməd: Əli mənlə olub Harunla Musa tək,
Şəriklik rəmzi var bunda, kəmali-cahü izzətdir.

"Nübüvvətdə Əlinin dəxli yoxdur", – ey deyən kimsə!
Nübüvvət əmrinə şirkət deyil bu, hifzi-ümmətdir.

Deyirlər dari-dünyadən gedən vəxtində Peyğəmbər,
Əlini, söyləmişdir, hifz qılmaq eyni-itrətdir.

Bir ali firqədir məhşər olunca nəsli-Peyğəmbər,
Bəqayi-dinə baisdir, həm onlar kani-himmətdir.

Kimi görsəm Peyəmbər nəslidir, Ali-Əlidəndir,
İki ali məqamın nəsli-paki çünki şirkətdir.

* * *

Dərdü möhnət torudur dairəsi dünyanın,
Arif oldur ki, belə dairədən durdu kənar.

Bütün ömrün keçirər guşeyi-rahətlikdə,
Gərdişi-çərxi-fələkdən əbədi rahət olar.

Nə elə fikri olar ki: nə edim, çarə nədir,
Nə elə qeyddə, ya Rəb, nə olar axiri-kar?

* * *

Şükr edin, Rumun ey zərifləri
Ki, fələk verdi böylə kam sizə.

Bizlərin yox sizinlə nisbətimiz,
Bizdən əla verib məqam sizə.

Mahrulər qulamıyıq bizlər,
Mahrulər olub qulam sizə.

* * *

Ey ağıl sahibi, unutma bunu,
İki kəsdən sənə çətinlik olar.

Biri oldur ki, sevməyir o səni,
Hər görəndə səni olur bizar.

Həm ikinci odur ki, qəlbin onu
İstəmir, görməyin olur naçar.

* * *

Heyrəti mülki-Əcəmdən, mən Ərəb mülkündən,
Sözümüzlə elədik hər ikimiz kam tələb.

Ona zər bəxş elədi mülklə, mənə lütfi-nəzər,
Verdilər kamımızı şahi-Əcəm, şahi-Ərəb.


Rübailər

Sən bizi lütfinlə kamran etdin,
Biz qara torpaqdıq, sən insan etdin.
Gizli elmləri öyrədib bizə,
Hər iki aləmə hökmran etdin.

Qüdrətin səbəbdir xilqətimizə,
Lütfün maya oldu tinətimizə.
Sənə itaətə durmuşuq hər an,
Möhtac olmasan da taətimizə.

Əgər əhl adamsan, taleyə inan,
Riza mühitindən çıxma heç zaman.
Anla ki, rizanın min bir ədədi
Alınmış Allahın min bir adından[1].

Bu yazıq könlümü eşqin etdi zar.
Gözümü qan-yaşla doldurdun, nigar!
İstərəm yandırıb xəstə qəlbimi,
Bu dərddən canımı qurtarasan, yar!

Eşqinə olmuşdur canımız əsir,
Şövqünlə yoğrulmuş bu maya, xəmir.
Kuyin olmuş daim yerimiz bizim,
Zövqümüz eşqinin dərdü qəmidir.

Ey zülfü bizləri rüsva eyləyən,
Eşqin bir çiçəkdir, könlümüz çəmən.
Yanağın işıqlı şamdır, gözəlim!
Gözümüz nur alır şölələrindən.

[1] Əbcəd hesabilə riza (رضا) – min bir (1001) rəqəminə bərabərdir.

Yoxdur bu dünyada bizə həmdəm, yar,
Heç kəsin qəmini çəkmərik zinhar.
Nə bizim aləmdən xəbərimiz var,
Nə bizim aləmdən aləm xəbərdar.

Canımda gizlidir eşqinin qəmi,
Odur hər dərdimin əsl məlhəmi.
Dolanır qan kimi hər damarımda,
Odur həyatımın səbəb, həmdəmi.

Məhəbbət yüküdür bu çəkdiyim bar,
Eşqin ələmiylə könül biqərar.
Məhəbbət qəmidir mənim köməyim,
Bu sevda qəmindən olmaram kənar.

Bir yürü, görünsün o rəna qamət,
Baxım camalına, ey mahtələt!
Payinə məstanə baş qoyum, bəlkə
Mən xaki-payini edim ziyarət.

Hər gecə zülfünün eşqindəyəm, yar!
Onunçun oluram daim biqərar.
Üzünün günəşi çıxınca, könlüm
Sübhədək şam kimi əriyib yanar.

Ya Rəb! Arzumuzu özün et rəva,
Kömək et, mənalı söz edək inşa.
Bundan da sənətkar ustad et bizi,
Ta ki, Mustafayə eyləyək dua.

Əcəm, türk, ərəbin sənsən rəhbəri,
Yüksəlir hər kəsin sənlə hünəri.
Hər kəsin qiyməti ədəb-ləqəbsə,
Ədəbin səninlə artar dəyəri.

Gözəlim dil açıb soruşmadı hal,
Kamamı vermədi o şirinməqal.
Vəslindən olmadı hasil muradım,
Ömür başa gəldi, gəlmədi vüsal.

Məhvəş gözəllərdən vəfa gözləmə,
Cəfakar olandan səfa gözləmə.
Pislərdən sən pislik görərsən, lakin
Yaxşıdan yaxşılıq, haşa, gözləmə.

Könül, həvəs varsa başında sənin,
Keç candan ki, odur öz yolkəsənin.
Özünü inkar et, xudanı isbat,
Bax, budur mənası "lailahənin".

Könlü xərab edir o gözəl canan,
Onun ay üzünə göz qalır heyran.
Təşbih etməyiniz üzünü aya,
Çünki ay eşqində qalıb sərkərdan.

Kim olmaz vəslinə sənin tələbkar?
Kim görsə hüsnünü olmaz biqərar?
Halından hansı hal xarab deyildir?
Xəyalından heç kəs xali deyil, yar!

Kərbəladə yatan hər halda ikən,
Torpağa dönsə də düşməz dəyərdən.
Torpağın götürüb təsbeh edərlər,
Keçər şərafətlə bir-bir əllərdən.

Ey xurma ağacı, qələmin məşhur,
Hər xəttin Xızıra işıq yoludur.
Ümid var ki, alar xəstə gözümüz
Ayaq torpağının sürməsindən nur.

Zülfünün əsiri mişk olur müdam,
Ənbərsə xəttinə olmuşdur qulam.
Sən başdan ayağa hüsnü camalsan,
Mən başdan ayağa sənə qurbanam.

Ömrüm nə mənasız, nə hədər keçdi,
Sənətdən hələ çox bixəbər keçdi.
Ömür keçdisə də əfsus etmirəm,
Əfsus o ömrə ki, bisəmər keçdi.

Yarın rəhmsizcə eyləsə qovğa,
Xoş ol, səadətdir yardan hər cəfa.
Dostdan dərd gələrsə aşiq qəlbinə,
Nə qorxu? Çün dərdə özüdür dəva.

Dünyada hər cəfa eyləyə dilbər,
Öz məst aşiqinə nəsihət eylər.
Desə ki, sevgidən, nəfsdən əl çək,
Kafidir dilbərdən bu nəsihətlər.

Nə qədər ürəkdə var belə sevda,
Qəlbi bürüyəcək kədər, qəm, cəfa.
Aşiqlik bəlası ayrılmaz bizdən,
Bizə aşiq olub, deyəsən, bəla.

Bu dünya əhlinin sonu ədəmdir,
Fərəhin, şadlığın axırı qəmdir.
Rahatlıq uğrunda əzab çəkmə çox
Ki, bu qiymətli şey bir boş rəqəmdir.

Eşqindən tapmadı bir işim əncam,
Öldüm, dodağından almadım da kam.
Eşqinin mən kimi mübtəlası yox,
Görmədim rahatlıq, olmadım aram.

O gözlər işığı, ayüzlü canan,
Onda var başqa bir məlahət hər an.
Çətindir ki, qalsın aşiq bir halda,
Məşuqu müxtəlif hal alan zaman.

Sənin nə şərikin, nə varisin var,
Hər şey gəlib-gedir, sənsən bərqərar.
Bir sənin zatındır qədim, əbədi,
Xilqətdə hər şeyə sənsən səbəbkar.

Əmrinlə bitişib birləşmiş məzac,
Xilqətdə bu aləm sənədir möhtac.
Xəstəlik, çətinlik, hər iş, hər əməl,
Sənin dərgahından istəyər əlac.

Aləm varlığına aydın bir dəlil,
Hər zərrə açmışdır zikrin üçün dil.
Səndən olmayan söz qələtdir tamam,
Sənə bərəks olan iş rəva deyil.

Ey könül, darısqal dünyanı burax,
Get geniş fəzalı fənayə ancaq.
Qoyma ki, göyərib bu dar bağçada
Arizu ağacın ata qol-budaq.

Qəlbin inlətməyən ayrılıq, hicran
Vüsalın zövqünü bilməz heç zaman.
Dünyada möhnətsiz rahatlıq yoxdur,
Biri o birisiz olmamış bir an.

Hər gözəl qəlbimə bir fərəh saçar,
Gözəllər eyləyər məni bəxtiyar.
Sevgidən başqa şey istəməz könül,
Ondan əl çəkmərəm qoysa kirdigar.

Naləmlə etmədi yar mənə imdad,
Fəryadla etmədi o, könlümü şad.
Əfsus ki, bir təsir etmədi dadım,
Fəryad ki, bir işə dəymədi fəryad.

Qəza etdi məni sənə giriftar,
Məni heyran qoydu o ləb, o göftar.
Qiyamət günündə nə cavab verər
O kəs ki, eylədi məni böylə zar?

Varlıqdan bir əsər olmayan dəmdə,
Zəmanə yatarkən xabi-ədəmdə,
Nurumda od yoxkən, gülümdə tikan,
Mənlə yar rəqibsiz vardıq aləmdə.

Seyidlər göz nuri, taci-sərdirlər,
Ədəbdə onlara yoxdur bərabər.
Gərək düz yolundan çıxmasınlar heç,
Çünki ümmətinə rahibərdirlər.

Seyid olmalıdır hər işdə yüksək,
Surətdə, siyrətdə böyük cəddi tək.
Əməli pis olan hər nakəs adam
Məhəmməd ümməti olmasın gərək.

Çəkəndə nəqqaşı yar surətini,
Xalını, zülfünü, lətafətini,
Məna zühuriyçün aşiq gözündə
Nəqş etdi dildarın məlahətini.

Aləmdə o dildar görünən zaman,
Hər an bir surətlə oldu nümayan.
Surətlər, şəkillər pərdəsini çox
Yoxladıq, tapmadıq onda bir nöqsan.

Dostdan istədiksə arizu, murad,
Vədəylə bir ümid verməsə, heyhat!
Bu gün zəmanədə möhnətə dözək,
Bəlkə qiyamətdə olarıq rahat.

Verdiyin əzab da xoşdur mənə, yar!
Şirindir al ləbdən hər acı göftar.
Baxışın məhv edən bir zəhrdirsə,
Dilin də misilsiz baldır, ey nigar!

Əsir bahar yeli, qönçələnir gül,
Olur gül şamına pərvanə bülbül.
Çəmən məclisində gül yanır şam tək,
Bülbülün səsilə şadlanır könül.

Çəməndə gül qurdu böyük ehtişam,
Səbzənin başına səpdi zər müdam.
Sular kənarında qalxdı göy çəmən,
Suların aynası duruldu tamam.

Əzəlin nəqqaşı, böyük sənətkar,
Çəkdi göz pərdəmə bir surəti-yar.
Xal etdi üzünə göz bəbəyimi,
Möcüzə yaratdı bu xal, bu pərgar.

Fələk hər işıqlı ulduzla axşam
Aqillər qəlbinə dağ basır müdam.
Bu gecə-gündüzlər keçdikcə, hek kəs
Gecəni gündüzə çatdırmadı tam.

Şümşad qamətinə olmuşdur əsir,
Kölgən tək gəzərdi, ey bədri-münir!
Onu tutmasaydı çəməndə torpaq,
Sular vurmasaydı payinə zəncir.

Canan istəyirsən keç əziz candan,
Can əziz olmaz ki, vəsli-canandan.
Xatiri xoş olmaq istəyirsənsə,
Tərəddüd etmə heç, olma pərişan.

Açıqdır aləmə ehsan qapın, yar!
Qoy mən sənə edim dərdimi izhar.
Sən bizə baxmazsan bəs kim baxacaq?
Biz bəndə, sən bəndəsevən hökmüdar.

Fəryad ki, oyunbaz gərdişi-dövran
Hiylə qapısını açmışdır əlan.
Onun hər oyunu hiyləsiz deyil,
Görən qəsdi nədir bu oyunundan?

Hərgiz gözəllərdən görmədim vəfa,
Dərmədim gül vəfa bağından əsla.
Mən üz döndərmədim vəfadan bir an,
Bütün həyat boyu çəkdimsə cəfa.

Göz yaşım göstərir nədir qəmi-yar,
Odu şöləsindən anlamaq olar.
Gizli saxladığım ürək dağımı
Bu ürək naləsi eyləyir izhar

Elminlə yox oldu hər kəsdən bəla,
Səndən almış hamı dərdinə dəva.
Hamıya vacibdir duaçın olmaq,
Xalq üçün edirsən çünki sən dua.

Bir gül yarpağı tək camalın xoşdur,
O zülf sünbülündə cəlalın xoşdur.
Mələk, pəri kimi bir halətin var,
Bu üzün, bu zülfün, bu halın xoşdur.

Rəftarın etmişdir sərvi xəcalət,
Sünbüllər eyləyir zülfünə heyrət.
Reyhanla süslənmiş o gözəl canan,
Yar gülsə, gül yumar dodağın əlbət.

Od vurmuş bu dərdli qəlbimə o yar,
Ah, onun nə qədər daş ürəyi var?
Rəqibin sözüylə yandırdı məni,
Gör ki, dəmir daşdan atəş çıxarar.

Qəsri vücudumun sənindir, canan,
Orada olsun qoy eşqin hökmüran.
Bir zülmət yoludur yolunun əksi,
Yolunla gedənlər olar kamran.

Bütün təbələrə vacib fərmanın,
Hamıya bir borcdur sənin ehsanın.
Hamının ümidi sənədir ancaq,
Ərizə yeridir sənin astanın.

Qovur yaxınlığın ürəkdən qəmi,
Elmin bir dəryadır, vücudun gəmi.
Xilqət karxanası olan qüdrətin
Hər an başqa rəngə salır aləmi.

Eşqinin əsrarı saxlanır canda,
Ürək də eşqinlə yaşayır, can da.
Möhtacıq biz sənin inayətinə,
Bizi unutmazsan sən heç bir an da.

Edirkən sirrini sən izhar, ey şam!
Olursan ölümə səzavar, ey şam!
Əgər istəyirsən məhv olmayasan,
Dilini saxla sən, sus, zinhar, ey şam!

Ey şam, didələrin hər gecə bidar,
Ürəyin odludur, gözlərin ağlar.
Yanarsan, əriyib sızlarsan, guya
Mənim tək olmusan sən cüdayi-yar.

Ey ciyər qanıyla dövlət toplayan,
halın necə olar sən ölən zaman?
Bu dünya üçün sən xalqla az dalaş!
Boş bir dünya üçün dalaşar insan?

Çoxdandır vüsalın dövlətilə mən
Ayrıldım bənəfşə, sünbül, çəməndən.
Üzünə baxdıqca gözüm nurlanır,
Saçının ətriylə ruhlanır bədən.

Üzündən aralı işim yox bağla,
Əylənə bilmərəm çiçəkli dağla.
Qorxuram qəlbimə gül batıra xar,
Lalə ciyərimə od vura dağla.

Çox şükür, torpağım tapmışdır şərəf,
İqbal ətəyini tutdum hər tərəf.
İltifat görərsə hər kəs bir şahdan,
Mənə nəzər saldı o şahi-Nəcəf.

Elm ilə, ədəblə tapılar şərəf,
Mirvarı olmasa, nə lazım sədəf?
Fürsətin var ikən sən işsiz qalma,
Boş yerə ömrünü gəl etmə tələf.

Ömrün əziz ikən, təbin tazə-tər,
Dünya zəncirinə bağlanma hədər.
Allaha xoş gedən xeyirli iş gör,
Qoyma ki, həyatın keçə bisəmər.

Eşqdir hər iki dünyaya ziynət,
Eşq ilə dolanır bütün təbiət.
Eşqsiz məqsədə yetişmək olmaz,
Eşq ilə tapılır düzlük, həqiqət.

Aşiqin gözləri giryan olmalı,
Aşiq avareyi-dövran olmalı.
Rahətlik məşuqə nəsib olmuşdur,
Aşiqin ürəyi büryan olmalı.

Torpaqdan yaranan hər yaşıl ot, bax,
Həsrətdən nəmlənmiş kirpikdir ancaq.
Guya ki, ağlayır fələk əlindən,
Bu yer əsirlərin bürüyən torpaq.

Bizlərə göndərdi min bəla fələk,
Eylədi çox dərdə mübtəla fələk.
Vətəndən, dostlardan ayırdı bizi,
Ah, bizə eylədi çox cəfa fələk.

Xəyal məclisimə şamdır o camal,
Sənin xəyalından ayrılmaq mahal.
Xəyalın qəlbimdə qoymayır qalsın
Nə hicran, nə də ki, ümidi-vüsal.

Gördü ki, olmuşam hüsnünə heyran,
Üzümə qıyğacı baxdı o ceyran.
Çox raha həyatım var idi, amma
Göz vurdu, əhvalım oldu pərişan.

Gizləndin, hər sirrim oldu aşikar,
Gözümdən qanlı yaş axdı, ey nigar!
Ürəyim əridi, canımı yaxdı,
Dadə çat, öldürür məni intizar.

Zahirdə talibik məşuqəyə biz,
Batində bu yolda yoxdur zövqimiz.
Zahidlər deyildir göründüyü tək,
Biz də görünən tək deyilik, şəksiz.

Bilirəm, ürəkdə yarın qəmi var,
Bilirəm, bu qəmi verir o nigar.
Qəlbimin eşqdən başqa işi yox,
Çoxdandır ki, işi olmuş eşqi-yar.

Çox şükür yaramaz, zahid deyilik,
Hiyləgər, səfeh şeyx, abid deyilik.
Riyakar zahidlər və şeyxlər kimi
Öz yox qüdrətinə şahid deyilik.

Qaranlıq könlümü münəvvər eylə,
Hər işi sən mənə müyəssər eylə.
Qəlbimi döndər hər qapıdan, Allah!
Onu öz qapında müqərrər eylə.

Göz açıb gör necə olmuş dili-zar,
Gözümdən gör necə qanlı yaş axar?
Qəmzə qılıncıyla bağrımı yarıb
Qəlbimə çəkdiyin dağları gör, yar!

Xoşdur sənlə edəm bir seyri-çəmən,
Dola göz yaşımla ətəyim həmən.
Ətrafda olmasın bir azmış rəqib,
Mən olum, bir sən ol, bir sən ol, bir mən.

Bir aydır olmuşam üzünə heyran,
Çalmışdır qəlbimi o çeşmi-məstan.
İndi ki, baxmağa taqətim yoxdur,
Yaxşıdır gözümdən o qalsın nihan.

Könlüm həsrət qalmış rüxi-canana,
Tale yox ki, çatım o gözəl cana.
Sözləri incədir, dodaqları bal,
Hər bir şey bir yana, eşq bir yana.

Dolsa eşq qəmiylə hər hansı ürək,
Dünyanın ləzzəti ondadır bişək.
Hər canda bir dərdli ürək yoxdusa,
Qəbirdə bir cəsəd yatmışdır demək.

Rahatlıq istəsən etmə arzu-kam,
Kam almaq istəyən olmaz ki, aram.
Dünya bir qəfəsdir, sən onda bir quş,
Burada axtarma nə aram, nə kam.

Feyzinlə olmadım dünyada gümrah,
Məndən çox, halıma özünsən agah.
Şadam ki, məhşərdə yenə də sənsən
Müddəim, hakimim, şahidim, Allah!

Bu insan övladı olur hər anda
Zəmanə cövründən ahü fəğanda.
Hər biri həvəslə bir işə aşiq,
Demək ki, aşiqdir hamı cahanda.

Aləmdə yaşayan bir güruh adam,
Cahanın camiylə məst olmuş tamam.
Hər biri bir qərəz bayrağı tutmuş,
Demək bütpərəstdir hamı, vəssəlam.

Ey xuda, məni sən eylədin icad,
Kamal almağa da sən ver istedad.
Ya özün hər işdə mənə ustad ol,
Ya da yol göstər ki, tapım bir ustad.

Ey eşq, nə vaxtadək edib biqərar,
Məni salacaqsan sən diyar-diyar?
Alırsan hər anda könlümü bir cür,
Edirsən hər anda bir cür məni zar.

Dedim: hər baxışla, ey sənəm, nədən
Qəlbimə vurursan qəmzə oxu sən?
Söylədi: bu təsir özgə yerdəndir,
Vallah, özümdən də xəbərsizəm mən.

Dedim: yar, sən məni pərişan etdin,
Qəlbimi taladın, qəsdi-can etdin.
Dedi: meydən deyil məstlik, məndəndir,
Mənə səhv gümanla sən böhtan etdin.

Ya Rəb, and verirəm Peyğəmbərə mən,
Rəsulun məzarı xatirinə sən
Əfv et Füzulini, keç günahından
Ki, etmiş çox günah özü bilmədən özü bilmədən.

MÜNDƏRİCAT

Füzulinin farsca “Divan”nı haqqında (*Həmid Araslı)* 4

Farsca “Divan”ın dibaçəsi 11

QƏZƏLLƏR

İsmin ilə başladım, ey arizular məhzəri!
(*tərc. Ə.Vahid*) 23
Zikrinlə zinət aldı həmişə zəbanımız
(*tərc. Ə.Vahid*) 24
Ey əqlü fəhminə qalan aciz sualımız
(*tərc. Ə.Vahid*) 25
Sənin feyzi-vücudunla işıqlanmış bütün aləm
(*tərc. Ə.Vahid*) 26
Kimi nisbət qılım ol sərvi-sənubər qəddə
(*tərc. Ə.Vahid*) 27
Qübari-rahini, ey mehr, tutiya eləmə
(*tərc. Ə.Vahid*) 28
Tənimdə getməyə yox kuyi-yarə tabü təvan
(*tərc. Ə.Vahid*) 29
Gizli dərdim necə olmaz bu qədər qəmlə əyan
(*tərc. Ə.Vahid*) 30
Yanarkən könlümün pünhan oduyla şəmtək canım
(*tərc. Ə.Vahid*) 31
Çəkdim yolunda əksini bu cismi-zarımın
(*tərc. Ə.Vahid*) 32
Qəmi-nigardən özgə bir həmdəm istəmirəm
(*tərc. Ə.Vahid*) 33
Eşitmiş gül cəfasından səhər bülbül edər əfğan
(*tərc. M.Mübariz*) 34
Gizliyəm zəfdə mən, lütfdə yarın bədəni
(*tərc. Ə.Vahid*) 35
Əqldən eşq cida saldı, zəbun etdi məni
(*tərc. Ə.Vahid*) 36
Saqi, mey ver, söyləyim ol ləli-canandan sənə
(*tərc. Ə.Vahid*) 37

Xaki-dərini sürmeyi-çeşmü bəsər etdik
(*tərc. Ə.Vahid*) 38
Bahar əyyamıdır, gəlməz, nədəndir, şurə bülbüllər
(*tərc. Ə.Vahid*) 39
Ol gün ki, görməyir gözümüz öz həbibini
(*tərc. Ə.Vahid*) 40
Şərh etsəm eşqini, tutar heyrət zəbanımı
(*tərc. Ə.Vahid*) 41
Od yanaqlı yardan ayrı saldı çün dövran məni
(*tərc. M.Mübariz*) 42
Gülüm, hər ləhzə dilindən tutar azar məni
(*tərc. M.Mübariz*) 43
Gəl alma qəlbini məndən, nəsibim qəm olar, canan!
(*tərc. M.Mübariz*) 44
Qarət etdi yuxumu, uyquma gəldi gecə yar
(*tərc. M.Mübariz*) 45
Nə qalıb məndə dilü din, nə də ki, səbrü qərar
(*tərc. M.Mübariz*) 46
Mən qəmə öyrənmişəm, biqəm mənə lazım deyil
(*tərc. M.Mübariz*) 47
Cəmalın bir günəş tək parladı, nəm qoymadı canda
(*tərc. M.Mübariz*) 48
Gər öləndən sonra kuyin etsələr mədfən mənə
(*tərc. Ə.Vahid*) 49
O yarın gülüzarında, könül, bir xarə yetdim mən
(*tərc. Ə.Vahid*) 50
Dünyaya gəlmişik, qəm ilə həmdəm olmuşuq
(*tərc. Ə.Vahid*) 51
Asiman, sinəni ahım gecələr aldı nişan
(*tərc. M.Mübariz*) 52
Utanmaqdan deyil, açmaz söz ol şirinzəban bizdən
(*tərc. M.Mübariz*) 53
Səbəb var, istərəm daim xəti-rüxsari-xubani
(*tərc. M.Mübariz*) 54
Afət olsan da, könülsən, cismsən, cansan mənə
(*tərc. M.Mübariz*) 55
Cülrüxüm, sərvqədim, canına canımdı fəda
(*tərc. M.Seyidzadə*) 56

Salmasaydı bəndə gər ol türreyi-pürxəm məni
(*tərc. M.Seyidzadə*) 57
Mənim əhvalıma rəhm eyləməzsən, ey gözəl, bir an
(*tərc. M.Mübariz*) 58
Möhnət odilə şəm misal od tutub tənim
(*tərc. Ə.Vahid*) 59
Bu qədər məndə həvəs kim, qədi-rənadən olub
(*tərc. Ə.Vahid*) 60
Qəddi-balana baxanda bir bəla gördüm səni
(*tərc. Ə.Vahid*) 61
Kimsə bizə hicran gecəsində güzər etməz
(*tərc. M.Mübariz*) 62
O qara zülfünü gəl açma sən, ey nazlı nigar!
(*tərc. M.Mübariz*) 63
Tərki-dünyalıq nədir, təqva nədir, biz bilmərik
(*tərc. M.Mübariz*) 64
Könüldə, canda eylər ol pərinin dərdini pünhan
(*tərc. M.Mübariz*) 65
Eşqdə məzmun olub xətti-rüxi-canan mənə
(*tərc. Ə.Vahid*) 66
Xali vardır, söyləyir, kim gördü ruyi-alini
(*tərc. Ə.Vahid*) 67
Görüşün nur verir dideyi-xunbarımıza
(*tərc. Ə.Vahid*) 68
Kirpiyimdən qan sızar şamü səhər, bilməm neçin?
(*tərc. M.Mübariz*) 69
Yoxdu bu rüsvalığın dərdinə dərman, ey təbib!
(*tərc. M.Mübariz*) 70
Qəmi sinəmdə yer tutmuş, ürək pürxun ola, ya Rəb!
(*tərc. M.Seyidzadə*) 71
Yarın hicrində yenə gözlərim ağlar bu gecə
(*tərc. M.Mübariz*) 72
Gər gözümdən almasa könlüm odu hər ləhzə ab
(*tərc. M.Seyidzadə*) 73
Sübhədək yatmayıram, yoxdu qərarım gecələr
(*tərc. M.Seyidzadə*) 74
Tünd olur hərdəm məzaci bisəbəb
(*tərc. M.Seyidzadə*) 75

Gülzari-kuyin içrə rəqibin səfası var
(*tərc. Ə.Vahid*) 76
Gəlmək imkanım olardı kuyinə, qoymur rəqib
(*tərc. M.Seyidzadə*) 77
Qurandı vəsfi-cahü cəlali Məhəmmədin
(*tərc. M.Seyidzadə*) 78
Var canda arizusu vüsali-Məhəmmədin
(*tərc. M.Seyidzadə*) 79
Ey ay üzlüm, qamətin sərvi-xuramandır mənə
(*tərc. M.Seyidzadə*) 80
Atlanıb ol türki-bədxu eylədi əzmi-şikar
(*tərc. M.Mübariz*) 81
Yaşlı göz bir güzgüdür, onda könüllər əks edər
(*tərc. M.Mübariz*) 82
Ömrüm uzun olubsa pərişan keçib gedib
(*tərc. M.Seyidzadə*) 83
Ey könül, hicran qəmindən bir əlamət qalmamış
(*tərc. M.Seyidzadə*) 84
Məcnunla mənim dərdimin əfsanəsi birdir
(*tərc. M.Seyidzadə*) 85
Həmişə feyzi-bəqadır bu zövqi-cam mənə
(*tərc. M.Seyidzadə*) 86
Sərvdə qəddin qədər yoxdur gözəllik, ey pəri!
(*tərc. M.Mübariz*) 87
Məhi-dəllakim olub ayineyi-əhli-nəzər
(*tərc. M.Seyidzadə*) 88
Günəş çox torpağa düşdü ki, nur alsın yanağından
(*tərc. M.Mübariz*) 89
Bağdan, yarın boyu xoşdur mənə şümşaddan
(*tərc. M.Seyidzadə*) 90
Oxlarından həlqə-həlqə oldu zəncir tək tənim
(*tərc. M.Seyidzadə*) 91
Hicran günündə hali-dili-zar olar çətin
(*tərc. M.Seyidzadə*) 92
Qəmli axşamlarının yoxmu, ayüzlüm, səhəri?
(*tərc. M.Seyidzadə*) 93
Könlümün şadlığıdır, qəlbimə sultandı qəmin
(*tərc. M.Seyidzadə*) 94

Halım hər an sənin eşqində digərgun olmuş
(*tərc. M.Seyidzadə*) 95
Bağlayıb qəlbimi geysuyi-xəmi-pürşikənin
(*tərc. M.Seyidzadə*) 96
Gəldi gül gülzarə, ömründə ona kam olmadı
(*tərc. M.Seyidzadə*) 97
Bizim məclis qurulmaz heç zaman, ey simbər, sənsiz
(*tərc. M.Mübariz*) 98
Könlümün ayinəsin sındırdı ol ziyba mənim
(*tərc. Ə.Vahid*) 99
Məh cəmalində niqabi olmasa gər, qəm deyil
(*tərc. Ə.Vahid*) 100
Xətin ki, gül üzünü mişk ilə niqabə salar
(*tərc. Ə.Vahid*) 101
Cismim içrə təkcə bu yüz zəxmi-bidərman deyil
(*tərc. Ə.Vahid*) 102
Xalın qəmi gedərmi könüldən füsun ilə
(*tərc. Ə.Vahid*) 103
Güldən almış ziynəti ol türfə dəstarın sənin
(*tərc. M.Seyidzadə*) 104
Sevmək sənəmləri, sınadım, bir bəla imiş
(*tərc. M.Mübariz*) 105
Könül xaki-rəhinlə birləşib, kuyin məkan etmiş
(*tərc. M.Mübariz*) 106
Qoy bu gülşəndə mənə gül üzlülər yar olmasın
(*tərc. M.Mübariz*) 107
Vüsalın zövqünə kölgən sənin hər ləhzə mayildir
(*tərc. M.Mübariz*) 108
Sanma kim, könlüm pərilər kaminə yetmək dilər
(*tərc. M.Mübariz*) 109
Bizə hədsiz cəfalər gördü məhrulər rəva hər dəm
(*tərc. M.Mübariz*) 110
Lalə qəlbin yaxıb eşqin, onu sevdayə salıb
(*tərc. M.Mübariz*) 111
Cəfadır aşiqə kəmmərhəmət olarsa nigar
(*tərc. M.Mübariz*) 112
Qırmızı donda o qamətlə sən, ey huriüzar!
(*tərc. M.Mübariz*) 113

Mənim bu halimə ol ay nədən nəzər qılmaz
(*tərc. Ə.Vahid*) 114
Kim deyir bağda qədin tək sərv yox, ey can alan!
(*tərc. M.Mübariz*) 115
Hanı ol nalə ki, hər qəlbdə vardır əsəri
(*tərc. M.Seyidzadə*) 116
Sanma tək bircə mənim qəddimi eşq eylədi xəm
(*tərc. M.Seyidzadə*) 117
İşim qəmində yenə çeşmi-əşkbarə düşüb
(*tərc. Ə.Vahid*) 118
Ləbi-lələndən uzaq istəmərəm abi-həyat
(*tərc. M.Seyidzadə*) 119
İki hörük arasında üzün qiyamət edər
(*tərc. M.Mübariz*) 120
Sel kimi göz yaşım etdi qəlbimi viran, aman!
(*tərc. M.Mübariz*) 121
Sanırdım öldürəcək nazlı bir nigar məni
(*tərc. M.Seyidzadə*) 122
Fəna səhrasının çıx seyrinə, yaxşı səyahətdir
(*tərc. M.Mübariz*) 123
Bir can ki, ondan almaya azar hardadır?
(*tərc. Ə.Vahid*) 124
Mənim könlüm sənin eşqinlə çoxda aşinadır, bil!
(*tərc. M.Mübariz*) 125
Hər kimin ki, qəlbi var, bir simbər cananı var
(*tərc. M.Mübariz*) 126
Canım yolunda min qəmü dərdə nişanədir
(*tərc. M.Mübariz*) 127
Şöhrətim artdıqca eşqimdə, adın şöhrət tapar
(*tərc. M.Mübariz*) 128
Əgər rüsvayəm aləmdə, ona olmuş fəğan bais
(*tərc. Ə.Vahid*) 129
Dil açıb şəm elədi arizi-dildar ilə bəhs
(*tərc. Ə.Vahid*) 130
Günah mərəzlərinin cümləsinə sənsən əlac
(*tərc. M.Mübariz*) 131
Dərdinə əğyarın etmiş yar əlac
(*tərc. M.Seyidzadə*) 132

Əksi-ləbinlə könlümü al qan edir qədəh
(*tərc. M.Seyidzadə*) 133
Nəsihət eyləyib göz yaşı da töksə əgər naseh
(*tərc. M.Seyidzadə*) 134
Ahım edəndə cilvə olur dar fəzayi-çərx
(*tərc. M.Seyidzadə*) 135
Könlümə xoşdu mənim sevgili canan, ey şeyx!
(*tərc. M.Seyidzadə*) 136
Kimin ki, mən kimi var sinəsində dağı-ciyər
(*tərc. M.Seyidzadə*) 137
Açar düyünlərimi, açsa bəlkə naleyi-zar
(*tərc. M.Seyidzadə*) 138
Vəslin mənə novruz gecəsi oldu müyəssər
(*tərc. M.Seyidzadə*) 139
Zənn qılma gözlərimdən ləxtə-ləxtə qan damar
(*tərc. M.Mübariz*) 140
Könül bir dəm gözün rüxsarinə, ey nazlı yar, açmaz
(*tərc. Ə.Vahid*) 141
Nə yaxşıdır nəzərimdə o gülüzarın ola
(*tərc. Ə.Vahid*) 142
Qətlimə xəncərlə qəsd etdi o türki-tündxu
(*tərc. Ə.Vahid*) 143
Zülfün qəmilə oldu könül mübtəla sənə
(*tərc. Ə.Vahid*) 144
O məhrudən mənə nə lütf vardır, nə kərəm vardır
(*tərc. Ə.Vahid*) 145
Daha üftadə bizi sevgili canan diləyir
(*tərc. M.Şəbüstərli*) 146
O sərvin qamətin göstərdi güzgü, min xəta etdi
(*tərc. M.Şəbüstərli*) 147
Nə bilirdim ki, edər bunca o məhparə sitəm
(*tərc. M.Şəbüstərli*) 148
Könlümün cövr təmənnası var ol bədxudən
(*tərc. M.Şəbüstərli*) 149
Qoy cəfanı mən çəkim, olsun vəfa dildar ilə
(*tərc. Ə.Vahid*) 150
Tiği-cövrünlə könül, var yeri, bərbad olsa
(*tərc. Ə.Vahid*) 151

Bu möhnətxanədə aqil olanlar xaniman tutmaz
(*tərc. M.Mübariz*) 152
Mələk ol sərvi-rəvanın qədinə salsa nəzər
(*tərc. M.Mübariz*) 153
Möhtaci-vüsalın, gözəlim, söylə kim olmaz?
(*tərc. F. Seyidov*) 154
Şəbi-hicran xəyalın etdi xəlvətxanəmi rövşən
(*tərc. F. Seyidov*) 155
Deyil hübab o kim, göz yaşımda oldu əyan
(*tərc. M.Mübariz*) 156
Bəzək vaxtı baxarsa güzgüyə gül üzlü ol canan
(*tərc. M.Mübariz*) 157
Salmasın Tanrı məni ol sərv boylumdan cida
(*tərc. M.Seyidzadə*) 158
Şövqi-ləlin könlümü hər ləhzə pürxun eyləyər
(*tərc. M.Seyidzadə*) 159
Hər pəriçöhrə ki, dünyayə bu dövran gətirir
(*tərc. M.Seyidzadə*) 160
Qəsd eləyib canımıza, aşiqə etməyin cəfa
(*tərc. M.Seyidzadə*) 161
"Bağrı qan olma" deyən, könlüm necə qan olmasın?
(*tərc. M.Seyidzadə*) 162
Yar kuyindən çəkir bəxtim məni biixtiyar
(*tərc. M.Seyidzadə*) 163
Qalmadı qəlbimdə bir insanla söhbətçün həvəs
(*tərc. M.Seyidzadə*) 164
Zülmündən, ey sənəm, dolub ahimlə asiman
(*tərc. M.Seyidzadə*) 165
Çoxdu dərdim, kədərim, möhnətimi yar bilir
(*tərc. M.Seyidzadə*) 166
Ol qələm kim, nəqş edib surətləri, ey dilrüba
(*tərc. M.Seyidzadə*) 167
Girdbadın tozu, ey məh, demə örtüb bədənim
(*tərc. M.Seyidzadə*) 168
Var bu sinəmdə oxundan yüz yara hərdəm mənim
(*tərc. M.Seyidzadə*) 169
Qanlı göz yaşım sübut eylər, ciyər pürxun olub
(*tərc. M.Seyidzadə*) 170

Gecə xatırlamayır dərdimi bəzmində nədən
(*tərc. M.Seyidzadə*) 171
Yel atıb pərdəni görcək yüzün, ey simbərim!
(*tərc. M.Seyidzadə*) 172
Çıxsa can qaytarar ətrin, gözəlim, can bədənə
(*tərc. M.Seyidzadə*) 173
Həmmam ilə ənis dünən nazlı yar olub
(*tərc. M.Seyidzadə*) 174
Öldürür şadlıq məni təndən əgər peykan çıxa
(*tərc. M.Seyidzadə*) 175
Sərv boylum sayə salsa başıma gər bir kərə
(*tərc. M.Seyidzadə*) 176
Ayinədə əksim özümə bir nəzər etdi
(*tərc. M.Seyidzadə*) 177
Könlümün gözləri yar nərgisinə saldı nəzər
(*tərc. M.Seyidzadə*) 178
Ayüzlüm hər kəsə ləli-ləbindən kam vermişdir
(*tərc. M.Seyidzadə*) 179
Yar üçün yar gərək təneyi-əğyar çəkə
(*tərc. M.Seyidzadə*) 180
Aşiqi-sadiqdə aşiqçün gərək pərva ola
(*tərc. M.Seyidzadə*) 181
Lütf edir bəzən mənə, bəzən edir çövrü cəfa
(*tərc. M.Seyidzadə*) 182
Səba yeli o gülümdən neçin xəbər verməz?
(*tərc. M.Seyidzadə*) 183
Dərdini sinəmdə könlüm eylə bil can bəsləyir
(*tərc. Ə.Vahid*) 184
Xoş ol ki, ney kimi hər bəndimi cida edələr
(*tərc. Ə.Vahid*) 185
Ağlaram, var gözümün yaşına, əlbəttə, səbəb
(*tərc. Ə.Vahid*) 186
Könlümün dərdinə dildar dəva etməyəcək
(*tərc. Ə.Vahid*) 187
Qəmi-cananı bilənlər məni-nalanə yanar
(*tərc. Ə.Vahid*) 188
Könül, istərdim ol məhru bizə eldən nihan gəlsin
(*tərc. Ə.Vahid*) 189

Hər kəsin dildə qəmi-simbəri olmuş ola
(*tərc. Ə.Vahid*) 190
Dedim: eşqində könül zarü həzin olmalıdır
(*tərc. Ə.Vahid*) 191
Deyəndə dərdimi, saqi mənə şərab verir
(*tərc. Ə.Vahid*) 192
Kim ki, heyran olur ol dilbəri-siminbədənə
(*tərc. Ə.Vahid*) 193
Razıyam könlümü bir zülfi-sitəmkar apara
(*tərc. Ə.Vahid*) 194
Parə-parə ürəyim çeşmi-tərimdən düşsün
(*tərc. Ə.Vahid*) 195
Fəryad mənim müşkül olan karımı açmaz
(*tərc. Ə.Vahid*) 196
Çərx kin tiği çəkib, sinəmizi çakə salar
(*tərc. Ə.Vahid*) 197
Təkcə canım deyil, eşqində onun yarəsi var
(*tərc. Ə.Vahid*) 198
Səni görcək ürəyim yanmadı, xəndan oldu
(*tərc. Ə.Vahid*) 199
Dil giriftar olub ol geysuyə
(*tərc. Ə.Vahid*) 200
Nədəndir halimə rəhmin sənin, ey məhliqa, gəlmir?
(*tərc. Ə.Vahid*) 201
Kuyinin sakiniyik biz diri olsaq nə qədər
(*tərc. Ə.Vahid*) 202
Üz çevirmə, sevgilim, məndən çəkərsən dərdi-sər
(*tərc. Ə.Vahid*) 203
Sənsiz etsək, gözəlim, söhbəti-can, ləzzəti yox
(*tərc. Ə.Vahid*) 204
Çəkir eşqin məni hərdəm yeni bazarə yenə
(*tərc. Ə.Vahid*) 205
Ey könül, yarı istə, candan keç!
(*tərc. Ə.Vahid*) 206
Oynamaqçün hər uşaq qəlbimi bir yanə çəkər
(*tərc. Ə.Vahid*) 207
Arxanca kölgə olmaq fəxrimdir, ey səmənbər
(*tərc. Ə.Vahid*) 208

Bizimlə zahidin felində bunca kim, təfavüt var
(*tərc. M.Mübariz*) 209
Ey üzün gülşəni gülzari-cahandan rəna
(*tərc. Ə.Vahid*) 210
Yandı qəlbim, gözdə qanlı qətrələr vardır hələ
(*tərc. Ə.Vahid*) 211
Cism xak oldu, qəmin munisi-candır hələ də
(*tərc. Ə.Vahid*) 212
Könlüm eşqin ilə rüsvayi-cahan oldu bu gün
(*tərc. Ə.Vahid*) 213
Könül, ağlar göz ilə bax o günəş rüxsarə
(*tərc. Ə.Vahid*) 214
Dil əsiri-ol ləbi-gülbərgi-xəndandır yenə
(*tərc. Ə.Vahid*) 215
Sevgilim, şadlıq gecəmdə şəmi-rüxsarın yetər
(*tərc. Ə.Vahid*) 216
Mənə təklikdə qalan gün qəmi-yarım bəsdir
(*tərc. Ə.Vahid*) 217
Xəlqlə həmsöhbət olmaqdan, könül, kəsdin həvəs
(*tərc. Ə.Vahid*) 218
Demə fəqət mənim ol yari-gül üzarımdır
(*tərc. Ə.Vahid*) 219
Qəmində naleyi-zarın mənim tək heç kəsin yoxdur
(*tərc. Ə.Vahid*) 220
Ya Rəb, bəhəqqi-xatiri-rindani-dürdnuş
(*tərc. Ə.Vahid*) 221
Gördükdə səni çəkdi xəcalət güli-xəndan
(*tərc. M.Şəbüstərli*) 222
Ömürlük ayrılıq camindən içmək zəhri-hicranı
(*tərc. M.Şəbüstərli*) 223
Uçub könlüm quşu, meyl etdi bir sərvi-xuramanə
(*tərc. M.Şəbüstərli*) 224
Nə bəhsə girmisən, ey qönçə, görcək ləblərin yarın
(*tərc. M.Şəbüstərli*) 225
Kuyinə getdim, baxam bir dəm o gül rüxsarə mən
(*tərc. M.Mübariz*) 226
Yarpağın tutdu bərabər gül o məh tələt ilə
(*tərc. M.Şəbüstərli*) 227

Həmdəmim heyrətdir ancaq, ayrı düşsəm yardən
(*tərc. M.Şəbüstərli*) 228
Qəhr edər yarım, ona gər mahi-taban söyləyəm
(*tərc. M.Şəbüstərli*) 229
Nişani-rəhməti-həq surətində oldu əyan
(*tərc. M.Şəbüstərli*) 230
Aləmi gəzməyimizdən bizə yar idi qərəz
(*tərc. M.Şəbüstərli*) 231
Ənbərdən ay camalını salmış həsarə xət
(*tərc. M.Şəbüstərli*) 232
Cəhənnəmdən verir aşiqlərə hər gün xəbər vaiz
(*tərc. M.Şəbüstərli*) 233
Canan yolunda başını eylər nisar şəm
(*tərc. M.Şəbüstərli*) 234
Gördü məhrəm məni ol sevgili canana çıraq
(*tərc. M.Şəbüstərli*) 235
Demə rəyimlə damanın çıxıb, ey şəhsüvar, əldən
(*tərc. M.Mübariz*) 236
Qəm yolunda diləsən kim, ola bir yar sənə
(*tərc. M.Mübariz*) 237
Hüsn bağı gül camalından alıbdır ziyvəri
(*tərc. M.Mübariz*) 238
Rəhi-eşqə düşəli yarım olubdur tovfiq
(*tərc. M.Mübariz*) 239
Tərk etdi yar, etdi məni biqərar eşq
(*tərc. M.Mübariz*) 240
Könül dərdi sənin eşqindən olmuş aşiqə hasil
(*tərc. M.Mübariz*) 241
İstər ki, yardan bizi etsin cida fələk
(*tərc. M.Mübariz*) 242
Əzilsəm, torpatımdan çıxmasın toz – istəmiş dövran
(*tərc. M.Mübariz*) 243
Min dərdlinin əlacı olmuş əlinlə hasil
(*tərc. M.Mübariz*) 244
Qəmi-hicrində mənə vermədi üz bir elə hal
(*tərc. M.Mübariz*) 245
Sənin qəminlə, gülüm, biqərar olubdur dil
(*tərc. M.Mübariz*) 246

Göz könüldən, qəlb gözdən çox, inan, istər səni
(*tərc. M.Mübariz*) 247
Qaşların sevdasına könlüm düşübdür müttəsil
(*tərc. M.Mübariz*) 248
Tel üstündən başa taxmış çələng ol məhliqa güldən
(*tərc. M.Mübariz*) 249
Sabah bayramdır, ey ömrüm, aman ver, eyləmə təcil
(*tərc. M.Mübariz*) 250
Gülüm, yolunda qəmi bihesabdır könlün
(*tərc. M.Mübariz*) 251
Məgər ki, quş dilin anlar qızıl gül
(*tərc. M.Mübariz*) 252
Tökülüb zülfi-pərişan üzünə halə misal
(*tərc. M.Mübariz*) 253
Kipriyindən qanlı bir köynək geyinmişdir mənim
(*tərc. M.Mübariz*) 254
Muradə yetmədən guyindən, ey siminbədən, getdim
(*tərc. M.Mübariz*) 255
Lalə üzlü o gözəlsiz yerim olmuş külxən
(*tərc. M.Mübariz*) 256
Sənin qəmində əsiri-qəmü bəla oldum
(*tərc. M.Mübariz*) 257
Gözəllər eşqinə düşdüm, nə çox cövrü cəfa gördüm
(*tərc. M.Mübariz*) 258
Bircə an çıxmadı başdan qəmin, ey taci-sərim
(*tərc. M.Mübariz*) 259
O qıvrım saçlarından min cəfa çəkdim, kədər gördüm
(*tərc. M.Mübariz*) 260
Deyil kirpik bu kim, qan ilə qəltan, ey nigar, etdim
(*tərc. M.Mübariz*) 261
Oxladın gər sinəmi, ondan deyil bunca fəğan
(*tərc. M.Mübariz*) 262
Qurumaz gözlərimin yaşı mən ölsəm də əgər
(*tərc. M.Mübariz*) 263
Məni fikirlə elə məhv edib o qönçədəhan
(*tərc. M.Mübariz*) 264
Varlıq qapısın mən üzümə bağladığımdan
(*tərc. M.Mübariz*) 265

Gələrkən kuyinə, gözdən ayaq mən binəva etdim
(*tərc. M.Mübariz*) 266
İnlərəm, rəhm eləməz halıma yarım, nə edim?
(*tərc. M.Mübariz*) 267
Canımı tapşırmışam çün ləli-şəkkərbarə mən
(*tərc. M.Mübariz*) 268
O qəddi sərvin eşqində elə könlüm olub heyran
(*tərc. M.Mübariz*) 269
Sənə verdim könül, göz çəkdim həm canandan, həm candan
(*tərc. M.Mübariz*) 270
Bir dolu cam ilə, saqi, məni qıl məstü xumar
(*tərc. M.Mübariz*) 271
Yenə at çapdı meydanda, qopardı toz o cananım
(*tərc. M.Mübariz*) 272
Göz içrə ol gözələ bir əziz məkan verdim
(*tərc. M.Mübariz*) 273
Axıtdım qanlı göz yaşım, hübabindən məkan etdim
(*tərc. M.Mübariz*) 274
Gül camalından uzaq hər yerdə yatdım, ey nigar
(*tərc. M.Mübariz*) 275
Ey pəri, bir ömrdür ol gülüzarı görmədik
(*tərc. M.Mübariz*) 276
Alışdım şam kimi, ol atəşin rüxsarını görcək
(*tərc. M.Mübariz*) 277
Xaki-payindən gözümə sürmə, ey yar, istərəm
(*tərc. M.Mübariz*) 278
Səndən səvay baxmamışıq bir nigarə biz
(*tərc. M.Mübariz*) 279
Zülfünün hər bir tükü can riştəmə bağlandı, yar
(*tərc. M.Mübariz*) 280
Bu şikayətlər ki, yarımdan məni-zar eylərəm
(*tərc. M.Mübariz*) 281
Cövründə hər dəqiqə yetər yüz bəla mənə
(*tərc. M.Mübariz*) 282
Şux sənəmlər eşqinə düşmüş könül, divanəyəm
(*tərc. M.Mübariz*) 283
Yanmasa eşq oduna, cismdə can istəmərəm
(*tərc. M.Mübariz*) 284

Bir ömürdür yaxşı üz öz yarımızdan görmədik
(*tərc. M.Mübariz*) 285
Biz, gözəldən başqa, dünyaya nəzər az etmişik
(*tərc. M.Mübariz*) 286
Dostlar, əlimə keçdi, axtardığım o gövhər
(*tərc. M.Mübariz*) 287
Mən odam, rəsmi budur mənzilim olsun külxən
(*tərc. M.Mübariz*) 288
Yandı göydə ulduz, ay, bir ah çəkdim dün səhər
(*tərc. M.Mübariz*) 289
Könül ayinəsində əks olan, ey məhliqa, sənsən
(*tərc. M.Mübariz*) 290
Aşiqəm, bir sənəmi-laləüzarım vardır
(*tərc. M.Mübariz*) 291
Qapından toz kimi bir an ayırsa cismimi yellər
(*tərc. M.Mübariz*) 292
Aləm bizə zindanə dönə, qəm yemərik biz
(*tərc. M.Mübariz*) 293
Mənim cahanda ki, bir yari-gülüzarım yox
(*tərc. M.Mübariz*) 294
Qəlbimin dərdini mən istəmirəm yarə yazam
(*tərc. M.Mübariz*) 295
Zülm şəmşirilə hicranın məni, yar, öldürər
(*tərc. M.Mübariz*) 296
Fədakarlıqda şəmi-bəzmi-canandan deyildim kəm
(*tərc. M.Mübariz*) 297
Sərvi-nazım nəzər etməz məni-zarə, nə edim?
(*tərc. M.Mübariz*) 298
Aləmin az-çoxunu atmışıq, olmaz qəmimiz
(*tərc. M.Mübariz*) 299
Mənimlə tərk edir kuyini yarın bir qəmər dərdi
(*tərc. M.Mübariz*) 300
Sinədə yüz gizli dərdim qaldı, canan, əlvida!
(*tərc. M.Mübariz*) 301
Budur illət səni mən güzgüyə oxşatmaram, cana!
(*tərc. M.Mübariz*) 302
Şümşaddır, deyim necə, ol sərv qamətin
(*tərc. M.Mübariz*) 303

Xeyli vaxtdır sənlə, ey gül, dərdisər az etmişik
(*tərc. M.Mübariz*) 304
İsladam, kaş, ürək qanı ilə xaki-dərin
(*tərc. Ə.Vahid*) 305
Əlif qədin həvəsi çəkdi sinəm üzrə nişan
(*tərc. Ə.Vahid*) 306
Sənin əksin deyil ayinədə, ey nazlı sənəm
(*tərc. Ə.Vahid*) 307
Ondan soruşun sirri-dəhanı, nə bilim mən?
(*tərc. Ə.Vahid*) 308
Könlümü dərdə salan ol ləbi-meygun olmuş
(*tərc. Ə.Vahid*) 309
Mən uşaq tək ağlamaqdan başqa aləm bilmirəm
(*tərc. Ə.Vahid*) 310
Eşqin ilə yenə könlümdə məlalım vardır
(*tərc. Ə.Vahid*) 311
Gəzirkən kölgə kuyində məni rəşk etdi sərgərdan
(*tərc. Ə.Vahid*) 312
Haçan düşür gözüm ol gül üzarə ağlayıram
(*tərc. Ə.Vahid*) 313
Könlümdəki qəm qövçeyi-xəndanın üçündür
(*tərc. Ə.Vahid*) 314
Qəm qılıncın eyləyib cismimi sədparə mənim
(*tərc. Ə.Vahid*) 315
Hər zülm edib mənə o sitəmkar çəkmişəm
(*tərc. M.Sultanov*) 316
Yüz dəfə göz açdım güli-rüxsarına, ey can
(*tərc. M.Sultanov*) 317
Açanda göz üzünə aşiqin, olur heyran
(*tərc. M.Sultanov*) 318
Qan içən dilbərimin şüğli cəfadır, bilirəm
(*tərc. M.Sultanov*) 319
Var nə təqsirim yenə mən çeşmi-yardan düşmüşəm
(*tərc. M.Sultanov*) 320
Səndən ürək qəmin, gözəlim, pünhan etmərəm
(*tərc. M.Sultanov*) 321
Mən ona naləylə izhari-qəmi-dil etmişəm
(*tərc. M.Sultanov*) 322

Sanmayın məhrulərə aşiq olan tənha mənəm
(*tərc. M.Sultanov*) 323
Ey şəm, yanıbdır sənin eşqində rəvanım
(*tərc. M.Sultanov*) 324
Ol ləli-süxənkuyinə aşiq dili-zarım
(*tərc. M.Sultanov*) 325
Biz heç zamanda tərki-rüxi-yar etmərik
(*tərc. M.Sultanov*) 326
Cəhd ilə bağladım axırda qara zülfünə dil
(*tərc. M.Sultanov*) 327
Görəndə ruyini ayə necə baxım heyran
(*tərc. M.Sultanov*) 328
Qalsın nə vaxtadək belə pürğəm bu könlümüz?
(*tərc. M.Sultanov*) 329
Heç zaman sən özünü tabei-əğyar eləmə
(*tərc. M.Sultanov*) 330
Əsiri-dami-zülf etdin, dolandır başına, canan!
(*tərc. M.Sultanov*) 331
Sən bir göz açıb, bir də məni-zarə nəzər sal
(*tərc. M.Sultanov*) 332
Sənin hicrində, ey şəmim, düşüb zülmatə, zarəm mən
(*tərc. M.Sultanov*) 333
Üzbəüz olmuşdu mənlə dün gecə bir nazlı yar
(*tərc. M.Sultanov*) 334
Duydu xəyalımı o gözəl, bildi halımı
(*tərc. M.Sultanov*) 335
Qorxuram bu cismi-zarımdan o dəm ki, can çıxa
(*tərc. M.Sultanov*) 336
Ey gözəl, getmə, mənim qəlbimi sən qan eləmə
(*tərc. M.Sultanov*) 337
Qaşların eşq əhlinin sevdasın artırmış hər an
(*tərc. M.Sultanov*) 338
Ölməz idim tiğ ilə yüz yarə vursaydı əgər
(*tərc. M.Sultanov*) 339
Oldu bu bəd zəmanədə həm taleyim zəbun
(*tərc. M.Sultanov*) 340
Bilindi mehrin, ey gərdun, sənin də var bu mahimdə
(*tərc. M.Sultanov*) 341

Sinəm yarıldı, oldu ürək ləxtə-ləxtə xun
(*tərc. M.Sultanov*) 342
Dərdi-dilimə lütf eləyib bircə dəva qıl
(*tərc. M.Sultanov*) 343
Səri-kuyin, gözəlim, gər mənə olsaydı diyar
(*tərc. M.Sultanov*) 344
Əgərçi rəhm eləməzsən bu hali-naşadə
(*tərc. M.Sultanov*) 345
Göstərirsən üz ki, xurşidi-cahanara budur
(*tərc. M.Sultanov*) 346
Çıxmayınca ta bədəndən eşq dərdilə bu can
(*tərc. M.Sultanov*) 347
Qəmi-ləlin könüldə saxladım, sandım ki, candır bu
(*tərc. M.Sultanov*) 348
Səfərçün çıxdı evdən o gülüzlü məhliqa dilbər
(*tərc. M.Sultanov*) 349
Nə etdim bilmirəm yarə ki, küsdü nazlı yar məndən
(*tərc. M.Sultanov*) 350
Yaxıbsan qəlbi, barı şölə tək gəl çəkmə sər səndən
(*tərc. M.Sultanov*) 351
Ey ürək, eşqdən sən ar eləmə
(*tərc. M.Sultanov*) 352
Aşiqəm, sevməkdən özgə kar əlimdən gəlməyir
(*tərc. M.Sultanov*) 353
Ürək odunda yanıb, şəm tək iztirabım var
(*tərc. M.Sultanov*) 354
Deyil hübab tutubdur bu dideyi-tərimi
(*tərc. M.Sultanov*) 355
Ey aləm içrə ən uca məsnəd məkan sənə
(*tərc. M.Sultanov*) 356
Olmaz fələk bərabəri ol bargahının
(*tərc. M.Sultanov*) 357
Başım möhnət balıncında çəkib azar uzaq səndən
(*tərc. M.Sultanov*) 358
Qoymayır naseh tökəm yaş, həsrətəm rüxsarına
(*tərc. M.Sultanov*) 359
Qəlb pünhan olsa da, yüz qanlı peykan onda var
(*tərc. M.Sultanov*) 360

Daha xoşdur ki, halımdan xəbərsiz qalsa daim yar
(*tərc. M.Sultanov*) 361
Əgər ölmüşsə Məcnun, qalmışam mən yadigar ondan
(*tərc. M.Sultanov*) 362
Sinə içrə qəlbimi divanə etdi eşqi-yar
(*tərc. M.Sultanov*) 363
Yüksəlir göylərə, ey mah, fəğanım sənsiz
(*tərc. M.Sultanov*) 364
Könül ələmlərini mən verim, xəbər, sən eşit!
(*tərc. M.Sultanov*) 365
Ey məst, bil ki, bir mənəm eşqində xunciyər
(*tərc. M.Sultanov*) 366
İki bölündü sənin möcüzünlə çərxdə mah
(*tərc. M.Sultanov*) 367
Dün eşitdim gülşənə naz ilə etmişsən güzar
(*tərc. M.Sultanov*) 368
Lalə tək qəlbim mənim, ey nazənin, yüz parədir
(*tərc. M.Sultanov*) 369
Şanə, ey gül, o qara zülfünü zinhar eləmə
(*tərc. M.Sultanov*) 370
Gəlib keçdin, yolunda gör necə bu xaki-sər qalmış
(*tərc. M.Sultanov*) 371
Mənləsən, ah, mənə, heyf, deyilsən mail
(*tərc. M.Sultanov*) 372
Bizi qəmzənlə, ey zalım, həlak etdin, yaman etdin
(*tərc. M.Mübariz*) 373
Boy atıbsan sərv tək, bir afəti-can olmusan
(*tərc. M.Mübariz*) 374
Nə xəta çıxmış əlimdən, salmısan gözdən məni
(*tərc. M.Mübariz*) 375
Səndən özgə bizlərin yoxdur pənahı, ya Nəbi!
(*tərc. M.Mübariz*) 376
Sən mənə yar olalı baisi-azarımsan
(*tərc. M.Mübariz*) 377
Zəifəm eylə kim, hicrində bir xurşidrüxsarın
(*tərc. M.Mübariz*) 378
Ol qəbadən, pirəhəndən yaxşıdır qəbrü kəfən
(*tərc. M.Mübariz*) 379

Ey cahandidə gözüm, bunca ki, çox yaşın var
(*tərc. M.Mübariz*) 380
Bu diyar içrə mənə nə yar, nə qəmxar var
(*tərc. M.Mübariz*) 381
Gözümdə nur, bu cismimdə bir əziz cansan
(*tərc. M.Mübariz*) 382
Mənə, ey sayə, qəm dəştində daim həmdəm oldun sən
(*tərc. M.Mübariz*) 383
Dedin ki, əhli-vəfayə cəfa sən etməyəsən
(*tərc. M.Mübariz*) 384
Əzbər olmuşdur dilimdə şanlı namın, ya Əli!
(*tərc. M.Mübariz*) 385
Vurursan, ey gözəlim, qəmzə oxları bu qədər
(*tərc. M.Mübariz*) 386
Ya Rəb, o bidərdin özün sal qəlbinə sevda qəmi
(*tərc. M.Mübariz*) 387
Keç özündən, ey könül, sən meyli-yar etsən əgər
(*tərc. M.Mübariz*) 388
Pərilər içrə qəsdi-can edən, evlər yıxan sənsən
(*tərc. M.Mübariz*) 389
Yad edincə bəzmini bir şam kimi canım yanar
(*tərc. M.Mübariz*) 390
Mənə rəhm eyləyib gəldin, rəva gördün sitəm, getdin
(*tərc. M.Mübariz*) 391
Cismimi bica deyil yandırdı şövqü bir gülün
(*tərc. M.Mübariz*) 392
Kuyu-yara meyl edib, ey göz yaşım, axdınsa gər
(*tərc. M.Mübariz*) 393
Nə deyib, neyləmişik, nə eşidib gördün, yar
(*tərc. M.Mübariz*) 394
Əgər sən həmnişin olsan gözəllərlə, könül, bir dəm
(*tərc. M.Mübariz*) 395
Yoxdur ay üzlüm mavi səmada bir qəmər
(*tərc. M.Mübariz*) 396
Könüldə gizli olan dərd odum alışmış əgər
(*tərc. M.Mübariz*) 397
Mənəm şeydası ol mahın, o məndən bir xəbər tutmaz
(*tərc. M.Mübariz*) 398

Ey sayə, mən tək gəzmədin səhraları avarə sən
(*tərc. M.Mübariz*) 399
Zülmət gecədə bizlərə rəhm eyləmədin, yar!
(*tərc. M.Mübariz*) 400
Hər gecə-gündüz könüldə, aylar, illər dildəsən
(*tərc. M.Mübariz*) 401
Göz yaşım ətrafıma dərya kimi çəkmiş hasar
(*tərc. M.Mübariz*) 402
Yusif hüsnündən utandı, mənzili çah oldu, çah
(*tərc. M.Mübariz*) 403
Bəsindir ey fələk etdin zəbunü xar məni
(*tərc. M.Mübariz*) 404
Bir baxışla qıymadın xoşhal ola bü binəva
(*tərc. M.Mübariz*) 405
Ləlində həyat suyu rəvandır
(*tərc. M.Mübariz*) 406
Ey könül, vəsf eylədin dilbərləri bunca, yetər
(*tərc. M.Mübariz*) 407
Saqiya, mey büsatını bağla
(*tərc. M.Mübariz*) 408

Qitələr
(*tərc. Ə.Vahid*) 411

Rübailər
(*tərc. M.Sultanov*) 435

MƏHƏMMƏD FÜZULİ

ƏSƏRLƏRİ

ALTI CİLDDƏ

III CİLD

“ŞƏRQ-QƏRB”

BAKI–2005

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Pərvanə Məmmədova*

Yığılmağa verilmişdir 19.10.2004. Çapa imzalanmışdır 20.04.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 29,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 86.

Kitab “PROMAT” mətbəəsində çap olunmuşdur.